

"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Ümummilli Lider Heydər Əliyev

**ÜLKƏR MƏMMƏDZADƏ**

# QAFQAZDA LİDERLİK QƏRİNƏSİ: HEYDƏR ƏLİYEV SİYASƏTİNİN DAVAMÇISI İLHAM ƏLİYEV

***Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunur***

Monoqrafiya Bakı Dövlət Universiteti
Tarix fakültəsi nəzdində ED 2.20
Dissertasiya Şurasının 17 iyun 2022-ci il tarixli
iclasının (07 saylı protokol) qərarı əsasında çap edilir.

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

**BAKI – 2023**

**Elmi redaktor:** ***İradə Hüseynova***
***tarix elmləri doktoru, professor***

**Rəyçilər:** ***Anar İsgəndərov***
***tarix elmləri doktoru, professor***

***İbrahim Zeynalov***
***tarix elmləri doktoru, professor***

***Şikar Qasımov***
***tarix elmləri doktoru, professor***

***Ülkər Məmmədzadə. Qafqazda liderlik qərinəsi: Heydər Əliyev siyasətinin davamçısı İlham Əliyev. Monoqrafiya.***
Bakı, "Zərdabi Nəşr" MMC, 2023, 240 səh.

*Monoqrafiya Qafqazda formalaşmış yeni geosiyasi şəraitdə Azərbaycanın yeri və rolundan, Azərbaycan Respublikasının bölgədə lider dövlətə çevrilməsində Prezident İlham Əliyevin Ümummilli lider Heydər Əliyevin təməl prinsipləri əsasında yürütdüyü çevik siyasətinə həsr olunmuşdur.*

*Tədqiqat əsərində həmçinin, Qafqaz bölgəsində yeni transmilli layihələrin həyata keçirilməsi, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi kontekstində, Qafqaz regionunda sülhün və sabitliyin təmin olunması və post-müharibə dövründə Qarabağda quruculuq işlərinin aparılmasında Prezident İlham Əliyevin rolu və xarici siyasət strategiyası çərçivəsində region dövlətləri ilə əməkdaşlıq, xüsusilə Türkiyə ilə müttəfiqliyinin möhkəmlənməsində, Azərbaycan-Rusiya strateji əməkdaşlığının formalaşmasında və Azərbaycan-Gürcüstan münasibətlərinin inkişafında İlham Əliyevin rolu məsələləri də araşdırılmışdır.*

*Monoqrafiyada əksini tapmış materiallardan və elmi nəticələrdən Azərbaycan diplomatlarının beynəlxalq aləmdəki praktiki fəaliyyətlərində, Azərbaycanın regiondakı fəaliyyət tarixinə dair ümumiləşdirilmiş əsərlərin yazılmasında, tarix və beynəlxalq münasibətlər ixtisasları üzrə tələbə, magistrantlar və doktorantların hazırlanması, dərslik, dərs vəsaitlərinin yazılması prosesində geniş şəkildə istifadə oluna bilər.*

*Monoqrafiya geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

**ISBN 978-9952-554-94-6**

**© Ülkər Məmmədzadə, 2023**
**© "Zərdabi Nəşr" MMC, 2023**



***"Azərbaycanın Prezidenti kimi mən çalışacağam ki, hər bir vətəndaş, hər bir şəxs bu böyük layihələrdən, Azərbaycanda gedən inkişafdan bəhrələnsin. Bu, mənim vəzifəmdir, mənim borcumdur. Mən də bu vəzifəni ləyaqətlə yerinə yetirəcəyəm".***

***İLHAM ƏLİYEV***
***AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ***

# AZƏRBAYCAN RESPUBLİKASINDA 2023-CÜ İLİN "HEYDƏR ƏLİYEV İLİ" ELAN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.



Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan–Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir.

Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1.Azərbaycan Respublikasında 2023-cü il “Heydər Əliyev İli” elan edilsin.

2.Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

***İLHAM ƏLİYEV***
***AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ***
***Bakı şəhəri, 29 sentyabr 2022-ci il***



## ÖN SÖZ

Monoqrafiya Azərbaycanın dünyada və regionda yeri və rolunun aydınlaşdırılması baxımından olduqca əhəmiyyətli və aktual elmi bir problemə həsr edilmişdir. Azərbaycanda müstəqil və güclü milli dövlətin mövcudluğu məhz Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi siyasət və uğurlu fəaliyyəti ilə sıx şəkildə əlaqəlidir. Bütün sahələrdə Heydər Əliyev irsinin layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu siyasi kursu keyfiyyətcə zənginləşdirərək davam etdirir.

Məlumdur ki, 2003-cü ildən başlayaraq Azərbaycanın həyatında yeni bir səhifə açılmışdır. Azərbaycanın iqtisadi tarixində müstəqilliyin son iyirmi illik periodu ən yüksək inkişaf dövrü hesab edilir. 2003-2023-cü illərdə Azərbaycan möhtəşəm nailiyyətlər qazanan, müstəqil beynəlxalq siyasət yürüdən, milli maraqlarını qətiyyətlə qoruya bilən, beynəlxalq aləmdə qüdrətli dövlət kimi öz yerini tutmuşdur. Bu illər ərzində Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin istismara verilməsi, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizinin yaranması, TAP və TANAP layihələrinin həyata keçirilməsi, Azərbaycanın Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, Qoşulmama hərəkatına üzv olması və sədrlik etməsi, Azərbaycanı Avroatlantik məkanda həm mühüm tranzit ölkəyə, həm nəhəng iqtisadi layihələrin təşəbbüsçüsünə və təşkilatçısına çevirməklə yanaşı, onları bacarıqla reallaşdıran etibarlı tərəfdaş kimi tanıtmışdır.

Xüsusilə, Azərbaycanın və regionun ən böyük problemi hesab edilən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin 44 günlük müharibə nəticəsində həll edilməsi ilə Azərbaycan Respublikasının Qafqazda öz liderlik mövqeyini daha da möhkəmləndirməsi və bütün bu proseslərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müstəsna rolunun və fəaliyyətinin müxtəlif aspektlərinin tədqiq edilməsini tarix elmi baxımından da xüsusi əhəmiyyətə malik hadisə kimi qiymətləndirmək olar.

Ülkər Kərim qızı Məmmədzadənin "Qafqazda liderlik qərinəsi: Heydər Əliyev siyasətinin davamçısı İlham Əliyev" adlı monoqrafiyası Azərbaycan tarixşünaslıq elminə mühüm töhfələrdən biridir. Gənc alimə gələcək elmi fəaliyyətində uğurlar arzu edirəm.

***İbrahim Zeynalov***
***tarix elmləri doktoru, professor***

# GİRİŞ

Azərbaycan xalqının təkidi ilə Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə yenidən siyasi hakimiyyətə qayıtmasından sonra ölkənin sosial, ictimai-siyasi, elmi-mədəni, iqtisadi həyatında və beynəlxalq əlaqələrində bir çox dəyişikliklik meydana gəldi, elmi əsaslar, beynəlxalq normalar və prinsiplərə müvafiq müstəqil dövlət strukturunun formalaşması prosesi başladı. Qanunvericiliyin təkmilləşdirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması, sosial-iqtisadi problemlərin həlli istiqamətində davamlı olaraq yeni və təxirəsalınmaz tədbirlərin həyata keçirilməsinə başlanıldı. Ulu öndər ölkədə azad, dünyəvi, hüquqi dövlətin əsasını qoydu və yürütdüyü ardıcıl islahatlarla Azərbaycan dövlətçiliyinin əsaslarını möhkəmləndirib inkişaf etdirməyə başladı.

Ümumiyyətlə, bir dövlətin və xalqın yüksək səviyyədə inkişafının ən vacib amillərindən biri taleyüklü dövrlərdə ona fenomenal özəlliklərə sahib olan liderin başçılıq etməsidir. 1993-cü ildən etibarən ümummilli lider Heydər Əliyevin ölkəni xilasetmə missiyası nə qədər vacib idisə, 2003-cü ildən sonrakı mərhələdə də bu missiyanın davam etdirilməsinə ehtiyac o qədər böyük idi. Hələ o zaman Heydər Əliyevdən sonra Respublikanın taleyinin nə cür olacağı haqqında düşünənlər də az sayda deyildi. Prezident İlham Əliyev Azərbaycanın dövlət başçısı seçildikdən sonra Ümummilli liderin yaratdığı inkişaf strategiyasını mükəmməl şəkildə davam etdirə biləcəyini, onu dövrün tələblərinə uyğunlaşdıra biləcəyini, Azərbaycanın sürətli inkişaf yolunda addımlamasına imkan yarada biləcəyini sübuta yetirdi. Ulu öndərin ciddi elmi təməllərə əsaslanan inkişaf strategiyasını inamla davam etdirən Prezident İlham Əliyev çox qısa bir zamanda Azərbaycanı Qafqaz regionunun ən intensiv inkişaf edən, dəyişməz və qüdrətli ölkəsinə çevirməyə nail oldu.

Müstəqil Azərbaycan artıq 20 ildir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə gələcəyə doğru uğurla irəliləyir. Onun rəhbərliyi ilə respublikamız dünyada dayanıqlı iqtisadiyyata və vacib geostrateji mövqeyə sahib olan bir ölkə kimi tanınır, Qafqaz regionunda özünə lider dövlət olaraq nüfuz əldə etmişdir. Qafqazın lider dövləti kimi Azərbaycan artıq bölgədə hadisələrin inkişafı yönümünü müəyyən edən aparıcı gücə malikdir və təsadüfi deyildir



ki, regiona iqtisadi və siyasi maraq göstərən dünya dövlətləri və beynəlxalq təşkilatlar Azərbaycanın mövqeyini nəzərə alaraq onunla hesablaşmağa vadar olurlar.

Azərbaycan II Qarabağ müharibəsindəki qələbəsindən sonra Cənubi Qafqaz regionunda yaranan yeni geosiyasi şərtlər çərçivəsində özünün liderlik mövqeyini daha da möhkəmlətmiş oldu. İlham Əliyev özünün liderlik keyfiyyətlərini və Azərbaycan Respublikasının Ali baş komandanı kimi professionallığını 2020-ci ilin 27 sentyabrında Ermənistanın növbəti təxribatlarına qarşı başlatdığı əks-hücum əməliyyatları – II Qarabağ müharibəsi zamanı bir daha sübut etmiş oldu. Məhz İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ordusu və Azərbaycan xalqı vahid şəkildə təşkilatlanaraq Vətən müharibəsində qələbə qazandı və 30 ilə yaxın müddətdə Ermənistan tərəfindən işğal edilmiş torpaqlarını geri qaytardı. Azərbaycanın tarixi qələbəsi eyni zamanda bütün regionda qüvvələr nisbətində dəyişikliklərə səbəb olaraq yeni geosiyasi vəziyyət yaratdı. 10 noyabr 2020-ci ildə imzalanan Azərbaycan, Rusiya və Ermənistan liderlərinin bəyanatı münaqişəyə son qoymaq niyyəti güdərək Azərbaycan və Ermənistan arasında, bütövlükdə isə bütün regionda kommunikasiyaların açılmasını nəzərdə tuturdu. Burada söhbət "3+3" formatında Azərbaycan, Ermənistan, Gürcüstan, Türkiyə, Rusiya və İran arasında regional əməkdaşlıqdan da gedir. Region ölkələri arasında bir sıra ziddiyyətlərin hələ də qalmağına baxmayaraq bu istiqamətdə müəyyən fəaliyyət də müşahidə edilməkdədir. İstənilən halda bu əməkdaşlıqda açar ölkə rolunu oynayacaq ölkə kimi Azərbaycanı göstərmək heç də səhv olmaz. Çünki Azərbaycan yerləşdiyi geosiyasi mövqe baxımından Şimal və Cənubun, Şərq və Qərbin qovşağında yerləşdiyindən indiki şəraitdə bu kommunikasiyaların açılması Azərbaycanın regiondakı liderlik mövqeyini daha da möhkəmlətməsinə səbəb olacaq əsas amillərdən olacaqdır.

Tam müstəqil siyasət yürüdən Azərbaycan dövləti beynəlxalq şəraitdən, dünyadakı maliyyə və iqtisadi böhranlardan asılı olmayaraq dinamik və hərtərəfli inkişaf edir, öz siyasi, sosial-iqtisadi qüdrətini artırır, dünyadakı mövqelərini daim möhkəmləndirir. Güclü iqtisadiyyat və sosial siyasət, vətəndaş cəmiyyətinin gücləndirilməsi, qanunun aliliyinin təmini, demokratiyanın inkişafı, siyasi islahatların həyata keçirilməsi və dərinləşdirilməsi – bunlar hamısı Azərbaycanın hərtərəfli inkişafı üçün mühüm amillərdir.

Monoqrafiyanın hazırlanması zamanı istifadə edilən ədəbiyyatları, nəzərdən keçirilən işləri bir neçə qrupa ayırmaq olar:

1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ulu öndər Heydər Əliyevin siyasi varisi olduğunu, həyata keçirdiyi siyasətin bütün istiqamətlərdə onun əsasını qoyduğu kursu davam etdirdiyini nəzərə alaraq monoqrafiya üzərində işləyərkən ilk növbədə Heydər Əliyevin şəxsiyyəti, həyatı və fəaliyyətinə həsr edilmiş əsərlərdən geniş istifadə edilmişdir. Bu qrupa ilk növbədə Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin Prezidenti olduğu müddətdəki çıxışları, nitqləri, bəyanatları, müsahibələri, məktubları, məruzələri, müraciətləri və fərmanlarını özündə ehtiva edən 46 cildlik "Müstəqilliyimiz əbədidir" çoxcildliyini aid etmək olar. Çoxcildliyin müxtəlif cildlərindən Ümummilli liderin fəaliyyətinin müxtəlif aspektləri təhlil edilərkən istifadə edilmişdir.[1]

Bu qrupa daxil olan tədqiqat işlərindən prof. İ.M.Hüseynovanın əsərləri öz aktuallığı ilə diqqəti cəlb edir. Belə ki, prof., İ.M.Hüseynova Heydər Əliyevin həyat və fəaliyyətini ən geniş və hərtərəfli tədqiq edən tədqiqatçılardan biridir, qeyd edilən mövzuda bir çox monoqrafiya, dərslik və kitabların müəllifidir.[2]

Onun monoqrafiyalarından biri olan "Müstəqil Azərbaycan dövlətinin qurucusu" əsəri müstəqil Azərbaycan dövlətinin yaradıcısı Heydər Əliyevin həm siyasi və həm də dövlətçilik fəaliyyətinin əsas aspektinin və mər-

[1] Əliyev H.Ə., Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr: [46 cilddə] / H.Ə.Əliyev. – Bakı: Azərnəşr, – c.1. – 1997. – 612 s.; Əliyev, H.Ə., Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr: [46 cilddə] / H.Ə.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. – 604 s.; Əliyev H.Ə., Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr: [46 cilddə] / H.Ə.Əliyev. – Bakı: Azərnəşr, – c.8. –1998. – 488 s.; Əliyev H.Ə., Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr: [46 cilddə] / H.Ə.Əliyev. – Bakı: Azərnəşr, – c.10. – 2002. – 472 s.; Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr: [46 cilddə] / H.Ə.Əliyev. – Bakı: Azərnəşr, – c.45. – 2013. – 384 s. və s.

[2] Hüseynova İ.M., Dövlətçilik naminə / İ.M.Hüseynova. –Bakı: Bakı Universiteti, – 2001. – 294 s.; Hüseynova İ.M., Heydər Əliyev və Qafqazda sülh prosesi / İ.M. Hüseynova. – Bakı: Çaşıoğlu, – 2008. – 672 s.; Hüseynova İ.M., Müstəqilliyimizin təminatçısı / İ.M.Hüseynova. – Bakı: Təhsil, – 2003. – 504 s.; Hüseynova İ.M., Müstəqil Azərbaycan dövlətinin qurucusu / İ.M.Hüseynova. – Bakı: Təhsil, – 2004. – 472 s.; Hüseynova İ.M., Tarix, zaman, düşüncələr: [5 cilddə] / İ.M.Hüseynova. – Bakı: Elm və təhsil, – c.1. – 2016. – 512 s.; Гусейнова, И.М. Гейдар Алиев – от политического руководителя к общенациональному лидеру / И.М.Гусейнова. –Баку: Тахсил, – 2005. – 504 с.



hələlərinin dolğun arxiv materiallarına əsaslanaraq araşdırılmasına həsr edilmişdir.[1]

2. Monoqrafiyanın hazırlanması zamanı istifadə edilmiş işlərin digər qrupunu AR Prezidenti İlham Əliyevin şəxsiyyəti və siyasi fəaliyyətinin öyrənilməsinə həsr edilmiş tədqiqat işləri təşkil edir. Bu qrupa daxil olan ən mühüm mənbə 2023-cü ilin iyun ayında artıq 126-cı cildi nəşr edilən və AR Prezidenti İlham Əliyevin çıxışları, nitqləri, bəyanatları, müsahibələri, məktubları, məruzələri və müraciətlərindən ibarət olan "İnkişaf-məqsədimizdir" çoxcildliyi təşkil edir.[2] Bu çoxcildliyin sonuncu cildlərindəki materiallar II Qarabağ müharibəsindən sonrakı dövrü əhatə edir və bu baxımdan həmin istiqamətdə son hadisələrin araşdırılmasında əvəzsiz mənbə rolunu oynayırlar.

Bu qrupa daxil olan tədqiqat işlərindən biri də Q.M. Paşayevin "Xilaskarlar" adlı monoqrafiyasıdır.[3] Q. Paşayev bu əsərində azərbaycançılıqdan ictimai-siyasi müstəvidə bəhs edərək, Ümummilli lider Heydər Əliyev və AR dövlət başçısı İlham Əliyevin uğurlu dövlətçilik fəaliyyəti və ölkəmizə qazandırdıqları çoxistiqamətli qələbələrin timsalında onların Azərbaycan xalqının tarixində xilaskarlıq missiyasını həyata keçirmələrini ətraflı şəkildə diqqətə çatdırmışdır. Ümumilikdə, qeyd etmək olar ki, bu kitabda Ümummilli lider Heydər Əliyev və Azərbaycan Respublikasının prezidenti İlham Əliyev epoxası ümumiləşdirilərək, vahid bir bütövün hissələri olaraq göstərilmişdir.

Bu qrupa daxil olan işlərin növbəti və yeni istiqamətini II Qarabağ müharibəsində Ali Baş Komandanımız İlham Əliyevin başçılığı və səyləri nəticəsində Azərbaycanın 30 ilə yaxın hökm sürən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ konfliktində qələbə qazanması və işğal altında olan torpaqlarını azad etməsinə həsr edilmiş müxtəlif əsərlər təşkil edir. Belə ki, 2021-ci il bu baxımdan səmərəli olmuş, həm II Qarabağ müharibəsinin, həm də 44 günlük Vətən müharibəsi zamanı İlham Əliyevin fəaliyyətinin müxtəlif

[1] Hüseynova İ.M., Müstəqil Azərbaycan dövlətinin qurucusu / İ.M.Hüseynova. – Bakı: Təhsil, – 2004. – 472 s.

[2] Əliyev İ.H., İnkişaf – məqsədimizdir: [113 cilddə] / İ.H. Əliyev. –Bakı: Azərnəşr, – c.8. – 2011. – 408 s.; – c.106. – 2020. – 392 s.; – c.107. – 2021. – 392 s. və s.

[3] Paşayev Q.M., Xilaskarlar /Q. Paşayev. – Bakı: Təhsil, – 2021. – 135 s.

aspektlərini dərindən təhlil edən bir çox əsər nəşr edilmişdir. Bu mövzunu tədqiq edən müəlliflərdən Y.M.Mahmudov, B.Y.Sadıqov, E.Əzizov, S.Heydərova, E.Şahinoğlu və digərlərini göstərmək olar.[1]

3. Nəzərdən keçirilmiş tədqiqat işlərinin üçüncü qrupuna beynəlxalq münasibətlər, beynəlxalq və regional siyasət, Qafqazda geosiyasi vəziyyət, Azərbaycan Respublikasının xarici siyasəti və region ölkələri ilə qarşılıqlı münasibətləri, Xəzərin statusu ətrafında diplomatik mübarizə, Azərbaycan neft strategiyası və s. kimi mövzulara həsr edilmiş və monoqrafiyada elmi-nəzəri mənbə kimi istifadə edilən işlər daxildir.

Monoqrafiya elmi-tarixi aspektdən mühüm əhəmiyyət kəsb edir və elmi yenilik səciyyəsi daşıyır. Monoqrafiyanın strukturu giriş, paraqraflara bölünmüş dörd fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

[1] Heydərova S., Azərbaycanın dövlət siyasətində Qarabağa aparan yol [Mətn] /S. Heydərova. – Bakı: Elm və təhsil, – 2021. – 119 s.; Sadıqov, B.Y. Xilaskar İlham Əliyev /B. Y.Sadıqov. – Bakı: Hədəf Nəşrləri, – 2021. – 317 s.; Şahinoğlu, E. Dəmir yumruq /E. Şahinoğlu. –Bakı: Qanun, – 2021. – 279 s.; Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru: 27 sentyabr – 10 noyabr 2020-ci il / layihənin rəhbəri E. Əzizov. – Bakı: Şərq-Qərb, - 2021. – 442 s.



# I FƏSİL

# AZƏRBAYCAN RESPUBLİKASININ QAFQAZDA LİDER DÖVLƏTƏ ÇEVRİLMƏSİNİN ƏSASLARI

## §1.Azərbaycanın regional liderliyi və İlham Əliyev şəxsiyyəti

Tarixdə bir sıra regional və qlobal miqyasda olan dövlətlər lider statusuna iddia etmişdi. Əsas problem onların "lider dövlət" anlayışına nə dərəcədə uyğun gəlib-gəlməməsi olmuşdur. Çünki müəyyən bir dövlətə aid edilən "lider" statusunun subyektiv komponenti həmişə mövcuddur. Hər hansı bir dövlətin liderliyi onun bu statusunun digər dövlətlər tərəfindən tanınmasını tələb edir, yəni bu tanıma həmin dövlətin öz resurslarından (məsələn, güc və ya iqtisadi) mühüm qlobal və regional inkişaf məqsədlərinə nail olmaq üçün beynəlxalq hüquqa və dünyadakı xüsusi vəziyyətlərə uyğun olaraq istifadə etmək hüququ ilə beynəlxalq birlik üzvlərinin razılaşmasını nəzərdə tutur.

Regional liderlik problemi siyasi elmin inkişafının ilkin mərhələlərində artıq mövcud idi. Lakin soyuq müharibə dövründə ikiqütblü sistemdə faktiki olaraq iki fövqəldövlətin birmənalı hegemonluğu səbəbindən regional gündəmi bərabərləşərək bu istiqamətdə hər hansı düşüncələr sıradan çıxmışdı. Aydındır ki, regional liderlik statusu, onun formalaşma prosesi və bu "titulu"n meyarları ilə bağlı məsələlər beynəlxalq münasibətlərin indiki, postbipolyar sistemində həmişəkindən daha aktuallaşmış vəziyyətdədir.

Beynəlxalq münasibətlərin, eləcə də ictimai-siyasi həyatın digər sahələrinin universallaşmasına və unifikasiyasına yönəlik kurs açıq şəkildə əks reaksiyaya - milli və regional icmaların öz unikallığını və identikliyini ifadə etmək istəyinə, beləliklə də siyasi həyatlarını hakim Qərb, liberal-demokratik nümunələr üzrə qurmaq istəməmələrinə səbəb oldu.[1] Həmçinin regional siyasətin qlobal beynəlxalq münasibətlərə yuxarıda qeyd olunan təsirinin dərk edilməsi regional lider statusuna iddiaçı dövlətlərə hər iki səviyyədə öz təsir imkanlarını artırmaq üçün bu siyasi rıçaqı sınaqdan keçirməyə imkan verdi.

[1] Хантингтон, С. Столкновение цивилизаций / С. Хантингтон. – Москва: Издательство АСТ, -2020. – 640 с.; Фукуяма, Ф. Идентичность: стремление к признанию и политика неприятия / Ф. Фукуяма. – Москва: Альпина Паблишер, – 2019. – 256 с.

Beynəlxalq münasibətlərdə potensial və faktiki regional liderləri müəyyən etmək, eləcə də dövlətlərin regional təsiri ilə bağlı prosesləri proqnozlaşdırmaq və nəzarət etmək üçün vahid meyar müəyyən edilməmişdir. Onu da qeyd lazımdır ki, müasir çoxqütblü sistemdə regional liderliyin tədqiqi onun strukturları və aktorları arasında çoxlu sayda qarşılıqlı əlaqə səbəbindən bu sistemin mürəkkəbliyinin tələblərinə cavab verməlidir. Buna görə də, H.Ebert və D.Flemesin fikrincə, regional liderliyin kompleks konsepsiyası ən uyğundur. Bu konsepsiya bir sıra liderlik meyarlarının fərqləndirilməsini nəzərdə tutur və bir meyar üzrə bu və ya digər ölkənin yüksəlişi, digər meyara görə isə mövqelərin itirilməsi imkanlarını əks etdirir.[1]

D.Bolduin bu istiqamətdə liderliyin təhlilini davam etdirərək regional liderliyin ölçülməsinin əsas "kəmiyyətləri"ni ayırmışdır.[2] Onun müəyyənləşdirdiyi kəmiyyətlər aşağıdakılar idi:

1. Miqyas – burada potensial lider dövlətin dominantlığının hiss olunduğu sahələrin (iqtisadiyyat, təhlükəsizlik, mədəniyyət və s.) sayı nəzərdə tutulur;

2. Təsir səviyyəsi – burada aktorun digər aktorlara (regional, qlobal və s.) təsir səviyyəsi müəyyən edilir;

3. "Çəki" – burada aktorun gücünün əhəmiyyətini təsvir edilir (öz iradəsini başqalarının iradəsinə qarşı tətbiq etmək bacarığı);

4. "Qiymət" – bu, bir aktorun digər aktorların razılığı və güzəştinə nail olmaq üçün ödəməyə hazır olduğu və qadir olduğu "qiymət" (resurslar, siyasi jestlər və s.) deməkdir.

5. Vasitələr (alətlər) – o cümlədən simvolik ("yumşaq güc"), iqtisadi, hərbi, diplomatik və hakimiyyət və beynəlxalq təsirin həyata keçirilməsinin digər üsullarını əhatə edir.

D.Flemes və D.Noltenin birgə tədqiqatında regional liderlik uğrunda mübarizədə iştirak etmək üçün zəruri olan regional güc statusunun meyarlarını müəyyən edirlər.[3] Onların fikrincə, regional güc:

---

[1] Ebert H., Flemes D. Rethinking Regional Leadership in the Global Disorder // Rising Powers Quarterly. – 2018.–№ 1 (Vol. 3). – P. 7-23.
[2] Yenə orada.
[3] Regional Leadership in the Global System Ideas, Interests and Strategies of Regional Powers / ed. by D. Flemes. – L.: Routledge, 2010. – 406 p.



1. Coğrafi olaraq müəyyən edilmiş regionun bir hissəsidir;

2. Lider rolunu öz üzərinə götürməyə hazırdır;

3. Regionu qlobal səviyyədə təmsil etmək üçün zəruri maddi və ideoloji potensialı nümayiş etdirir;

4. Regional siyasətə böyük təsir imkanına malikdir.[1]

Həmçinin, müxtəlif növ regional dövlətlərin müəyyənləşdirilməsi və təsnifatı üçün meyarlar kimi aşağıdakılar təklif olunur: ölkənin və regionun iqtisadi, siyasi və mədəni qarşılıqlı əlaqəsi, regionun kollektiv faydalarla təmin edilməsi, ölkədə "liderlik layihəsi"nin olması və bu liderliyin potensial izləyicilər tərəfindən tanınması.

Azərbaycan Respublikasının Qafqazda lider dövlətə çevrilməsi prosesi və bu liderliyin yuxarıda göstərilmiş meyarların hər birinə uyğunluğu növbəti fəsil və yarımfəsillərdə ətraflı şəkildə təhlil ediləcəkdir. Ümumi şəkildə onu qeyd etmək olar ki, Azərbaycan Respublikasının Qafqazda regional liderliyi göstərilmiş meyarların tələblərinə cavab verir, hər bir bəndi mövcud statistik göstəricilər və regionda baş verən siyasi hadisələr vasitəsilə sübuta yetirə bilirik. Belə ki, Azərbaycan Respublikası öz göstəricilərinə görə digər dövlətlərlə müqayisədə bütün sahələrdə – iqtisadiyyat, təhlükəsizlik, mədəniyyət, hərbi güc və s. sahələrdə regionun lideridir. Regionda sülh və sabitliyin yaranması və qorunmasında açar rol məhz Azərbaycana məxsusdur. Azərbaycan Respublikası Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini II Qarabağ müharibəsi nəticəsində hərbi güc yolu ilə həll edərək əslində BMT TŞ-nin münaqişə ilə bağlı qəbul etdiyi qətnamələri təkbaşına yerinə yetirmiş, beynəlxalq hüquq normalarına əsasən öz ərazi bütövlüyünü bərpa etmiş, regionun təhlükəsizliyinə ən böyük təhdid olan münaqişənin aradan qaldırılması üçün böyük addımlar atmış, müharibənin başa çatmasından bu günə qədərki dövrdə isə regionda davamlı sülhün əldə olunması yolunda Ermənistan dövləti ilə danışıqlar apararaq yekun sülh müqaviləsinin imzalanması üçün bütün resursları ilə çalışmaqdadır.

---

[1] Regional Leadership in the Global System Ideas, Interests and Strategies of Regional Powers / ed. by D. Flemes. – L.: Routledge, 2010. – 406 p.

- 30414 -
Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi PREZİDENT KİTABXANASI

Azərbaycanın Qafqazda liderliyinin xüsusiyyətlərinin daha dərindən təhlil edilməsi üçün Qafqaz regionunun ümumi mənzərəsinin nəzərdən keçirilməsini məqsədəuyğun hesab etmək olar.

Belə ki, Qafqaz regionuna coğrafi baxımdan qərbdə Qara dəniz və Azov dənizləri, şərqdə Xəzər dənizi, şimalda Maniç çayı və bataqlıqları, cənubda İran və cənub-qərbdə Türkiyənin olduğu bir sahə daxildir. Ticarət və miqrasiya yolları üzərində yerləşən Qafqaz müxtəlif mədəniyyətlərin bir araya gəldiyi çox əhəmiyyətli bir tranzit nöqtəsi üzərindədir. Avrasiyanın ən əhəmiyyətli hissələrindən birində yerləşən Qafqaz Şərqlə Qərb arasında körpü təşkil edərək, iqtisadi və siyasi baxımdan bütün dünyanın diqqətini cəlb edir, eyni zamanda daima güc mübarizələri üçün səhnə də olmuşdur.[1] Bu baxımdan Qafqaz tarix boyu şərqlə qərb, şimalla cənub arasında mühüm bir dəhliz rolunu oynamışdır.

Region nisbi olaraq Şimali və Cənubi Qafqaz kimi iki yerə ayrılır. Şimali Qafqaz regionu Qaraçay-Çərkəz, Kabardin-Balkar, Çeçenistan, İnquşetiya, Dağıstan, Osetiya, Adıgey və Abxaziyadan ibarətdir. Cənubi Qafqaz və ya Zaqafqaziya, Qara dənizin şimal-şərqindən etibarən Azov dənizi və Bakının içərisində olduğu marşrut boyunca qərbdə Türkiyənin, şərqdə Xəzər dənizinin, cənubda İranın yerləşdiyi ərazidə Azərbaycan, Ermənistan və Gürcüstan dövlətlərini əhatə edir.[2]

Cənubi Qafqaz regionu geostrateji baxımdan Mərkəzi Asiyaya giriş qapısı kimi qəbul edildiyi və Asiya ilə Avropa arasında tranzit ticarət yollarının kəsişməsində yerləşdiyi üçün tarix boyu öz əhəmiyyətini qoruyub saxlamışdır. Bundan əlavə regionun zəngin neft və təbii qaz ehtiyatlarına malik olması onun əhəmiyyətini daha da artırır. Məlum olduğu kimi dünya neft ehtiyatlarının 4 %-i, təbii qaz ehtiyatlarının isə 6 %-i Xəzər dənizindədir. Azərbaycanın da neft hasilatı və ixracının 75%-i Xəzər dənizindən çıxarılır.[3] Azərbaycan, Ermənistan və Gürcüstan marşrutunun enerjinin Qərbə

[1] Kantarci H., Kıskaçtaki Bölge Kafkasya / H.Kantarci. – İstanbul: IQ Kültür Sanat Yayıncılık, 2006, s.3.

[2] Alpargu Ş., Şahin E., Sovyet Rusya'nın Dağılmasından Sonra Kafkasya'da Kimlik Problemi // – Akademik İncelemeler, – 2007. Cilt:2, Sayı:1, – s.326-345, s.334.

[3] Dikkaya M., Tiğli A., Güney Kafkasya Enerji Koridoru, Alternatif Projeler Kapsamında, TANAP // – Gaziosmanpaşa Üniversitesi Sosyal Bilimler Araştırmaları Dergisi, – 2015. №10/1, – s.99-117, s.110.



nəqli üçün dəhliz, eləcə də Mərkəzi Asiya üçün ixrac marşrutu olması XXI əsrin əvvəllərindən bu günə qədər regionda əlavə bir mübahisə meydanı yaranmasına səbəb olmuşdur.

Beləliklə, Azərbaycan Respublikası məhz belə bir regionda - zəngin tarixə və mürəkkəb geosiyasi şəraitə malik olan Qafqaz regionunda yerləşir. Yerləşdiyi coğrafi mövqe tarix boyu ona həm üstünlüklər gətirmiş, həm də bir çox problemlərlə qarşılaşmasına səbəb olmuşdur. 1991-ci ilin 18 oktyabrında öz müstəqilliyini bərpa etmiş Azərbaycan ilk illərdə çoxsaylı çətinliklərlə qarşılaşmış, yarıtmaz siyasət və səriştəsiz idarəçilər sayəsində ölkədə vətəndaş müharibəsi vəziyyəti yaranmış, dövlətimiz, hətta bir neçə yerə parçalanaraq öz müstəqilliyini itirmək həddinə qədər gəlib çıxmışdır.

Məlum olduğu kimi, Azərbaycan dövlətini düşdüyü böhranlı situasiyadan Azərbaycan xalqının Ümummilli lideri, dünya səviyyəli siyasətçi və strateq, təcrübəli dövlət xadimi Heydər Əliyev xilas etmişdir. O, xalqın tələbi ilə 1993-cü ilin 15 iyununda müstəqil Azərbaycanda hakimiyyətə qayıdaraq qısa bir müddətdə ölkədə bütün sahələrdə hökm sürən böhranı aradan qaldırmış, formalaşdırdığı milli inkişaf strategiyasının həyata keçirilməsi sayəsində bütün sahələrdə inkişafa nail olunmuşdur. Heydər Əliyevin bütün sahələrdə əsasını qoyduğu siyasət onun layiqli siyasi varisi İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilmiş və məhz İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan Respublikası regionda və dünyada öz nüfuzunu artıraraq Qafqazda lider dövlətə çevrilmiş və bu mövqeyini uzun illər ərzində qoruyub saxlamaqdadır.

2003-cü il oktyabrın 15-də Azərbaycan xalqı Heydər Əliyev siyasətinin davam etdirilməsinə, ölkədə sabitliyin qorunması və dinamik inkişafın təmin edilməsinə səs verərək tarixi seçim etdi. Ulu öndər Heydər Əliyev 2003-cü ilin oktyabrın 1-də Azərbaycan xalqına müraciətində İlham Əliyevin prezidentliyə namizədliyi, özünün layiqli siyasi varisi olduğu barədə söyləmişdi: "*Sizə - həmvətənlərimə müraciət edərək, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, YAP sədrinin birinci müavinini dəstəkləməyə çağırıram. O, yüksək intellektuallı, enerjili və təşəbbüskar bir şəxsiyyət olmaqla yanaşı praqmatik təfəkkürə malikdir və müasir dünya siyasəti və iqtisadiyyatını yaxşı bilir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da*

*öz ətrafında xalqımızın layiqli övladlarını birləşdirərək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı üçün çox işlər görəcəklər. İnanıram ki, Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev mənim tamamlaya bilmədiyim taleyüklü məsələləri, planları, işləri başa çatdıra biləcək. Mən ona özüm kimi inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".*[1] Bu tarixi çağırış, əslində, Azərbaycan dövlətinin və xalqının gələcək taleyini həll edən bir çağırış idi. Xalqımız bu çağırışı yüksək qiymətləndirmiş və gələcək taleyini Ümummilli Liderin ən layiqli davamçısı İlham Əliyevə həvalə etmişdir.

Tədqiqatçı alim E.Axundova özünün "Dəyişikliklər fonunda prezidentin portreti" adlı kitabında İlham Əliyevin şəxsiyyəti barədə yazır: *"Bu lider uğurlu siyasətçinin simasını müəyyən edən əsas xüsusiyyətlərin xoşbəxt birləşməsinə sahibdir: dərin intellektual potensial, geniş və müxtəlif yönlü bilik, analitik təfəkkür, güclü siyasi iradə, uzaqgörənlik bacarığı və islahatlar strategiyasına istiqamətlənmə. O, dəyişiklik enerjisi ilə doludur və bu enerjisi bütün komandasına sirayət edir. O, öz ölkəsini sonsuz dərəcədə sevir və onun daha gözəl, daha zəngin, daha nüfuzlu, daha güclü etməyə çalışır. Bu xarizmatik lider digər siyasətçilərin bir neçə onillikdə belə edə bilmədiyini 10-12 ildə etməyi bacarmışdır. O, xalqının özünü qiymətləndirməsini yüksəltdi. O, dəfələrlə bizdə millətimizə mənsub olmaqdan, Azərbaycanda görülən işlərdən qürur hissi keçirməmizə səbəb olmuşdur. Bu siyasətçi isə həmimiza əsl, bəlkə də sakit, lakin o qədər də fəal vətənpərvərlik nümunəsini göstərir".*[2]

Ümumiyyətlə, bir çox hallarda insanın uğurunun açarı, onun şəxsiyyət kimi formalaşmasında etibarlı köməkçi kimi onun ailəsi çıxış edir. Bu baxımdan Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin taleyi uğurlu olmuşdur. Çünki Azərbaycan dövlətinin gələcək başçısı ziyalı ailəsində, cəmiyyətdə nüfuzu olan, hər bir kəsin tanıdığı, hörmət etdiyi insanların əhatəsində böyümüşdür. Atası Heydər Əliyevin SSRİ-nin tanınmış və hörmətli rəhbərlərindən biri olması onun uşaqlıqdan bu sahədə təcrübə qa-

---

[1]Əliyev, H.Ə. Azərbaycan xalqına müraciət: [Elektron resurs]. – Oktyabr 1, 2003/ URL: https://lib.aliyevheritage.org/az/6077283.html.

[2] Ахундова, Э. Ильхам Алиев. Портрет президента на фоне перемен / Э.Ахундова. – Москва: РОССПЭН, – 2016. – 333 с.



zanmasına səbəb olmuşdur. Ulu öndər Heydər Əliyevin şəxsiyyəti daima onun siyasi varisi İlham Əliyev üçün mayak olmuşdur. İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 20 il ərzində gördüyü işlər Ümummilli Liderin siyasi kursunun davamı, onun reallaşdıra bilmədiyi arzularının təcəssümü olmuşdur.

Bu illər ərzində Prezident İlham Əliyev dövlətinin lideri kimi ölkə və cəmiyyət həyatının müxtəlif sahələrində saysız-hesabsız yeniliklər gətirmişdir. Onlar siyasət, iqtisadiyyat, ordu quruculuğu, diplomatiya, sosial sahə, elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ailə dəyərlərinin qorunması, yeni infrastrukturun yaradılması, yol tikintisi, bir sözlə, bütün sahələrdə özünü göstərmişdir. Bütün bunlar isə son nəticədə ölkənin inkişafı və Azərbaycanın firavan, qüdrətli, nüfuzlu və lider dövlətə çevrilməsinə gətirib çıxarmışdır.

Ümumiyyətlə, lider eyni zamanda cəmiyyətdə mənəvi birliyi təmin edən, müvafiq əhval-ruhiyyənin, dəyərlər sistemi və ideologiyanın yaranıb inkişaf etməsinə öz təsirini göstərən mühüm qüvvədir. Bir xalqın, millətin lideri birinci növbədə insanların ortaq ideya, prinsip, məqsəd ətrafında birləşməsini təmin edə bilməlidir. Ulu öndərin təkmil bir ideologiya olaraq formalaşdırdığı azərbaycançılıq ideologiyasının əsasında dayanan prinsipləri - dövlətçilik, vətənpərvərlik, ənənələrə bağlılığı günümüzdə də Azərbaycan xalqının milli birliyinin əsas təminatçısı kimi qiymətlədirmək olar. Həmin prinsiplərə sadiq olduğunu öz fəaliyyəti ilə sübut edən dövlət başçısı İlham Əliyev bununla həm də Heydər Əliyev ideyalarının layiqli siyasi varisi olmasını göstərir. O, eyni zamanda yeniliklərə tez uyğunlaşması bacarığı, dəyişkən qlobal və regional şərtlərdə AR-in sabit milli maraqlarını müdafiə edə bilmək qabiliyyəti ilə özünü əsl siyasi lider olaraq sübuta yetirmişdir.

Klassik liderlik konsepsiyasının nəzərdə tutduğu, eləcə də müasir liderlərə qarşı irəli sürülən tələblər baxımından yanaşdıqda Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin mənəvi və siyasi simasında əsl liderin bütün cizgilərinin təcəssüm olunduğunu aydın şəkildə müşahidə etmək olar. İlham Əliyevin siyasi portretinə xas olan ən vacib xüsusiyyət onun vətənpərvər və qurucu lider olmasıdır. [1]

---

[1] Qonaqov R., Mirbəşir oğlu E. İlham Əliyev-müasir demokratik siyasi lider obrazı: [Elektron resurs]. – Dekabr 24, 2015/ URL: https://modern.az/az/news/92312/ilham–eliyev–muasir–demokratik–siyasi–lider–obrazi

Adətən insan müəyyən fəaliyyət sahəsində ortaq məqsədlərə nail olunması yönündə öz üzərinə məsuliyyət götürərək yanındakıların onu lider olaraq qəbul etməsini şərtləndirir. Buna görə də bir çox hallarda liderlik müəyyən bir fəaliyyət sahəsinə sığdırılaraq onun miqyasının həddi görünür. İlham Əliyevin liderliyi ilə bağlı bu miqyasın sərhədlərinin müəyyənləşdirilməsi qeyri-mümkündür. Çünki o, dünyadakı liderlər arasında çox nadir olanlardandır ki, siyasi portretinin çərçivəsinə siyasi, hərbi, mənəvi lider obrazları yerləşdirmək olur. Bu, onu göstərir ki, İlham Əliyevin bir şəxsiyyət kimi kompleks potensialı həyat fəaliyyətinin bütün sahələrində onun öz üzərinə məsuliyyət götürməsinə imkan verir. Onun üzərində ilk növbədə dövlətin məsuliyyəti var, bundan başqa isə İlham Əliyev qlobal məsələlərdə də ciddi təsir imkanlarına malikdir. Ümumiyyətlə, tarixi təcrübəyə əsasən demək olar ki, müəyyən bir ölkənin rəhbəri olmaq heç də hər zaman onun lideri hesab edilməyə bilər. Belə ki, bir sıra vəziyyətlərdə bir dövlətin başçısı həmin ölkənin məsuliyyətini ya tamam daşıya bilmir və yaxud da qismən daşıyır. Bu zaman həmin siyasi aktorların qlobal proseslərə təsir edə bilmələrindən söz açmaq mümkün olmur.

Beləliklə, qloballaşmanın ictimai fəaliyyətin hər bir sahəsini sürətlə öz əhatəsinə aldığı, dünyanın bütün xalq və dövlətləri arasında qarşılıqlı əlaqə və asılılıq meyillərinin artdığı müasir dövrümüzdə siyasi liderin keyfiyyətlərini əks etdirən başlıca məqam onun öz dövlətinin məsuliyyətini daşımaqla yanaşı, eyni zamanda dünyada baş verən qlobal hadisələrdə də aktivlik nümayiş etdirmək qabiliyyəti ilə əlaqəlidir. İlham Əliyev heç bir halda Azərbaycanın milli mənafeləri ilə bağlı məsələlərdə güzəşt etməməyi seçməklə, dövlətin məsuliyyətini dəqiqliklə idrak etdiyini və həmin məsuliyyəti layiqli şəkildə daşımağı özünün həyat kredosu olaraq müəyyən etdiyini sübuta yetirir.

Bundan başqa siyasi lider olaraq İlham Əliyev siyasi portretinin ən görünən və ən əhəmiyyətli cizgilərindən biri fəaliyyətinin bütün istiqamətlərində sistemlilik prinsipinə riayət etməsidir. Bu, İlham Əliyevi bir lider kimi digər ölkə liderlərindən fərqləndirən əsas xüsusiyyətlərdəndir. Azərbaycan Respublikasının qarşısına qoyduğu ümummilli məqsədlərə tez bir zamanda nail olunması şərtlərindən biri də dövlət başçısının məhz bu keyfiyyətidir. Mövcud problemlərin və ona müvafiq olaraq da məqsədlərin dəqiq formada



müəyyən edilməsi, düzgün yanaşma metodunun sərgilənməsi və işlək mexanizmlərin tətbiqi İlham Əliyevin fəaliyyətində bir dövlət başçısı və siyasi lider olaraq əsas prinsipləridir.[1]

İlham Əliyevin liderlik xüsusiyyətlərinin təhlilini apararkən liderlik institutunun ortaya çıxmasına tamamilə fərqli baxış bucağının ortaya qoyulması və mövcud stereotiplərdən kənara çıxmanın zəruriliyi asanlıqla müəyyənləşdirilə bilər. Belə ki, bir şəxsin konkret amillərin təsirində və müəyyən şəraitdə xüsusi qabiliyyətlər əldə edərək liderə çevrilməsini əsaslandıran baxış bucağı əksəriyyət tədqiqatçılar tərəfindən dəstəklənir. Lakin tarixdə dünyaya elə azsaylı liderlər gəlir ki, onlara xas olan keyfiyyətlər hər hansı bir amilin və ya mühitin təsiri altında formalaşmır. Belə liderlərə xas olan keyfiyyətlərin mənbəyi təbiət olur. Nümunə olaraq, iki əsrin dahisi adlandırılan Uulu öndər Heydər Əliyev ona xas olan liderlik keyfiyyətlərini sonradan qazanması qeyri-mümkündür. Heydər Əliyev məbhz lider olaraq doğulmuş və ona məxsus unikal liderlik keyfiyyətləri eyni zamanda İlham Əliyevə də miras qalmışdır. Bu məqamı nəzərə alaraq "dahi lider" və "lider" anlayışları arasında mövcud olan sərhədləri müəyyən etməyə cəhd götərmək olar. Belə ki, konkret amillərin təsiri ilə liderə çevrilmək mümkündür. Dahi lider olmaq üçün isə bir şəxsiyyət yalnız belə doğulmalıdır.

İlham Əliyev həm lider olaraq doğulmuş, həm də bu liderlik xüsusiyyətlərini müasir dövrün reallıqlarına uyğunlaşdıraraq təkmilləşdirmiş və nəticədə yeni lider obrazını formalaşdırmışdır. Politoloqlar R.Qonaqov və E.Mirbəşiroğlunun fikrincə, *"uzun illər boyunca bir çox tədqiqatçıların üzərində düşündüyü "lider doğulur, yoxsa sonradan formalaşır" sualına artıq cavab tapılmışdır. Həm lider kimi anadan olmaq olar, həm də sonradan lider olaraq formalaşmaq olar. Sadəcə, lider kimi anadan olanlar eyni zamanda dahilik zirvəsinə çata bilir".*[2]

İlham Əliyev bir lider olaraq dünyada və regionda baş verən dəyişikliklərə diqqətli şəkildə yanaşaraq onlara adekvat cavab reaksiyası göstərmək

---

[1] Qonaqov R., Mirbəşir oğlu E., İlham Əliyev-müasir demokratik siyasi lider obrazı: [Elektron resurs]. – Dekabr 24, 2015/ URL: https://modern.az/az/news/92312/ilham-eliyev-muasir-demokratik-siyasi-lider-obrazi-

[2] Qonaqov R., Mirbəşir oğlu E., İlham Əliyev-müasir demokratik siyasi lider obrazı: [Elektron resurs]. – Dekabr 24, 2015/ URL: https://modern.az/az/news/92312/ilham-eliyev-muasir-demokratik-siyasi-lider-obrazi-

bacarığı vardır, onun yaranacaq müxtəlif vəziyyətlərə müvafiq davranış strategiyası daima mövcuddur. AR Prezidenti baş verən proseslərin xüsusiyyətlərinə əsaslanaraq eyni səviyyədə preventiv davrandığı kimi, eyni zamanda situativ formada da davranmağı bacarır və qeyd edilmiş xüsusiyyət müasir liderlərə xas olan çox nadir xüsusiyyətlərdən hesab edilir. Müasir liderlərin böyük çoxluğundan İlham Əliyevi fərqləndirə biləcəyimiz əsas cəhətlərdən biri də onun tam müstəqil və qətiyyətli olmasıdır. O, bütün maneələrə və ətraf təsirlərə qarşı daima inamla, qətiyyətlə öz qarşısına qoyduğu məqsədlərə, Azərbaycan xalqı və dövlətinə aid olan milli maraqların ən yüksək səviyyədə təmin və müdafiə olunmasına doğru gedir. Bundan başqa İlham Əliyev Azərbaycan cəmiyyətinin üzvlərini, Azərbaycan xalqını ümumi məqsədlərə çatmaq yönündə səfərbər etməyi bacarır və bu məqsədlə stimullaşdırma mexanizmlərini doğru şəkildə müəyyənləşdirib müvəffəqiyyətlə tətbiq edə bilir. Bu da onu müasir harizmatik lider olaraq nəzərdən keçirməyə imkan verən mühüm keyfiyyətlərdən biri kimi çıxış edir.

Siyasi lider və dövlət başçısı olaraq İlham Əliyev mövcud olan streotiplərə boyun əyməyərək sübuta yetirmişdir ki, heç bir həyat fəaliyyəti sahəsində çıxılmaz situasiya mövcud ola bilməz. Hər bir çətinlikdən, mürəkkəb vəziyyətdən bir çıxış yolu tapıla bilər. İlham Əliyev bu cür situasiyalarda ən optimal həll yolunu müəyyən edə bilmək qabiliyyəti kimi az rast gəlinən keyfiyyətə sahib olaraq bütün sahələrdə Azərbaycan xalqının ona tamamilə etimad və inam göstərməsinə nail olmuşdur.

Yuxarıda qeyd olunduğu kimi, günümüzdə əsl lider həm öz ölkəsini, həm də dünyanı dəyişdirməyi bacaran şəxsiyyətdir. Belə ki, İlham Əliyev Azərbaycana rəhbərliyi dövründə dövətimizin simasının kökündən dəyişməsinə nail olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanın siyasi sisteminə mütərəqqi, pozitiv, milli məqsədlərə xidmət edən, siyasi realizmə, məntiqi mühakimə və təhlillərə əsaslanan rasional siyasi davranış modelini, siyasi fəaliyyət nümunəsini gətirmişdir. Dövlət başçısı öz fəaliyyəti və davranışı ilə ölkənin ictimai həyatına, siyasi sisteminə siyasi mədəniyyəti, milli mənəviyyatımıza uyğun gələn siyasi əxlaq standartlarını, milli siyasi etika nümunələrini daxil etmişdir. Azərbaycanın son illərdə əldə etdiyi böyük uğurların, parlaq qələbələrin əsasında milli qürur və ləyaqət məfhumları dayanır. Prezident İlham Əliyev xalqımızın qələbə əzmini bərpa etdi. Onun həyata keçirdiyi siyasət müasir Azərbaycanın güclənməsinə, milli-mənəvi dəyərlərimizin ən yüksək səviyyədə qorunmasına xidmət etmiş, ölkəmiz qısa müddətdə dünyada tolerantlıq, mədəniyyətlərarası və sivilizasiyalararası dialoq məkanı kimi tanınmışdır.



Azərbaycan Respublikası Prezidenti və Ali Baş Komandanı İlham Əliyevin müstəsna nailiyyəti isə, əlbəttə ki, 30 ilə yaxın müddətdə işğal altında olan torpaqlarımızın azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması olmuşdur. O, atasının vəsiyyətini yerinə yetirmiş, onun başladığı işi sona çatdırmaqla yanaşı, həm də öz milli borcunu yerinə yetirərək tarixi, taleyüklü bir missiyanı həyata keçirməyi bacarmışdır.

Yuxarıda da qeyd edildiyi kimi, Azərbaycan dövlətinin əldə etdiyi bütün uğurların səbəbi İlham Əliyevin daxili və xarici siyasətin bütün sahələrində Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi kursu yeni keyfiyyət mərhələsində zənginləşdirərək davam etdirməsi olmuşdur. Bu səbəbdən müstəqil Azərbaycanda hakimiyyətdə olduğu mürəkkəb dövrdə Azərbaycanı böhrandan inkişaf mərhələsinə çıxara bilən Heydər Əliyevin balanslaşdırılmış siyasətinin ətraflı təhlil edilməsinə ayrıca bir yarımfəsilin həsr edilməsi monoqrafiyanın mövzusu baxımından olduqca mühümdür.

## § 2. Ümummilli lider Heydər Əliyevin balanslaşdırılmış siyasəti Azərbaycanın regional liderliyinin təməli kimi

Azərbaycanın ən yeni tarixində mühüm bir mərhələ – XX əsrin son 30 ili və XXI əsrin əvvəli, həmin dövrdə ölkəmizə başçılıq etmiş tanınmış siyasi xadim, ümummilli lider Heydər Əliyevin adı ilə əlaqədardır. Heydər Əliyev 1969-1982-ci illər ərzində Sovet Azərbaycanına rəhbərlik etmiş, 1993-cü ilin iyunundan 2003-cü ilin oktyabrına qədər isə müstəqil Azərbaycan dövlətinin prezidenti olmuşdur.[1] Hər iki ictimai-siyasi quruluşda məhz onun başçılığı ilə Azərbaycan iqtisadi cəhətdən güclənmiş, bir dövlət olaraq nüfuzu artmış, milli mənafeyi, milli mentaliteti, mədəniyyət və mənəviyyatı qorunmuş və tərəqqi etdirilmişdir.

---

[1] Məmmədzadə Ü.K., Ümummilli lider Heydər Əliyevin irsi müstəqil Azərbaycan dövlətinin milli sərvətidir // – Lənkəran: Elmi Xəbərlər, – 2018. № 2, – s.115-121, s.115.

Həm Sovetlər Birliyi, həm də azad Azərbaycan Respublikası müddətində vətəninə, dövlətinə şərəflə xidmət etmək ulu öndərin həm mübarizə devizi və həm də həyat idealına çevrilmişdir. Ulu öndər iş fəaliyyətinə başladığı ilk illərdən özünəməxsus şəxsi özəlliklər ilə seçilmiş, bir sıra məsul vəzifələrdə fəaliyyət göstərərək ən yüksək rəhbərlik səviyyəsinə ucalmış, 1969-cu ildə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsində birinci katib və Büro üzvü olaraq seçilmişdi.

Nəzərə alınmalıdır ki, Heydər Əliyev Azərbaycan KP MK-nın I katibi təyin ediləndə ölkə iqtisadiyyatı dərin iqtisadi böhran dövründən keçirdi. Bir çox obyektiv və subyektiv səbəblərə görə Azərbaycan sosial-iqtisadi cəhətdən geridə qalmışdı, iqtisadiyyatın bir sıra sahələrində vəziyyət ürəkaçan deyildi. Respublikanı belə bir çıxılmaz durumdan qurtarmaq üçün əlverişli yol axtarıb tapılmalı, iqtisadiyyatın tərəqqisi üçün prinsip etibarı ilə təzə konseptual proqram hazırlanmalı idi, qarşıda xalq təsərrüfatında dərin struktur yeniliklərinin tətbiq edilməsi və s. kimi mühüm vəzifələr dururdu.

1970-1985-ci illərdə Heydər Əliyevin başçılığı ilə tərtib edilən kompleks inkişaf planlarının tətbiqi ölkəmizin tarixində tayı bərabəri olmayan yeniliklər və yüksəlişlə nəticələnmiş, IX və X beşilliklər ərzində 1945-ci ildən 1970-ci ilə kimi olan dövrdəkindən daha çox məhsul istehsal olunmuşdu.

Maliyyə sərvətlərinin səmərəli realizəsi hökumətin vəzifələrini yerinə yetirməyə, iqtisadiyyatın tərəqqisi üçün zəruri maliyyə əsaslarının təşəkkül tapmasına da əlverişli şərait yaratmışdır. Bu nöqteyi-nəzərdən, 2017-ci ildə də ölkə iqtisadiyyatında müsbət meyillər inkişaf edib. Keçən dövrlər ərzində qəbul edilən təməl qərarlar, imzalanan fərmanlar prezident İlham Əliyevin daim xalqın tərəfini saxladığı, həmçinin verdiyi sözlərin məhz əməli aktivliyə, praqmatizmə arxalandığını göstərmişdir. Prezident İlham Əliyev Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr edilmiş rəsmi qəbulda belə deyib: *"2003-cü ildən bəri iqtisadi sektorda inkişaf etmiş bir dövr keçirdik. İqtisadiyyat üç dəfə artdı. Heç bir ölkə bu qədər qısa müddətdə iqtisadiyyatı üç dəfə artırmamışdır. Sənaye emalı üç dəfə çoxalıb. Yoxsulluq təxminən 50% -dən 5% -ə endirilib, işsizlik çox azdır. Azərbaycan bölgəsinin inkişafı artıq başlamışdır. Dövlət layihələri artıq başlamışdır. Nəticədə bölgədə bir milyon üç yüz mindən çox ofis quruldu. Bölgə dirçəldi şəhərlərimiz inkişaf edir. Müasir infrastruktur layihələri həyata keçirilmişdir. Elektrik və qaz idxalçısından ixracatçıya keçdik. Azərbaycanda sosial problemlərin həllinə çox diqqət yetirilmişdir. Son 13*

[1] "Azərbaycan Respublikasının Milli İqtisadiyyat Perspektivi üzrə" Strateji Yol Xəritəsi // Azərbaycan Respublikası Prezidentinin 2016–cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir: [Elektron resurs]. URL: http://www.president.az/articles/21993
[2] Hacalıyev E., Müstəqil inkişaf yolu // Azərbaycan. –2016, 11 dekabr. – s.4

*ildə maaşlar və pensiyalar bir neçə dəfə artmışdır. Sosial infrastruktur layihələri həyata keçirilir. Bölgədə 3000-dən çox məktəb, 600-dən çox tibb mərkəzi və 40-dan çox olimpiya idman mərkəzi inşa edilmişdir. Bunlar keçmişin bütün dövrlərindən çox yüksək olan göstəricilərdir."*[1]

Müstəqilliyin qazanılmasından sonra Cənubi Qafqaz regionu ölkələri dərin transformasiya proseslərindən keçmişdir. 2020-ci ilin sonlarınadək işğalçı Ermənistanın təcavüzkar siyasəti nəticəsində Azərbaycan müharibə durumunda yaşasa da, əvvəlcə ümummilli liderin, daha sonra onun siyasi varisi Prezident İlham Əliyevin səyləri hesabına öz milli quruculuq siyasətini gerçəkləşdirmiş, region dövlətləri arasında Gürcüstanla dostluq və əməkdaşlıq əlaqələrini inkişaf etdirmişdir.

Cənubi Qafqaz regionu dövlətlərinin müəyyən etdiyi milli inkişaf nümunələri əsasında, XXI əsrdə qloballaşma və regionlaşma məsələlərinin təməl meyillərindən olan ən yeni texnologiya və innovasiyaların köməyilə qabaqcıl ölkələrdə olduğu kimi infrastruktur sistemlərinin formalaşdırılması geniş yayılmışdır. Bu nöqteyi-nəzərdən, ən mühüm dəyişikliklər innovasiyalı cəmiyyət quruculuğu istiqamətində gedən dərin transformasiya prosesləri sektorunda baş vermişdir. Sübut etməyə ehtiyac yoxdur ki, regionun ən böyük dövləti olan Azərbaycan müstəqillik illərində iqtisadi tərəqqi nöqteyi-nəzərindən həmişə öncül mövqe tutmuşdur. Bu, mütəmadi olaraq beynəlxalq təşkilatların hesabatlarında və qlobal reytinqlərdə öz əksini tapır.[2]

Dünya Bankının dövri olaraq tərtib etdiyi "Ölkələrin ÜDM (Ümumi Daxili Məhsul) Reytinqləri"ndə Azərbaycan demək olar ki, hər zaman MDB məkanında liderlər cərgəsində olmuş, dünya ölkələrinin ümumi cərgəsində isə öncül mövqelərini təmin etmişdir. Yuxarıda verilmiş cədvəldə Dünya Bankının hesabatına əsasən Cənubi Qafqaz dövlətlərinin ÜDM göstəriciləri və hər bir göstəricinin yanında həmin ölkənin ümumi siyahıdakı yeri göstərilmişdir (Cədvəl 1.2.1).[3]

[1] İlham Əliyev Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş rəsmi qəbulda iştirak edib: [Elektron resurs]. – Oktyabr 17, 2016. URL: https://president.az/articles/21398
[2] Məmmədzadə Ü.K., Prezident İlham Əliyev və Qafqazda Azərbaycanın iqtisadi inkişaf tempi // AMEA, Qafqazşünaslıq institutu, Qafqazşünasların I Beynəlxalq Forumu: 2-ci kitab, – Bakı: – 2017, –s.447- 452, s.448
[3] Рейтинг стран по уровню ВВП на душу населения: [Электронный ресурс]. URL: https://nonews.co/directory/lists/countries/gdp–per–capita



**Cədvəl 1.2.1. Cənubi Qafqaz ölkələrinin ÜDM reytinqi (milyard ABŞ dolları ilə)**

| Ölkə | 2013 | 2016 | 2019 | 2021 |
|---|---|---|---|---|
| **Azərbaycan** | 74,1 (69) | 37,8 (89) | 48,0 (88) | 54,6 (85) |
| **Gürcüstan** | 16,1 (116) | 14,3 (117) | 17,7 (117) | 18,7 (117) |
| **Ermənistan** | 11,1 (135) | 10,5 (134) | 13,7 (130) | 13,8 (133) |

Daha səmərəli bir iqtisadiyyatın yaradılması ilə milli iqtisadiyyata 120 milyard dollardan çox sərmayə qoyulmuşdur. Milli təhsilin inkişafında iqtisadi siyasətin rolu olduqca böyükdür. Buna görə də Prezident İlham Əliyevin özünün də qeyd etdiyi kimi, bu gün Azərbaycan hökumətinin iqtisadi sektordakı əsas hədəflərindən biri insan resursları üçün neft və qaz sektorundan gəlir əldə etməkdir. Təsadüfi deyildir ki, 2009-2010-cu illərdə "Qlobal Rəqabət qabiliyyət Hesabatı" ilə Azərbaycan 133 ölkə arasında 18 pillə artaraq 55-ci yeri tutdu və MDB-də ilk ölkə oldu. Hesabata görə Gürcüstan 90-cı, Ermənistan isə 97-ci yerdə qərarlaşdı.[1] Beynəlxalq reytinq agentliyi Standard and Poor's ölkə iqtisadiyyatının hazırkı vəziyyətini "sabit" dən "yaxşı" səviyyəyə yüksəltdi. Respublikamızın "Balanslaşdırılmış Büdcə", "Milli Əmanət Oranı" və "Dövlət Borcu" kimi prosedurlarla mövqeyi qlobal sabitlik testində yüksəkdir.

Xarici borc baxımından da ölkəmiz digər bölgə ölkələrini qabaqlayır. 1 yanvar 2018-ci il tarixinə Azərbaycan Respublikasının xarici dövlət borcu 9,398,3 milyon dollar, ÜDM-də orta xarici borc 22,8% təşkil etmişdir.[2] Üç milyon əhalisi olan Ermənistanın xarici borcu 6 milyardı keçmiş, 31 dekabr 2017-ci il tarixinə Gürcüstanın ümumi xarici borcu 17,2 milyard dollar idi. Bu rəqəmə ölkənin ÜDM-nin 113,6%-i daxildir.[3]

[1] The Global Competitiveness Report 2009–2010 / Editor Professor K. Schwab. World Economic Forum. – Geneva, – 2009. – 492 p.
[2] 2018–ci ilin yanvar–iyun ayları üzrə əsas makroiqtisadi göstəricilərin və büdcə parametrlərinin təhlili: [Elektron resurs]. URL: http://sai.gov.az/upload/files/KIV_uchun_6ay_icra_2018.pdf
[3] Gürcüstanın xarici dövlət borcu 17 milyard dollardan çoxdur: [Elektron resurs]. – Aprel4, 2018. URL: http://www.xezerxeber.az/son_x%C9%99b%C9%99r/200187.html

31 dekabr 2022-ci il tarixinə olan ən yeni məlumatlara əsasən isə AR-in xarici dövlət borcu 6693,2 mln. ABŞ dolları (11378,4 mln. manat) ekvivalentində və ya ÜDM-in 8,5%-ni təşkil edib. Bu haqda Milli Məclisdə müzakirə edilən Nazirlər Kabinetinin 2022-ci ildəki fəaliyyəti barədə hesabatında qeyd olunmuşdur. 1 yanvar 2022-ci il tarixindəki göstərici ilə müqayisə etsək xarici dövlət borcu məbləğinin mütləq ifadədə 700,2 mln. ABŞ dolları (1190,3 mln. manat) və ya 9,5%, onun ÜDM-ə nisbətinin isə 5,0% azalmasına nail olunmuşdur.[1]

İqtisadi cəhətdən ötən 20 ildə Azərbaycanın uğurlarını daha aydın başa düşmək üçün bir sıra göstəricilər nəzərdən keçirilməlidir. Belə ki, 2020-ci il boyunca əsas kapitala yönəldilmiş vəsaitlər 3 dəfə, bununla yanaşı tikinti-quraşdırma işlərinə yönəldilmiş vəsaitlər 4,6 dəfə artmışdır. Dövlət büdcəsi gəlirləri və xərcləri 18,4, əhalinin nominal gəlirləri 9,4, banklarda vətəndaşlara məxsus əmanətlər 33,2, iqtisadiyyatdakı kreditləşdirilmə 19,4, orta aylıq nominal əməkhaqqı 7, orta aylıq pensiya məbləğləri 9,3 dəfə artmışdır. Ölkə iqtisadiyyatına edilən sərmayə 2004-2019-cu illər ərzində 259,6 milyard ABŞ dolları olmuşdur. Bu zaman çərçivəsində Azərbaycanın strateji valyuta ehtiyatları təqribən 28 dəfə çoxalaraq 1,8 milyard dollardan 51,1 milyard dollara kimi yüksəlmişdir.[2]

Bundan başqa mühüm göstəricilərdən biri olan Dünya Bankı tərəfindən hazırlanan "Doing Business" hesabatında Azərbaycan 190 ölkənin arasında 28-ci yerdə qərarlaşmış və 10 ən islahatçı ölkə arasına daxil edilmişdir. Əlavə olaraq Azərbaycan 74 İnkişaf etməkdə olan ölkənin arasında keçirilmiş araşdırmanın nəticələrinə görə dünya miqyasında inklüziv inkişaf indeksində 3-cü, əhali elektrik təchizatı səviyyəsində 2-ci, islahatçı obrazı əmsalı üzrə 5-ci, hökumətin uzunmüddətli strategiyası meyarına görə 10-cu, siyasi sabitliyinin təmin olunması və dəmir yolu xidmətləri səmərəliliyinə əsasən 11-ci, hava yollarında xidmətlərin səmərəlilik dərəcəsinə görə 12-ci, avtomobil yollarındakı keyfiyyət meyarına görə isə 24-27-ci yerlərdə qərarlaşmışdır.

[1]Azərbaycanın xarici borcu azalıb: [Elektron resurs]. – Mart 17, 2023. URL: https://banker.az/az%C9%99rbaycanin–xarici–borcu–azalib–2/

[2] Adıgözəlov K., Cənubi Qafqaz: yeni geosiyasi konfiqurasiya və Azərbaycanın liderliyi: [Elektron resurs]. – Mart 13, 2021. URL: https://yeniazerbaycan.com/SonXeber_e80457_az.html



Koronovirus pandemiyası 2020-ci il ərzində dünya iqtisadiyyatında böyük zərərlərə səbəb olmuş və buna görə də bütün ölkələr üçün iqtisadi cəhətdən ağır il olmuşdur Təbii ki, dünyanın ayrılmaz hissəsi olan Azərbaycan Respublikasının iqtisadiyyatı da təsirlərə məruz qalmış, lakin dövlətimiz digər ölkələrə nisbətən bu vəziyyətdən daha az itkilərlə çıxıb, ölkə iqtisadiyyatı təxminən 4%-dən bir qədər çox azalmışdır. Bunun əvəzində isə qeyri-neft sənayesinin həcmi 11 %-dən çox artmışdır. Bu göstəricilər ölkədə real iqtisadiyyat və qeyri-neft iqtisadiyyatında inkişaf olduğunu əyani şəkildə sübut edir.[1]

İstanbul Beynəlxalq Siyasət Mərkəzinin təhlilçisi olan Yasemin Bitlis Azərbaycanın iqtisadiyyatının dayanıqlı inkişaf məqsədlərinin (DİM) maliyyələşdirilməsi üçün "İnvestor xəritəsi"nin təqdimatında Azərbaycanın DİM indeksi üzrə Cənubi Qafqazda lider olduğunu qeyd etmişdir. Onun sözlərinə əsasən 2022-ci ildə AR bu indeks üzrə dünyanın 163 ölkəsi içərisində 50-ci yerdə qərarlaşmışdır.[2] Belə bir nəticənin əldə edilməsinə səbəb kimi Azərbaycanda ətraf mühitin mühafizəsinin təmini, tullantıların təmiz emalı, alternativ, bərpa oluna bilən enerji mənbələri, eləcə də yaşıl iqtisadiyyata keçid sahəsində layihələrin həyata keçirilməsi göstərilmişdir. Y.Bitlis Azərbaycanın hazırki vəziyyətdə tranzit qovşağı kimi investisiyaların qoyulması üçün cəlbedici ölkə olduğunu söyləmişdir. Həmçinin o, günümüzdə bütün dünyada təchizat zəncirinin pozulduğunu, Asiyadan Avropaya yükdaşımaların mərkəzinin Azərbaycan olduğu yeni təchizat zəncirinin formalaşdığını qeyd etmişdir. Bundan başqa təhlilçi günümüzdə alternativ enerji mənbələrinin yerinin AR-in enerji istehsalında kiçik olmasına baxmayaraq, xarici sərmayədarları cəlb etmək üçün ölkədə böyük potensialın mövcud olduğunu, respublikada bərpa oluna bilən enerji mənbələri sahəsinə milyon dollarla investisiyaların qoyulduğunu, AR-də investisiya iqliminin mövcud vəziyyətlə nisbətdə daha da yaxşılaşması, birbaşa xarici investisiyaların cəlb edilməsi və dayanıqlı inkişaf məqsədlərinə nail olunması üçün respublikanın bütün imkanlarının aydınlaşdırılması istiqamətində işlərin aparıldığını bildirmişdi.

[1] Adıgözəlov K., Cənubi Qafqaz: yeni geosiyasi konfiqurasiya və Azərbaycanın liderliyi: [Elektron resurs]. – Mart 13, 2021. URL: https://yeniazerbaycan.com/SonXeber_e80457_az.html

[2] "Azərbaycan DİM indeksinə görə Cənubi Qafqazda liderdir" – Yasemin Bitlis: [Elektron resurs]. –Mart 9, 2023. URL: https://azvision.az/news/321633/—azerbaycan-dim–indeksine–gore–cenubi–qafqazda–liderdir—yasemin–bitlis—.html

"Global Firepower" beynəlxalq reytinq şirkətinin 2022-ci il üçün açıqladığı məlumatlara əsasən Azərbaycan dövləti Cənubi Qafqazda başqa sahələrlə yanaşı öz hərbi gücünə görə də lider mövqeyini saxlamaqdadır. Azərbaycan Respublikası reytinq siyahısında 142 ölkə içərisində 63-cü mövqedə qərarlaşmışdır. Cənubi Qafqazın digər dövlətləri olan Gürcüstan 88-ci, Ermənistan isə 98-cidir.[1] Onu da qeyd etmək lazımdır ki, reytinqin hazırlanması zamanı həmin ölkələrin ordularının texnoloji inkişafı, insan potensialı və çevikliyi əsas götürülmüşdür.

1 fevral 2023-cü il tarixinə olan məlumatlara əsasən Azərbaycan iqtisadiyyatında muzdla işləyənlərin sayı ötən ildəki eyni dövr ilə müqayisəli şəkildə baxsaq 33,0 min nəfər və yaxud da 2,0 faiz artaraq 1712,1 min nəfərə çatmışdır. Komitənin məlumatına əsasən onların içərisindən 901,1 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 811,0 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir. 2023-cü ilin yanvar ayında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı ötən ilin müvafiq dövrü ilə müqayisədə 11,8% artmış və 856,2 manat olmuşdur. Bu kimi göstəricilərin artması əhalinin gündəlik yaşam səviyyəsinin yaxşılaşması və yoxsulluğun azalaraq 6 faizə enməsi ilə nəticələnmişdir. Son 5 il ərzində ölkədə iqtisadi aktiv əhalinin sayı 6,5 faiz çoxalaraq 2021-ci ildə 5299,8 min nəfər olmuşdur. Məşğulluq imkanlarının gündən-günə çoxalmasının göstəricisi kimi bu müddət ərzində məşğul əhalinin sayının artımı iqtisadi aktiv əhalinin sayının artımını keçməklə 7,8 faiz olub, muzdla işləyənlərin sayı isə 8,3 faiz çoxalmışdır.[2]

Azərbaycanın sosial-iqtisadi cəhətdən sürətlə inkişafı cəmiyyətin gündəlik həyatında xüsusilə özünü göstərdi. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin effektivliyi, tutarlılığı, obyektivliyi, bu siyasətin ölkənin milli maraqlarını əks etdirməsi ölkənin hər bir vətəndaşının gələcəyinə böyük inam yaradır. Prezidentin təklif etdiyi prinsiplərin həyata keçirilməsində qətiyyətli və uğurlu bir iş görülmüş və insanların maraqları bir çox məsə-

[1] Azərbaycan hərbi gücünə görə Cənubi Qafqazda liderdir: [Elektron resurs]. – Sentyabr 26, 2022. URL: https://modern.az/aktual/370417/azerbaycan–herbi–gucune–gre–cenubi–qafqazda–liderdir/
[2] Azərbaycanda orta aylıq əməkhaqqı doqquz yüz manata yaxınlaşır: [Elektron resurs]. – Mart 14, 2023. URL:https://sputnik.az/20230314/azerbaycanda–orta–ayliq–emekhaqqi–doqquz–yuz–manata–yaxinlasir–452700636.html



lələrdə əsas məsələ hesab edilmişdir. Bu gün İlham Əliyev tərəfindən aparılan çoxtərəfli islahatlar Azərbaycan dövlətinin siyasi mahiyyətini və inkişaf yolunu müəyyənləşdirir. BTC, BTƏ, BTQ kimi böyük layihələrin həyata keçirilməsi, ölkəmizin ümumi olaraq Avropa bölgəsinin gələcək enerji təhlükəsizliyi hədəfini öz üzərinə götürməsi xalqımıza dünya arenasında dəyərli bir mövqe təqdim edir. Ölkəmizdə işsizlik və yoxsulluq kimi ciddi sosial problemlər artıq aradan qaldırılmaqdadır. Azərbaycanda demokratiya, qanunun aliliyi və ədalətin zəfərini təmin etmək üçün bütün lazımi tədbirlər görülür. Azərbaycanın hazırkı iqtisadi potensialın insan kapitalına dönməsi istiqamətində həyata keçirilən tədbirlər ölkəmizin elmi tərəqqiyə doğru sürətlə irəlilədiyini təsdiq edir.

İndiki dövrdə neft gəlirlərindən qazanılan vəsaitin respublikamızda vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu prosesinin daha da intensivləşməsinə, ümumilikdə insan amilinin yüksəlişinə yönəldilməsi demokratiya sektorunda böyük təcrübəsi olan dövlətlər, müxtəlif beynəlxalq təşkilatlar, nüfuzlu ekspertlər tərəfindən müsbət qarşılanır. İlham Əliyev islahatlarını ulu öndər Heydər Əliyevin əsasını qoyduğu möhkəm təməl üzərində davam etdirir və yeni dövrün istəklərinə uyğun olaraq zənginləşdirməyə çalışır.[1] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 30 aprel 2004-cü ildə AŞPA-nın Bahar Sessiyasında etdiyi çıxışında dediyi fikirlər bu baxımdan əhəmiyyətlidir: "*Biz yalnız paytaxt və böyük şəhərlərə deyil, bölgələrə də xüsusi diqqət ayırırıq ki, bütün ölkə, Azərbaycanın bütün bölgələri inkişaf etsin. Ən ucqar kəndlərin belə öz həyat tərzlərində iqtisadi tərəqqini hiss etmələri lazımdır*".[2]

Azərbaycanın regionda öz liderliyini möhkəmlətməsinə yardım edən amillərdən biri də onun kosmik kluba daxil olmasını təmin edən peyklərini kosmosa göndərməsi olmuşdur. Cənubi Qafqazdakı birinci peyk operatoru olan "Azərkosmos" Azərbaycanın dövlət başçısı İlham Əliyev tərəfindən 2010-cu ilin mayın 3-də imzalanan 885 nömrəli Sərəncamla təsis edilmiş və bu təşkilatın məqsədi kimi "Azərbaycanın telekommunikasiya peykinin ha-

[1] Məmmədzadə Ü.K., Azərbaycan Heydər Əliyev ideyalarının layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi altında // – Gəncə: Elmi Xəbərlər, – 2015. – s. 224-227, s.226
[2] Əliyev İ.H., İqtibaslar və təhlil / İ.H. Əliyev. – Bakı: Azərbaycan, – 2006. – 328 s., s.218

zırlanması, orbitə çıxarılması, idarə olunması və istismar işlərinin həyata keçirilməsini təmin etmək" müəyyənləşdirilmişdir.

Görülən hazırlıqlar nəticəsində 2013-cü ilin 8 fevralında Azərbaycan dövləti Azerspace-1 adlanan ilk süni peykini kosmosa buraxmışdı. Belə ki, Azərbaycan ilk telekommunikasiya peykini - "Azərspace-1"i Fransa Qvianasında (Cənubi Amerika) yerləşən Kuru kosmodromundan buraxılışını uğurla həyata keçirdikdən sonra dünya kosmik klubuna daxil olmuşdu. 2023-cü ilə qədər orbitə ümumilikdə müxtəlif məqsədləri həyata keçirən Azərbaycanın üç peyki hazırlanıb buraxılmışdır: qeyd edildiyi kimi, 2013-cü ildə "Azərspace-1", 2014-cü ildə "Azərsky" və 2018-ci ildə "Azərspace-2" adlanan peyklər.

AR Prezidenti İlham Əliyev Azərbaycan xalqını 2018-ci ilin sentyabrında "Azerspace-2" peykinin kosmosa göndərilməsi ilə əlaqədar təbrik edərkən Azərbaycan üçün peyklərə sahibliyin əsas üstünlüklərini də göstərmişdi. Həmin üstünlüklərdən ən əsasları kimi Azərbaycan telekanallarındakı proqramların digər dünya ölkələrində yayımlanması, ölkəmizin və bütün dünyanın istənilən yerində baş verən hadisələrin izlənməsi, kosmik sənaye sahəsində beynəlxalq əməkdaşlığın sıxlaşdırılması, Azərbaycan dövlətinin hərbi potensialının möhkəmləndirilməsi imkanlarını qeyd etmək olar.

2014-cü ildə kosmosa göndərilən "Azərsky" müşahidə peyki də öz növbəsində dünyanın hər hansı bir nöqtəsində olan hadisələri ardıcıl şəkildə izləməyə imkan yaradır. Azərbaycan dövlətinin hərbi və müdafiə potensialının möhkəmləndirilməsində də "Azərsky" peykinin xüsusi rolunu qeyd etmək lazımdır. Bu kimi peyklərin kosmosa çıxarılması eyni zamanda infrastruktur layihələrinin yerinə yetirilməsi, mövcud olan infrastrukturun qorunub saxlanılmasında vacib əhəmiyyətə malikdir.

AR-in beynəlxalq aləmdə yeri və rolunun gücləndirilməsi, dünya kosmik sənayesində özünəməxsus mövqeyə malik olmasında növbəti addım "Azərspace-2" peykinin orbitə çıxarılması olmuşdu. Bu hadisə ekspertlər tərəfindən Azərbaycanın növbəti uğuru və qələbəsi olaraq görülmüşdü. "Azərspace-2" peykinin burxılması həm də Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr edilməsi səbəbindən yaddaqalan bir tarixi hadisəyə çevrilmişdi.[1]

[1] Pərvanə. Azərbaycan dünya kosmik sənayesində mövqelərini möhkəmləndirir // 525-ci qəzet. – 2018, 28 sentyabr. – s.5.



Azərbaycanın 3 telekommunikasiya peykini kosmosa çıxarması dövlətin imici, kosmik klubda mövqeyinin möhkəmləndirilməsi nöqteyi-nəzərdən böyük əhəmiyyətə malikdir. Milli kosmik infrastrukturun inkişaf etdirilməsi bu sahədə işləyən kadrların öyrədilməsinə, elm və innovasiyaların inkişaf etdirilməsinə və həmin yöndə beynəlxalq əməkdaşlığın sıxlaşmasına böyük təsir göstərir. Bundan başqa AR-in kosmosa çıxardığı peyklər eyni zamanda qeyri-neft sektorunda da inkişafı stimullaşdırır. Belə ki, Azərbaycan həmin peyklər vasitəsilə müxtəlif qurumlara, böyük şirkətlərə, eləcə də beynəlxalq təşkilatlara yerin səthi, geodeziya və s. ilə əlaqəli vacib məlumatları satıb bu sahədə əməkdaşlıq əlaqələri yarada bilir.

Peyklərin hazırlanması və orbitə yerləşdirilməsi, əlbəttə ki, müəyyən xərclərə səbəb olduğundan onların dövlətə gəlir qazandıra bilməsi məqamı da olduqca əhəmiyyətlidir. Bu sahədə işləyən mütəxəssislərin verdiyi məlumata əsasən söyləmək olar ki, Azərbaycana məxsus peyklər öz fəaliyyəti ilə onlara qoyulmuş vəsaiti, çəkilən xərcləri ödəyərək ölkəyə artıq gəlir gətirməyə başlamışdır. Hətta üçüncü peykin imkanlarının yarıya qədəri onun orbitə buraxılmasından əvvəl artıq satılmışdı.

Həmçinin AR-in orbitə göndərdiyi peyklər dövlətin informasiya təhlükəsizliyinin təmini sahəsində də çox böyük əhəmiyyətə malikdir. Müasir dünyamızda informasiya təhlükəsizliyi çox ciddi bir amilə çevrilmişdir. Günümüzdə hər bir dövlət öz milli təhlükəsizliyini təmin etmək üçün birinci növbədə informasiya təhlükəsizliyini təmin etməyə daha çox üstünlük verir. Buna görə də Azərbaycanın telekommunikasiya sektorunda xarici tərəfdaşlardan asılılığı tamamilə aradan qaldırması onun informasiya təhlükəsizliyinin təmin edilməsi baxımından da olduqca vacibdir.

Bundan başqa Prezidet İlham Əliyevin öz çıxışlarından birində söylədiyi kimi, II Qarabağ müharibəsinin gedişində düşmənin hərəkətlərinin onlayn formatda izlənməsi və onlar tərəfindən törədilən təxribatların qarşısının alınması təbii olaraq Azərbaycan silahlı qüvvələrinə əlavə üstünlük qazandırmış oldu. Buna görə də xarici hərbi ekspertlər Azərbaycanın apardığı əməliyyatları, 44 günlük müharibəni "XXI əsrin müharibəsi" adlandırmışdılar. Bunun səbəbi isə həmin müharibənin texnoloji inkişaf baxımından demək olar ki, bütün dünya üçün bir yenilik olması idi.[1]

[1] Azərbaycan peykləri yatırılmış sərmayəni doğruldur: [Elektron resurs]. – May 1, 2021. URL: https://report.az/analitika/azerbaycan-peykleri-yatirilmis-sermayeni-dogruldur-analitika/

Onu da qeyd etmək lazımdır ki, heç də hər bir ölkə kosmik dövlət olaraq orbitdə peyk saxlamaq imkanlarına malik ola bilmir. Orbitə peyk göndərmək və orada saxlamaq ancaq güclü dövlətlərə aid olan bir xüsusiyyət ola bilər. Bu səbəbdən Azərbaycan dövlətinin orbitə peyk çıxarması onun iqtisadi qüdrətinin növbəti göstəricisi kimi qiymətləndirilə bilər. Bununla da Azərbaycan artıq dünyanın güclü dövlətləri arasına qatılmış hesab edilir.

Azərbaycan regiondakı lider mövqeyini yalnız iqtisadi sahədə deyil, idman, mədəniyyət, turizm kimi sahələrdə də təsdiq etməkdədir. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətdə əhəmiyyətli məqamlardan biri odur ki, məhz onun yeritdiyi siyasət nəticəsində idman, mədəniyyət, turizm sahələrində həyata keçirilən tədbirlər vasitəsilə Azərbaycan dünyada daha yaxşı tanınmağa başlamış və yalnız neft ölkəsi kimi deyil, eyni zamanda idman və mədəniyyət ölkəsi kimi çox böyük nüfuz qazanmışdır. Axır zamanlar Azərbaycanın Avroviziya, Avropa oyunları, İslam həmrəylik oyunları, Şahmat üzrə dünya çempionatı, başqa neçə-neçə idman sahələri üzrə dünya səviyyəli tədbirlərə ev sahibliyi etməsində, digər beynəlxalq tədbirlərin yüksək səviyyədə təşkilində və tətbiqində AR Prezidentinin xüsusi diqqəti və zəhməti qeyd olunmalıdır.

Belə ki, Azərbaycanın ev sahibliyi etdiyi dünya səviyyəli mədəniyyət tədbirlərindən biri "Eurovision-2012" mahnı müsabiqəsi olmuş, bu müsabiqə 46 ölkədə birbaşa yayımlanmışdır. Bu müsabiqə vasitəsilə ölkəmiz öz musiqisi və mədəniyyətini dünyada, Avropada daha çox tanıtmış, yüksək təşkilatçılıq, peşəkarlıq və qonaqpərvərlik nümunəsi göstərmişdir.

2015-ci il iyun ayında Birinci Avropa Oyunlarının Bakıda keçirilməsi bu sahədə tarixi hadisələrdən biri olmuşdur. Həmin oyunların 2015-ci ildə Bakıda təşkili edilmə hüququ Azərbaycana Avropa Olimpiya Komitəsi Baş Assambleyasının 8 dekabr 2012-ci il tarixli qərarıyla verilmişdir. Birinci Avropa Oyunları tarixdə ilk dəfə olaraq Bakıda 2015-ci ildə iyun ayının 12-dən 28-dək keçirilmişdir. Birinci Avropa Oyunlarının Bakıda layiqincə keçirilməsinin təmin edilməsi məqsədilə Azərbaycan Prezidentinin 17 yanvar 2013-cü il tarixli əmri ilə Təşkilat Komitəsi yaradıldı, Təşkilat Komitəsinə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Xanım Əliyeva sədr təyin olundu. Mehriban xanım Əliyevanın yüksək dərəcəli təşkilatçılıq bacarığı və İlham Əliyevin dəqiq nəzarəti ilə Birinci Avropa Oyunları uğurla keçirildi və Azərbaycan dövləti bu yarışlarda dünyaya örnək göstərərək, yeni standartlar təyin etdi.[1]



Azərbaycanda keçirilən mühüm idman tədbirlərindən biri də "Formula-1" yarışlarıdır. Azərbaycana kimi "Formula-1" yarışları 20 dövlətdə keçirilirdi. Azərbaycan dövləti 2016-cı ildən başlayaraq bu yarışa ev sahibi olmağa başlayan 21-ci ölkə olmuşdur. "Formula-1" yarışlarının keçirilməsi üçün məkan seçimi bir çox ciddi meyarlar üzrə yerinə yetirilir. Son illərdə aparılan abadlıq tədbirləri sayəsində dünyanın ən gözəl, turizm üzrə cəlbedici şəhərlərindən birinə dönüşən Bakı şəhərinin bu yarışlara ev sahibliyi etməsi bu baxımdan çox önəmlidir. Bu yarışların keçirilməsi eyni zamanda Bakıya turist axınının artması ilə özünü göstərməkdədir.

Azərbaycanın son illərdə ev sahibi olduğu önəmli idman tədbirlərindən daha biri isə 2016-cı ilin 1-14 sentyabr tarixlərində Bakıda aparılmış 42-ci Şahmat Olimpiadası oldu. Beynəlxalq Şahmat Federasiyasının (FİDE) qurduğu Olimpiadaya Açıq və Qadınlar turniri, həm də dünyada şahmat oyununun təbliğ edilməsi üçün nəzərdə saxlanılan əksər tədbirlər daxil edilmişdir. Azərbaycan həmin tədbiri də zəfərlə həyata keçirə bilmişdi.

2017-ci ilin 12-22 may tarixləri arası Azərbaycan IV İslam Həmrəyliyi Oyunlarına zəfərlə ev sahibliyi etmişdir. I Avropa Oyunlarının ardınca IV İslam Həmrəyliyi Oyunlarının dövlətimizdə aparılması Şərqlə Qərbin qovuşuğunda yerləşən Azərbaycan dövlətinin sivilizasiyalararası dialoqa bəxş etdiyi töhfələri özündə simvolizə edirdi.

Bütün qeyd edilənləri Azərbaycanın idman və mədəniyyət ölkəsi statusunu təsdiqləyən tarixi faktlar hesab etmək olar. Azərbaycan xalqını Heydər Əliyev ideyaları dövrəsində birləşdirən prezident İlham Əliyev özünü azərbaycanlı hesab edən, bu mənsubiyyətdən fəxr edən hər kəsi Ulu öndərin yarımçıq qalan arzuları, ideyalarının gerçəkləşməsi istiqamətində səfərbər etməkdədir. Bütün bunların hamısı onu deməyə əsas olur ki, Prezidentimiz İlham Əliyevin dövlətçilik təcrübəsində siyasi varislik ənənələrinin davam etməsi, tərəqqi istiqamətlərinin möhkəmləndirilməsi ideyası prioritet təşkil edir.

[1] Ахундова Э., Ильхам Алиев. Портрет президента на фоне перемен / Э.Ахундова. – Москва: РОССПЭН, – 2016. – 333 с. , s.263

Ümummilli lider Heydər Əliyevin hakimiyyəti idarə etdiyi illərdə dəfələrlə sınanmış və öz təsdiqini tapmış bu siyasi kursun davam etməsi Azərbaycanın dövlətçilik bünövrəsinin daha da gücləndirilməsinin, azadlığımızın əbədiliyinin, dövlətimizin tərəqqisinin ən güvənli təminatıdır.

*"Azərbaycanın strateji yolu təkcə demokratiya, müstəqil iqtisadiyyat prinsiplərinin qəbul edilməsi, bazar iqtisadiyyatı və sahibkarlığın tərəqqisidir"* deyən Ümummilli lider Heydər Əliyev azad düşüncə və həyat tərzinin yer üzündə diktə etdiyi bu göstəricilərə həmişə sadiq olmuş, milli tərəqqi naminə bu yolun alternativsizliyi fikrinin ictimai rəyə aşılanmasına xidmət etmişdir.[1]

Bu gün İlham Əliyev tərəfindən bu siyasət uğurla həyata keçirilməkdədir. Ulu liderin dövlətçilik siyasətinə sadiq olan Prezidentimiz İlham Əliyevin prezidentliyinin keçən 20 ili də respublikamızda sabit iqtisadi - siyasi sistemin yaradılmasına, sosial vəziyyətin yaxşılaşdırılmasına, əhalinin alış qabiliyyətinin və maddi rifahının təkmilləşdirilməsinə, cəmiyyətimizdə həmrəyliyin bərqərar edilməsinə yönəldilmişdir. Əldə edilən uğurlar Azərbaycanda sabit və sonsuz demokratiya yönümündə uğurla irəliləməyə, dünyada nüfuzunun artırılmasına, özünüifadəsinə geniş imkanlar açmışdır. Dövlətimizin sabit iqtisadi tərəqqi yolunda olması idarəçiliyin demokratik strukturunu gücləndirməyə konkret zəmin yaratmaqdadır.

Ölkəmizdə bütün sahələrdə yaşanan inkişaf özünü ilk növbədə, əhalinin həyat şəraitinin normallaşdırılmasında, onların sosial təminatının daha da möhkəmləndirilməsində göstərmişdir. Dövlətimiz azadlıq qazandıqdan sonra azad bazar iqtisadiyyatını və müstəqil tərəqqi yolunu üstünlük kimi seçsə də bu mərhələnin tədricən yerinə yetirilməsinə, təkamülə əsaslandırılmasına prioritet verilmişdir. Ölkəmizin üstün tutduğu siyasi strategiya yer üzərində qəbul edilmiş beynəlmiləl prinsiplərin qorunması yolu ilə milli demokratiya modelinin formalaşdırılmasından ibarətdir. Bu cür bir modelin formalaşması isə sözsüz, dövlətin sosial-iqtisadi tərəqqi tempi ilə ahəngdarlıq təşkil edir. Prezident həmin iki təmayülü bir-birilərindən seçmədən Azərbaycanın strateji tərəqqi yolu olaraq təyin etmiş, iqtisadi inkişaf və demokratikləşmə

[1] Əliyev A.Ə., Bazar iqtisadiyyatına keçid: dövlətin iqtisadi siyasəti / A.Ə.Əliyev, A.Ş.Şəkərəliyev. –Bakı: Bakı Universiteti nəşriyyatı, – 2002. – 440 s., – s.5



mərhələsinin üzvi vəhdətinə yiyələnməyin mütləqliyini dəfələrlə önə çıxarmışdır. İlham Əliyev hesab edir ki, müasir dünya düzənində demokratiyanın gerçək anlamını qoruyub saxlamaq üçün vətəndaşların mədəni - iqtisadi rifahına, bu sektorlarda baş tutan pozitiv yeniliklərə adekvat reaksiya verilməlidir.[1]

İlham Əliyevin 20 illik fəaliyyətinin üstün cəhəti bundan ibarətdir ki, prezident praqmatik siyasi lider kimi gerçəkliyi operativ və obyektiv formada dəyərləndirməyi, milli maraqlar naminə prinsipial addımlar atmağı, istənilən ekstremal mühitdə ən optimal, düzgün qərar qəbul etməyi, eyni zamanda ölkənin taleyüklü problemlərinə anlayışla yanaşmağı bacarır.

Dünya xəritəsində adı bilinməyən, bədnam erməni lobbisinin təsiri ilə təhdidlərə və ədalətsizliklərə uğrayan, məlumat blokadası şəraitində haqlı yerini dünyaya göstərə bilməyən ölkəmiz bu gün tamam fərqli statusda tanınır. Azərbaycan bu gün bir çox regional mövzularda vacib oyunçulardan hesab edilir, regiondakı əhəmiyyətli heç bir layihə Azərbaycansız reallaşa bilməz. Nüfuzu beynəlxalq miqyasda ilbəil möhkəmlənən Azərbaycan dünya ölkələri içərisində öz layiqli yerini tutub. Ölkəmizdə keçirilən mötəbər müsabiqə və yarışlar, beynəlxalq sammit, forum, sərgi beynəlxalq aləmdə qazandığımız böyük etimadın bəhrəsidir.

[1] Məmmədzadə Ü.K., İlham Əliyev Ümummilli lider Heydər Əliyevin layiqli davamçısıdır // Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci il ildönümünə həsr olunmuş VI beynəlxalq elmi konfransın materialları, 2-ci hissə, – Bakı: – 2015, – s. 273-276., s.276

## II FƏSİL

## QAFQAZ BÖLGƏSİNDƏ YENİ TRANSMİLLİ LAYİHƏLƏRİN HƏYATA KEÇİRİLMƏSİNDƏ İLHAM ƏLİYEVİN FƏALİYYƏTİ

### §1. "Əsrin müqaviləsi" - Qafqaz regionunda iqtisadi inkişafın hərəkətverici qüvvəsi

Ölkəmizin reallaşdırdığı enerji siyasəti bütövlükdə regionun siyasi və iqtisadi rifahına xidmət edir. Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xüsusi qeyd etmişdir ki, *"Azərbaycan Respublikasının həyata keçirdiyi neft və qaz layihələri bu gün dünyada enerji tərəqqisinin möhkəm təməlidir".*[1] Azərbaycanın enerji siyasəti barəsində danışarkən vurğulamaq lazımdır ki, bu siyasətin banisi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev olmuşdur. Diqqətçəkən əsas məqam odur ki, hələ SSRİ vaxtında ulu öndər Heydər Əliyev gələcək müstəqil enerji siyasəti üçün bütün vacib təməlləri qoymuşdur.

Azərbaycan müstəqillik əldə etdikdən sonra da Heydər Əliyev ümumi inkişafın zəruri komponenti kimi enerji siyasətinə xüsusi fikir vermişdir. Müstəqilliyin ilk illərində bütün sektorlar kimi enerji sektoru da ciddi böhran içində idi. Ümummilli lider Heydər Əliyevin ikinci dəfə ali siyasi hakimiyyətə gəlməsindən sonra hər bir sahədəki kimi enerji sahəsində də kardinal dəyişikliklər baş vermişdir. Heydər Əliyev əvvəlcə ölkənin karbohidrogen ehtiyatlarından gənc Azərbaycan dövlətinin müstəqilliyinin, suverenliyinin möhkəmləndirilməsi və ümumi inkişafa yiyələnilməsi istiqamətində səmərəli istifadəsini məqsəd olaraq müəyyən etmişdir.

Proqnozlara əsasən enerji resurs ehtiyatına görə Xəzər hövzəsi, İran körfəzi və Sibirdən sonra yer üzündə üçüncü yerdə dayanır. Xəzər hövzəsində 20-25 mlrd. ton neft, 25 trln. $m^3$ təbii qazın olduğu bildirilir.[2] Neftin hasilat həcminə görə region İraqın və Küveytin hasilatına bərabərləşib.

---

[1] Əliyev İ.H., İqtibaslar və təhlil / İ.H. Əliyev. – Bakı: Azərbaycan, – 2006. – 328 s., – s.236

[2] Викторин В.М., Ареалы Прикаспия как специфическое Евразийское приграничье // – Астрахань: Каспийский регион: политика, экономика, культура, – 2002. №1, – с. 40-46, – s.41



Qeyd etmək lazımdır ki, ABŞ iqtisadiyyatının günlük ehtiyacı 20 mln. barreldir. ABŞ və Avropa birlikdə dünyada hasil edilən bütün enerji sərvətlərinin 50 faizini istehlak edirlər.[1] 2015-ci il ərzində Xəzər hövzəsi 4 mln. barrel neft hasil etməklə ABŞ üçün strateji əhəmiyyətini artırmış olur.

Azərbaycanın təbii sərvətləri xalqımızın milli taleyində həmişə həlledici rol oynamışdır. Bu sərvətlər həm onun inkişaf və uğurlarına, həm də fəlakət və itkilərinə səbəb olmuşdur. Hələ XIX əsrdə Bakıda neft sənayesinin inkişafı onun böyük sənaye şəhəri kimi dünyanın iri neft mərkəzlərindən birinə çevrilməsini şərtləndirmişdir. Təbii sərvətlərimizin, xüsusilə də neftin Azərbaycanın yüksəlməsinə və uğurlarına, milli dövlətçilik maraqlarına uyğun istifadə edilməsi isə nəhayət, ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə gerçəkləşdirilmişdir.

Neft faktorunun Azərbaycanın inkişafında rolunu hələ respublikaya rəhbərliyinin birinci dönəmində də düzgün müəyyənləşdirən siyasət öndəri XX əsrin 70-ci illərində neft sənayesi tarixinin şanlı səhifələrini təşkil edən quruculuq işlərinə rəhbərlik etmişdi. Azərbaycan dünya neft sənayesinin, neft elminin mərkəzi kimi tanınmış, Bakı isə Neft Akademiyası kimi şərəfli ada layiq görülmüşdür.

Həmin illərdə Ulu öndərin "Ölkəmizdə neftayırma sənayesinin təkrar formalaşması" adlı strateji planı əsasında ölkənin neft potensialının reallaşdırılması istiqamətində miqyaslı işlər görülməyə başlandı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu barədə bildirmişdir ki, *"1970-ci illərdə ölkəmizin mükəmməl neft sənayesi kompleksi formalaşmasaydı, müstəqillik zamanı yeni neft strategiyasını tətbiq etmək də çətin olardı".*[2]

Bildiyimiz kimi, müasir dövrümüzdə Azərbaycan Respublikasının enerji resurslarının həcmi onu regionda ciddi tərəfdaşa çevirmişdir. Azərbaycanın kəşf edilmiş neft ehtiyatı 7-13 mlrd. barrel (9-10 mlrd. ton), qaz ehtiyatı 2,65 trln. $m^3$-dir. Abşeron və digər yataqların istismara verilməsi ilə 2025-ci ilə kimi hasilat 50 mlrd. $m^3$-ə çatacaq.[3] Hasilat həm quruda, həm də dənizdə

---

[1] Mehdiyev R.Ə., Yeni siyasət: inkişafa doğru: [2 cilddə] / R.Ə. Mehdiyev. – Bakı: Oskar NPM, – c.2. – 2008. – 343 s., s.15

[2] Səmədov A.Q., Prezident İlham Əliyev. İnkişafın Azərbaycan yolu: [2 cilddə] / A.Q.Səmədov. – Bakı: CBS Polygraphic Production, – c.2. – 2007. – 574 s., s.95

[3] Əliyev İ.H., Azərbaycan nefti dünya siyasətində / İ.H. Əliyev. –Bakı: Azərbaycan, – 1997. – 263 s., s.122

həyata keçirilir. Lakin ən iri layihələr (məsələn, "Neft daşları", "Günəşli", "Azəri", "Çıraq", "Kəpəz", "Şahdəniz" və s.) dənizdə həyata keçirilir. Resurs potensialının böyük həcminin dənizdə olması Azərbaycan Respublikasının enerji və resurs suverenliyinin həyata keçirilməsində mühüm rol oynayıb. Uzun müddət sahilyanı dövlətlərdən İran, Türkmənistan və Rusiyanın Xəzərin resurslarından istifadənin yalnız Xəzərin beynəlxalq hüquqi statusunun müəyyən edilməsindən sonra mümkünlüyü üzrə mövqeləri ümummilli lider Heydər Əliyev tərəfindən uzaqgörənliklə aparılan milli siyasət nəticəsində neytrallaşdırılmışdır.

Ümumimilli lider Azərbaycan neft strategiyasını müəyyən edərkən, əsasən siyasi, iqtisadi, geostrateji faktorları da nəzərə alaraq, neftin üçüncü minillikdə Azərbaycan millətinə, ölkənin gələcək nəsillərinə xidmətinin yönlərini təyin etmişdir. Dünya birliyinə inteqrasiya və bölgədə beynəlxalq işbirliyinin təməlini qoyan həmin qlobal enerji proyekti, o cümlədən ölkəmizin azad dövlət kimi öz təbii resurslarına sahiblənməsinə, milli mənafeyə, iqtisadi - siyasi maraqlara yönəlmişdir.

Bunların hamısı beynəlxalq dünyada Azərbaycan dövlətinin nüfuzunun yüksəlməsinə, tərəqqi imkanlarının genişlənməsinə yönəlmiş və öz zəngin ərzini "Əsrin müqaviləsində tapmışdır. Müqaviləyə 1994-cü ildə, sentyabrın 20-də imza atılmışdır. Dünyanın yeddi ölkəsi - Azərbaycan, ABŞ, İngiltərə, Norveç, Rusiya, Səudiyyə Ərəbistanı və Türkiyə Xəzərin neft yataqlarının otuz il müddətinə istismar edilməsinə dair saziş imzalamışdır. Azərbaycanın neft və qaz sektoruna 8 milyard ABŞ dollarından çox sərmayə qoyulmuşdur. Həmçinin, 12 milyard ABŞ dolları həcmində dörd nəhəng layihə üzrə işlər aparılır. Bunlar "Azəri-Çıraq", "Günəşli", "Bakı-Tbilisi-Ceyhan", "Şahdəniz qaz kondensat yatağı" və Cənubi Qafqaz boru kəmərləridir.[1] Təsadüfi deyildir ki, müqavilə imzalandıqdan sonra İngiltərə mətbuatı Azərbaycanın tezliklə yeni Küveytə çevriləcəyindən bəhs edirdi.

1994-cü il noyabrın 15-də Azərbaycan parlamenti birinci oxunuşda müqaviləni təsdiqlədi. "Əsrin müqaviləsi"nin iqtisadi əhəmiyyətini aşağıdakı müddəalarla göstərmək olar:

[1] Səmədov A.Q., Prezident İlham Əliyev. İnkişafın Azərbaycan yolu: [2 cilddə] / A.Q.Səmədov. – Bakı: CBS Polygraphic Production, – c.2. – 2007. – 574 s., s.419



1. Müqavilənin həyata keçirilməsi prosesində ixrac boru kəmərinin tikintisi və Azərbaycan neftinin dünya bazarına çıxarılması təmin edilmişdir;

2. Beynəlxalq maliyyə idarələrində və institutlarında Azərbaycanın kredit qabiliyyəti yüksəlmişdir;

3. Müqavilə qarışıq sahələrə, infrastrukturlara geniş investisiya qoyuluşunu təmin etmişdir;

4. Azərbaycan öz valyuta ehtiyatlarını zənginləşdirmişdir ki, bu da xüsusi investisiya və iqtisadi siyasəti həyata keçirməyə imkan vermişdir;

5. Azərbaycanın dünya iqtisadi birliyinə daxil olması və inteqrasiyası prosesi sürətlənmişdir.

"Əsrin müqaviləsi"nin mühüm siyasi əhəmiyyəti də vardır. Bu müqavilə Azərbaycanın suveren dövlət olduğunu, öz sərvət və təbii ehtiyatları barəsində müstəqil sərəncam vermək hüququna malik olduğunu əməli olaraq nümayiş etdirdi. Məhz 1994-cü ildə imzalanmış və "Əsrin müqaviləsi" adını almış saziş ilə XXI əsrdə Azərbaycanın dinamik inkişaf yolu müəyyən olunmuşdur.[1] Müqavilə həyata keçirilməyə başlanandan sonra Azərbaycanın Xəzər dənizindəki başqa karbohidrogen yataqları ilə əlaqədar yeni transmilli layihələrin həyata keçirilməsi prosesinə başlanılmışdır. Belə ki, Azərbaycan ölkəmizin neft və qaz yataqlarına və perspektiv strukturlarına maraq göstərən dünyanın 15 dövlətini təmsil edən 35 şirkətlə 25 neft sazişi imzalamışdır. Bu sazişlər çərçivəsində nəzərdə tutulan sərmayələrin həcmi 70 mlrd. ABŞ dollarına yaxın dəyərləndirilir.

Bu səbəblərdən "Əsrin müqaviləsi"ni sadəcə bir razılaşma deyil, dövlətin həyati mənafelərinə xidmət edən, milli inkişafın strateji maraqları ilə formalaşan, xüsusi dizayn edilmiş, müəyyən edilmiş və konkret, ardıcıl və prinsipial bir qlobal layihə kimi qiymətləndirmək olar. Azərbaycanın dünya birliyinə inteqrasiyası üçün sabit, əlverişli şərait təmin etmək üçün hazırlanmış çoxşaxəli, aktiv neft diplomatiyası ölkəmizin dünya siyasi xəritəsində layiqli yer tutmasına və bölgədəki və beynəlxalq aləmdə qlobal problemlərin həllində əhəmiyyətli bir mövqe qazanmasına kömək etdi.

[1] Əliyev H.Ə., Azərbaycan XXI əsrin və 3-cü minilliyin ayrıcında / H.Ə. Əliyev. – Bakı: XXI - Yeni Nəşrlər Evi, – 2001. – 55 s., s.8

Azərbaycan neftinin dünya bazarına çıxarılması problemi siyasi, iqtisadi və strateji parametrlər nöqteyi-nəzərindən olduqca mühüm məsələdir. Hər şeydən əvvəl hasil edilmiş ilkin neftin dünya bazarına çatdırılması üçün optimal neft kəməri marşrutlarının müəyyənləşdirilməsi lazım idi. Bu kəmər aşağıdakı göstəricilər baxımından cəlbedici olmalı idi:

- iqtisadi-kommersiya baxımından ən az məsrəf tələb etməlidir;
- neft istehsalçısının üzləşdiyi problemlərin, xüsusilə də siyasi problemlərin həllində yardımçı olmalıdır;
- ən təhlükəsiz ərazilərdən keçməlidir və ya təhlükəsizliyinə yüksək səviyyədə təminat verilməlidir;
- regionda maraqlı dövlətlərin mənafelərini tarazlaşdırmalıdır;
- mühəndis-texniki imkanları mövcud reallıq və perspektiv tələblərə uyğun gəlməlidir.

18 Noyabr 1999-cu ildə Azərbaycan, Türkiyə və Gürcüstan Prezidentləri İstanbulda xam neftin Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri ilə nəqlinə dair bir müqavilə imzaladılar. Qanuni razılaşmanın tərəfləri layihəni həyata keçirmək üçün real addımlar atdılar. Boru kəmərinin inşası və istismarı üçün BTC KO, 2002-ci ilin avqust ayında Londonda qurulmuşdur. BP (30.1%), AzBTC (25%), TPAO (6.53%), ENI (5%), Total (5%) BTC KO səhmdarlarıdır. 18 sentyabr 2002-ci ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Itochu (3.47%), INPEX (2.50%), KonokoPhillips (2.50%) və HES Amera (2.36%) şirkətləri də BTC KO-nun səhmdarlarına çevrildilər.[1] Üç il sonra 25 May 2005-ci ildə Türkiyə və Gürcüstan prezidentləri ilə birlikdə Bakıda, Səngəçal yaxınlığında Bakı-Tbilisi-Ceyhan neft ixrac boru kəməri üzrə Azərbaycan Boru Kəmərinin hissələrinin yerləşdirilməsi üçün bir mərasim keçirildi. Neftin ilk partiyası Səngəçal stansiyasından boru kəmərinə axdı. Nəhayət, 28 may 2006-cı ildə Azərbaycan nefti Ceyhan limanına gəldi və 4 iyun 2006-cı il tarixində Xəzər neftini daşıyan ilk tankerlər Ceyhan limanından Avropaya nəql edildi.[2]

[1] Алиев И.Г., Каспийская нефть Азербайджана / И.Г.Алиев. – М.: Известия, – 2003. – 712 с., –с.178

[2] Гордиенко А., Баку-Тбилиси-Эрзерум выводит Грузию из под пресса России: [Электронный ресурс]. – 2001 / URL: http://archives.echo.az/?p=4140



Bu tədbir bir daha sübut etdi ki, Azərbaycan dünya miqyasında özünə layiqli yer tutmuşdur. Ulu öndərin qətiyyəti və müdrikliyi ilə ölkəmiz 1994-cü ildən başlayaraq xeyli beynəlxalq layihələrə fəal şəkildə qoşulmuş, öz iqtisadi potensialından səmərəli şəkildə istifadə etmiş, yüksək nəticələr qazanmışdır. Bu barədə ölkə prezidenti İlham Əliyev boru kəmərinin təntənəli açılış mərasimindəki nitqində ətraflı bəhs edərək demişdir: *"1994-cü ildə başlamış yeni proyektlər Azərbaycanın neft şöhrətini yenidən qabartdı. İndi Azərbaycan bu imkanlardan faydalı istifadə etməklə, şəxsi iqtisadi potensialını gücləndirməkdədir. Azərbaycanda davam edən iqtisadi tərəqqi artıq hamı tərəfindən sezilir. Ötən il iqtisadiyyat 26%, həmin ilin 5 ayında təqribən 40% çoxalmışdır. Həmin nəticələrin özülü sırf 1994-cü ildə Azərbaycan millətinin ümummilli öndəri Heydər Əliyevin istəyi ilə imzalanan «Əsrin müqaviləsi» ilə qoyulmuşdur".*[1]

Bu gün Heydər Əliyev siyasi kursu prezident İlham Əliyev tərəfindən yaradıcı şəkildə davam etdirilir. Prezident İlham Əliyev kimi qətiyyətli, bacarıqlı, dərin erudisiyalı, iti fəhmli və hər şeydən öncə, vətənini və xalqını bütün varlığı ilə sevən bir liderin dövründə ulu öndərimiz Heydər Əliyevin "Azərbaycan dünyaya günəş kimi doğacaqdır" arzusunun gerçəkləşəcəyi heç kimdə şübhə doğurmur.[2] Bu, artıq isbata ehtiyacı olmayan bir aksiomdur.

Vaxt ötdükcə Azərbaycan beynəlxalq enerji təhlükəsizliyinin təmin edilməsinin adi iştirakçısından əsas iştirakçısına çevrilir. Bu, ondan yaranır ki, həm daxili, həm də beynəlxalq müstəvidə enerji təhlükəsizliyi məsələsi Prezident İlham Əliyevin xarici siyasət strategiyasının vacib istiqamətini əhatə edir. Avropanın digər sahələrinə olduğu kimi, enerji infrastrukturuna da mütəmadi olaraq inteqrasiya edən Azərbaycan Respublikası artıq beynəlxalq enerji təhlükəsizliyinin təmin edilməsində böyük təcrübəyə sahibdir.

Bu baxımdan İlham Əliyev öz çıxışlarında enerji sektorunda Azərbaycanın əməkdaşlıq potensialının və enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində rolunun artmasına işarə edərək qeyd etmişdir: *"Enerji siyasəti-*

[1] Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin istifadəyə verilməsindən 10 il ötür: [Elektron resurs]. – İyul 13, 2016/ URL: https://azertag.az/xeber/Baki_Tbilisi_Ceyhan_esas_ixrac_neft_boru_kemerinin_istifadeye_verilmesinden_10_il_otur-970963

[2] Paşayev Q.M., Xilaskarlar /Q. Paşayev. – Bakı: Təhsil, – 2021. – 135 s., s.102

*mizi və layihələrin həyata keçirilməsinə start verəndə, həmin vaxt Avropa İttifaqının bazarı bizim üçün uzaq olan məsələ idi. Biz diqqəti əsasən, qonşu ölkələrə yönəldirdik. Ancaq əsas enerji layihəmiz reallığa çevrildiyi bir zamanda gördük ki, Avropaya, Avropa İttifaqına alternativ təchizat lazımdır".*[1]

Ölkəmizin beynəlxalq enerji təhlükəsizliyinin mühüm həlqəsinə çevrilməsini göstərən əsas məqamlardan biri də bu sektorda beynəlxalq tədbirlərin əksəriyyətinin ölkəmizdə keçirilməsindən ibarətdir. Bunlardan bəzilərini analiz etməklə, Azərbaycan Respublikasının beynəlxalq və regional enerji təhlükəsizliyi sistemində ciddi subyekt kimi yaddaşlara həkk olunmasını bir daha əsaslandıra bilərik. Misal üçün, IV Enerji sammitinin Bakıda olması belə vacib situasiyalardan hesab edilir. Bu sammitdə əsasən Odessa-Brodı-Plotsk-Qdansk marşrutunun tətbiqi istiqamətində danışıqlar aparılmışdır. Həm Azərbaycanın enerji sahəsindəki maraqlarına cavab verməsi, həm də beynəlxalq enerji təhlükəsizliyinin təminatının əlverişliliyinin yüksəldilməsi nöqteyi-nəzərindən böyük önəm kəsb edən bu layihə Xəzər-Qara dəniz-Baltik dənizi ətrafında yerləşən dövlətlər arasında əlverişli regional əməkdaşlığı daha da gücləndirəcəkdir.

Bu cür vacib hadisə həm də vaxtilə ümummilli lider Heydər Əliyevin ölkənin neft-qaz strategiyasını böyük dəqiqliklə təyin edə bilməsindən xəbər verir. Bu strategiyanı yeni geosiyasi və geoiqtisadi gerçəkliklərə uyğunlaşdırıb müvəffəqiyyətlə davam etdirən ölkə Prezidenti İlham Əliyev onu Azərbaycanın milli təhlükəsizliyinin mühüm istiqamətlərindən birinə çevirmişdir. Dövlət başçısı ölkənin artan iqtisadi imkanını sırf səmərəli və güclü enerji kompleksinin formalaşmasına yönəltməklə, ölkəmizin həm də daim azad siyasət yeritməsini sübut edir.

11 may 2007-ci il tarixində Polşanın Krakov şəhərində XVI əsrdə tikilmiş məşhur Vavei qəsrində XXI əsrin ən böyük problemlərindən olan enerji təhlükəsizliyi məsələsini müzakirə etmək üçün beynəlxalq sammitin

[1] Əliyev İ.H., İnkişaf – məqsədimizdir: [113 cilddə] / İ.H. Əliyev. – Bakı: Azərnəşr, – c.26. – 2015. –400 s., s.294



keçirilməsi təsadüfi sayılmamalıdır.[1] Azərbaycan, Gürcüstan, Ukrayna, Polşa və Litva prezidentlərinin, eləcə də Qazaxıstan rəsmisinin iştirakı ilə keçirilən "Enerji sammiti"nin ilk iclasının "Enerji təhlükəsizliyi" adlandırılması da gündəlikdə duran məsələnin Azərbaycan və Qazaxıstan istisna olmaqla, digər ölkələr üçün adi məsələ deyil, məhz problem olduğundan xəbər verirdi. Yeri gəlmişkən, sammitin açılmasından əvvəl Krakovda GUAM-ın üzvü olan Gürcüstan, Ukrayna və Azərbaycan respublikaları prezidentlərinin üçtərəfli görüşündə qurum çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsi və möhkəmləndirilməsinin vacibliyi vurğulanmışdır. Dövlət başçıları enerji və nəqliyyat sahələrində işbirliyi üçün geniş perspektivin olduğunu söyləməklə yanaşı, GUAM məkanında dondurulmuş münaqişələrə də toxunmuş, onların həlli ilə bağlı təşkilat çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini bildirmişlər. Başqa sözlə, tərəfdaş ölkələrdən bir neçəsinin enerji problemi olduğu kimi, digərləri də separatizm və ərazi bütövlüyünün pozulması kimi ağır problemlərlə üz-üzə idi.

Sammitin birinci iclasında "Enerji təhlükəsizliyi" iştirakçısı olan ölkələr arasında enerji sferasında işbirliyinin cari vəziyyəti və perspektivləri ilə əlaqəli məsələlər müzakirə edilmişdir. İkinci iclas "Milli enerji sektorlarının inkişaf strategiyası və Mərkəzi Asiya–Cənubi Qafqaz–Mərkəzi Avropa nəqliyyat dəhlizi konsepsiyası" mövzusunda keçirilmiş, bu böyük ərazini əhatə edən dəhlizin perspektivliyi haqqında geniş fikir mübadiləsi aparılmışdır. Azərbaycan Prezidenti İlham Əliyevin "vacib beynəlxalq hadisə" adlandırdığı sammitdə faydalı və açıq müzakirələr aparılmışdır. Azərbaycanın dövlət başçısı sammitdəki çıxışında qeyd etmişdir ki, bizim ölkəmiz Avropanın enerji təchizatçısı kimi böyük potensiala malikdir və gələcəkdə bizim bu sahədə imkanlarımız daha da artacaqdır.[2]

Sammitin tədbirində İlham Əliyevin fikirləri bir daha göstərdi ki, ölkəmiz nəinki regionda lider dövlətdir, eləcə də Avrasiyada qlobal enerji layi-

[1] 2007-ci il 10 oktyabr tarixli Vilnüs enerji təhlükəsizliyi konfransı prezidentlərin kommunikesi: [Elektron resurs]. – Oktyabr 11, 2007 / URL: https://azertag.az/xeber/2007_CI_IL_10_OKTYABR_TARIXLI_VILNUS_ENERJI_TAHLUKASIZLIYI_KONFRANSI_PREZIDENTLARIN_KOMMUNIKESI-390068

[2] Əliyev İ.H., İnkişaf – məqsədimizdir: [113 cilddə] / İ.H. Əliyev. – Bakı: Azərnəşr, – c.24. – 2015. –408 s., s.138

hələrinin təşəbbüskarı və birbaşa iştirakçısıdır: *"Regional işbirliyi üçün yaxşı zəmin var. Enerji təhlükəsizliyi indi Azərbaycanı ən çox maraqlandıran məsələlərdən biridir. Azərbaycan enerji sferasında böyük potensiala malikdir və bölgə əməkdaşlığına böyük fayda verir. Öndə enerji sferasında əməkdaşlığa aid konkret işlər dayanır. İmzalanan birgə rəsmi bəyanatda bütün bu məsələlərdə dövlətin mövqeyi öz əksini tapmışdır".*[1]

Azərbaycanın dövlət başçısı İlham Əliyev zaman-zaman beynəlxalq əhəmiyyətli tədbirlərin tribunasından və tanınmış siyasətçilərin dilindən səslənən vahid iqtisadi region məsələsi barədə söz açarkən bildirmişdir ki, *"Xəzər, Qara dəniz və Baltik dənizi bölgələri vahid regiona dönür. Avropa İttifaqı ilə imzalanan sənədlər bizə daha geniş imkanlar verir".*[2] Başqa sözlə desək, Azərbaycanın Polşada keçirilən enerji sammitində iştirakı, əslində, ölkəmizin Avropaya inteqrasiyasının tərkib hissələrindən biri kimi dəyərləndirilməlidir.

Yeni neft strategiyasının zəfərləri Azərbaycanın Avroatlantik məkana inteqrasiya prosesini sürətləndirməklə, dövlətimizə sərmayə yatırılması sahəsində dönüş yaratdı. Bu günədək 33 xarici şirkətlə imzalanmış 96 neft-qaz müqaviləsi ölkə iqtisadiyyatının digər sahələrinin, həmçinin sosial infrastruktur obyektlərinin inkişafına əsaslı təkan vermişdir. Bütün müqavilələr üzrə Azərbaycanın neft-qaz sənayesinə yönəldiləcək xarici sərmayənin həcmi isə təqribən 60 milyard dollar təşkil etməlidir. İndiyə qədər bu sahəyə 17 milyard ABŞ dollarından artıq sərmayə qoyulmuşdur. Müqaviləyə uyğun olaraq indi dünyanın 16 ölkəsinin 30-dan çox neft şirkəti Xəzər dənizinin Azərbaycan sektorunda və quruda neft yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatı sahələrində çalışır. "Əsrin müqaviləsi" çərçivəsində həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanda indiyədək 50 mindən artıq yeni iş yerləri açılmışdır.

Bütün bunlardan əlavə 2017-ci il sentyabr ayının 14-də Bakı şəhərində dövlətimiz üçün tarixi əhəmiyyətli bir hadisə müşahidə edildi. Ölkəmiz 6 ölkənin 11 müəssisəsi ilə "2050-ci ilədək "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının ən altda yerləşən hissəsinin birlikdə istifadə edilməsi və neft hasilatının pay bölgüsü barəsində" sazişə düzəliş edib təkrar tərtib edilmiş müqavilə bağlandı. Əksər ölkələr üçün ani olan bu hadisənin, çox dərin keçmişi vardır. "Əsrin müqaviləsi"nin bağlanmasından sonra qazanılan təcrübə göstərir ki, tərəflər bir-birinə güvənir və əməkdaşlığı sürdürməkdə iddialıdırlar. Bu nədəndən, bağlanan yeni müqavilə ölkəmizin geosiyasi nüfuzunun artması, azad dövlət quruculuğu prosesinin müvəffəqiyyətlə tərəqqi etdirilməsi nöqteyi-nəzərindən olduqca dəyərlidir.

Ancaq uğurların içərisində ən əhəmiyyətli məqamı prezident İlham Əliyev Xəzərin Azərbaycan qismində olan "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının ən dərində olan qisminin birlikdə istifadə edilməsi və neft hasilatının pay bölgüsü barəsində düzəliş edilmiş və təkrar hazırlanmış müqavilənin imzalanması zamanı ciddi məzmunlu nitqində bildirmişdi. Prezident qeyd edib: *"Əsrin müqaviləsi" bizə imkan yaratdı ki, neftdən əldə edilən gəlirləri qeyri-neft sektoruna istiqamətləndirək. Fərz edirəm ki, bu sferada da bir çox neft hasili ilə məşğul ölkələrdən fərqli Azərbaycan dövləti nefti insan kapitalına döndürə bildi. Çünki neft xeyir, həm də şər, problem gətirmək potensialına malikdir. Bizə məlumdur ki, dünyada neftə görə öncəki dövrlərdə də, indi də mübarizə, münaqişələr getməkdədir, qan axıdılmaqdadır. Neft hasilatı hələ ölkələrin çiçəklənməsi, orada inkişafın olacağı demək deyil. Neftə malik olan bir çox dövlətlərdə bu gün müşahidə olunan mənzərə bunun əksini sübut edir. Buna görə, bizim əsas öhdəliyimiz, neft gəlirlərini insan kapitalına çevirmək və hər bir Azərbaycan vətəndaşına bu müsbət dəyişikliyi göstərməkdən ibarətdir".*[1]

Keçən 24 il müddətində "Azəri-Çıraq-Günəşli"dən 436 milyon ton neft əldə olunub. Bu vaxt Dövlət Neft Fondundan qaçqınların həyat səviyyəsinin normallaşdırılması üçün böyük məbləğdə pul ayrılıb. 250 000 qaçqın yeni inşa edilən qəsəbələrdə mənzillərlə təmin edilib. Əlavə ola-

[1] Əliyev İ.H., İnkişaf – məqsədimizdir: [113 cilddə] / İ.H. Əliyev. – Bakı: Azərnəşr, – c.24. – 2015. –408 s., s.138

[2] Əliyev İ.H., İnkişaf – məqsədimizdir: [113 cilddə] / İ.H. Əliyev. – Bakı: Azərnəşr, – c.24. – 2015. –408 s., s.139.



[1] Bakıda "Azəri", "Çıraq" və "Günəşli" yataqları üzrə yeni sazişin imzalanması mərasimi keçirilib: [Elekrton resurs] / AZƏRTAC, –Sentyabr 14, 2017/ URL:https://azertag.az/xeber/Bakida_Azeri_CHiraq_ve_Gunesli_yataqlari_uzre_yeni_Sazisin_imzalanmasi_merasimi_kechirilib_YENILANIB___4_VIDEO-1093389

raq, ölkəmizin rəhbərliyi sazişin bağlanmasından sonrakı 24 il ərzində elmə, vətəndaşların sosial təminatına çox böyük məbləğdə pul ayırıb. Onlar ölkədə elm, təhsil, texnologiyanın tərəqqisinə ciddi stimul verməkdədir. Prezident İlham Əliyev 2017-ci ilin 15 sentyabrında 20 nömrəli məktəb-liseyin yeni binasının açılışında çıxışı zamanı xüsusi məqamlara toxunub. Prezident hər bir ölkənin tərəqqisinin intellektual potensial tərəfindən təyin olunduğunu xüsusilə qeyd edib. İnnovasiyaların, texnologiyaların təkmilləşdiyi ölkələr dünya miqyasında xüsusi yer tuturlar. İlham Əliyev çıxışı zamanı qeyd edib: *"Gələcək inkişafı təbii sərvətlər deyil, bilik göstərəcək... Ölkəmizdə elmə, texnoloji tərəqqiyə çox böyük önəm verməliyik ki, cavan kadrlarımız, xalqımız bilikli olsun və Azərbaycan da innovativ tərəqqi cəhətdən inkişaf etsin. Bunun üçün bu sahəyə yatırımlar edilir".*[1]

Azərbaycanın yeni enerji müqaviləsindən alacağı yeganə bonus Ermənistan büdcəsinin gəlirlərindən 1 milyard dollar çoxdur. Qeyd etmək lazımdır ki, bu kimi faktlara görə Ermənistan və onun tərəfdarları ölkəmizin uğurundan qorxurlar və ölkəmiz haqqında etibarsız, böhtan dolu, həqiqətə uyğun olmayan məlumatlar yayaraq sakitləşməyə çalışırlar. Lakin təcrübə göstərir ki, bu cür addımlar seçilmiş milli liderlik yolunu pisləşdirmir.

Vurğulamaq olar ki, "Yeni əsrin müqaviləsi" ölkəmizə qarşı aparılan təbliğata da ağır zərbə endirməkdədir. Nəticədə aydın olur ki, ölkəmizdə neft ehtiyatları çoxdur və qüdrətli dövlətlərin müəssisələri ölkəmizlə əməkdaşlıq əlaqələri qurmaq istəyirlər və Azərbaycanın müstəqilliyi üçün ciddi addımlar atdığını, elmi-texnoloji tərəqqiyə üstünlük verdiyini bilavasitə göstərirlər. Prezident İlham Əliyev dedi: *"AR bu gün o ölkələrdəndir ki, öz hesabına yaşayır. Bizim yetərincə böyük valyuta sərvətlərimiz var, iqtisadiyyat intensiv olaraq təkmilləşir, neft-qaz amilindən*

[1] Prezident İlham Əliyev Arif Hüseynzadə adına 20 nömrəli məktəb–liseyin yeni binasının açılışında iştirak edib: [Elektron resurs]. – Sentyabr 15, 2017 / **URL:https://azertag.az/xeber/** Prezident_Ilham_Aliyev_Arif_Huseynzade_adina_20_nomreli_mekteb_liseyin_yeni_binasinin_achilisinda_istirak_edib_YENILANIB_2_VIDEO-1093781



*asılılığın azaldılması meylində çox ciddi işlər görülmüşdür və respublikamızın gələcək tərəqqisi üçün siyasi və iqtisadi əngəl yoxdur".*[1]

"Yeni əsrin müqaviləsi" ölkəmizin dövlətçilik tarixində vacib hadisələrdən biri hesab edilir. O, dövlət quruculuğunun təzə dövrə keçməsini göstərən faktorlar cərgəsindədir. Bu prosesin çox mühüm cəhəti odur ki, Azərbaycan azad dövlət strukturunu beynəlxalq dünyada nüfuzunu sürətli şəkildə artırmaqla təkmilləşdirir. Dövlətin etibarlı tərəfdaş obrazı yaradılıb. Bu mərhələnin əsasını ulu lider Heydər Əliyevin uzaqgörən neft strategiyası qoymuşdur. İndi onu Prezident İlham Əliyev zəfərlə tərəqqi etdirməkdədir. "Yeni əsrin müqaviləsi" sırf bu titanik əməyin bəhrəsidir.

## §2. Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi kontekstində İlham Əliyevin enerji siyasəti

Enerji təhlükəsizliyi hazırda dünya dövlətlərini narahat edən aktual məsələlərdən biri olaraq qalmaqdadır. Müasir dünyada ekoloji problemlər getdikcə daha kəskin xarakter qazandığından xüsusilə Avropa ölkələri ənənəvi enerji ehtiyatlarına tələbatı müəyyən dərəcədə azaldaraq alternativ enerji mənbələrinə daha çox üstünlük vermək siyasətini seçmişlər. Lakin sənayenin sürətli tərəqqisi, dünyanın əhalisinin, istehsalın, dünyanın iqtisadiyyatının toplam həcminin artması ənənəvi enerjiyə ehtiyacı da adekvat olaraq artırmaqda davam edir. 1973-ci ildə ilk neft böhranından sonra bir çox dünya dövlətləri neftdən asılılığın hansı riskləri yaratdığını anlamağa başlamışdılar. Enerji qaynaqlarının diversifikasiyası və alternativ enerji qaynaqlarının formalaşdırılması vacib çağırışa çevrilmişdi. Həmçinin, enerji alan dövlətlər təhlükəsizlik üçün bir nöqtədən asılı olmağın aradan qaldırılması məfhumuna keçid etmişlər. Bu baxımdan enerji təhlükəsizliyi dövlətlərin milli təhlükəsizliyinin quruluş elementlərindən biri kimi həlledici yerə və rola malikdir.

[1] Bakıda "Azəri", "Çıraq" və "Günəşli" yataqları üzrə yeni sazişin imzalanması mərasimi keçirilib: [Elekrton resurs] / AZƏRTAC, –Sentyabr 14, 2017. **URL:https://azertag.az/xeber/** Bakida_Azeri_CHiraq_ve_Gunesli_yataqlari_uzre_yeni_Sazisin_imzalanmasi_merasimi_kechirilib_YENILANIB___4_VIDEO-1093389

Hazırda Aİ dünyanın ən iri enerji idxalçısıdır. Statistik məlumatlara əsasən, Aİ-nin enerji sahəsində xarici qaynaqlardan asılılığı 55%-dir. Aİ-də istehlak edilən neftin 84%-ni və təbii qazın 64%-ni idxal etməkdədir. Aİ həmin enerji qaynaqlarını Şimali Afrika, Yaxın Şərq, Xəzər hövzəsi, Rusiya və Şimal dənizi vasitəsilə təmin edir.

Aİ-də neft və təbii qaz tələbatlarını ödəmək məqsədilə əhəmiyyətli bir mənbə ölkəsi Şimal dənizinin üzərində yerləşən Norveçdir. Buna görə də Avropa ölkələri təbii qazın 28,2%-ni və neftin təqribən 15%-ni Norveç vasitəsilə idxal edir. Avropa qitəsinin bir parçası olan, lakin ittifaq üzvü olmayan Norveç vasitəsilə neft və təbii qaz idxalı ilə əlaqəli heç bir problem mövcud olmasa da, mütəxəssislər Şimal dənizinin enerji mənbələrinin 2030-cu illərdə azalması ilə əlaqədar fikirlər söyləməkdədirlər. Bu da Aİ üzv ölkələrinin alternativ enerji qaynaqlarına olan marağını daha da artmasın səbəb olan amillərdən biri kimi qiymətləndirilə bilər.[1]

Aİ enerji tələbatlarını ödəmək məqsədilə Xəzər hövzəsinə də yönəlmişdi. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycan Respublikası Aİ-nin enerji tələbatlarının ödənilməsində və Xəzərdə enerji təhlükəsizliyinin təmin olunmasında ən vacib strateji mövqeyə malik dövlətlərdən birinə çevrilməsi prosesi başlamışdı. Aİ-yə görə Xəzərdə neft və təbii qaz ehtiyatlarının istehsal və Avropaya nəqli məsələlərində Azərbaycanın geosiyasi əhəmiyyətə malik açar ölkə olduğunu demək ədalətli olardı.[2]

Aİ-nin 2006-cı ildən etibarən həyata keçirilən yeni enerji siyasətinin əsas məqamlarından biri enerji təhlükəsizliyinin təmin edilməsi məqsədilə təbii qaz mənbələri və marşrutlarının diversifikasiyasına nail olmaqdan ibarətdir. Layihənin gerçəkləşməsində qaz mənbələrindən biri kimi Xəzər regionunda məhz Azərbaycan qazı, xüsusən də Şahdəniz qaz yatağı çıxış etməkdədir. Layihənin istər ilkin istismar dövründə, istərsə də növbəti fazalarda kəmərin qazla təchizatında Şahdəniz yatağı nəzərdə tutulur. 2007-ci ildən etibarən dünya bazarına artıq qaz ixracatçısı kimi çıxan Azərbaycan neft sahəsində apardığı güclü strategiyanı və zəngin təcrübəni bir qaz hasilatçısı olan ölkə kimi də davam etdirmək niyyətindədir. Azərbaycan öz qazını 4 marşrutla dünya bazarına ixrac etsə də, geniş şaxəli enerji marşrutlarının əldə edilməsi ölkəmizin də marağındadır. Bundan başqa, ölkə iqtisadiyyatının inkişafında enerji resurslarının mühüm rolunu nəzərə alaraq, əsas iştirakçılarından biri Azərbaycan olan belə iri layihənin reallaşmasının neft-qaz gəlirlərinin artmasına və bütövlükdə iqtisadi artıma təsir edir.

[1] Cerrah U., Enerji Güvenliği ve Avrupa Birliği, Enerji Diplomasisi /U. Cerrah. – İstanbul: Beta Yayınevi, – 2015. – 190 s.

[2] Memmedli E., Azərbaycan-Avropa Birliyi ilişkilerinde enerji faktörü // – Celalabat: Akademik Bakış Dergisi, – 2020. № 61, – s.206-215, s.209



Məlum olduğu kimi Azərbaycan məhz ümummilli lider Heydər Əliyevin neft strategiyasının tətbiqi nəticəsində Cənubi Qafqaz və Xəzər regionunda mühüm geosiyasi əhəmiyyətə malik olan ölkə statusunu qazanmışdır. Neft və qaz yataqlarının zənginliyi sayəsində yaradılan potensiallardan əlavə Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin qurulması, Böyük İpək yolunun bərpası ölkəmizi bölgənin lider dövlətinə çevirmişdir. Azərbaycan bir daha dünyanın neft mərkəzlərindən biri olmuş, Asiya-Qafqaz-Avropa nəqliyyat marşrutlarının, həmçinin boru kəmərləri sistemlərinin "birləşdirici arteriyasına" dönmüşdür.

Hazırkı dövrdə Azərbaycanın neft strategiyasının müvəffəqiyyətlə həyata keçirilməsi ilə yanaşı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin başçılığı ilə qaz ixracat siyasəti ilə əlaqədar strateji məqsədlər müəyyən edilməyə başlanmışdır. Azərbaycan hazırda bölgədə beynəlxalq satış mərkəzlərinə (Türkiyə, Rusiya, Gürcüstan) qaz ixrac edən tək ölkədir. Bu səbəbdən də Avropa Birliyi tərəfindən Cənub qaz dəhlizinin təminedicisi və iştirakçısı olaraq qəbul edilməkdədir. Bu strategiya istiqamətində Azərbaycan uzun bir müddətdə AB üçün strateji təbii qaz ixrac edən ölkə olmağı hədəfləyir.

Bu dövrdə Azərbaycan yalnız xammal ixracatçısı olaraq Türkiyə-Avropa sərhədində təkcə satıcı rolu ilə kifayətlənmək istəmir. Qaz strateji bir məhsuldur və bu məhsul düzgün istifadə edildiyi təqdirdə Azərbaycan və SOCAR əhəmiyyətli bir geostrateji mövqeyə çata bilər. Bu durum SOCAR-ı gələcək 20 ildə qaz firmaları və Avropanın təməl quruluşuna bağlanmaqdan, nəticədə isə iqtisadi və siyasi idarə altına düşməyə məruz qalmaqdan qorumaqdadır.

"Şahdəniz-2" layihəsinin işlənməsi, onun çərçivəsində faktiki olaraq "Nabucco"nun seçilmişi hesab olunan TANAP və TAP kimi layihələrin mühüm maliyyə ağırlığını və liderliyini öhdəsinə götürən ölkəmizin milli

iradəsi göstərdi ki, belə transmilli proyektlər təkcə ciddi səylə gerçəkləşə bilər. Ölkə başçısının Münhen konfransında danışdığı II faza üzrə emal edəcək "Şahdəniz" qazının emalı, paylaşdırılması və ixracı üzrə tələb edilən zəmanət və əminlik məsələsi yer kürəsinin aparıcı neft-qaz müəssisələri və əksər Avropa ölkələri ilə aparılan mütəmadi danışıqlardan sonra 2013-cü ilin 17 dekabr tarixində paytaxt Bakıda bağlanan "Şahdəniz-2" müqaviləsi ilə qazanıldı. Bu layihə kontekstində istehsal ediləcək təbii qazın paylaşdırılması və eksportu üzrə tərəfdaş ölkələr və müəssisələr özlərinin yekun nəticələrini qəbul etdilər.

Şahdəniz-2 layihəsi transanadolu və transadriatik boru kəmərlərinin inşası planının həyata keçirilməsini təşviq edəcək, Cənubi Qafqaz boru kəmərinin Azərbaycan və Gürcüstanda genişləndirilməsinə xidmət göstərəcək və Avropada Nabukko layihəsinin əvəzinə yeni dəhlizlər açacaq. Şahdəniz-2 layihəsinə aparan əsas yollardan biri də 18 Noyabr 2007-ci ildə başlanılan Türk-Yunanıstan qaz kəməridir. Yunanıstan, Avropa Birliyinin bir nümayəndəsi olaraq, enerji sahəsində ölkəmizlə əməkdaşlıq edir və ixracatımızdan az miqdarda qaz alır. 2013-cü ildə Albaniya, İngiltərə, Xorvatiya və digər Avropa ölkələri Şahdəniz-2 transmilli qaz layihəsi çərçivəsində əməkdaşlığa qatılmışdır.

Çünki bu mövzu əsasən Avropa ölkələrinin enerji təhlükəsizliyi zəmanəti ilə bağlı coğrafi-iqtisadi marağındadır. Cənub Dəhlizi çərçivəsində Yunanıstandan İtaliya, Albaniya və Monteneqro sərhədlərinə qaz ixrac boru kəmərinin inşası ilə bağlı bir sənəd imzalanıb. Şahdəniz-2 layihəsi üçün şərait yaradan və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən transmilli qaz ixracı siyasətində uğurlu addımlardan biri hesab edilən hadisə 2011-ci ildə diqqət çəkdi. Həmin il oktyabrın 24-də İzmirdə, Xəzər hövzəsindəki Şahdəniz-2 layihəsi ilə əlaqədar uzun illərdir müzakirə edilən Azərbaycan və Türkiyə hökumətləri arasında danışıqlardan sonra ölkəmizdəki qazın həcmi hər il təqribən 50 milyard $m^3$-ə çatdıracaq "Niyyət Protokolu" imzalanmışdır. Protokola görə Azərbaycan qazı: 1. Türkiyə boru kəmərlərindən; 2. Planlaşdırılan Cənubi Dəhlizin imkanları ilə; 3. İki ölkənin ortaq təşəbbüsü ilə yeni qurulmuş müqavilənin əlavə xərc boruları ilə Avropa bazarlarına ixrac edəcəkdir.



Cənubi Qafqaz Boru Xətti layihəsinin genişlənməsi ilə Azərbaycan potensial qaz həcminə qaynağından son istifadəçiyə qədər nəzarət edərək mənfəətlərini qorumuş olacaq. Ancaq bu nizamlama qaz ixracını yayma hədəfində olan bir ölkəni təmin etməyəcək. SOCAR-ın belə bir addım atmasının iki səbəbi var: infrastrukturun 2017-ci ildən sonra "Şahdəniz" qazını daşıya bilməsi və 2025-ci ildən sonra yeni kəşf ediləcək yataqlardan çıxan qazla birgə Azərbaycanın qaz emalının hər il 50 milyard kub metrə çıxması hədəfidir. Bunların reallaşması halında, olduqca böyük tutumda qaz nəqli SOCAR-ın Türkiyə ərazilərində dəyərlər zəncirinin alt cərgələrdəki mənfəətlərini gələcəkdə qoruya bilməsi üçün yuxarıda bəhs edilən strategiyanın inkişaf etdirilməsi ciddi zərurət olmuşdur.

2011-ci il 17 noyabrda Trans Anadolu Boru Xəttinin reallaşdırılmasının bəyan edilməsi "Cənub" qaz dəhlizində qaçılmaz bir oyunu dəyişdirmiş olmuşdur. Azərbaycan və Gürcüstan ərazilərində yerdəyişmənin ardından boru xətti SCP-nin təkmilləşdirilməsi yoluyla Türkiyə ərazisindən keçən Şərqi Nabukkonu dəyişdirəcək. Trans Anadolu Boru Xətti ilk olaraq 2011-ci ildə Türkiyə-Azərbaycan müzakirələri əsnasında "birdən nəzərdə tutulmuş" və 2011-ci ilin 25 oktyabr tarixində hökumətlərarası razılaşması ilə "əlavə bir maddə" ilə zəmanət altına alınmışdır.[1]

TANAP ilə Türkiyə bazarına 6 milyard kub metr qaz ixracı şərtinin mətnə daxil olunması SOCAR cəhətdən əhəmiyyətli idi. 6 milyard kub metr qaz olmadan TANAP-ın həyata keçirilməsi qeyri-mümkün idi. Çünki 56 düym və 31 milyard kub metr tutumlu boru xətti yalnız 10 milyard kub metrlik bir başlanğıc həcmi ilə iqtisadi baxımdan uyğun olmayacaq. Bu səbəbdən Türkiyə Böyük Millət Məclisi tərəfindən təsdiqlənmiş olan 2011-ci il 25 oktyabr tarixli hökumətlərarası razılaşmanın "tranzit" başlıqlı qismi və həmin vaxtda imzalanan BOTAŞ-SOCAR Tranzit Qaz Razılaşması qeyri-rəsmi mənada TANAP layihəsi üçün "tətbiq oluna bilməz" hökmündədir.[2]

[1] Gültekin, B. Azerbaycan-Türkiye İlişkilerinde Bir Adım: Trans Anadolu Boru Hattı (TANAP) Hazar Raporu: Ekim-Aralık, 2012 // – Ankara: Hazar Stratejık Araştırmalar Enstitusu Yayını, – 2012. №1, –s.16-32, s.16

[2] Aslanlı, A.M. Strateji əməkdaşlığın qlobal əsəri: TANAP: [Elektron resurs]. – Yanvar 30, 2013 / URL: http://www.qafsam.org/page/411/az

Nəzərə çatdırmaq lazımdır ki, Türkiyə hökumətinin müdafiə etdiyi TANAP layihəsi İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan hökuməti tərəfindən də ciddi şəkildə dəstəklənməkdədir. Əlavə olaraq, TANAP İngiltərə, ABŞ, AB və hətta Transadriatik Boru Xətti ilə Nabukko konsorsiumları tərəfindən də dəstəklənməkdədir. BP isə fərqli yanaşmalardan ötəri həm TANAP, eyni zamanda BOTAŞ şəbəkəsini dəstəkləməkdədir.[1]

TANAP-a qərar verilməsi və tikintiyə başlanması ilə bağlı zaman intervalında diqqət çəkən dörd mərhələ var. Bu dörd mərhələ aşağıda göstərilənlərdir:

I mərhələ - ön razılaşma: Xəzər dənizinin Azərbaycan olan qismində iştirak edən "Şahdəniz" yatağından II mərhələ olaraq götürüləcək təbii qazın Türkiyə vasitəsilə satın alınması, eyni zamanda da Avropa satış mərkzlərinə Türkiyə üstündən tranzit kimi nəqlini nəzərdə saxlayan Hökumətlərarası Razılaşma Azərbaycan və Türkiyə arasında 2011-ci il 25 oktyabr tarixində İzmirdə imzalandı.

İzmir-Aliağada Azərbaycan Respublikası Dövlət Neft Şirkəti - SOCAR ilə TURCAS Enerji AŞ tərəfindən tikiləcək "Ulduz" Neftayırma zavodunun təməlqoyma mərasimində Türkiyə Cümhuriyyətinin Baş naziri Ərdoğan və ölkə Prezidentimiz İlham Əliyevin də iştirakıyla reallaşdırılan toplantıda imzalanan bu razılaşmada Azərbaycan təbii qazının Avropaya tranzit daşınmasında iki fərqli alternativ diqqətə alınmışdır. Sözü gedən alternativlərdən biri Türkiyənin milli təbii qaz sistemi, digər alternativ isə əlavə bir boru xəttinin tikilməsi olmuşdur.

II mərhələ - bu layihənin ictimaiyyətə ilk elanı: Trans Anadolu Təbii Qaz Boru Xətti bir layihə kimi ilk dəfə 17 noyabr 2011-ci ildə İstanbulda təşkil olunan Üçüncü Qaradəniz Enerji və İqtisadiyyat Forumunda Azərbaycan Dövlət Neft Şirkəti – SOCAR vasitəsilə ictimaiyyətə açıqlanmışdır. SOCAR prezidenti vasitəsilə edilən açıqlamada Azərbaycanın zəngin təbii qaz ehtiyatının uzun müddətdə Türkiyə və Avropa bazarlarına nəql edilməklə Türkiyənin şərq sərhədindən başlayıb qərb sərhədinə qədər uzanan

[1] Məmmədzadə Ü.K., İlham Əliyevin xarici siyasətində TAP və TANAP layihələrinin əhəmiyyəti // – Bakı: Geostrategiya, – 2019. №6 (54), – s.93-98, s.96.



Trans Anadolu Boru Xətti layihəsi ilə əlaqədar işlərin başladığını göstərmişdir.[1]

III mərhələ - razılaşma: edilən ön razılaşmadan təqribən 2 ay sonra Türkiyə Cümhuriyyəti Enerji və Təbii Sərvətlər Nazirliyi ilə Azərbaycan Sənaye və Enerji Nazirliyi arasında "Trans Anadolu Təbii Qaz Boru Xətti" emalı ilə əlaqədar razılaşma müqaviləsi 2011-ci il 26 dekabr tarixində Ankarada imzalanmışdı.

İmzalanan razılaşma ilə "Trans Anadolu" adı verilən sözü gedən boru xəttinə yönələn işlərin intensiv başlanılması və iki ölkə vasitəsilə müəyyən edilən müəssisələrin ortaq bir konsorsium yaratmaları mövzusunda razılaşma təmin olundu.

Boru xəttinin inşası ilə əlaqəli təşkil edilən konsorsium daxilində Azərbaycan Dövlət Neft Şirkəti – SOCAR və Türkiyənin Boru Xətləri ilə Neft Daşıma Şirkəti – BOTAŞ ilə Türkiyə Neftləri Ortaqlığı – TPAO-nun ilk ortaqlar kimi iştirak etməsi qərarlaşdırılmışdır. Razılaşma müddəti çərçivəsində başqa beynəlxalq neft və təbii qaz şirkətlərinin də konsorsiuma daxil ola bilmələri diqqətə alınmışdır. Bu cür imzalanmış razılaşma ilə 26 oktyabr 2011-ci il tarixli razılaşma daha konkret hala gətirildi.

IV mərhələ - son razılaşma: Azərbaycanın "Şahdəniz-2" təbii qazının Türkiyə və Avropaya ixracı üçün yeni bir xəttin "Trans Anadolu" adı ilə tikintisi məqsədilə Türkiyə və Azərbaycanın arasında tarixi əməkdaşlığa yönümlü olaraq 27 iyun 2012-ci ildə İstanbulda imzalanan üç razılaşma ilə qədəm qoyulmuşdur.

Beləliklə, Azərbaycan tərəfindən bu layihənin həyata keçirilməsinə inam yaradan ən əsas amillərdən biri kimi İlham Əliyev şəxsiyyətini göstərmək olar. Çünki onun regionda və dünyadakı getdikcə artan nüfuzu və eləcə də rəhbərlik etdiyi Azərbaycan dövlətinin regionda lider dövlətə çevrilərək, yüksək sürətlə inkişaf etməsi belə bir strateji layihənin müvəffəqiyyətlə icra olunacağına təminat yaratmışdır.

TANAP-ın boru xətti Azərbaycanın təbii qazının Gürcüstandan keçib Türkiyə üstündən satılması və nəqlini təmin edir. Giriş nöqtəsi Türkiyənin

[1] TANAP kəmərinin yarıdan çoxu tamamlanıb: [Elektron resurs]. – Dekabr 12, 2016 / URL: http://femida.az/az/news/43749/TANAP-k%C9%99m%C9%99rinin-yar%C4%B1dan-%C3%A7oxu-tamamlan%C4%B1b

sərhədində Türkgözü olan bu xəttin Türkiyədaxili çıxış nöqtələri də Eskişehir və Trakya bölgəsidir. Bu xəttin Türkiyədən Avropaya çıxış nöqtələri isə Yunanıstanın sərhədləridir. Bu yeni xətt Türkiyə-Yunanıstan sərhədində isə TAP-la birləşərək təbii qazın Avropaya nəql olunmasını təmin edir və Avropa birliyinin enerji təhlükəsizliyində mühüm rol oynayır.[1]

Trans Anadolu Təbii Qaz Boru Xəttinin layihəsinin yatırım xərcinin təqribən 7 milyard dollar olması güman edilir. İllik istehsalda 31 milyard kub metrə kimi çatan planlaşdırılmış həmin layihənin birinci mərhələsinin altı il içərisində tamamlanması hədəfə alınır. TANAP üzrə yaradılmış konsorsiumda Azərbaycan tərəfindən Azərbaycan Dövlət Neft Şirkəti – SOCAR ilə Türkiyədən BOTAŞ və TPAO birinci ortaqlar kimi iştirak edir. TANAP Konsorsiumu üzrə Türkiyəni BOTAŞ və TPAO şirkətləri 20 % paya, Azərbaycanın SOCAR şirkəti isə 68 % paya sahibdir.[2]

Bu layihənin icrası Türkiyədə və Azərbaycanda yeni iş yerlərinin açılması üçün çox vacibdir. Azərbaycan və Türkiyə ilə əməkdaşlıq irimiqyaslı neft emalı layihələrinin əsasını qoydu. Bu iki böyük layihəni nəzərə alsaq, Azərbaycanın SOCAR olaraq Türkiyədəki investisiyası 17 milyard ABŞ dollarına çatacaq. Bu səbəbdən Türk sənayesinə investisiya qoyan ən böyük ölkə Azərbaycan, ən böyük şirkət isə SOCAR olacaqdır. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri və TANAP və Petki neft emalı layihələri ilə bağlı Türkiyə ilə razılaşmanın ardınca Azərbaycan qardaş Türkiyənin Regional enerji dəhlizləri və enerji bazaları olmasına kömək etdi və bununla da iqtisadi və geosiyasi strategiyaları gücləndirəcəkdir. Bir çox sənaye üçün vacib olan bu layihə başa çatdıqda, bu xəttin təbii qazının bir hissəsi (6-10 milyard kubmetr) Türkiyə bazarına, bir hissəsi (10-25 milyard kubmetr) təbii qazla təmin ediləcəkdir, qaz Avropa ölkələrinə satılacaqdır.[3]

---

[1] Маммедзаде У.К., Роль Ильхама Алиева в становлении в регионе независимой Азербайджанской Республики в лидер государство // Актуальні питання та проблеми розвитку сучасноі цивілізації: історичні, соціологічні, політологічні аспекти, міжнародна науково–практична конференция, – Херсон: – 2015, с. 74-77, s.75

[2] Rzayeva G., TANAP – Hazar Gazını Avrupa'ya Taşıyan Atılım Projesi Hazar Raporu: Ekim–Aralık, 2012 // – Ankara: Hazar Stratejık Araştırmalar Enstitusu Yayını, – *2012. №1, – s.36-55*, s.36-37

[3] Suleymanov E., Aras O.N., The Importance of Azerbaijan's Energy Revenaues in Its Exports Volume and the Effects on the National Economy // International Conference on Eurasian Economies, – Almaty: –11-13 October, – 2012, p.225-232, p.227



24 yanvar 2018-ci il tarixində İsveçrənin Davos şəhərinə səfəri zamanı Azərbaycan Prezidenti Avropa Enerji Komissiyasının vitse-prezidenti Maroş Şevçoviç ilə görüşdü və Cənub Qaz Kəməri layihəsinin icrası ilə bağlı fikir mübadiləsi etdi. TANAP və TAP boru kəmərlərinin maliyyələşdirilməsi, TANAP qaz boru kəmərlərinin idxalı, Şahdəniz-2 yatağından ilk qaz hasilatı və digər əsas məsələlər müzakirə edildi. Qısa müddət sonra 15 fevral tarixində Bakıda Cənubi Qaz Kəməri Məsləhət Şurasının 4-cü Nazirlər Konfransı keçirildi. Tədbirdə Cənubi Qaz Kəmərinin dörd hissəsində də yaxşı irəliləyişlərin olduğu - Şahdəniz-2 yatağındakı işlərin 99 faizindən çoxunun tamamlandığı, Cənubi Qafqaz Boru Kəməri üzərində işlərin təxminən 95 faizinin başa çatdığı qeyd edildi.[1]

Türkiyənin Baş naziri Binəli Yıldırım 2018-ci ilin mart ayında Azərbaycana səfəri zamanı İlham Əliyev bildirdi: *"Bu il TANAP proyektinin istifadə olunmasını biz birlikdə qeyd edəcəyik. Bu, tarixi proyektdir və uğurla başa çatır, ölkələrimizi bir-birinə daha da sıx bağlayacaq, eyni zamanda, bu layihədən yararlanan dövlətlər üçün də yeni yollar açacaq. Ötən il biz BTQ dəmir yolunun açılışını təntənəli qeyd etdik. BTC və TANAP-dan sonra bu, üçüncü tarixi layihəmizdir. Ölkələrimiz bu layihəni birlikdə icra edirlər. Yəni, bütün sahələrdə bizim əməkdaşlığımızın çox gözəl nəticələri var".* B.Yıldırım da Azərbaycan, Türkiyə və Gürcüstanın Qafqaz regionunda həyata keçirdikləri layihələrin - BTQ dəmir yolu, Bakı-Tbilisi-Ceyhan neft, TANAP, BTƏ təbii qaz layihələrinin təkcə region üçün əhəmiyyət daşımadıqlarını qeyd etdi. Onun sözlərinə görə, *"Bunlar Avropanın da enerji təhlükəsizliyini təmin edən layihələrdir".*[2]

2012-ci ildə Azərbaycan və Türkiyənin baş nazirləri tərəfindən imzalanmış TANAP layihəsi əsasında iki ölkə Azərbaycan təbii qazının Türkiyə ərazisindən keçməklə yeni transmilli təbii qaz kəməri ilə Avropa bazarına çıxarılması üçün əsas şərtləri razılaşdırdı. Layihəyə görə, Azərbaycanın təbii qazının BTƏ və digər boru kəmərləri (cənub qaz dəhlizi) vasitəsi ilə

---

[1] Cənub Qaz Dəhlizi Məşvərət Şurası Çərçivəsində Nazirlərin 4-cü toplantısı keçirilib: [Elektron resurs]. – Fevral 15, 2018 / URL: http://cbc.az/az/az/v_story/cnub–qaz–dhlz–mvrt–urasi–rvsnd–nazrlrn–4–c–toplantisi–kerlb

[2] Prezident İlham Əliyev: TANAP layihəsi Azərbaycan və Türkiyəni bir–birinə daha sıx bağlayacaq: [Elektron resurs]. – Mart 14, 2018 / URL: https://az.trend.az/azerbaijan/politics/2873003.html

Gürcüstan sərhədinə və oradan da Türkiyənin cənub-qərbindəki Avropa ölkələrinə nəql edilməsinin təmin edilməsi üçün istifadə ediləcəkdir.[1]

Məlumdur ki, ölkəmizin neft və qaz məhsullarının Türkiyə üzərindən dünyanın hər yerindəki ticarət mərkəzlərinə ixracı yeni, daha rahat və səmərəli ixrac marşrutları və əlverişli yerlər təmin edən digər seçimlərlə yanaşı Türkiyənin neft və qaz ixracatı üçün ən böyük strateji bir ittifaqdır.

Bütün bu çətin proseslərin sonunda Azərbaycan tərəfindən də TANAP layihəsinin seçilməsində həlledici rol Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə aid olmuşdur. Məhz onun diplomatik səyləri nəticəsində Azərbaycan transmilli dünyanın yardımı ilə regionun neft-qaz hasili və eksportu sahəsindəki geoiqtisadi mövqelərini gücləndirib, həm də özünün etibarlı tərəfdaş imicini qoruyub saxlayıb.

Bundan əlavə Prezident İlham Əliyevin 2006-cı ilin noyabrında Belçikaya səfəri zamanı ölkəmizlə Avropa Birliyi arasında enerji təhlükəsizliyi sahəsində birgə əməkdaşlıq üzrə əməkdaşlığın formalaşdırılması müzakirə edilmişdir. 7 Noyabrda Azərbaycan və Avropa Birliyi Strateji Enerji Tərəfdaşlığına dair Anlaşma Memorandumu imzaladılar. Sənəddə Avropa Birliyi ilə Azərbaycan arasında enerji tərəfdaşlığı, Azərbaycanın Avropa enerji bazarlarındakı mövqeyi göstərilmişdir. Memorandumun imzalanmasından sonra ekspertlər Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin bərpasında və Xəzər və Avropada qaz nəqli layihələrinin həyata keçirilməsində əsas rol oynayacağını proqnozlaşdırırlar. Azərbaycan qazının birbaşa Avropaya nəqlinə yönəlmiş Şahdəniz-2, Tanap və Tap kimi yeni beynəlxalq layihələr dünyanın ən böyük enerji layihələrindən biridir. Razılaşmaya əsasən, layihə 45 milyard dollar investisiya cəlb edəcək və 30.000 yeni ofis yaradacaq. Layihə daxilinə 26 dəniz quyusunun qazılması və körpünü birləşdirən iki platforma, yeni sistem və kompressor avadanlıqlarının inşası daxildir.[2]

Nabukko layihəsinin çökməsi və uzanması Azərbaycanın ciddi addımlar atmasına və alternativ kimi qəbul edilə bilən Şahdəniz-2 marşrutu ilə

---

[1] TANAP kəmərinin yarıdan çoxu tamamlanıb: [Elektron resurs]. – Dekabr 12, 2016 / URL: http://femida.az/az/news/43749/TANAP–k%C9%99m%C9%99rinin–yar%C4%B1dan–%C3%A7oxu–tamamlan%C4%B1b

[2] Дарабади П.Г., Кавказ и Каспий в мировой истории и геополитике XXI века / П.Г.Дарабади. –Москва: Весь Мир, – 2010. – 216 с., s.125



bağlı razılığa gəlməsinə səbəb oldu. Razılaşma Şahdəniz qazı ilə maraqlanan ölkələrin geosiyasi və geoiqtisadi mövqelərini gücləndirdi, maliyyələşdirmə, tranzit, etibarlı bazar və digər məsələlərdə prinsipial bir razılığa gəldi və Azərbaycanı uzun illər təbii qaz tədarükündə Avropa ilə əməkdaşlıq etməyə təşviq etdi və qlobal enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı tərəfdaş rolunu artırmışdır. 20 sentyabr 2014-cü il tarixində Bakıdakı Səngəçal terminalında Şahdəniz-2 layihəsindən Türkiyəyə, daha sonra Cənub Qaz Dəhlizini genişləndirərək Avropaya təbii qaz tədarükünün təməli qoyulmuşdur. TANAP və TAP bu prosesin başlanğıcı idi.

Sensasiyalı proqrama Prezident İlham Əliyev, Bolqarıstan Prezidenti Rosen Flevnilev, Yunanıstan Baş naziri Antonis Samaras, Gürcüstanın Baş naziri İraq Qaribashvili, Monteneqronun Baş naziri Milo Dukanoviç, Türkiyənin Enerji və Təbii Sərvətlər Naziri Tanner Yıldız, Şirkət nümayəndələri qatıldı. Bu münasibətlə danışan İlham Əliyev, *"Bu layihə Avropanın mövcud enerji xəritəsini kökündən dəyişdirəcək və bütün iştirakçı ölkələrə müsbət dividentlər gətirəcək. 20 il əvvəl neft sektorunda "Əsrin müqaviləsi" imzalandı. Bakı-Tbilisi, BTE Neft və Qaz Boru Kəmərini inşa etdi. XXI əsr layihəsi və Xəzər hövzəsi alternativ qaz mənbələrinin dünya bazarına ən azı 100 il çıxarılmasına imkan verəcəkdir"* deyə bildirdi.[1]

Xəzərin Azərbaycan sektorunda qaz-kondensat yataqları ilə dolğun olduğu nəzərə alınarsa, "Cənub Qaz Dəhlizi" sistemi elə şəkildə layihələndirilib ki, gələcəkdə mümkün əlavə qaz tutumlarının təchiz olunması üçün onun seqmentlərinin hər birinin, həmçinin, TAP-ın ötürücülük gücü çoxaldıla bilsin. Gələcəkdə Türkmənistan və Qazaxıstan Avropa bazarına özünün böyük qaz ehtiyatları ixrac etmək məqsədilə yerinə yetirilən infrastrukturdan istifadə etməsi mümkündür. Həm də İran və İraqın da qaz və enerji resurslarının əlavə olunması mümkündür. Bu, Xəzərdən Avropanın göbəyinə uzanan yolda bütün dövlətlərə fayda verməsi üçün nəzərdə saxlanılan unikal bir layihə hesab olunur. CQD Xəzərin qaz ehtiyatlarını ilk dəfə dərhal Avropa bazarlarına aparıb, tam regionun enerji xəritəsini dəyişməkdədir. Başqa tərəfdən, təbii qaz 2040-cı ilə kimi ildə 1,5-1,8% artan ən tez hasil olunan yanacaq növü olması planlaşdırılır. Bu dövrdə qlobal toplam təbii

---

[1] Hacalıyev E., Müstəqil inkişaf yolu // Azərbaycan. – 2016, 11 dekabr. – s.4

qaz ixracının 50% artması nəzərdə tutulur və ekspertlərin proqnozlarına əsasən, Avropa bazarı bu artımın əksərini özünə cəlb etməyi planlaşdırır ki, bu da CQD infrastrukturunun mühümlüyünü bir daha artırmış olacaq.

Layihənin mühümlüyü ilə əlaqəli tanınmış Amerika nəşri "Foreign Policy"də dərc edilmiş, müəlliflərin Lük Koffi və Əfqan Nifti olduğu "Azərbaycan Qərbə nəyə görə lazımdır?" məqaləsində də bu suallar cavablandırılır, Azərbaycanın Şərqlə Qərb arasında enerji təchizatı, mal dövriyyəsi və rəqəmsal kommunikasiyalarda mühüm rol oynadığı bildirilir.[1]

Prezident İlham Əliyev fevralın 14-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində "Enerji təhlükəsizliyi" mövzusunda keçirilən dəyirmi masadakı çıxışında 2019-cu ildə Cənub Qaz Dəhlizinin əsas seqmentlərindən biri olan TANAP-ın istifadəyə verilməsini əlamətdar hadisə kimi dəyərləndirərək vurğulayıb: *"Keçən il dövlətimiz və hesab edirəm ki, Avropanın enerji təhlükəsizliyi üzrə əlamətdar olmuşdur. Çünki biz tərəfdaşlarımız ilə birgə artıq Türkiyə-Yunanıstan sərhədinə çatmış əsas qaz kəməri hesab olunan TANAP-ı uğurla başa çatdırdmışıq. Bu, o mənanı verir ki, Cənub Qaz Dəhlizinin dörd seqmenti içində üçü artıq zəfərlə tamamlanmışdır. Sonuncu seqmentdən danışsaq, TAP layihəsi cari ilin axırında tamamlanmalıdır. Beləcə, 3,5 min kilometr uzunluğu ilə inteqrasiya edilmiş kəmər sisteminin artıq istismara verilməsi planlaşdırılır. Bu, bölgəmizdə əsas infrastruktur layihələrindən biri hesab edilir. Bu, mütləq ki, bizim və tərəfdaşlarımız üçün, həm də Avropanın enerji təhlükəsizliyi üçün çox əhəmiyyətlidir"*.[2]

Yuxarıda bəhs olunan dəyirmi masada da vurğulandığı kimi, bu gün Cənub Qaz Dəhlizi yeddi ölkəni - Azərbaycan, Türkiyə, Gürcüstan, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliyanı qovuşdurur. Üç Balkan ölkəsi – Monteneqro, Xorvatiya, eləcə də Bosniya və Herseqovina da ikinci fazada layihəyə qoşulmaqla bağlı artıq Anlaşma Memorandumu imzalayıb. Həm texniki, həm də qaz ehtiyatları baxımından bu mümkündür. Beləliklə, Azərbaycanla Cənub Qaz Dəhlizi üzərində işləyən ayrı-ayrı ölkələr öz tarixlə-

[1] Luke C., Efgan N., Why the West needs Azerbaijan: [Electronic resource]. Foreign Policy – 2018 / URL: https://foreignpolicy.com/2018/05/28/why-the-west-needs-azerbaijan/

[2] Abdullayev M., Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu artır: [Elektron resurs]. – Fevral 18, 2020 / URL: **https://www.yeniazerbaycan.com/ Siya set e52 264 az.html**



rində ilk dəfə alternativ təchizat mənbələrinə malik olmaq imkanı qazanacaqlar. Vacib məqam həm də ondan ibarətdir ki, burada söhbət yalnız marşrutun deyil, həm də mənbənin şaxələndirilməsindən gedir. Bunu xüsusi olaraq nəzərə çatdıran Prezident İlham Əliyev *"Bizim timsalımız ilə Azərbaycanın qazının Avropa, Türkiyə bazarına nəqli yeni resurs və yeni istiqamətdir. Fərz edirəm ki, bu, layihəmizin prioritetidir və bu səbəbdən də Avropa İttifaqı dəstək olur"*, - deyə vurğulayıb.[1]

Cənub Qaz Dəhlizi layihəsinin əhəmiyyətini daha da aydınlaşdırmaq baxımından 2019-cu il noyabrın 30-da Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimindəki Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışına nəzər salmaq məqsədəuyğun olar. AR Prezidenti öz çıxışında bildirmişdi: *"Ərz etməliyəm ki, bu layihələrin icra edilməsi Türkiyə-Azərbaycan müştərək siyasi iradəsinin məhsulu, həmçinin, biz bunu başqa ölkələrin iştirakı və özəl şirkətlərin maliyyə dəstəyi vasitəsilə reallaşdırmışıq. İndi Cənub Qaz Dəhlizi üzərində 7 ölkə birləşir və bu, demək ki, beynəlxalq əməkdaşlıq layihəsidir.... Bu layihədə iştirakçı olan 7 ölkə, -və onlardan üçü Avropa İttifaqına üzvdür,- daha sonra uzun illər birgə çalışılacaq və bunun faydasını bölüşəcəklər. Bu o deməkdir ki,, bu layihə işbirliyi, stabillik, uzunmüddətli razılaşma gətirir. Bir sözlə, bu layihələr, sadəcə, enerji layihələri olaraq baxılmaq üçün deyil. Bunu da söyləməliyəm ki, enerji layihələrimiz başqa layihələrə də yol açmışdır. İki il bundan öncə hörmətli qardaşım, Prezident Ərdoğan ilə birgə Bakıda Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı qeyd edildi. İndi Bakı-Tbilisi-Qars dəmir yolu ilə həm Azərbaycan, həm Orta Asiya dövlətlərinin, həm də Əfqanıstan və Çinin yükləri daşınmaqdadır. Həmin dəmir yolu qitələri birləşdirməkdədir. Bizim boru xətlərimiz kimi"*.[2]

Ölkə prezidentinin çox düzgün olaraq vurğuladığı kimi həyata keçirilən bu enerji layihələri yalnız bu sahəyə öz təsirini göstərmir. Belə layihələr bir daha Azərbaycanın əlverişli geosiyasi, geostrateji və geoiqtisadi mövqeyini

[1] Abdullayev M., Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu artır: [Elektron resurs]. – Fevral 18, 2020 / URL: **https://www.yeniazerbaycan. com/Siyaset e52264 az.html**

[2] İlham Əliyev Türkiyənin İpsala qəsəbəsində TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimdə iştirak edib: [Elektron resurs]. – Noyabr 3, 2019 / URL: **https://president.az/** articles/35054

sübut edir və gələcəkdə yeni kommunikasiya layihələrinin həyata keçirilməsi üçün zəmin rolunu oynayır.

Ümumiyyətlə, Azərbaycan və Avropa İttifaqı arasında həyata keçirilən əməkdaşlıq çoxvektorlu xarakterə malikdir. Bu istiqamətlərə nümunə kimi siyasi dialoqun yüksək səviyyədə aparılması, Azərbaycanda müxtəlif sahələrə investisiya qoyuluşlarını, enerji sektorunda əməkdaşlığı və s.i göstərmək olar. Rusiyanın 2022-ci ilin fevralında Ukraynada başlatdığı müharibədən sonra Aİ Rusiyaya qarşı çoxsaylı sanksiyalar tətbiq etməyə başlamışdır və bu səbəbdən Avropa üçün alternativ enerji təchizatçısı olan Azərbaycanla bu sahədə əməkdaşlığı daha da sıxlaşdırmışdır.

Avropa İttifaqına daxil olan dövlətlərdən 9-u ilə Azərbaycan arasında strateji tərəfdaşlıq barədə saziş imzalanmışdır. Avropa İttifaqı və Azərbaycan arasında təkmil hüquqi baza əsasında tənzimlənən yüksək səviyyədə iqtisadi əməkdaşlıq da diqqətəlayiqdir. Statistik göstəricilərə əsasən demək olar ki, Aİ Azərbaycanın əsas ticarət tərəfdaşı kimi çıxış edir. Avropa İttifaqının Cənubi Qafqazla ümumi ticarət dövriyyəsində lider mövqe Azərbaycana aiddir.

Aİ üçün Azərbaycan dövləti investisiya cəlbediciliyi nöqteyi-nəzərindən özünün prioritetliyini qoruyub saxlamaqdadır. Avropa İttifaqı koronovirus pandemiyasından əvvəlki dövrdə, yəni 2019-cu ildə Azərbaycan iqtisadiyyatına 2.6, Gürcüstan iqtisadiyyatına 1.2, Ermənistan iqtisadiyyatına isə 1 milyard avro həcmində investisiya qoyuluşu etmişdir. Azərbaycan Respublikası və Aİ 2021-ci ildə ticarət dövriyyələrini 15 milyard dollara qədər artırmışlar. Azərbaycanın ixrac tərəfdaşları sırasında Aİ-yə daxil olan dövlətlərdən biri olan İtaliya 48 % payla birinci yerdə qərarlaşmışdır. Buna müvafiq olaraq da Aİ-nin Cənubi Qafqaz ölkələri ilə ticarət dövriyyəsində 2/3 pay Azərbaycana aiddir.[1]

Yuxarıda da qeyd edildiyi kimi, enerji sahəsində əməkdşlıq Avropa İttifaqı ilə Azərbaycan arasındakı iqtisadi əlaqələrin əhəmiyyətli bir hissəsini təşkil edir. Artıq bir neçə onillikdir ki, Azərbaycan Respublikası Avropa regionunun enerji təhlükəsizliyinin təminində vacib rol oynayan ölkələrdən

[1] Əliyev A., Azərbaycan Avropa İttifaqı üçün etibarlı tərəfdaşdır: [Elektron resurs]. – İyul 20, 2022 / URL: **https://ikisahil.az/post/330686–azerbaycan–avropa–ittifaqi–uchun–etibarli–terefdashdir**



birinə çevrilmişdir. Avropa üçün Azərbaycan etibarlı və yeni enerji mənbəyi hesab edilir. 2021-ci ilin əvvəllərindən başlayaraq AR Avropa bazarlarına neftlə yanaşı, təbii qaz da ixrac etməyə başlamışdır. Aİ Rusiya-Ukrayna müharibəsi səbəbindən Rusiya ilə yaranan gərginliklər fonunda artan enerji tələbatlarının təmini üçün Azərbaycandan daha çox həcmdə “mavi yanacaq” idxal etmək istəyir. Artan tələbatı qarşılamaq üçün Azərbaycan geniş imkanlara sahibdir və 2023-cü ildə də Aİ ilə bu sahədə ixrac həcminin çoxaldılması planlaşdırılır. Bu il AR-in “mavi yanacaq” ixracının ümumi həcminin 22 milyard kubmetrdən çox olacağı proqnozlaşdırılır.

AR Prezidenti İlham Əliyev və Avropa Komissiyası Prezidenti xanım Ursula Fon der Lyayen tərəfindən 2022-ci ilin 18 iyulunda Bakıda “Aİ və Azərbaycan arasında enerji sektorunda strateji tərəfdaşlığa dair” Anlaşma Memorandumunun imzalanması baş tutmuşdur. Bu sənədin imzalanmasını Azərbaycanın enerji resurslarının daha çox inkişaf etdirilməsi yönündə baş vermiş olduqca əhəmiyyətli addım kimi qiymətləndirmək olar. Aİ ilə əməkdaşlıq çərçivəsində qarşıya qoyulmuş ixrac hədəflərinə nail olunması üçün Cənub Qaz Dəhlizinin müxtəlif seqmentlər üzrə genişləndirilməsi zəruridir. Bu səbəbdən TANAP-ın ötürücülük qabiliyyəti 16 mlrd $m^3$-dən 32 mlrd $m^3$-ə, TAP-ın ötürücülük qabiliyyəti isə 10 mlrd $m^3$-dən ən azı 20 mlrd $m^3$-ə çatdırılması nəzərdə tutulmuşdur.[1]

Avropanın enerji təhlükəsizliyində Azərbaycanın artmaqda olan rolu 2 sentyabr 2022-ci ildə “The European House - Ambrosetti” beyin mərkəzi İtaliyanın Çernobbio şəhərində keçirdiyi və mövzusu “Dünya, Avropa və İtaliyaya baxış” və “Rəqabətli strategiyalar üçün bu günün və sabahın ssenarisi” olan 48-ci Beynəlxalq Çernobbio Forumu zamanı xüsusilə diqqətə çatdırılmışdı. Həmin mötəbər tədbirdə başlıca qonaqlardan olan Prezident İlham Əliyev öz çıxışında müstəqil Azərbaycan dövlətinin uğurlu enerji siyasətində üç mərhələ fərqləndirmişdir. Belə ki, onun fikrincə, ilk iki mərhələ neft və qaz istehsalı və ixracı prosesini əhatə edir. AR-in enerji strategiyasındakı kəmiyyətcə üçüncü, keyfiyyət etibarı ilə yeni olan mərhələ isə bərpaolunan enerji istehsalı ilə əlaqədardır.

[1] Əliyev A., Azərbaycan Avropa İttifaqı üçün etibarlı tərəfdaşdır: [Elektron resurs]. – İyul 20, 2022 / URL: **https://ikisahil.az/post/330686–azerbaycan–avropa–ittifaqi–uchun–etibarli–terefdashdir**

AR-lə Avropa İttifaqı arasındakı əməkdaşlıqda "Yaşıl enerji" dialoqu yeni səhifəni təşkil edəcək. Prezident İlham Əliyev Çernobbio Forumundakı çıxışında bu məqama da diqqət yetirərək bildirmişdi: *"Artan tələbatın təmini üçün bizim sıx əlaqələndirmə və əməkdaşlığa ehtiyacımız var. Biz artıq bu məqsədlə rəsmi şəkildə Aİ və Azərbaycan arasındakı enerji ilə əlaqədar dialoqa başlamışıq. Buraya təkcə təbii qaz yox, eləcə də enerji bazarındakı digər seqmentlər də daxil ediləcək, xüsusilə elektrik enerjisi, hidrogen və yaşıl hidrogen. Bu yolla biz AR-in enerji strategiyasındakı üçüncü mərhələyə gəlib çıxmışıq. Bu mərhələ bərpaolunan enerji mənbələrinin inkişafına investisiyaların qoyulmasıdır."*[1]

Müasir dünyada qlobal olaraq formalaşmış başlıca çağırışlardan biri enerji keçidinin təmini ilə əlaqəlidir. Yeni geosiyasi reallıqların kontekstində Aİ-yə daxil olan ölkələrdə enerji transformasiyasını sürətləndirməyə və bu istiqamətdə bir sıra zəruri tədbirlər görməyə başlanılmışdır. Avropa Komissiyası tərəfindən hazırlanan və hal-hazırda həyata keçirilməkdə olan xilas planında həmin enerji keçidi haqqında vacib maddələr yer almışdır. Müasir dünyanın faydalı tendensiyalarına uyğunlaşmağa çalışan Azərbaycan da öz növbəsində bərpaolunan enerji potensialından effektiv şəkildə istifadə etməyi nəzərdə tutur. Bu baxımdan artıq Avropa ilə Azərbaycanın enerji sahəsindəki dialoqu təkcə neft və qazı deyil, eləcə də enerji bazarının digər seqmentlərini, ən əsası da elektrik enerjisi, hidrogen və yaşıl hidrogen enerjisini əhatə etməsi nəzərdə tutulur. Onu da qeyd etmək lazımdır ki, Azərbaycanın bərpaolunan enerji sahəsindəki potensialı kifayət qədər çoxdur. Bu sahədə yalnız Xəzərin Azərbaycan sektorunda təsdiq olunmuş potensial 157 qiqavata bərabərdir.

Ümumiyyətlə, Azərbaycanda elektrik enerjisi istehsalı mənbələrinin şaxələndirilməsi imkanları kifayət qədər geniş hesab edilir. Ölkəmizdə bərpaolunan enerji mənbələrinin potensialı 26 940 MVt, o cümlədən külək enerjisi üzrə 3 000 MVt, günəş enerjisi üzrə 23 040 MVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı 520 MVt həcmində qiymətləndirilir. Hazırda bərpaolunan enerji mənbələri üzrə elektrik stansiyalarının gücü 1300,7 MVt-dır ki, bu da ölkənin ümumi elektrik enerjisi istehsalı gücünün təx-

---

[1] İlham Əliyev İtaliyanın Çernobbio şəhərində keçirilən beynəlxalq forumda iştirak edib: [Elektron resurs]. – Sentyabr 2, 2022 /URL: **https://president.az/az/articles/view/57093**



minən 17,3%-ni təşkil edir. Bundan əvvəlki dövrdə 2030-cu ilədək Azərbaycanın enerji balansında bərpaolunan enerji seqmentinin payının 30 %-ə çatdırılması planlaşdırılırdı. Lakin AR Prezidenti İlham Əliyev bu rəqəmin 40 %-ə çatdırılmasının mümkün olacağını bəyan etmişdi.[1] Bu hədəfin həyata keçirilməsi tamamilə realdır. 2022-ci ilin əvvəllərindən başlayaraq bir sıra Avropa şirkətləri ilə Azərbaycanda yeni bərpaolunan enerji stansiyaları tikilməsi haqqında yeni sazişlər imzalanmışdır və həmin stansiyaların işə başlamasından sonra ölkəmizdə bərpaolunan mənbələrdən alınan elektrik enerjisinin həcmində daha böyük artımların olması proqnozlaşdırılır.

Azərbaycan Respublikasının bərpaolunan enerji mənbələrindən böyük bir hissəsi təxminən 30 il ərzində Ermənistan işğalı altında olan Qarabağ iqtisadi rayonunda cəmləşmişdir. II Qarabağ müharibəsinin bitməsindən sonrakı qısa zaman müddətində həmin rayonlarımızda 4 su elektrik stansiyası artıq tikilib istifadəyə verilmiş, 5 stansiyanın tikilməsi isə hələ davam etməkdədir. Yaxın gələcəkdə isə işğaldan azad edilmiş rayonlarımızda daha 18 kiçik SES-in tikilməsi planlaşdırılır. Eyni zamanda Laçın-Kəlbəcər rayonlarında 100 MVt gücündə külək elektrik stansiyasının tikilməsinə hazırlıq aparılır. Cəbrayıl rayonu ərazisində isə gücü 240 MVt olan günəş elektrik stansiyasının tikilməsinə dair BP ilə danışıqlar aparılmaqdadır. Həmin ərazilərin cənubunda salınacaq ikinci "ağıllı kənd"də isə 50 meqavat gücə malik olacaq günəş elektrik stansiyası tikilməsi planlaşdırılmışdır.[2]

Azərbaycan dövlət başçısı İlham Əliyev 2022-ci ilin 18 iyulunda Avropa Komissiyası Prezidenti xanım Ursula Fon der Lyayen ilə görüşdəki çıxışında elektrik enerjisinin Azərbaycandan Avropaya mümkün ola biləcək ixrac marşrutları haqqında da danışmışdır. Dövlət başçısının sözlərinə əsasən demək olar ki, Azərbaycan özünün enerji sistemini Gürcüstan, Türkiyə və Bolqarıstan keçməklə Avropa məkanı ilə əlaqələndirilməsinə imkan yaradan infrastruktura malikdir. Həmin marşrut üzrə müəyyən əlavə işlər həyata keçirməklə Azərbaycandan Aİ ərazisinə ixrac edilən elektrik enerjisinin həcmini çoxaltmaq mümkündür. Digər marşrut isə enerji təchizatı üzrə əhəmiyyətli potensiala malik Zəngəzur dəhlizindən keçməklə təşkil edilə bilər.

---

[1] Azərbaycanla Aİ arasında "yaşıl enerji" dialoqu: [Elektron resurs]. – Sentyabr 8, 2022 / URL: **https://www.yeniazerbaycan.com/Gundem_e73810_az.html**

[2] Yenə orada

İlham Əliyevin artıq ənənə halını almış mətbuat nümayəndələri ilə görüşlərindən biri zamanı jurnalistlərdən birinin ölkəmizin enerji potensialına tələbatın artması və bunun Azərbaycan üçün hansı yeni imkanlar açması barədə sualına cavab verərkən də o, Avropa ölkələri ilə enerji sahəsində əməkdaşlığa dair son məlumatları ictimaiyyət ilə bölüşmüş və Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rolun əhəmiyyətini bir daha vurğulamışdır.

Prezident İlham Əliyev həmin suala cavab verərkən qeyd etmişdir: "Biz hal-hazırda bir neçə dövlətlə enerji mövzusunda danışıqlara başlamışıq. Həmin ölkələr bundan əvvəl bizim tərəfdaşımız olmamışdı. Rusiya-Ukrayna müharibəsi başlayana qədər nəzərdə tutulmuş layihələrin hamısı, demək olar ki, plan üzrə yerinə yetirilirdi. Bakıda hər il təşkil edilən "Cənub Qaz Dəhlizi"nin Məşvərət Şurasının iclaslarında Cənub Qaz Dəhlizindəki sonuncu seqment olan TAP layihəsinin artıq müvəffəqiyyətlə başa çatması ilə əlaqədar fikir mübadiləsi aparılırdı. Lakin gələn ay təşkil ediləcək "Cənub Qaz Dəhlizi"nin növbəti Məşvərət Şurası zamanı yeni mövzuların müzakirə olunması və iştirakçı ölkələrin sayının da artması gözlənilir. Məsələn, belə hesab edirdik ki, TANAP layihəsinin bitməsi bu sahədə faktiki olaraq bizim əsas fəaliyyətimizin də bitməsi demək olacaq. Bundan sonra, yalnız mövcud infrastrukturumuzdan istifadə edərək Azərbaycanın qaz resurslarını ixrac etməklə məşğul olacağıq. Ancaq baxın görün ki, Rumıniya hökumətinin xahişinə əsasən artıq 2023-cü ilin yanvarından biz Rumıniyaya qaz ixrac etməyə başlamışıq. Çünki 2022-ci il ərzində Rumıniyanın energetika naziri 2 dəfə ölkəmizə səfərə gəlmiş və ilin sonunda Rumıniyaya mənim səfərim keçirilmişdi. Eyni zamanda bizim müvafiq qurumlarımız arasında danışıqlar aparılır və artıq interkonnektor fəaliyyətə başlayandan sonra texniki imkanlar yarandı. Təbii ki, texniki imkana malik olmadan biz qaz ixracatında coğrafiyanı genişləndirə bilmərik, həmin texniki imkanlar isə Avropa regionunda bizim səlahiyyətimiz çərçivəsində deyil. Yəni, Avropa ölkələrinin özləri bu texniki imkanları həll edir və bağlantılar nə qədər çox olarsa, bizim potensial müştərilərimiz də bir o qədər çox olacaqdır.

İndi mən zamanından öncə nəyisə elan edilməsini istəmirəm, amma Rusiya-Ukrayna müharibəsi başladıqdan sonrakı dövrdə 10-dan artıq ölkədən bizə müraciətlər edilmişdir. Həmin ölkələrdən bəzisi hal-hazırda bizim qazımızı alan ölkələrdir, onlar əlavə qaz təchizatının təmin edilməsini istəyirlər. Bəzi ölkələr isə bizdən heç vaxt qaz almırdılar, lakin onlar da öz növbəsində bu proqrama qoşulmaq istəklərini bildirirlər. Əlbəttə ki, bu baxımdan Azərbaycanın rolu artır, biz də bu şəraitdən istifadə etməliyik... ...Nəzərə alsaq ki, biz çox böyük resurs bazasına, artıq infrastruktura malikik və Aİ ilə yalnız energetika sahəsində deyil, bütün sahələrdə çox aktiv əməkdaşlığımız mövcuddur, təbii ki, diqqət Azərbaycan üzərinə yönəlir. Biz öz məsuliyyətimizi də dərk edir və yeni tərəfdaşlarımız üçün də etibarlı tərəfdaş olmamıza çalışırıq".[1]

Beləliklə, AR Prezidenti İlham Əliyevin çıxışından da məlum olduğu kimi, dünyada və Avropada dəyişən geosiyasi vəziyyətdə Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rol getdikcə daha da güclənməkdədir. Azərbaycan İlham Əliyevin idarəçiliyi altında artıq dəfələrlə beynəlxalq ictimaiyyətə sübut etmişdir ki, o, həyata keçirdiyi, iştirak etdiyi bütün layihələrdə etibarlı tərəfdaşdır və bundan sonrakı siyasətində də öz prinsiplərinə əməl etməyə davam edəcəkdir.

[1] İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib: [Elektron resurs]. -Yanvar 10, 2023 / URL: **https://president.az/az/articles/view/58555**

# III FƏSİL

# QAFQAZDA FORMALAŞMIŞ YENİ GEOSİYASİ ŞƏRAİTDƏ AZƏRBAYCANIN YERİ

## § 1. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində İlham Əliyevin rolu

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli 30 ilə yaxın müddətdə Azərbaycan dövlətinin qarşısında duran başlıca vəzifələrdən biri və birincisi olduğundan bu məsələ prezident İlham Əliyevin xarici siyasətində də ən mühüm yerə sahib olmuşdur. Prezident İlham Əliyevin informasiya mübarizəsində aktiv və çevik mövqeyi hamıya nümunə göstərilə bilər. Prezident həm xarici ölkələrə rəsmi və işgüzar səfərlərində, həm də ayrı-ayrı beynəlxalq qurumlar çərçivəsində keçirilən görüşlərində həmişə diqqəti Azərbaycanın ağrılı problemi olan Dağlıq Qarabağ məsələsinə yönəldirdi.[1]

Ölkə başçımızın AŞPA-da, Avropa İttifaqında, NATO-da, BMT Baş Assambleyasının 59-cu sessiyasında etdiyi çıxışlarında, nüfuzlu kütləvi məlumat vasitələrinə verdiyi müsahibələrində Ermənistanın işğalçılıq siyasəti və onun ağır nəticələri müzakirə edilmiş, problemin həllində beynəlxalq birliyin daha kəsərli addımlar atmasının vacibliyi qeyd edilmişdir.

2004-cü ilin sentyabrında BMT Baş Assambleyasının 59-cu sessiyasındakı cəsarətli çıxışı zamanı İlham Əliyev beynəlxalq ictimaiyyəti Ermənistana təzyiqlərin itməsinə görə kəskin tənqid etdi. Prezidentimiz birmənalı olaraq vurğulamışdır ki, dünya birliyi ikili standartlardan çəkinməli, işğalçı ilə işğala məruz qalan arasındakı fərqi görməli, ona prinsipial mövqe bildirməlidir. Prezidentin "Röyter" Agentliyinə verdiyi (2004-cü il) müsahibəsində də Azərbaycanın mövqeyi açıqlanıb və bildirilib ki, Azərbaycan bu məsələdə kompromisə getməyəcəkdir.

[1] Mammedzade U.K., Ilham Aliyev's position in the resolution of ethnic conflicts in the South Caucasus // – Chisinau: International scientific journal Law and politology, – 2015. № 30, – p.38-41, p.40



Bəzən bir sıra qüvvələr tərəfindən istehza ilə qarşılanan "zaman bizim xeyrimizə işləyir" ifadəsi bu gün özünü doğruldur. Azərbaycan ilə Ermənistan arasında atəşkəsin elan olunmasından keçən müddət ərzində respublikamız bu imkandan maksimum yararlanıb:

- Bakı-Tbilisi-Ceyhan neft kəməri kimi dünya miqyaslı enerji layihəsi reallaşıb, Bakı-Tbilisi-Ərzurum qaz borusunun tikintisi baş tutmuşdur;
- Azərbaycan son vaxtlar keçirilən prezident və parlament seçkilərindən sonra möhkəm və davamlı siyasi sabitlik əldə etmişdir;
- Ölkə Prezidentinin yürütdüyü azad xarici siyasət kursunun hesabına ölkəmiz beynəlxalq aləmdə mövqelərini gücləndirib və Qafqaz ölkələri arasında liderdir.[1]

2006-cı ilin fevralında Azərbaycan və Ermənistan prezidentləri Paris yaxınlığındakı Rambuyet Sarayında ATƏT-in Minsk qrupunun heyəti ilə görüşə bilmədilər və daha sonra Buxarestdə Dağlıq Qarabağ münaqişəsini müzakirə etdilər. Buxarest görüşünün az-çox ümidverici məqamı yaxın zamanlarda iki ölkənin xarici işlər nazirləri arasında danışıqların davam etdiriləcəyi və görüşdə onların prosesləri "dalandan çıxarmağa" çalışacaqları haqqında açıqlama olmuşdu. Belə ki, iki ölkə prezidentləri arasında 2006-cı il iyulun 4-5-də Buxarestdə keçirilən görüşdən sonra, ATƏT-in Minsk qrupunun həmsədrləri bəyanatla çıxış edərək bildirmişdilər ki, *"vasitəçilər münaqişənin sülh yolu ilə nizamlanmasının vacibliyi və mümkünlüyü haqda fikirlərində qalırlar"*.[2] Bununla yanaşı, onlar problemin həlli üçün 2006-cı ilin məqbul olması barədə fikirlərini bir daha təkrarlamışdılar. Bəyanatda qeyd olunur ki, vasitəçilərin münaqişə tərəflərinə təqdim etdikləri prinsiplər problemin həlli ilə bağlı razılaşmanın əldə edilməsi üçün ədalətli əsas ola bilər.

2006-cı il iyun ayının 23-də Azərbaycanın ali hərbi təlim məktəbi - Ali Hərbi Məktəbinin zabit buraxılışı mərasimində çıxış edən ölkə prezidenti İlham Əliyev ifadə etmişdi ki, *"bizim Dağlıq Qarabağ münaqişəsindən başqa heç bir problemimiz yoxdur. Biz ordunu gücləndirəcəyik ki, Azərbaycanın Silahlı Qüvvələri istənilən vaxt torpaqlarımızı işğalçılardan təmizləyə*

[1] Mehdiyev R.Ə., Yeni siyasət: inkişafa doğru: [2 cilddə] / R.Ə. Mehdiyev. – Bakı: Oskar NPM, – c.2. – 2008. – 343 s., s.43
[2] Yenə orada, s.39

*bilsin. Mənim bu sadaladıqlarıma şübhəm yoxdur və hesab edirəm ki, siyasətimiz bizi uğura aparacaq. Azərbaycan öz ərazi bütövlüyünü həm dinc, həm də müharibə yolu ilə bərpa edəcəkdir".*[1]

Bu bir həqiqətdir ki, tənzimləmə prosesində daim sülh tərəfdarı kimi çıxış edən İlham Əliyevin timsalında Azərbaycan həmişə məsələnin ədalətli həllinin tərəfdarı olduğunu bildirmişdir. Ümumiyyətlə, tənzimləmə prosesinə nəzər saldıqda 2008-ci ildə bu istiqamətdə Azərbaycanın ərazi bütövlüyünün təsdiqi istiqamətində müəyyən addımların atıldığının şahidi oluruq. İstər mart ayında keçirilən BMT-nin Baş Məclisinin 62-ci sessiyasında qəbul edilən "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyətə dair" qətnamədə, istərsə də NATO-nun Buxarest sammitinin yekun bəyannaməsində problemin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tənzimlənməsinin vacibliyi önə çəkilib. Analoji göstəricilərdən biri də 2008-ci il noyabrın 2-də Rusiyanın təşəbbüsü və vasitəçiliyi ilə Moskvada Azərbaycan və Ermənistan prezidentləri arasında imzalanmış "Mayndorf Bəyannaməsi"nin qəbulu ilə əldə edilibdir.

Dövlət başçısı İlham Əliyevin ərz etdiyi kimi, "Mayndorf Bəyannaməsi" Dağlıq Qarabağ konfliktinin Azərbaycanın ərazi tamlığı kontekstində həll olunmasına əsaslanır və özündə 3 vacib elementi əks edirdi:

1. Bu sənəd tərəflər arası imzalanmış razılaşma deyil, siyasi bəyannamədir və birbaşa Azərbaycanla Ermənistan arasında imzalanmışdır. Başqa sözlə, ilk dəfə rəsmi Yerevan münaqişə tərəfinin Dağlıq Qarabağ deyil, məhz Ermənistan tərəfi olduğunu hüquqi baxımdan təsdiqləmişdir. Bu faktın Azərbaycan üçün mühüm siyasi əhəmiyyəti danılmazdır;

2. Bəyannamədə konfliktin beynəlxalq hüquq norma və prinsipləri, həm də həmin prinsiplər çərçivəsində qəbul olunmuş qərar və qətnamələr əsasında həll olunması nəzərdə tutulur. Bu bir həqiqətdir ki, münaqişənin tənzimlənməsi məqsədilə qəbul edilən bütün beynəlxalq sənədlərdə Azərbaycanın ərazi bütövlüyü məsələsi öz hüquqi təsdiqini tapmışdır. Elə bu məntiqə əsaslanaraq qeyd etmək olar ki, "Mayndorf Bəyannaməsi"ndə də beynəlxalq hüquq normaları əsas hesab edildiyinə görə Azərbaycanın ərazi tamlığı əsas prinsip olaraq qəbul olunur;

[1] Əliyev İ.H., İnkişaf – məqsədimizdir: [113 cilddə] / İ.H. Əliyev. – Bakı: Azərnəşr, – c.18. – 2014. – 423 s., s.246



3. Bəyannamədə yer tutan prinsiplərdən biri də odur ki, konfliktin həllində hər bir proses beynəlxalq təminatla müşayiət olunmalıdır.[1]

Qeyd olunan bəyannamədə Dağlıq Qarabağ münaqişəsinin mərhələ-mərhələ nizamlanması prinsipi əsas tutulurdu. Bu da Prezident İlham Əliyevin bildirdiyi kimi, Azərbaycanın mövqeyini tam adekvat şəkildə əks etdirirdi: *"Bizim mövqeyimiz münaqişənin mərhələli şəkildə həll edilməsinə əsaslanır. Ermənistan isə münaqişənin paket formasında həll edilməsi tərəfdarı kimi çıxış edirdi".*[2]

Prezident İlham Əliyevin Azərbaycan Milli Məclisinin yaranmasının 90 illik yubileyi ilə bağlı tədbirdə qeyd etdiyi kimi, bu münaqişənin varlığı bütövlükdə Cənubi Qafqaz bölgəsində sabitliyə böyük təhlükə törədir. Bu münaqişə həll edilmədikcə qlobal layihələrin reallaşmasında mühüm rol oynayan Cənubi Qafqaz bölgəsində də gərginlik azalmayacaq. Münaqişənin çözülməsinə mane olan yeganə səbəb isə Ermənistan tərəfinin qeyri-konstruktiv mövqedən əl çəkməməsidir. Prezident İlham Əliyev çıxışında bir daha vurğulayıb ki, Azərbaycan münaqişənin ədalətli və beynəlxalq hüquq çərçivəsində həllinin tərəfdarıdır: *"Biz uzun illər boyunca çalışmışıq ki, problem öz həllini sülh yolu, danışıqlar yolu ilə, beynəlxalq hüquq əsası ilə tapsın. BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan silahlı qüvvələrinin Azərbaycanın torpaqlarından çıxarılmasını tələb etməkdədir. Lakin Ermənistan buna fikir vermir. Bu yaxın zamanlarda BMT Baş Məclisində dövlətimizin qəsb olunmuş torpaqlarında vəziyyətlə əlaqəli Azərbaycan tərəfindən təklif olunmuş qətnamə böyük səs çoxluğu ilə qəbul olunmuşdur".*[3]

Bütün bunlara baxmayaraq, məhz Ermənistan dövlətinin tutduğu ənənəvi qeyri-konstruktiv mövqenin ucbatından münaqişənin tənzimlənməsi prosesində Prezidentlər İlham Əliyev və Serj Sarkisyan tərəfindən 2008-ci

[1] Məmmədov N.İ., Xarici siyasət: reallıqlar və gələcəyə baxış / N.İ. Məmmədov. – Bakı: Qanun, – 2013. – 264 s., s.187

[2] Məmmədov N.İ., Xarici siyasət: reallıqlar və gələcəyə baxış / N.İ. Məmmədov. – Bakı: Qanun, – 2013. – 264 s., s.188

[3] Prezident İlham Əliyevin Milli Məclisin Azərbaycan Parlamentinin 90 illik yubileyinə həsr olunmuş təntənəli yığıncağında nitqi: [Elektron resurs]. - İyun 19, 2008. URL: **https://azertag.az/xeber/**
PREZIDENT_ILHAM_ALIYEVIN_MILLI_MACLISIN_AZARBAYCAN_PARLAMENTININ_90_ILLIK_YUBILEYINA_HASR_OLUNMUS_TANTANALI_YIGINCAGINDA_NITQI-411733

il 4 iyun tarixində Sankt-Peterburq şəhərində başlanan, sonralar Moskvada (2008-ci il, 2 noyabr), Sürixdə (2009-cu il, 27 yanvar), Praqada (2009-cu il, 7 may), Sankt-Peterburqda (2009-cu il, 4 iyun), Moskvada (2009-cu il, 17 iyul) və Kişinyovda (2009-cu il, oktyabr) davam etdirilən danışıqlar prosesi gözlənilən ciddi proqresə gətirib çıxarmamışdır.

2009-cu ilin 10 iyul tarixində ATƏT-in Minsk Qrupunun həmsədr dövlətlərinin prezidentləri Barak Obama, Nikola Sarkozi və Dmitri Medvedyevin "Böyük səkkiz"lərin İtaliyada keçirilən sammiti zamanı irəli sürdükləri "Madrid prinsipləri"nin yeni versiyası ilə bağlı bəyanatları münaqişənin tənzimlənməsi prosesinə impuls vermişdir. ABŞ prezident administrasiyasının Dağlıq Qarabağ münaqişəsinin həlli üçün əsas prinsiplər barədə bəyanatı Helsinki Yekun Aktına, güc tətbiqetmə hüququna, ərazi bütövlüyünə, bərabərliyə və öz müqəddəratını təyinetməyə əsaslanır. Ağ Evin mətbuat xidməti Madrid prinsipləri ilə bağlı xüsusi məqalələr də yayımladı:

1. Dağlıq Qarabağ ətrafındakı ərazilərin Azərbaycanın nəzarətinə qaytarılması;

2. Dağlıq Qarabağa keçid vəziyyəti verməklə təhlükəsizliyin və özünüidarəetmənin təmin edilməsi;

3. Ermənistanla Dağlıq Qarabağı birləşdirən dəhlizin tikintisi;

4. Dağlıq Qarabağın son statusunu müəyyənləşdirəcək hüquqi yolla iradə bildirmək planı;

5. Bütün qaçqınların və məcburi köçkünlərin münaqişə başlamazdan əvvəlki yaşayış yerlərinə qayıtmaq hüququ;

6.Sülhməramlı işləri nəzərdə tutan beynəlxalq təhlükəsizlik təminatının verilməsi.[1]

Ağ Ev edilən açıqlamada, Ermənistan və Azərbaycan üzərindən təməl prinsiplərin qorunub saxlanılmasının hər iki ölkə və bölgə üçün daha çox barışıq, sabitlik və firavanlığa səbəb olacağını söylədi. Madrid prinsipləri, daha dəqiq desək, Madrid danışıqları sülh danışıqlarında yeni bir mərhələnin əsasını qoyan Praqa prosesinin tərkib hissəsidir. Praqa prosesi isə rəsmi Bakının ən çox müdafiə etdiyi variant olub. Burada qeyd olunur ki, münaqişə mərhələli şəkildə həllini tapmalı və bütün mərhələlərin təminatı olmalı idi.

[1] Крюгер Х., Нагорно-Карабахский конфликт. Правовой анализ / Х.Крюгер. – Баку: Бакинский университет, - 2012. – 208 с., s.182



Azərbaycan Prezidenti İlham Əliyev bütün səfərlərində, beynəlxalq tədbirlərdə iştirakı zamanı, Azərbaycanda keçirdiyi görüşlər zamanı, müsahibə və çıxışlarında Ermənisan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı fikirlərini kifayət qədər açıq və əhatəli ifadə edib və etməkdədir. Dövlət başçısı İlham Əliyevin dəyişməyən mövqeyi bundan ibarət idi ki, Azərbaycan öz ərazi bütövlüyünü gec-tez təmin edəcək və bu münaqişə təkcə beynəlxalq hüquq və qurumların qərarları əsasında həll edilməlidir: *"Ölkəmizin ərazi tamlığı bərpa olunmalıdır. Ümumi ərazimizin 20 %-ni əhatə edən işğal olunmuş torpaqlar erməni işğalından azad edilməlidir. Ermənistanın etnik təmizləmə siyasətindən xeyli çətinlik çəkmiş 1 milyon həmyerlimizin öz torpaqlarına geri dönmək hüququ var. Biz həmişə - 1990-cı illərdə də qeyd etmişik və indi də qeyd edirik ki, Dağlıq Qarabağa suveren Azərbaycan dövlətinin hüdudlarında ən yüksək muxtariyyət statusu verməyə hazırıq. Düşünürəm ki, əgər erməni tərəfi siyasi iradə göstərsə, münaqişə həll ediləcəkdir. O cümlədən, biz Ermənistan ilə Dağlıq Qarabağ arasında yerüstü əlaqə məsələsi, təhlükəsizlik zəmanəti və sülhməramlı proseslər kimi məsələləri başa düşürük. Biz bu mövzuları konstruktiv şəkildə aydınlığa qovuşdura bilərik. Bölgədə sülh hər kəsə bir çox üstünlüklər verəcəkdir. Ölkəmiz öz ərazi tamlığını bərpa edəcək və insanlarımız bir daha öz doğma yurd -yuvalarında yaşamaq imkanına sahib olacaqlar".*[1]

Parisdəki bir iclasda Beynəlxalq Qızıl Xaç Komitəsi itkin düşənlərin taleyini təyin etmək üçün ödənişsiz bir əlaqə mexanizmi qurmağa qərar verdi. Bu, humanitar baxımdan çox vacib bir səy idi və 2010, 2011 və 2012-ci illərdə Rusiyanın vasitəçilik səylərinin bir hissəsi idi. Həştərxan və Soçidəki görüşlərdən sonra verilən açıqlamada məhbusların və girovların iştirakı nəzərdən keçirildi. Bütün bu görüşlərdə İlham Əliyev Azərbaycanın haqlı mövqeyini irəli sürmüş və məsələnin sülh yolu ilə həll olunmasını dəstəklədiyini bildirmişdi.[2]

[1] Talıbov R., Heydər Əliyevin şah əsəri – müstəqil Azərbaycan // Azərbaycan. – 2012, 6 may.– s.2.
[2] Məmmədzadə Ü.K., Qafqazın ən böyük etnik konflikti olan Dağlıq Qarabağ münaqişəsinin həllində İlham Əliyevin rolu // "Qafqazda dövlətlərarası münasibətlər: 100 il əvvəl və müasir dövr" mövzusunda beynəlxalq elmi konfrans: I hissə, – Bakı: – 23–24 may, – 2018, – s.550-559, s.552

2014-cü il iyunda Azərbaycanda zəbt olunmuş Kəlbəcər rayonunda öz ata-baba ocaqlarını ziyarət edəndə Ermənistan silahlı gücləri ilə girov alınmış və daha sonra qeyri-qanuni halda azadlıqdan məhrum olunmuş Rusiya vətəndaşı Dilqəm Əsgərovun, Azərbaycan vətəndaşı Şahbaz Quliyevin, həm də güllələnərək qətl edilmiş və cəsədi sonradan Azərbaycan dövlətinə verilmiş Azərbaycan vətəndaşı Həsən Həsənovun taleləri baxımından bu istək böyük məna kəsb edirdi və müsbət nəticələnə bilərdi.[1]

2014-cü il iyul-avqust aylarında cinah xəttində vəziyyətin təzadlı xarakter alması, atışmaların başlaması ilə 25 nəfər hərbi qulluqçu həyatını itirdi.[2] Bu gərginliyi yumşaltmaq üçün RF-nin Prezidenti Vladimir Putinin təkidi ilə 2014-cü ilin avqust ayının 10-da Soçidə, ABŞ-ın Dövlət katibi Con Kerrinin istəyi ilə sentyabrın 4-də Nyu-Yorkda və Fransa Prezidenti Fransua Ollandın istəyi ilə oktyabr ayının 27-də Parisdə ölkə prezidenti İlham Əliyev və Ermənistan Prezidenti Serj Sarkisyan, həm də ATƏT MQ həmsədrləri arasında 3 görüş təşkil edilmişdir.

Lakin Paris görüşündən 2 həftə ötməmiş, 2014-cü ilin noyabrında Ermənistan silahlı güclərinin Azərbaycanın işğal edilmiş ərazilərində 46 000 şəxsi heyət və 5.000 ədəddən çox texnikasının iştirakı ilə aparılan genişmiqyaslı hərbi təlimlər zamanı təxribat törədilməsi "helikopter insidenti"nin olmasına və Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində vəziyyətin daha da gərginləşməsinə səbəb olmuşdu. Bu, həmçinin danışıqlar mərhələsinin "dondurulması" ilə nəticələnmişdi.

2015-ci ilin sonunda Rusiya Xarici İşlər Naziri Sergey Lavrov da bu məqsədlə Azərbaycan və Ermənistana səfər edərək münaqişənin həllinin ilkin mərhələsində beş rayonun azad olunması təklifini təqdim etdi. 10 mart 2016-cı il tarixində Sarkisyan Moskvaya dəvət edildi və ona münaqişənin həll edilməsinin vacibliyi açıqca çatdırılmışdı. Cəbhə bölgəsində gərginliyin artmasına dair açıqlamasında Fransa Prezidenti François Hollande 2014-cü ilin oktyabrında Parisdə əldə edilmiş razılaşmalara sadiq olduğunu bir daha təsdiqlədi. Buna görə ATƏT-in Minsk Qrupunun həmsədrləri də

[1] Мехтиев Р.А., Нагорный Карабах: книга, прочитанная по источникам / Р.А.Мехтиев. –М.: Аквариус, – 2014. – 278 с., s.143

[2] Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016) / məqalələr toplusu /tərt. ed. F. Məmmədov. – Bakı: "Poliart" MMC, – 2017. – 904 s., s.173



münaqişənin həlli ilə bağlı qəti mövqe nümayiş etdirdilər. Həmsədrlər dəfələrlə status-kvonu qorumağın mümkün olmadığını bildirmişlər. Bunlar beynəlxalq ictimaiyyətə və dünyanın aparıcı güclərinə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini həll etməyin vaxtının gəldiyinə və statusun qorunub saxlana bilməyəcəyinə dair açıq mesajlar idi.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, 2016-cı ilin aprel ayının 1-dən 2-nə keçən gecə və gün ərzində tam cəbhə boyunca Azərbaycanın mövqeləri və yaşayış məntəqələri Ermənistan Silahlı Qüvvələri vasitəsilə güclü artilleriya atəşinə tutuldu. Azərbaycan bu hücumun qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Silahlı Qüvvələrinin Komandanlığı ilə Ağdərə-Tərtər-Ağdam və Xocavənd-Füzuli yönümündə təxirəsalınmaz cavab tədbirlərinin aparılması barədə qərar qəbul etdi. Döyüş sayəsində Goranboy rayonu və Naftalan şəhərinə təhlükə yarada bilən Talış kəndi ətrafında olan yüksəklik, həm də Seysulan məntəqəsi ermənilərdən tam azad edildi. Horadiz şəhərinin erməni təhlükəsindən mühafizəsi məqsədilə Füzuli rayonu istiqamətində yerləşən, geniş ərazini nəzarətdə tutmaq imkanı verən strateji əhəmiyyətli "Lələtəpə" yüksəkliyini də Azərbaycan Ordusu nəzarətə aldı. Qısa müddətdə aparılan sürətli əks-hücum zamanı ermənilərin uzun illər mühəndis-istehkam cəhətdən möhkəmləndirdiyi ilk müdafiə xətti cəbhənin əksər istiqamətlərində yarıldı, strateji mühümlüyə malik bir neçə yüksəklik və yaşayış məntəqələri ermənilərdən tam azad edildi. Aprelin 3-dən etibarən Azərbaycan Silahlı Qüvvələri cəbhə xəttində birtərəfli qaydada düşmənə qarşı əks-hücum əməliyyatını və cavab tədbirlərini dayandırdığını elan etdi. Döyüşlər nəticəsində Azərbaycanın Silahlı Qüvvələri Ağdərə-Madagiz yönümündə yolların nəzarətdə tutulmasına təminat yaratdı. Hərbi əməliyyatlarda 93 hərbi qulluqçu həlak oldu, bir Mi24 helikopteri vuruldu və bir tank mina partlayışında sıradan çıxdı. Döyüşlərdə ermənilərə aid 30 tank, 20-ə kimi artilleriya və güclü mühəndis qurğuları məhv edildi, 320 döyüşçü öldürüldü və 500-dən çox döyüşçü yaralandı.

Aprelin 5-də saat 12.00-da tərəflərin razılığı ilə Azərbaycan və Ermənistan hərbi əməliyyatlarının dayandırılması əmri verildi. Moskvada Azərbaycan və Ermənistan silahlı qüvvələri rəhbərləri arasında razılaşma əldə olundu. Azərbaycan Silahlı Qüvvələrinin bölmələri azad olunmuş mövqelə-

ri gücləndirməyə başladı. Azərbaycan Ordusunun bölmələri aprel döyüşləri zamanı əməliyyatları həm cənub – Lələtəpə, həm də şimal - Talış kəndləri yönümündə əlavə qüvvə cəlb etməyərək əraziyə cavabdeh briqadaların iştirakı ilə həyata keçirib. Bu onu göstərir ki, Azərbaycan Ordusu işğal altında olan ərazilərdə strateji yüksəkliklərdə mövqe almış, orada illərlə möhkəmləndirmə işləri icra etmiş düşməni kiçik qüvvə ilə darmadağın etməyə nail olmuşdur.

Ermənistan rəhbərliyi 2016-cı ilin aprelindəki məğlubiyyətdən məyus olaraq müxtəlif təxribatlar törədərək Azərbaycanın diplomatik uğurlarını və beynəlxalq birliyin münaqişənin ədalətli həlli ilə bağlı mövqeyini neytrallaşdırmağa cəhd göstərmişdilər. Aparılan əməliyyatlar nəticəsində Azərbaycan ordusu düşmənə böyük ziyan vurdu, Ermənistan ordusu xeyli əsgər və çox sayda texnika itirdi, Lələtəpə və Talış yüksəklikləri də daxil olmaqla 2000 hektar ərazini geri qaytardı, ordumuz on minlərlə hektar əraziyə nəzarət etməyə başladı.

Aprel döyüşlərində Ermənistan Azərbaycanın silahlı qüvvələrinin gücünü gördü. Bütün dünya aparılan döyüşlərdə Azərbaycan ordusunun necə peşəkarlıq, sücaət və bacarıq nümayiş etdirdiyini gördü. Aprel döyüşləri erməni təbliğatına ağır bir zərbə vurdu, ordusu haqqında yalan və xurafatlar üzə çıxaraq erməni cəmiyyətini sarsıtdı. Ermənistan rəhbərliyi aprel döyüşlərində ifşa edildi. Döyüş meydanında sarsıdıcı bir məğlubiyyət aldı və siyasi dəstək almadı. Lakin bu dəstəyə çox güvənirdilər. Dəstək ala bilmədikdə, həmişəki kimi fərqli ölkələri günahlandırmağa başladı. Nəhayət, aprel döyüşündə məğlubiyyəti qəbul etməli oldular.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Aprel döyüşləri barədə aşağıdakıları söyləmişdi: *"Aprel döyüşlərinin həm peşəkar, həm də vətənpərvərlik baxımından Azərbaycan xalqının qəhrəman olduğunu bir daha nümayiş etdirdi. Bu, bir daha göstərdi ki, bu vəziyyəti qəbul etmirik. Ermənistan-Azərbaycan münaqişəsinin həlli həmişə olduğu kimi Dağlıq Qarabağda bizim üçün prioritetdir. Aprel döyüşləri şanlı tariximizdir. Füzuli və Cəbrayıl bölgələrindən əlavə Ağdərə bölgəsindəki bir çox strateji yerləri də azad etdik. Keçmiş Dağlıq Qarabağ Muxtar Bölgəsinə məxsus torpağı qaytardıq. İndi Lələtəpədə on minlərlə hektara nəzarət edirik. Erməni Ordusu ora gedə bilməz".*[1]



5 may 2016-cı il tarixində Azərbaycan və Ermənistan Silahlı Qüvvələri Baş Qərargah Rəisləri adından Rusiya Federasiyasının vasitəçiliyi ilə tərəflər arasında atəşkəs razılaşması imzalandı. ABŞ-ın təşəbbüsü ilə Azərbaycan və Ermənistan prezidentləri 16 mayda Vyanada, 20 iyun tarixində Sankt -Peterburqda Azərbaycan, Ermənistan və Rusiya prezidentlərinin iştirakı ilə yüksək səviyyəli görüşlər keçirtdilər. Bu danışıqlardan sonra sülh danışıqlarının müsbət vəziyyətinə baxmayaraq, sonrakı aylarda Ermənistanda daxili vəziyyət gərginləşdi, Ermənistan sentyabrın 21-də və sentyabr-noyabr aylarında İrəvandakı hərbi paradda nümayiş keçirtdi.

Münaqişənin uzun illərdən bəri həll olunmamasının səbəblərinin analizi baxımından 29 sentyabr 2016-cı il tarixində ABŞ Dövlət katibi John Kerrinin Vaşinqtonda Atlantik və Aspen İnstitutunda çıxışı maraq yaradır. Onun öz çıxışında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ konfliktinin həllinin mümkünsüzlüyünün bəyan edilməsi və bunun səbəbi olaraq ölkə liderlərinin buna hazır olmamasını ərz etməsi Azərbaycanda dövlət və cəmiyyət tərəfindən çox pis qarşılanmışdı.[2] Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin o dövrdəki müavini Novruz Məmmədovun fikrincə, ABŞ-ın Dövlət katibi Con Kerrinin liderlərin Dağlıq Qarabağ konfliktinin nizamlanmasına hazır olmadığı barədə bəyanatı Azərbaycanı təəccübləndirmişdir. O, ABŞ-ın Azərbaycan ərazilərinin azad edilməsi üçün BMT TŞ-nin 4 qətnaməsinin təsdiq olunmasına səs verdiyini, bəzi beynəlxalq qurumların qətnamə və qərarlar qəbul etdikləri, həm də ATƏT MQ-nin 3 həmsədr dövlətin prezidentlərinin status-kvonun dəyişməli olmasını bəyan etmələrini bildirmiş, həm də onların indiyə kimi Azərbaycanın Dağlıq Qarabağ ətrafında yeddi rayonunun azad olunması ilə bağlı uyğun mövqe bildirməməsi-

[1] Mammedzade U.K., Ilham Aliyev's position in the resolution conflict between Azerbaijan and Armenia // VI Internatioanl Academic Congress "Fundamental and Applied Studies in EU and CIS countries", Cambridge: – 2016, – p. 474-480, p.479

[2] Remarks John Kerry Secretary of State at the Atlantic and Aspen Institute. Harman Center of Arts: [Electronic resource]. – September 29, 2016 / URL: **https://www.state.gov/secretary/** remarks/2016/09/262581.htm

ni əsas tutaraq, Con Kerrinin liderlərin konfliktin çözülməsinə hazır olmaması haqqında bəyanatını Azərbaycanın təsdiq etmədiyini qeyd etmişdir.[1]

İlham Əliyev də "Rossiya seqodnya" Beynəlxalq Məlumat Agentliyinin baş direktoru Dmitri Kiselyova verdiyi müsahibəsində ABŞ-ın Dövlət katibi Con Kerrinin bəyanatına xüsusi toxunmuş və onun qəbuledilməz olduğunu qeyd edərək, "diplomatik kazus" adlandırmışdır. O qeyd etmişdir ki, həmin bəyanat münaqişənin nədən bu günədək həll olunmadığını aydın göstərir. Buna əsas səbəb isə beynəlxalq təşkilatların qərarlarının, qətnamələrinin icra edilməməsi, təcavüzkar ölkəyə təzyiq göstərilməməsi siyasətinin yürüdülməsidir.[2]

Ermənistanda N.Paşinyanın 2018-ci ildə hakimiyyətə gəlməsi danışıqlar prosesini çətinləşdirməyə başlamış, 2019-cu ilin martında Nyu-Yorkdakı erməni icmasının nümayəndələri ilə görüşdə Ermənistan Müdafiə Naziri "yeni ərazilər üçün yeni müharibə" başlamağın zəruriliyi ilə bağlı açıqlama vermişdi. Qondarma "Dağlıq Qarabağ Respublikası"nın danışıqlarda ayrıca bir tərəf kimi iştirak etməsi kimi Azərbaycan üçün yolverilməz olan təkliflər verən N.Paşinyan 2019-cu ilin avqust ayında Xankəndinə etdiyi qanunsuz səfəri zamanı "Qarabağ Ermənistandır və nöqtə" deyərək sülh prosesini dayandırdı.

İki ay sonra Rusiyada keçirilən Valday Beynəlxalq Müzakirə Klubunun illik iclasında Prezident İlham Əliyev də Ermənistanın Baş nazirinin beynəlxalq ictimaiyyət qarşısında etdiyi məsuliyyətsiz sözlərə münasibət bildirdi: *"Aran və Dağlıq Qarabağ hər ikisi Dünya tərəfindən Azərbaycana məxsus kimi tanınıb. Ermənistan özü bu qanunsuz vilayəti tanımır. Qarabağ Azərbaycanda uzun bir tarixi olan qədim bir vilayətdir. Qarabağ Azərbaycandır və nida".*[3]

2020-ci il may ayında Şuşada qondarma "Dağlıq Qarabağ Respublikası"nın prezidentinin andiçmə mərasiminin keçirilməsi, parlamentin və paytaxtın Şuşaya köçürülmə planı, Azərbaycanın işğal edilmiş ərazilərinə ardıcıl qanunsuz səfərlər və s. təxribatçı davranışlarla Ermənistan Dağlıq Qarabağ probleminin dinc üsulla həll olunmasının mümkünsüzlüyünü dünya ictimaiyyətinə bildirdi. Ermənistan rəhbərliyinin sülh pozan həmlələri erməni hərbçilərinin təmas xətti boyunca Azərbaycan Ordusuna qarşı təxribatçı hərəkətləri ilə müşayiət edilirdi. 2020-ci ilin iyul ayında Ermənistan hərbi birləşmələri Azərbaycan dövlət sərhədi, Tovuz yönümündə strateji yüksəklikləri ələ almaq məqsədilə hücuma cəhd göstərdilər. Neft strategiyası və kommunikasiya siyasətində vacib yer tutan belə bir regionda 11 gün sürən şiddətli döyüşlər sayəsində düşmən geri çəkilməyə məcbur edildi. Bir çox zirehli texnika, radiokəşfiyyat qurğusu, pilotsuz uçuş aparatları ilə bərabər, ermənilər xeyli canlı qüvvələrini itirdi. Döyüşlərdə 3-cü ordu birliyinin qərargah rəisi general-mayor Polad Həşimov və polkovnik İlqar Mirzəyev daxil olmaqla Azərbaycan ordusunun 12 hərbçisi həlak oldu. Düşmənin mülki obyektləri atəşə alması ilə isə bir mülki şəxs həlak oldu. İyul ayının 23-dən başlayaraq Ermənistan Silahlı Qüvvələrinin Rusiya ilə bərabər hərbi təlimlər aparması, avqust ayında isə Goranboy rayonu ərazisinə diversiya qrupu göndərilməsi, Yaxın Şərqdən gətirilən terrorçu qrupların Azərbaycan Ordusu ilə təmas xətti boyunca yerləşdirilməsi ermənilərin müharibəyə hazırlığından xəbər vermişdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2020-ci il 25 sentyabrda BMT-nin sessiyasının ümumi debatlarında videoformatda etdiyi çıxışında dünya ictimaiyyətini Ermənistanın təxribatçı hərəkətləri haqqında bir daha məlumatlandırdı: *"Ermənistanın Baş Naziri Azərbaycana doğru hərbi əməliyyatlarda iştiraka məcbur edilən on minlərlə mülki vətəndaşdan ibarət silahlandırılmış dəstələrin düzəldilməsini elan vermişdir. Ermənistanın müdafiə naziri "yeni ərazilər uğrunda yeni müharibə"yə çağırış təşkil edir. Ermənistan Azərbaycanın böyük şəhərləri və vacib mülki infrastrukturuna – Mingəçevir su anbarı və Bakının yaxınlığında yerləşən dünyanın ən iri neft-qaz terminallarından biri və onlarla dövlətin enerji təhlükəsizliyini təmin edən Səngəçal terminalına zərbə endirməklə təhdid edir. Ermənistan fərqli ölkələrdən muzdlular və terrorçular çağırır, onları Azərbaycana qarşı istifadə etməyə çalışır".* İlham Əliyev eyni zamanda Ermənistanın havadarlarına səslənərək bildirirdi: *"Biz Ermənistana çoxalmaqda olan silah təchizatından ciddi nigaranıq. İyul ayının 17-dən başlayaraq sentyabr ayı-*

[1] Mehdiyev E.D., Novruz Məmmədov: Con Kerrinin bəyanatı təəssüf doğurur: [Elektron resurs]. – Oktyabr 7, 2016 / URL: https://az.trend.az/azerbaijan/politics/2669468.html
[2] İlham Əliyev "Sputnik" Beynəlxalq İnformasiya Agentliyinin suallarını cavablandırıb: [Elektron resurs]. – Oktyabr 17, 2016 / URL: **https://president.az/articles/21409**
[3] Zəfər salnaməsinin 44 günü / layihə. rəhb. və tərt. müəl. A. Novruzov. – Bakı: Maarif, – 2021 – 318 s., s.35

*na kimi biz hərbi yük təyyarələri ilə Ermənistana min tondan artıq hərbi sursatın daşınmasına şahidlik etdik. Ermənistanın dünyanın ən kasıb dövlətlərindən biri olması və silahlara milyardlarla dollar xərcləmək imkanına malik olmamasını nəzərdə tutsaq, silahların ona pulsuz verilməsi qənaətinə gəlmək olar. Etnik təmizləmə keçirmiş işğalçı dövlətin silahlarla təchiz edilməsi sülh danışıqlarını ciddi tərzdə sarsıdır və işğalçı dövləti yeni hərbi təxribatlara həvəsləndirir. Bu anlamda biz bütün dövlətləri Ermənistana silah təchizatı verməsindən çəkinməyə çağırırıq".*[1]

Ermənistan tərəfinin təxribatından asılı olmayaraq Azərbaycanın geniş miqyasda müharibəyə getməyəcəyinə və Rusiya ilə münasibətlərinin Azərbaycanın bütövlüyünü hərbi qüvvələr tərəfindən bərpa etmək cəhdinin qarşısını almaq üçün yetərli olduğuna inanırdılar. Göründüyü kimi bu baş vermədi və hadisələr başqa şərtlərə görə davam etdi.

Sentyabrın 27-də, günortadan sonra saat altıda, Ermənistan Silahlı Qüvvələri, erməni təcavüzkarının siyasi-hərbi rəhbərliyinin göstərişi ilə Azərbaycan ordusunun mövqelərini, Ağdamın ən sıx əhalinin yaşadığı Tərtər kəndləri ilə birlikdə cəbhə bölgəsini, Füzuli və Cəbrayıl bölgələrini, Mingəçevir və Gəncənin mülki infrastruktur obyektlərini və digər yaşayış məntəqələrini ballistik raketlər, fosfor və klaster bombaları və müxtəlif silahlarla atəşə tutaraq mülki əhaliyə qarşı müxtəlif cinayətlər törətməyə başladı. Minlərlə mərmi ilə dağıdılmış Tərtər şəhəri, II Dünya Müharibəsi zamanı dağıdılan Stalinqrad şəhərinə bənzəyirdi. Ermənistan silahlı qüvvələrinin bu vəhşilikləri Azərbaycan ordusunun Ali Komandanını əks hücum ilə hərəkətə keçmək əmri verməyə məcbur etdi. Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağın və Azərbaycan Respublikasının ətraf ərazilərinin işğalı, Azərbaycan Respublikasına qarşı silahlı hücumlar və müntəzəm hərbi təxribatlarla əlaqədar olaraq 28 sentyabr gecə saat on ikidən etibarən hərbi vəziyyət elan edildi. 28 sentyabrda imzalanan fərmana əsasən, ölkədə qismən səfərbərlik elan edildi.[2]

[1] Əliyev İ.H., İnkişaf – məqsədimizdir: [113 cilddə] / İ.H. Əliyev. – Bakı: Azərnəşr, – c.106. – 2020. –392 s., s.182
[2] Heydərova S., Azərbaycanın dövlət siyasətində Qarabağa aparan yol [Mətn] /S. Heydərova. – Bakı: Elm və təhsil, – 2021. – 119 s., s.18



Azərbaycan ordusunun həyata keçirdiyi "Dəmir yumruq" əməliyyatının ilk günlərində Murovdağ da daxil olmaqla bir çox strateji nöqtə azad edildi, Füzuli və Tərtər bölgələrində genişmiqyaslı hərbi əməliyyatlar aparıldı. 3 oktyabrda Tərtərin şimal cəbhəsində irəliləməsi üçün əhəmiyyətli olan Madagiz kəndi azad edildi və orada Azərbaycan bayrağı qaldırıldı. Elə həmin gün kəndin tarixi adı Suqovuşan Prezident tərəfindən bərpa edildi. Azərbaycan orduları cənub cəbhəsi boyunca hərəkət edərək 4 oktyabrda Xocavənd bölgəsinin əlverişli ərazilərini işğaldan azad etdilər, Cəbrayıl şəhərini təmizlədilər və 9 oktyabrda Hadrut (Pəhləvicə - ikiçayarası deməkdir) rayonunu azad etdilər.[1]

Azərbaycan ordusu düşmənə ağır zərbə vuraraq ermənilər tərəfindən uydurulan "məğlubedilməz erməni ordusu" barədə mifi dağıtdı və Ermənistan hökumətini atəşkəs istəməyə vadar etdi. 9-10 oktyabr tarixlərində Moskvada keçirilən görüşdə mübahisəli tərəflərin xarici işlər nazirləri Rusiya ilə atəşkəs razılaşmasına gəldilər, lakin bir neçə saat sonra Ermənistan yenidən hücum etmək istədi. 17 oktyabrda Azərbaycan qüvvələri Füzuli şəhərini azad etdi, 18 oktyabrda Xudafərin körpüsü üzərində Azərbaycan bayrağını qaldırdı və 20 oktyabrda Zəngilan şəhərini düşməndən təmizlədi.[2] Hər qarış torpaq Azərbaycanın cəsur əsgər və zabitlərinin canı və qanı bahasına azad edildi. Televiziyada xalqa müraciət edən baş komandan Füzuli şəhərini azad etməyin çətinliyini vurğuladı və düşmənin 30 il ərzində orada çox güclü istehkamlar inşa etdiyini söylədi. Tanınmış hərbi ekspertlər belə Füzulinin azad edilməsi üçün aylar çəkəcəyini düşünürdülər. Lakin Azərbaycanın qəhrəman ordusu əfsanə kimi hərbi missiyalarla şəhəri azad etdi, lakin bayrağı asmaq üçün şəhərdə salamat bir bina belə qalmamışdı.

22 oktyabrda Zəngilanın Ağbənd bölgəsi azad edildikdən sonra, Azərbaycan qoşunları həmyerlilərinin Araz sərhədindəki alqışları ilə İranla bütün dövlət sərhədini işğaldan azad etdilər. Ermənistan ordusunun geri çəkilməsi Paşinyanı bu anda danışıqlar üçün ABŞ-a müraciət etməyə məcbur etdi. Oktyabrın 24-də Azərbaycan və Ermənistan prezidentlərinin birgə görüşündən sonra Amerika Birləşmiş Ştatları Prezidenti iki tərəflə həll yolunu

[1] Şahinoğlu E., Dəmir yumruq /E. Şahinoğlu. – Bakı: Qanun, – 2021. – 279 s., s.137
[2] Yenə orada, s.141

müzakirə etdi, mübahisənin hər iki tərəfə münasib həllini tapdı. 10 Oktyabr Moskvadakı bəyannaməyə görə humanitar saziş barədə razılığa gəlindi. Amma növbəti gün səhər ölkənin düşmən ordusu yenidən Azərbaycana hücum etdi. Məşhur "aypara" və ya "qurd tələsi" üsulu ilə mübarizə aparan Azərbaycan ordusu Laçın küçələrinə doğru hərəkət etdi və Ermənistanı birləşdirən magistral yolun 10 kilometrliyində irəliləməyə başladı. 25 oktyabrda Qubadlı rayonu ermənilərdən təmizləndi.[1]

Qarabağ müharibəsi təkcə ön cəbhədə olmadı. Bu müharibə dünya azərbaycanlılarının birliyini bir daha təsdiqlədi. Dünyanın müxtəlif yerlərində yaşayan azərbaycanlılar və Azərbaycan mövqeyini dəstəkləyən digər ölkələrin nümayəndələri erməni lobbisinin mənfi təbliğatına qarşı fədakarlıqla mübarizə apardılar. Müharibə zamanı xalq-hökumət-ordu birliyi daha da gücləndi. Azərbaycan Respublikasının bütün vətəndaşları irqi, sosial və dini birliyi nümayiş etdirmiş və ön və arxa cəbhədə mükəmməl bir birlik qurulmuşdur. Arxa cəbhədən gələn vətəndaşlar döyüşən orduya kömək üçün geniş kampaniyalar həyata keçirdi, qanvermə hərəkatları təşkil etdi və müxtəlif yollarla mənəvi dəstək verdi. Çox sayda mülki, müxtəlif təşkilatlar, özəl şirkətlər və müəssisələrlə birlikdə müharibə əsgərlərinə mütəmadi olaraq maliyyə yardımı, atəşkəsdən sonra geyim, qida və tibbi ləvazimatlar verirdi. Vətəndaş vəzifələrini yardım göndərərək yerinə yetirdilər. Yardım o qədər geniş yayılmışdı ki, Müdafiə Nazirliyi dəfələrlə ictimaiyyətə yardıma ehtiyac olmadığını və hərbçilər üçün hər şeyi təmin edildiyini bildirməli oldu. Bəzi erməni mediası vəziyyətdən təəccübləndiyini gizlədə bilmədi.

Azərbaycan hökuməti cəbhə ilə bərabər diplomatik və ideoloji cəbhələrdə də mübarizə aparırdı. Prezidentin yüksək siyasi bacarığı sayəsində böyük diplomatik uğurlar əldə edildi. Prezident Ermənistanın Azərbaycana qarşı təcavüzkar davranış siyasəti barədə ictimaiyyətə məlumat verdi. Hərbi əməliyyatların nəticələri dərhal Prezidentin rəsmi Twitter hesabında paylaşılarkən, vətəndaşlar həmin səhifədəki xəbəri səbirsizliklə gözləyirdilər və media nümayəndələri bu barədə fikirlərini bildirdilər.[2] Müharibə zamanı

[1] Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru: 27 sentyabr – 10 noyabr 2020-ci il / layihənin rəhbəri E. Əzizov. – Bakı: Şərq-Qərb, – 2021. – 442 s., s.94

[2] Heydərova S., Azərbaycanın dövlət siyasətində Qarabağa aparan yol [Mətn] /S.Heydərova. – Bakı: Elm və təhsil, – 2021. – 119 s., s.53



dövlət başçısı müxtəlif nüfuzlu xarici televiziya kanallarına verdiyi müsahibələr zamanı beynəlxalq aləmdə Azərbaycanla bağlı yanlış fikirləri dağıtdı.

Azərbaycan Prezidenti erməni yalanlarına inanan bəzi əcnəbi müxbirlərin qərəz dolu suallarını məntiqi mühakimələrlə cavablandırmışdı. Məsələn, Alman telekanallarından birinin müxbiri *"Qarabağ niyə Azərbaycan üçün vacibdir? Ehtiyatlara görə, yoxsa rəmzi?"* deyə İlham Əliyevə sual verdikdə, o, belə cavab verdi: *"Elzas və Lotaringiya sizin üçün vacibdir, Bavariya sizin üçün vacibdirmi? Bəs Reyn-Vestfaliya? ... Resurslar paytaxtdadır, Bakıdadır. Bu ədalət məsələsidir, bu milli maraq məsələsidir...*[1]

Azərbaycana qarşı bir çox informasiya hücumlara baxmayaraq, bir çox ölkə və təşkilat da münaqişəni kəskin şəkildə qınadı, mülki vətəndaşları hədəf alan Ermənistana sərt mövqe tutmaq əvəzinə gərginliyi azaltmağa və gecikmədən danışıqlara başlamağa çağırdı. Türkiyə, Pakistan, İsrail, Ukrayna, Əfqanıstan, Şimali Kipr Türk Respublikası və bəzi digər ölkələr müharibədə Azərbaycanı və onun ərazi bütövlüyünü dəstəklədiklərini söylədilər. Türkiyənin mənəvi və siyasi dəstəyi və yüksək vəzifəli məmurların Azərbaycana tez-tez səfərləri diplomatik mübarizədə əvəzolunmaz rol oynadı.

Ölkəmizin effektiv xarici siyasətinin əsas göstəricilərindən biri Qoşulmama Hərəkatının işində fəal iştirak, üzv ölkələrlə sıx əməkdaşlıq əlaqələrinin qurulmasından ibarət idi. Sırf bu ölkələrin təqdim etdikləri prinsipial mövqe nəticəsində Vətən müharibəsi gedişatında BMT Təhlükəsizlik Şurasında dövlətimizin mənafeyinə müvafiq olmayan qətnamə layihəsinin qəbul olunmasının qarşısına keçilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin göstərişinə görə Azərbaycanda fəaliyyət edən dövlət səfirliklərinin məsul işçiləri, hərbi nümayəndələr və beynəlxalq təşkilatların Azərbaycandakı olan nümayəndəliklərinin rəhbərlərinin hərbi əməliyyatlar zamanı Ermənistan silahlı qüvvələri vasitəsilə vandalizmə məruz qalan Tərtər, Gəncə və başqa regionlara səfərləri təşkil edildi. Erməni işğalçılarının azərbaycanlılara xas abidələrə qarşı dağıdıcı və hörmətsiz münasibəti dünya ictimaiyyətinə nümayiş etdirilmişdi.

[1] 44 günlük diplomatiya dərsləri / ideya müəllifi. A. Mustafazadə. – Bakı: Elm və təhsil, – 2021. – 251 s., s.147

Oktyabrın sonlarında Azərbaycan qoşunları Çanaqçı kəndini azad etdi, sonra Şuşa-Laçın yolunun bir hissəsinə nəzarət bərpa edildi. Bu vaxt lokal döyüşlər Şuşa şəhərini əhatə etməyə başladı. Azərbaycan ordusunun seçdiyi torpaq yol nəqliyyat vasitələti üçün uyğun deyildi, bu səbəbdən əsgərlərimiz Suşaya doğru beş gün piyada yol getməli oldu. Ermənistan komandanlığı Azərbaycan qüvvələrinin Qırmızı bazar tərəfdən hücum edəcəyini güman etmişdi. Çünki Şuşakənddən Şuşaya gedən ən rahat və qısa yol oradan keçirdi. Ermənistan ordusunun Azərbaycan ordusunun Şuşaya hücum edəcəyini gözlədiyi istiqamətin ikincisi Laçın idi. Bununla belə, Azərbaycan ordusu ölçüsü, strategiyası və ardıcıllığına görə görünməmiş bir qərar qəbul edərək, üç gün ərzində Qarabağın sıx meşələrindən bir neçə kilometr məsafədə Şuşaya yeni bir yol açdı. Azərbaycan ordusunun Laçın dəhlizini idarə etməsi ilə Şuşadakı erməni hərbi birləşmələri əlavə dəstəkdən məhrum edildi. Yüngül silahlarla silahlanmış Azərbaycan Xüsusi Təyinatlı Qüvvələri şəhərə müxtəlif istiqamətlərdən girərkən qayalara iplərlə çıxmış və çiyinlərində yaralı dostlarını da aparmışdılar. Şuşanın ələ keçirilməsi zamanı yüzlərlə erməni əsgəri öldürülmüş və çoxsaylı erməni əsgəri isə itkin düşmüşdü.[1]

8 Noyabrda Fəxri Xiyabanı ziyarət etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev Şuşanın Azərbaycan ordusu tərəfindən işğaldan azad olunduğunu elan etdi: *"28 il yarım işğal altında olan Şuşa azad edildi! ... Biz bu tarixi qələbəni döyüş meydanında əldə etdik ... Şuşanın işğaldan azad olunması gücümüzü, ordumuzun peşəkarlığını göstərdi... Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa,biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"* .[2]

Dövlət bayrağı günü olan 9 Noyabrda Şuşanın azad edilməsindən dərhal sonra Azərbaycan ordusu daha 71 kəndi, yaşayış məntəqəsini və səkkiz strateji yüksəkliyi azad etdi. Beləliklə, hərbi əməliyyatlar zamanı azad olunan məntəqələrin sayı 300-ə çatdı.[3] Şuşanın və ətraf yüksəkliklərin azad

[1] Hüseynova İ.M., İlham Əliyev və Zəfər tariximizin şanlı səhifələri / İ.M.Hüseynova. – Bakı: Füyuzat, – 2021. – 224 s., s.138

[2] Əliyev İ.H., İnkişaf – məqsədimizdir: [113 cilddə] / İ.H. Əliyev. – Bakı: Azərnəşr, – c.107. – 2021. –392 s., s.341

[3] Qələndərli N., İlham Əliyev – Böyük yolun müzəffər davamçısı: 60 ilə sığan tarix /N. Qələndərli. –Bakı: Teas Press, – 2021. – 595 s., s.361



olunması ilə Ermənistanın bütün manevr imkanları yox edildi. Azərbaycan ordusu müasir döyüş strategiyasında pilotsuz uçan aparatlar (pilotsuz təyyarələr) vasitəsi ilə dünya hərb tarixində öz adını yazdı. Azərbaycanın Ermənistanın hava hücumundan müdafiə sistemlərinin yerini ifşa etmək üçün istifadə etdiyi köhnə təyyarələr üsulu hərb tarixində bir yenilik hesab edilmişdir. Türkiyə Cümhuriyyəti və İsraildən alınan "Bayraktar" və "Harop" pilotsuz təyyarələr, eləcə də Azərbaycanda istehsal olunan "Zərbə" pilotsuz uçuş aparatları milyonlarla dollar dəyərində erməni hərbi texnikasını və çox sayda canlı qüvvəni məhv etdi. Ümumiyyətlə, müharibə dövrün də ölkəmizin hərbi-sənaye kompleksi tərəfindən istehsal olunan geniş çeşidli silah və sursat uğurla istifadə edilmişdir. Yenilməz sayılan Şuşanın azad edilməsində xüsusi təyinatlılar atıcı silahlardan və soyuq silahlardan məharətlə istifadə edərək Azərbaycan ordusunun cəsarətini nümayiş etdirdilər. Eyni zamanda, Ermənistan ordusundan fərqli olaraq, müasir və ənənəvi hərbi taktika və fəndləri uğurla tətbiq edən Azərbaycan ordusu düşmənin mülki əhalisini hücumlarının hədəfi etmirdi. Müharibə zamanı Prezident İlham Əliyev dedi: *" Biz günahsız insanların qisasını yalnız döyüş meydanında alırıq və alacağıq. Heç vaxt mülki insanlara atəş açmayacağıq"* .[1]

Şuşanın azad edilməsi ermənilərin müharibədəki məğlubiyyətini qəbul etdiyi həlledici bir döyüş oldu. Şuşa azad edildikdən sonra, demək olar ki, bütün sakinlər, o cümlədən Xankəndinin yüksək vəzifəli şəxsləri müharibədən bir neçə gün sonra Xankəndini tərk etməyə başladılar. Ermənistan məğlubiyyətini etiraf etmək məcburiyyətində qaldı. Noyabrın 9-dan 10-na keçən gecə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin birgə bəyanat imzaladılar. Bu bəyanat ilə hərbi əməliyyatlar dayandırıldı. Ermənistanın dekabrın 1-dək qüvvələrini Ağdam, Kəlbəcər və Laçından çəkərək bu şəhər və rayonların Azərbaycana geri qaytarılmasını boynuna öhdəlik kimi götürdü.[2]

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi İkinci Qarabağ müharibəsi və sonrakı üçtərəfli bəyannamə ilə başa çatdı. Münaqişə Cənubi

[1] İlham Əliyev: "Əziz Şuşa, biz qayıtmışıq!" /Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA). – Bakı: AVCİYA, – 2021. – 225 s., s.34

[2] Sadıqov B.Y., Xilaskar İlham Əliyev /B. Y.Sadıqov. – Bakı: Hədəf Nəşrləri, – 2021.–317 s., s.72

Qafqazda sülh və əməkdaşlıq üçün ən böyük təhdid idi. Münaqişə bitdikdən sonra Azərbaycan bölgədə davamlı sülhü təmin etmək üçün nəqliyyat və kommunikasiya əlaqələrini bərpa etmək üçün Rusiya vasitəsilə Ermənistanla danışıqlara başladı. Azərbaycanın üçtərəfli bəyannamə ilə digər bir üstünlüyü Azərbaycanı Türkiyə ilə Ermənistan üzərindən birləşdirən Zəngəzur dəhlizinin açılması barədə razılaşmadır. Bu dəhliz vasitəsilə Naxçıvan MR-in blokadasına son qoyulacaq və Azərbaycan ilə Türkiyə arasında quru yolu yaradılacaq.

Müharibə zamanı və sonrasında həlledici amillərdən biri də Türkiyə dövlətinin mövqeyi idi. Azərbaycanla dost və qardaş bir dövlət olmaq baxımından Türkiyə hər zaman haqq mübarizəsinin yanında olmuş, dövlətimizə mənəvi və siyasi dəstəyini ifadə etmiş və müharibədən sonra Türkiyə nümayəndələri Rusiya ilə birgə Atəşkəsə Nəzarət Mərkəzində işə başlamışdır.

II Qarabağ müharibəsi zamanı İlham Əliyev özünü güclü siyasətçi, dövlət başçısı və Ali Baş Komandan kimi sübut etdi. Ali baş komandan İlham Əliyev Azərbaycan ordusunu öz başçılığı ilə qələbələrə apararkən, eyni zamanda dövlət başçısı və bir diplomat kimi xarici KİV təmsilçilərinə müsahibələr verərək diplomatik sahədə də müvəffəqiyyətlər qazanırdı. 26 May 2021-ci ildə 4 dildə keçirilən dörd saatlıq mətbuat konfransı ilə İlham Əliyevin bu sahədə müvəffəqiyyətləri daha da möhkəmləndi.[1] Müharibədən sonrakı münasibətlər, azad torpaqlarımızın bərpası və bu kimi məsələlərdə mövqeyini bildirdi. Bu cür mövzularda yerli və xarici KİV-lərin çoxsaylı suallarına cavab olaraq Azərbaycan və beynəlxalq ictimaiyyətin diqqətini müharibədən sonrakı Azərbaycan təbliğatının əsas məqamlarına yönəltdi.

Beləliklə, 30 ilə yaxın davam edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək mümkün olmasa da Azərbaycan hərbi yolla Ermənistan dövlətini sülhə məcbur etdi və bu münaqişə başa çatdı. Bundan sonrakı dövrdə isə Ermənistanın öz boynuna götürdüyü öhdəlikləri yerinə yetirməsi şərti ilə Azərbaycan Cənubi Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlığın daimi olması üçün əlindən gələni edəcək və bununla da regiondakı lider mövqeyini daha möhkəmləndirəcəkdir.

[1] Əliyev İ.H., İnkişaf – məqsədimizdir: [113 cilddə] / İ.H. Əliyev. – Bakı: Azərnəşr, – c.110. – 2021. -392 s., s.316



## § 2. İlham Əliyevin Qafqaz regionunda sülhün və sabitliyin təmini üzrə siyasəti

Postsovet məkanından, eləcə də Qərbdən olan alimlər və strateqlər arasında Qafqazın hərbi-geostrateji əhəmiyyəti, beynəlxalq münasibətlər və beynəlxalq təhlükəsizlikdəki yeri və rolu kimi geosiyasi məsələlərə fərqli baxış və yanaşmalar mövcuddur. Xüsusi geosiyasi əhəmiyyətə malik bu regionda qlobal, regional və milli təhlükəsizlik maraqlarının uzlaşdırılması və geosiyasi aktorların üst-üstə düşən maraqlarının araşdırılması taktikaları uzun müddət mütəxəssislərin və əlaqədar təşkilatların diqqət mərkəzində olmuşdur.[1] Avrasiya bölgəsinin, Qafqazın və onun əsas strateji ölkəsinin geostrateji və hərbi problemləri, regional sülh və əməkdaşlığın bərpası, münaqişələrin həlli yolları, qlobal və yerli maraqların koordinasiyası, regional təhlükəsizlik siyasəti və s. son illərdə bu kimi mövzular yalnız dünya birliyi tərəfindən deyil, həmçinin regionumuzdakı ölkələrin rəsmi dairələri və ictimai fikrini də ciddi şəkildə düşündürür.

Azərbaycanın Qafqazda öz geosiyasi, geoiqtisadi və hərbi-geostrateji maraqlarının təminatı istiqamətində yürütdüyü regional siyasətin mahiyyəti, vəzifələri və istiqaməti haqqında müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyev və onun siyasətini keyfiyyətcə zənginləşdirərək davam etdirən ölkə Prezidenti İlham Əliyev dəfələrlə çıxış etmiş, ayrı-ayrı beynəlxalq tribunalardan öz fikirlərini səsləndirmişlər.

Prezidentin Azərbaycanın regional siyasətini həyata keçirərkən əsas hesab etdiyi vəzifələr aşağıdakılardır:

- ölkənin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü müdafiə etmək, onun milli təhlükəsizliyi ilə beynəlxalq və regional təhlükəsizlik sistemlərini əlaqələndirmək;
- ölkəmizin geosiyasi, geoiqtisadi və hərbi geostrateji maraqlarına uyğun gələn regional təşkilatlara qoşulmaq, regional əlaqələrin qurulmasında və inkişafında aktiv iştirak etmək;

[1] Brzezinski Z., The Grand Chessboard: American Primacy And Its Geostrategic Imperatives / Z. Brzezinski. – New York: Basic books, – 1997. – 240 p.

- geopolitik, geosiyasi və geostrateji hərbi maraqların istifadəsini təmin edən regional təşkilatlarla bərabər və qarşılıqlı faydalı əməkdaşlıq, region ölkələri ilə ikitərəfli əlaqələrin yaradılması və inkişafında aktiv iştirak;

-dünya və region dövlətləri ilə birliyi ilə regional maraqlara tam uyğun strateji əməkdaşlıq əlaqələri qurmaq, respublikanın beynəlxalq və regional mövqelərinin gücləndirilməsində onların dəstəyindən faydalanmaq;

- Respublikanın əhalisinin əsas hüquq və azadlıqların qorunması, ölkənin demokratiya və azad bazar iqtisadiyyatı yolu ilə getməsi, azad daxili və xarici siyasət üçün təsirli regional mühitin yaradılması;

- Konfliktlər və müxtəlif bloklar arasında hərbi qarşıdurmaların qarşısının alınması və ümumilikdə Qafqazın hərbiləşdirilməsindən qaçınmaq, regional ziddiyyətlərin aradan qaldırılmasına səy göstərərək mehriban qonşuluq əlaqələrinin yaradılmasına çalışılması;

- Azərbaycana qarşı bəzi xarici təzyiqlərin qarşısını almaq və ya azaltmaq üçün beynəlxalq himayə mexanizmi qurulmasına çalışılması;

- Dövlətin əksər beynəlxalq və regional, iqtisadi, elmi, texnoloji, mədəni, humanitar təşkilatlarda fəal şəkildə təmsil olunması.[1]

Sözügedən vəzifələr və onların yerinə yetirilməsi ilə əlaqədar konkret səylər Azərbaycan dövlətinin keçən 20 ildə beynəlxalq, regional və dövlətlərarası əlaqələr sahəsində atdığı əksər praktiki addımlarda, bağlanan ikitərəfli və çoxtərəfli müqavilələrdə özünü göstərmişdir. Ötən dövrdə ölkə başçısının fəaliyyəti ilə dövlətimiz bu istiqamətdə Ermənistan istisna olmaqla, regionun bütün ölkələri- Rusiya, Türkiyə, İran, Gürcüstan, eyni zamanda digər dünya dövlətləri - ABŞ, Çin, Yaponiya, Cənubi Koreya, Avropa Birliyi və İslam Konfransı Təşkilatı ölkələri və s. ilə ikitərəfli və çoxtərəfli regional tərəfdaşlıq əlaqələri yaratmağa nail olmuşdur.

İlham Əliyevin regiondakı təsirli siyasəti və fəaliyyəti sayəsində Azərbaycan bir çox beynəlxalq məsələlərin həllində əhəmiyyətli bir aktora çevrildi. Öz prinsipi və etibarlı regional siyasəti ilə Azərbaycan hazırda Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində, şərq-qərb nəqliyyat və kommunikasiya əlaqələrinin həyata keçirilməsində, dünyanın və bölgənin

[1] Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016) / məqalələr toplusu /tərt. ed. F.Məmmədov. – Bakı: "Poliart" MMC, – 2017. – 904 s., s.54



hərbi-geoloji təhlükəsizlik memarlığının qurulmasında fəal bir aktor olmuşdur. Azərbaycanın Gürcüstan, Türkiyə, ABŞ və Avropa Birliyi ilə Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsi və Ümumdünya Ticarət Mərkəzinə köçürülməsi ilə bağlı mövqeyi enerji sahəsində strateji əməkdaşlığa səbəb oldu. Bu əməkdaşlığa əsasən, Azərbaycan bu sahədə BTC və BTE, TANAP, TAP, Şahdəniz-2 və digərləri kimi beynəlxalq layihələr həyata keçirmişdir. Beynəlxalq layihələrdə beynəlxalq və regional tərəfdaşlar qazandı.[1]

ABŞ, Avropa Birliyi, Türkiyə və digərləri bu layihələrin hamısını Xəzər-Qara dəniz hövzəsində və Qafqazda həyata keçirmək üçün Azərbaycanın göstərdiyi milli iradəni yerinə yetirməyə hazırdır. Ölkələrin və onların aparıcı transmilli şirkətlərinin dəstəyi həlledici rol oynamışdır. Yeni müstəqil olan Azərbaycan, iyirminci əsrin sonunda bölgədəki çox gərgin bir geopolitik vəziyyətdə ABŞ və Avropa Birliyinin tam dəstəyi ilə "Xəzər dənizinin hüquqi statusu" kimi çətin bir problemin öhdəsindən gəldi. Geosiyasi, geoiqtisadi və hərbi-geostrateji sahədə ilk mövqelərini qoruya bildi. Daha sonra ABŞ və Avropa Birliyi tərəfindən təsdiqlənən Cənubi Qafqazda və Xəzər hövzəsində nəqliyyat və kommunikasiya üzrə TRASECA layihəsinin ardınca yeni bir transmilli layihənin-Bakı-Tbilisi-Qarsın inşası barədə müqavilə imzaladılar.[2] Dəmir yolu və yol tikintisi Gürcüstan və Türkiyə arasında nəqliyyat və kommunikasiya sahəsindəki strateji tərəfdaşlıq münasibətlərini daha da gücləndirdi, digər tərəfdən Şərq-Qərb nəqliyyat və rabitə sistemindəki rollarını əhəmiyyətli dərəcədə artırdı. Prezidentin sözlərinə görə, Azərbaycan əvvəlcə layihənin Gürcüstan hissəsinin tikinti xərclərini ödəmək üçün ona 200 milyon dollar borc verdi və tikintinin başlanması üçün şərait yaratdı. Bu layihə Türkiyəni Gürcüstanla, eləcə də Avropa və Asiya ilə geniş mənada birləşdirən ilk qısa dəmir yolu xətti olduğundan böyük beynəlxalq strateji əhəmiyyətə malikdir.

[1] Маммадзаде У.К., Азербайджанская Республика как гарант мира и стабильности в регионе // «edu.e–history.kz» электрондық ғылыми журналы, – 2019. № 4(2) / URL: https://edu.e–history.kz/kz/publications/view/1318

[2] Məmmədov N.İ., Xarici siyasətin Azərbaycan modeli. Məqalələrdən seçmələr (1997-2011) / N.İ. Məmmədov. – Bakı: Çaşıoğlu, – 2012. – 464 s., s.236

İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasətin nəticəsi kimi ortaq maraqlar əsasında ölkəmizin Xəzər hövzəsi və Qafqazda həyata keçirdiyi regional siyasəti, irəli sürdüyü bütün geosiyasi, geoiqtisadi və hərbi-geostrateji təşəbbüsləri birmənalı dəstəkləyən bölgə ölkəsi dost və qardaş Türkiyə sayılır. Bu da, mütəxəssislərin fikrinə görə, təsadüfi deyil. Məsələn, bu ölkənin ictimaiyyəti yaxşı bilir ki, regional təzyiqlərə baxmayaraq, Xəzər hövzəsinin münbit neft və qaz məhsullarının dünya bazarlarına məhz Türkiyə vasitəsilə ixrac olunması ideyasının əsasında Azərbaycan dövləti dayanır. Bu strateji seçim enerji-nəqliyyat qovşağı olaraq Türkiyənin Avrasiyadakı və dünyadakı geosiyasi, geoiqtisadi rolunu və nüfuzunu artırmışdır. Azərbaycan Türkiyəni regionda özünə ən etibarlı, strateji tərəfdaş saydığından, özünün qərblə bütün transmilli enerji, nəqliyyat-kommunikasiya və digər əlaqələrini məhz bu ölkə vasitəsilə gerçəkləşdirməyə qərar vermişdir. BTC və BTƏ kimi neft-qaz kəmərləri layihəsinin gerçəkləşməsi, TANAP, TAP kimi yeni transmilli qaz kəmərlərinin gələcək dividentləri, "Şahdəniz-2" fazası çərçivəsində emal ediləcək zəngin qaz ehtiyatları və s. nəinki yalnız Türkiyənin enerjiyə olan tələbatlarının ödənilməsi, həm də bu ölkənin regionda geosiyasi mövqeyinin güclənməsi nöqteyi-nəzərindən böyük məna kəsb edir. Əlavə olaraq Bakı-Tbilisi-Qars dəmir yolu, TRASEKA və s. nəqliyyat-kommunikasiya arteriyaları Türkiyəni Şərq-Qərb əlaqələrinin mərkəzinə çevirir.[1]

25 aprel 2018-ci il tarixində Ankarada İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə Yüksək Strateji Həmrəy Şurası iclası keçirildi. Əməliyyat sistemi Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Naziri ilə Türkiyə Respublikasının Nəqliyyat, Dənizçilik və Kommunikasiya Naziri arasında elektron sektorda əməkdaşlıqla bağlı Anlaşma Memorandumu Sazişi, Azərbaycan Hökuməti ilə Türkiyə Hökuməti arasında Xüsusi Satınalma Sazişi üzrə Müzakirələrə dair Anlaşma Memorandumu, Azərbaycan Respublikası

[1] Məmmədov N.İ., Xarici siyasət: reallıqlar və gələcəyə baxış / N.İ. Məmmədov. – Bakı: Qanun, - 2013. – 264 s., s.67



Hökuməti ilə Türkiyə Hökuməti arasında mədəniyyət müəssisələrinin yaradılması, tətbiq olunması və fəaliyyətlərinə dair Saziş imzalanıb.[1]

İlham Əliyev 2003-cü ildən bəri ən məşhur beynəlxalq forumlarda Qafqaz regionunun geosiyasi perspektivləri və bölgə ölkələrinin yaxşılaşması əsasən bölgədə sülh və sabitliyin təmin edilməsi, regional təhlükəsizlik probleminin həllindən asılı olduğunu vurğulamışdır. Onun fikrincə, Qafqazda münaqişə zonalarının mövcudluğu bütövlükdə bölgənin davamlı inkişafı, tam təhlükəsizliyi və regional və beynəlxalq təşkilatların əməkdaşlığı üçün ciddi bir maneədir.[2]

Ölkə prezidentimiz ilk gündən birmənalı formada Qafqazın militaristləşdirilməsinin, hərbi bloklar arasında rəqabətə cəlb olunmasının, xarici dövlətlərə məxsus hərbi bazaların, orduların digər ölkələrin ərazisində yerləşdirilməsinin və s. rəqabət meyillərinin əleyhinə çıxış etmişdir. Ölkəmiz nəinki Cənubi Qafqazda, eyni zamanda postsovet məkanında və yer üzündə ən fəal sülh siyasəti və sülh diplomatiyası sərgiləyən ölkə olmuşdur.[3] Cənubi Qafqazda ətraflı geosiyasi, geoiqtisadi və hərbi-geostrateji maraqları olan hərbi-siyasi bloklarla, blokun ölkələri və üzvləri ilə təhlükəsizlik sahəsində kollektiv və fərdi əməkdaşlığı durdurmadan, "bitərəf ölkələr" blokuna daxil olması İlham Əliyevin bir ölkə başçısı kimi son vaxtlar atdığı ən məntiqli geosiyasi addımlardan biri hesab edilə bilər. Belə ki, məhz bu ölkələrin nümayiş etdirdikləri prinsipial mövqe sayəsində II Vətən müharibəsi gedişində BMT Təhlükəsizlik Şurasında ölkəmizin mənafeyinə uyğun olmayan qətnamə layihəsinin qəbul edilməsinin qarşısı alınmışdır.

Ölkə başçısı Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzəsinin dinc və təhlükəsizlik həyatında maraqlı olan bir çox dünya ölkələri ilə ikitərəfli, eyni zamanda da çoxtərəfli əlaqələrdə regional sülh və təhlükəsizlik siyasətini davam etdirmişdir. NATO ilə milli ordu quruculuğunun dünya normalarına

[1] Azərbaycan-Türkiyə sənədləri imzalanıb: [Elektron resurs]. – Aprel 25, 2018 / URL: **https://novator.az/2018/04/25/az%C9%99rbaycan-turkiv%C9%99-s%C9%99n%C** 9%99 dl% C9%99ri--imzalanib/

[2] Nəsibov E.M., Siyasət: mövqelər, baxışlar, təhlillər, nəzəriyyələr, ideyalar, təkliflər, proqnozlar: elmi və elmi-publisistik məqalələr toplusu: [2 clddə] / E.M.Nəsibov. – Bakı: Təhsil EİM, – c.1. – 2009. –496 s., s.122

[3] Гусейнова И.М., История народов Кавказа / И.М.Гусейнова. – Баку: Тахсил, – 2018. – 1248 с., с.97

yaxınlaşdırılması, terrorizmə qarşı mübarizə, regional sülhyaratma, münaqişələrin əngəllənməsi və s. transmilli proseslərdə birlikdə iştirak edir. Yenə də İlham Əliyev indiyə kimi hansısa hərbi bloka nümayəndə olmağa hazırlaşması barəsində rəsmi açıqlama verməmişdir. O, bir qayda olaraq daim qeyd edir ki, ölkəmiz yer üzünün hərbi bloklar arasında rəqabət durumunda olan düşərgələrə bölünməsinin və planetin hərbiləşdirilməsinin tərəfdarı deyildir, dünyada hər kəsin beynəlxalq hüquq standartlarına və digər dövlətlərin milli haqlarına hörmətlə davranmasının tərəfdarıdır.

Məlumdur ki, bu yanaşmada ölkəmiz üçün hansısa hərbi bloklara nümayəndəlik heç də mühüm məqsəd deyil, bütün dünya ölkələrinin, həmçinin Azərbaycanın ərazi və əhalisinin təhlükəsizliyinin, ölkələrin suveren hüquqlarının, dünyada sülhün təmin olunmasına çağırış edilir. Bloka üzv olacağı təqdirdə hələlik NATO və KTMT onun pozulmuş ərazi tamlığının bərpasına və bundan sonrakı milli təhlükəsizliyinə zəmanət vermirdi, dünyada sülhün, sivil dövlətlərarası əlaqələrin bərqərar olacağına zamin durmurdu, o zaman bu təşkilatlara nümayəndəlik Azərbaycana əlavə problem və məsuliyyətdən başqa bir şey vəd etmirdi.

Ölkəmizin KTMT-yə qoşulmaq istəməməsi qeyd edilən amillərlə, ölkənin geosiyasi maraqları və s. ilə bərabər, o cümlədən, işğalçı Ermənistanın cəzasızlıq ortamında bu təşkilatda təmsil edilməsi ilə əlaqədar idi. Bu təşkilat ölkəmizin bir zamanlar mühüm problemi olan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üçün müəyyən səmərəli mexanizmə sahib deyildi və bu sektorda ciddi iş görmək də istəmirdi. Ona görə ki, KTMT yarandığı gündən bəyan edir ki, bu qurum "daxili münaqişələrin" həll edilməsinə yox, "xaricdən yaranacaq təhlükələrə qarşı" tədbir görəcəkdir. Ermənistanın Azərbaycan torpaqlarını ələ keçirməsini "daxili münaqişə" kimi qeyd edən bu cür bir hərbi təşkilata ölkəmizin üzvlüyü çox mənasızdır. KTMT-nin yanaşması ilə "nə vaxtsa yarana biləcəyi düşünülən İran-Azərbaycan qarşıdurması" istisna edilməklə, bu qurum ölkəmizin xarici təhlükəsizliyinə heç bir geostrateji təminat və hərbi divident söz vermir. Bu təşkilata nümayəndəlik Cənubi Qafqazda xarici dövlətlərin hərbi bazalarının yerləşdirilməsinə razı olmayan və tam bitərəf mövqe nümayiş etdirən ölkəmizin Qərblə bərabərhüquqlu hərbi-geostrateji tərəfdaşlıq əlaqələrinə neqativ təsir edə bilər.



Dövlətimizin başçısının rəhbərliyi ilə siyasi, iqtisadi və mədəni sahələrdə sıçrayış dövrünü yaşayan Azərbaycan, həm də dünya birliyinin fəal və nüfuzlu üzvlərindən birinə çevrilib. Bunun bariz göstəricilərindən biri Azərbaycanın 2011-ci ilin oktyabr ayında BMT üzvü olan ölkələrin 155 səsini toplayaraq 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi oldu.

Müstəqillik tariximizin 20-ci ilində BMT Təhlükəsizlik Şurası kimi nüfuzlu bir quruma qeyri-daimi üzv seçilmək, bu seçkidə dünyanın 155 ölkəsinin dəstəyini almaq böyük tarixi hadisə olmuşdu. Bu, Qafqazda yerləşən bir ölkənin beynəlxalq birlik səviyyəsində möhtəşəm uğuru idi. 2011-ci ildə 2012-2013-cü illər üzrə Təhlükəsizlik Şurasının 5 qeyri-daimi üzvünün seçilməsi lazım idi. Bilindiyi kimi, Təhlükəsizlik Şurası dünyada sülh və təhlükəsizliyin bərpasında BMT-nin konkret bir qurumu kimi beş daimi və 10 qeyri-daimi üzvdən ibarət olur. BMT Baş Məclisinin Prosedur Qaydalarının 142-ci bəndinə görə, hər il BMT Təhlükəsizlik Şurasının 10 qeyri-daimi üzvündən 5-i yenilənir. Təhlükəsizlik Şurasına üzvlüyün bir sıra şərtləri mövcuddur. O ölkə bu quruma üzv ola bilər ki, sülh, təhlükəsizlik, tolerantlıq, iqtisadi inkişaf, millətlərarası və sivilizasiyalararası münasibətlər, dialoqa konkret bəhrələr verir. BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlük seçkilərində namizədlər bölgə qrupları ilə irəli sürülür. O vaxt Afrikadan və Asiya-Sakit okean bölgəsindən beş dövlət öz namizədliyini irəli çəkmişdi. Onlar Mavritaniya, Pakistan, Qırğızıstan və Toqo idi. Bunlar 2011-ci ilin dekabr ayının 31-də Qabon, Livan və Nigeriya tərəfindən azad edilmiş yerlər uğrunda mübarizə aparırdılar. İlin sonuna kimi Bosniya və Herseqovinanın tutduğu əraziyə Şərqi Avropa dövlətləri qrupundan 3 dövlət - Azərbaycan, Macarıstan və Sloveniya iddia edilirdi. Reqlamentə görə qeyri-daimi üzvlük seçkilərində gizli səsvermə üsulu tətbiq olunur. BMT Təhlükəsizlik Şurasına iki illik qeyri-daimi üzvlük üzrə 17 raundluq səsvermə aparıldı. Səsvermənin ilk raundu 21 oktyabr tarixində baş tutdu. Şərqi Avropa qrupundan öz namizədliyini irəli sürən Sloveniya və Macarıstanla vuruşan Azərbaycan seçkilərin 16 pilləsində ilk Macarıstan, sonra da Sloveniya üzərində qələbə qazanaraq 17-ci pillədə qələbə üçün tələb olunan 128 səsdən də çox olan 154 səs qazandı. Daha əvvəlki səsvermənin 16-cı pilləsində dövlətimiz 115, Sloveniya da 76 səs toplamışdı. Səsvermənin axırıncı pillə-

sindən əvvəl Sloveniya tərəfi namizədliyini geri götürmüşdü. Axırıncı pillədə isə dövlətimizin lehinə 154 dövlət səs verildi, 24 ölkə bitərəf oldu və 13 dövlət yenə də Sloveniyaya səs vermişdi.[1]

Azərbaycan BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü 2012-ci il yanvarın 1-dən başlamış və 2013-cü ilin dekabrın 31-nə kimi davam etmişdi. Azərbaycan Respublikası iki il Şərqi Avropa ölkələri qrupunu bu qurumda təmsil etmişdi. Ən qəribə və gülünc görünən də bu idi ki, Şərqi Avropa dövlətləri qrupundan təcavüzkar Ermənistan da Təhlükəsizlik Şurasının üzvü seçilməsi iddiasına düşdü. Lakin bu dövlətin hansı əməli işi ilə bu quruma üzv olmaq istəməsi məntiqsiz gəlirdi. Rüsvay olma və heç birinci turdan belə keçməmə ehtimalını anladıqları üçün ermənilər namizədlikdən geri çəkildilər.

Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvü qəbul olunması böyük tarixi önəm daşıyan hadisə oldu. Bu, Azərbaycan dövləti və millətinin tarixində qürurverici bir ilk oldu. Hər şeydən öncə ona görə ki, Azərbaycan Respublikası sırf ölkə Prezidentinin cəhdi nəticəsində öz azadlığının 20-ci ilində artıq dünya siyasətini təyin edən 15 dövlətdən birinə çevrilmişdi. Həmin möhtəşəm hadisə Azərbaycanın beynəlxalq nüfuzunu daha da artırmış, bölgənin lideri statusunu möhkəmləndirmişdi. Həm də bu onu göstərdi ki, siyasi iradə və əzmin olduğu yerdə istənilən hədəfə çatmaq mümkündür. Bu, sadəcə üzv qəbul edilmək məsələsi deyil, dövlətimizin və onun dövlət başçısının beynəlxalq dünyada artan nüfuzunun göstəricisinin təsdiqi oldu. Azərbaycanın tarixi zəfəri BMT TŞ-na qeyri-daimi üzv qəbul olunduğu gün yəni oktyabrın 24-də əldə olunmuşdu. Dövlət Prezidenti İlham Əliyev bununla əlaqəli olaraq verdiyi bəyanatında söyləyirdi: *"Bir neçə saat bundan öncə ölkəmizin həyatında çox mühüm və tarixi hadisə baş verdi. BMT Təhlükəsizlik Şurasına seçkilərdə dövlətimiz bu mötəbər qurumun üzvü oldu. Bu böyük zəfər münasibəti ilə bütün millətimi səmimi qəlbdən təbrik edirəm. Bu, həqiqətən də böyük zəfərdir".*[2]

BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul edilməsi ölkəmizin diplomatiya tarixində qazanılmış ən böyük uğurlarından biri olmaqla, ölkənin son dövrlər dünya səviyyəsində artan siyasi nüfuzunun ən sadə sübutu oldu. Azərbaycan sabit tərəqqi edən, yüksək iqtisadi meyarlara sahib olan və dünya siyasətindəki fəaliyyəti ilə dünya ictimaiyyətinin diqqətini çəkən dövlət olaraq bütün bu müvəffəqiyyətlər sayəsində beynəlxalq miqyasda məşhur təşkilatın nümayəndəliyinə seçilmişdi. Səsvermənin nəticəsi AR-nın dünya üzrə artan çəkisinin, ərazi tamlığı və sərhəd toxunulmazlığının yenidən təsdiqi oldu. Bu hadisə dövlət başçımız İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin dünya siyasətindəki ayrı-ayrı qlobal problemlərin müzakirəsinə cəlb olunmasını, dövlətimizin regional siyasətlə bərabər, dünya siyasətinin də mühüm aktorlarından birinə çevrilməsini göstərirdi.

Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv olması Ermənistanda faciə kimi qarşılandı. Lakin təcavüzkar olan ölkənin təxribatçı hərəkətləri heç bir nəticəyə gətirib çıxarmadı. Çünki ABŞ, Çin, Rusiya, Böyük Britaniya və Fransa kimi daimi üzv ölkələrlə bərabər Azərbaycan dövlətinin də dünyada bir nömrəli beynəlxalq təşkilat olan ən ali qurumda iştirakı Azərbaycan dövlətinin apardığı siyasətin dünya tərəfindən dəstəkləndiyinin əyani sübutu, həm də bu beynəlxalq birliyin Azərbaycanda aparılan siyasətə və həm də Prezident İlham Əliyevin yoluna verdiyi dəyərin inikası, dünya ictimaiyyətinin dövlətimizə olan etibar və etimadının təzahürünü özündə əks edirdi. Azərbaycan dövlətinin apardığı siyasət yanında Ermənistan çox aciz görünürdü. Prezident İlham Əliyev BMT Təhlükəsizlik Şurasının iclasında sədrlik edib orada çıxış edən ilk Azərbaycan prezidentidir.

2012-ci ilin may ayının 4-də Azərbaycan dövləti, BMT Təhlükəsizlik Şurasına sədr oldu. O, bu estafeti apreldə Şuraya sədrlik edən ABŞ-dan əldə etdi. 4 mayda Prezident İlham Əliyev BMT Baş Məclisinin iclasına sədr oldu və orada geniş məzmun daşıyan nitqlə çıxış etdi. Bu, Azərbaycanın tarixində möhtəşəm bir gün və ilk oldu. Prezident İlham Əliyevin sədrlik etdiyi iclasda prezident iclasın gündəliyinin "Terror aktlarının beynəlxalq sülh və təhlükəsizliyə yaratdığı təhdidlər" mövzusuna həsr edildiyini diqqətə çatdırdı. 4 may tarixində baş tutan iclasa sədr olan Azərbaycan Respublikası Prezidentinin dünya qlobal məsələlərinin həllinin önə çıxarıldığını dərin məzmunlu nitqində əks etdirməsi müasir azad Azərbaycan tarixində qürurverici bir ilklərdən idi. Çıxışında Prezident İlham Əliyev qeyd edirdi: *"Dövlətimiz ayrı-ayrı üsullarla terrorçuluğa məruz qalıb. Dövlətimiz terror fəaliyyətinin*

[1] Qasımlı M.C., İlham Əliyev Azərbaycan tarixinin mühüm ilklərinin müəllifidir // Azərbaycan. 2016, 16 oktyabr. – s.3., s.1

[2] Yenə orada, s.2

*bilavasitə hədəfinə dönüb. Ermənistan Azərbaycanın mülki əhali və infrastrukturuna onlarca terror fəaliyyəti ilə ziyan vurub. Nəticədə 2 mindən çox insan həyatını itirib. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ konfliktinin fəal fazasında düşmən dövlət etnik təmizləməyə sahib olmaq üçün hərbi təcavüzlə yanaşı, mülki əhaliyə qarşı çox böyük terror aktlarından da istifadə edib. Bu vəhşilik 1992-ci ilin fevralında Xocalı əhalisinin qətl edilməsi ilə kulminasiya nöqtəsinə çatıb. Bu müddətdə 613 günahsız insan, həm də qadınlar, azyaşlılar və yaşlılar həyatını itirib. 100-dən çox qadın, 63 azyaşlı qətl edilib. 1994-cü ildə Bakı metrosunda bomba partlayışı və digər əməllər kimi terror aktları təşkil edib silahsız əhali ilə mübarizə aparıblar. Hazırda Ermənistanın terror təhlükəsindən ehtiyat edərək, biz xüsusən terror təhdidlərinin tərəfimizdən zərərsizləşdirilməsinə rəğmən, bu təhlükə hələ də yüksək olaraq qalmaqdadır... Beynəlxalq terror təşkilatları elementləri Ermənistanın təhlükəsizlik, müdafiə sektoruna da inteqrasiya olunub. Avropa dəyəri və universal dəyərlərə sadiqliyini göstərməyə çalışan dövlət tərəfindən beynəlxalq terror təşkilatlarına üzv olanları qəhrəman olaraq qələmə vermək və onlara abidələr yüksəltmək cəhdlərini görmək təəssüf yaradır".*[1]

Azərbaycan BMT üzvləri içərisində dövlət müstəqilliyini bərpa edən gənc dövlət olsa da, bu qurumda aldığı rəhbər mövqenin və Prezident İlham Əliyevin çıxışının böyük tarixi mənası var idi. Hər şeydən öncə dövlət başçısının çıxışı Azərbaycan dövlətinin sadəcə XXI əsr tarixi üzrə deyil, həmçinin tam dövlətçilik tarixi üzrə yaddaşlarda qalan və möhtəşəm idi. Yəni Azərbaycan dövlətinin başçısı ilk dəfə idi ki, Təhlükəsizlik Şurasının iclasına sədr olurdu və nitqlə çıxış edirdi. Bu çıxış Azərbaycanın beynəlxalq təşkilatlarda təmsil edilməsi, dünya siyasətində olan bu və ya başqa zəfəri, respublikanın azad dövlət olaraq təsdiqlənməsi cəhətdən mühüm idi. Buna görə də BMT kimi dünyada nüfuzlu olan beynəlxalq təşkilatda söylənilən nitq mühüm məna kəsb edirdi. Söylənilən nitq Prezident İlham Əliyevin nüfuzuna təsir etmiş və onun dünyada hörmətini bəlli edən beynəlxalq faktor olmuşdu. Prezident İlham Əliyev bu ana qədər də xarici dövlətlərdə və beynəlxalq təşkilatların iclaslarında dəfələrlə çıxışlar etmiş və hörmətlə qarşı-

[1] Qasımlı M.C., İlham Əliyev Azərbaycan tarixinin mühüm ilklərinin müəllifidir // Azərbaycan. 2016, 16 oktyabr. – s.3., s.3



lanmışdı. AR Prezidenti söylədiyi nitqləri və siyasi-dövlətçilik fəaliyyəti ilə hərdən mövcud diplomatiya çərçivələrini aşan liderlər sırasına aiddir. Təhlükəsizlik Şurasında söylədiyi nitq də bu nöqteyi-nəzərdən diqqəti cəlb etmişdi. Əsasən, dövlət rəhbərləri Təhlükəsizlik Şurasında söylədikləri nitqlərində bitərəf mövqe aparır, öz dövlətlərinin problemlərini gündəmə gətirməyə çəkinirlər. Amma AR Prezidenti bu cür etmədi. O, Ermənistanın Azərbaycanın torpaqlarını zəbt etməsi, dünya terror şəbəkələrində aparıcı mövqeyə sahib olması məsələlərindən bəhs etdi. AR Prezidentinin nəzərə çatdırdıqları erməni terrorunun sadəcə Azərbaycan üzrə deyil, bütün dünya üzrə təhlükəli yönünü dünyaya çatdırmaq cəhətdən də mühüm idi. Yəni Ermənistan terrorçuluğa dəstəkdir və Azərbaycan dövlətinin işğal edilmiş ərazilərində terrorçuların düşərgələrinə himayəlik edirdi və başqa qanunsuz hərəkətləri icra edirdi, terroru dövlət sərəcəsində himayəyə almışdı. Azərbaycan dövləti isə terrora məruz dövlətdir və terrorla mübarizə aparan dövlətlərin yanındadır. Azərbaycan dövlətinin ilk sədrliyi ərzində BMT Təhlükəsizlik Şurasının 13 açıq, 16 qapalı toplantısı keçirildi.

Azərbaycan dövlətinin BMT Təhlükəsizlik Şurasında 2013-cü il oktyabr ayından başlayaraq aparılan ikinci sədrliyi də faydalı oldu. Əsas mövzu olaraq 2013-cü ilin 28 oktyabrında "BMT və İslam Əməkdaşlıq Təşkilatı (İƏT) arasında tərəfdaşlıq əlaqələrinin möhkəmləndirilməsi" mövzusu üzrə qurumun yuxarı səviyyəli toplantısı təşkil olundu. Bu müddətdə Təhlükəsizlik Şurasının gündəliyi beynəlmiləl sülh və təhlükəsizliyin bərpa edilməsi ilə bağlı mühüm problemləri əhatə etdi. Təhlükəsizlik Şurası toplantılarında dörd qətnamə, altı bəyanat qəbul olundu. Beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsi yönümündə öz cəhdlərini əsirgəməyən və stabil tərzdə fəaliyyət göstərən Azərbaycan Respublikası BMT Təhlükəsizlik Şurasının sədri olaraq beynəlxalq dərəcədə ədalətin və hüququn prinsiplərinin öz yerini almasına öz önəmli töhfələrini bəxş etdi. [1]

Ümumilikdə, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti BMT Təhlükəsizlik Şurasına üzv olması və sədrlik etməsi dövründə üstünə düşən vəzifələri layiqli şəkildə icra etdi, dünyada sülh və təhlükəsizli-

[1] Hacalıyev E., Azərbaycan BMT Təhlükəsizlik Şurasına üzvlüyü müddətində dünyada sülh və təhlükəsizliyin təmin olunması istiqamətində uğurlu fəaliyyət göstərdi // Azərbaycan. – 2014, 24 oktyabr. – s.3, s.3

yin təmin edilməsi yönümündə cəhdlərini davam etdirdi, beynəlxalq hüquq normaları və ədalətin müdafiəsində dayandı, sülh və beynəlxalq təhlükəsizliyə aid qlobal, və ya regional önəmli məsələlərin gündəliyini təyin etdi. Azərbaycan dövləti diplomatiyasının cəhdləri ölkəmizin milli maraqlarının qlobal dərəcədə genişləndirilməsinə istiqamətləndi. Terror və işğaldan əziyyət görən dövlət olaraq Azərbaycan dövləti beynəlxalq sülh və təhlükəsizliyə maneə kimi yaradılan təhdidləri, həmçinin Ermənistan dövlətinin təcavüzkar siyasətini hər an diqqətində saxladı. Azərbaycan Respublikası hər iki ildə qurumun qeyri-daimi iştirakçısı olaraq uğurlu fəaliyyətini davam etdirdi, sədrlik etdiyi dövrdə beynəlxalq sülh və təhlükəsizliyin hifzinə töhfələr verdi, şuranın gündəliyində duran məsələlərin müzakirəsində fəal iştirak etdi və daim öz qətiyyətli mövqeyindən çıxış etdi. Azərbaycan dövlətinin Təhlükəsizlik Şurasında hər iki il sədrlik etdiyi müddətdə qurumun 59 açıq və qapalı toplantısı keçirildi, 7 qətnamə, şura sədrinin 3 bəyanatı və mətbuat üçün 13 bəyanat qəbul olundu. Bu, Azərbaycan xalqına qürur gətirən bir hadisə idi.

Dünyanın bəzi dövlətləri tərəfindən vaxtilə soyuq müharibə dövründə iki siyasi-hərbi qütb arasında qarşıdurmaya cəlb edilməmək məqsədilə təsis olunan Qoşulmama Hərəkatı hazırda beynəlxalq münasibətlərin tənzimlənməsində iştirak edən mühüm çoxtərəfli mexanizmlərdən birinə çevrilmişdir. Son dövrlər Prezidentimizin başçılığı ilə dövlətimiz həm də dünya siyasətində, həmçinin beynəlxalq təhlükəsizlik sektorunda ayrıca bir təsir dairəsi kimi çıxış edən "bitərəf ölkələr" bloku olan Qoşulmama hərəktatı ilə öz münasibətlərini genişləndirərək, qurumun müxtəlif üzvləri ilə təhlükəsizlik sektorunda əməkdaşlıq etməyə başlamışdır. 2011-ci il 25-27 may tarixində təşkilatın XİN-nin İndoneziyada keçirilən 16-cı konfransında isə Azərbaycan bloka üzv olmuşdur.[1] Artıq 2019-2022-ci illərdə isə bu təşkilata Azərbaycan sədrlik edir.

2018-ci ilin aprel ayında Bakıda "Davamlı tərəqqi naminə beynəlxalq sülh və təhlükəsizliyin təşviq olunması" haqqında Qoşulmama Hərəkatının Nazirlər Konfransı keçirilmişdir. Azərbaycan Prezidenti tədbirin açılış mə-

[1] Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016) / məqalələr toplusu /tərt. ed. F.Məmmədov. – Bakı: "Poliart" MMC, – 2017. – 904 s., s.286



rasimində iştirak edərkən bildirmişdir ki, Azərbaycan qitələrin birləşdirilməsində, qarşılıqlı faydalı əməkdaşlıq platformasının qurulmasında mühüm rola malikdir: *"Müasir dövrdə Şərq-Qərb dəmir yolu dəhlizi dövlətimizin və qonşularımızın dəstəyi sayəsində artıq istifadə edilir. Biz bu proyektləri qonşularımızla bir yaşayırıq, ona görə ki, marşrutları yaratdıqda, əvvəlcə, sizin qonşularla, sonra isə region dövlətləri ilə düzgün əlaqələriniz olmalıdır. Bu səbəbdən Şərq-Qərb daşımalar dəhlizi artıq gerçəklikdir. Keçən ilin oktyabrında Bakı şəhərində bu dəhlizin açılışı qeyd edildi. Bu dəhliz ilə Asiyadan Avropaya və geriyə malların daşınmasına sərf edilən vaxt cəhətdən, ən azı 2 həftəyə qənaət edilir. Bu, bizim atdığımız addımların bir qismidir. Başqa əsas proyektimiz Cənub-Şimal dəhlizi hesab edilir. Ölkəmiz bu dəhlizlərin ərsəyə gəlməsinə böyük yatırımlar edir və Şərq-Qərb, o cümlədən Cənub-Şimal dəhlizlərinin aktiv nümayəndəsidir".*[1]

Azərbaycan dövləti 2019-cu ilin 25-26 oktyabr tarixində Bakıda Hərəkatın 18-ci dövlət və hökumət rəhbərlərinin Zirvə Görüşündə də ev sahibi olmuşdur. Tədbirdə 120 BMT üzvü olan dövlətin yuxarı səviyyəli nümayəndələri və 42 beynəlxalq təşkilatların nümayəndələri iştirak etmişdir. Bakı Sammiti ilə Hərəkata Sədrlik 2019-2022-ci illər üzrə Azərbaycan dövlətinə verilmişdir. 13-14 iyul 2021-ci il tarixlərində Azərbaycan Respublikasının sədrliyi ilə Qoşulmama Hərəkatının (QH) "Qoşulmama Hərəkatı qlobal çağırışlara qarşı mübarizədə çoxtərəfli səylərin mərkəzində" mövzusunda, virtual formatda aralıq dövr Nazirlər Konfransı zamanı Azərbaycanın təşkilata sədrlik müddətinin 1 il uzadılması haqqında qərar qəbul edilmişdir.[2]

Azərbaycan təşkilata sədrliyi dövründə onun işində fəal iştirak etməyə və 4 may 2020-ci il tarixində Azərbaycan Respublikası Prezidenti və QH-nin hazırkı sədri İlham Əliyevin təşəbbüsü əsasında Qoşulmama Hərəkatına üzv ölkələrin COVID-19 pandemiyasına qarşı mübarizə üzrə Təmas Qrupunun "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə Görüşü formatında video-konfransı təşkil olunmuşdur.

[1] Bakı Konqres Mərkəzində "Davamlı inkişaf naminə beynəlxalq sülh və təhlükəsizliyin təşviq edilməsi" mövzusunda Qoşulmama Hərəkatının Nazirlər Konfransının açılış mərasimində nitq: [Elektron resurs]. – Aprel 5, 2018 / URL: http://files.preslib.az/projects/xs/fes2/2018.pdf
[2] Azərbaycan Qoşulmama Hərəkatına əlavə 1 il də sədrlik edəcək: [Elektron resurs] / URL: https://apa.az/az/xeber/xarici-siyaset/azerbaycan-qosulmama-herekatina-elave-1-il-de-sedrlik-edecek-652634

Pandemiyanın əmələ gətirdiyi mürəkkəb beynəlxalq şəraitdə və dünya ictimaiyyəti tərəfindən beynəlxalq təşkilatların səmərəliliyi və çoxtərəfli diplomatiyanın gələcəyi sınağa çəkildiyi bir dövrdə Qoşulmama Hərəkatının hazırkı sədri qismində ölkəmiz çoxtərəfliliyin təşviqi üzrə prioritetə uyğun olaraq Azərbaycan Respublikası Prezidenti tərəfindən Hərəkatın koronavirusa qarşı mübarizə üzrə mümkün ən yüksək səviyyədə Təmas Qrupunun yaradılması və COVID-19 qlobal pandemiyasının QH üzv dövlətlərinə təsirinin qiymətləndirilməsi və onların ehtiyaclarının müəyyən olunması təşəbbüsü ilə çıxış etmişdir.

Görüşün yekunu olaraq QH üzv dövlətləri tərəfindən Bəyannamə qəbul edilmiş və QH-nin COVID-19 pandemiyasına qarşı mübarizə üzrə İşçi Qrupu təsis edilmişdir. Qrupa QH üzv dövlətlərinin pandemiyaya qarşı mübarizədə əsas tibbi, sosial və humanitar ehtiyaclarının əks olunacağı vahid məlumat bazasının hazırlanması tapşırılmışdır.

Azərbaycanın QH-yə sədrliyi dövründə nazirlər səviyyəsində də bir sıra tədbirlər keçirilmişdir. Pandemiya şəraitindən irəli gələn məhdudiyyətlər səbəbindən həmin tədbirlər virtual formatda baş tutmuşdur. Belə ki, 20 may 2020-ci il və 24 may 2021-ci il tarixlərində QH üzv dövlətlərinin səhiyyə nazirlərinin görüşləri, 9 oktyabr 2020-ci il tarixində (BMT Baş Assambleyasının növbəti sessiyası çərçivəsində) QH dövlətlərinin xarici işlər nazirlərinin iclası və 4 iyun 2021-ci il tarixində Hərəkata üzv dövlətlərin əmək nazirlərinin görüşləri keçirilmişdir.

Qoşulmama Hərəkatının Əlaqələndirici Bürosu 4 aprel 2020-ci il tarixində "Azərbaycan Respublikasının işğal altındakı ərazilərində keçirilmiş qondarma "seçkilər"lə bağlı Kommunike" qəbul etmişdir. Sənəddə ərazilərin güc yolu ilə ələ keçirilməsinin qəbuledilməz olduğu vurğulanaraq, heç bir dövlətin Azərbaycan Respublikasının ərazilərinin işğalı nəticəsində yaranmış vəziyyəti qanuni olaraq hesab etmədiyi bir daha təsdiqlənir. Kommunikedə Hərəkata üzv dövlətlərin 31 mart 2020-ci il tarixində Azərbaycan Respublikasının işğal altında olan Dağlıq Qarabağ bölgəsində keçirilmiş qondarma "prezident və parlament seçkiləri"ni tanımadıqları və bu aktı qeyri-qanuni hesab etdikləri bəyan edilir. QH üzv dövlətlərin QH-nin Bakı Zirvə Görüşünün yekun sənədinin 662-ci bəndinə istinad edərək, Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi



bütövlüyü və suverenliyinə, eləcə də Ermənistan-Azərbaycan münaqişəsinin BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri əsasında həllinə dair dəstəklərini bir daha ifadə etmişdir.

Oktyabrın 9-u 2020-ci ildə BMT Baş Assambleyasının növbəti sessiyası daxilində aparılmış QH üzv ölkələrinin xarici işlər nazirlərinin videokonfrans üslubunda toplantısı Ermənistanın dövlətimizə qarşı növbəti təcavüz aktı, yəni 44 günlük Vətən müharibəsi müddətinə düşdüyü üçün tədbirin gündəliyinə xüsusi olaraq "Bütün cəbhə boyu Azərbaycan Respublikasının silahlı qüvvələrinin mövqeləri və mülki yaşayış məntəqələrinə qarşı Ermənistan Respublikası tərəfindən silahlı hücum" başlığı altında bənd daxil olunmuş və bu bənd ilə Xüsusi Bəyannamə qəbul olunmuşdur. Xüsusi Bəyannamədə QH-yə üzv olan dövlətlər Ermənistan-Azərbaycan konfliktində mülki əhali arasında itkilər ilə müşayiət edilən toqquşmaların bərpa olunmasından narahat olduğunu ifadə etmiş, konfliktin BMT Təhlükəsizlik Şurasının qətnamələri ilə həllini tapmasına prinsipial dəstəyini bir daha ərz edərək, Azərbaycan dövlətinin azadlığı, suverenliyi və ərazi bütövlüyünə dəstək olmalarını qeyd etmişdir. Bəyannamədə üzv ölkələr Hərəkatın prinsipial mövqeyinə əsasən Azərbaycan dövləti ilə həmrəy olduqlarını qeyd etmişlər.

Həmçinin, 19 oktyabr 2020-ci ildə Ermənistan-Azərbaycan münaqişəsi dövründə vəziyyətin müzakirə olunması məqsədilə BMT Təhlükəsizlik Şurasının qapalı məşvərət toplantıları aparılmış, TŞ sədrinin problem ilə əlaqəli bəyanatının layihəsi müzakirə edilmiş, lakin Azərbaycan tərəfinin TŞ-də qeyri-daimi üzv olan QH dövlətləri ilə öncədən apardığı işin və danışıqların nəticəsi olaraq, ölkəmizin mövqeyinə zidd olan və münaqişə barədə TŞ qətnamələrinə istinadı əks etdirməyən həmin bəyanat layihəsinin qəbulunun qarşısı alınmışdır.

Göründüyü kimi vaxtında uzaqgörənliklə qəbul edilmiş qərar olan – Qoşulmama Hərəkatına üzvlük qərarı, bu təşkilatın işində fəal iştirak, üzv ölkələrlə aparılan siyasət son nəticədə həmin təşkilat üzvlərinin lazım gəldikdə Azərbaycanın haqq mövqeyinə öz dəstəklərini göstərməsinə səbəb oldu. Azərbaycan bu təşkilata üzv olarkən, onun işində iştirak edərkən bəzi qüvvələr bunun əleyhinə çıxış edir, bu təşkilatın ölkəmizə heç bir fayda vermədiyi iddia edirdilər. Lakin zaman bu kimi fikirlərin yanlışlığını üzə çıxar-

dı və bu məsələdə də AR Prezidenti İlham Əliyevin diplomatik professionallığı və liderlik keyfiyyətləri faktlarla öz təsdiqini tapdı.

O da xüsusilə qeyd olunmalıdır ki, Qoşulmama Hərəkatı özünün ən uğurlu inkişaf dövrünü məhz Azərbaycanın sədrliyi zamanı yaşamaqdadır. AR-in sədrliyi zamanı təşkilatın ən böyük uğurlarından biri onun təsisatlanması məsələsi olmuşdur. Belə ki, Azərbaycanın sədrliyi dövründə Hərəkatın Parlament Şəbəkəsi və Gənclər Təşkilatı yaradılmışdır. Qoşulmama Hərəkatının 61 illik fəaliyyət müddətində Şuşada ilk dəfə Hərəkata üzv ölkələrdəki gəncləri birləşdirəcək Gənclər Təşkilatı yaradılmışdı.

Azərbaycanın Qoşulmama Hərəkatı təşkilatının fəaliyyətinə əhəmiyyətli töhfələr verdiyini göstərən növbəti faktlardan biri də Bakıda 2 mart 2023-cü ildə təşkilatın COVID-19-a qarşı mübarizəyə dair Təmas Qrupunun Zirvə görüşünün keçirilməsi oldu. AR-in növbəti dəfə qlobal miqyasa aid məsələlərin müzakirəsinin təşkil edildiyi vacib bir görüşün ev sahibi olması ölkəmizin qlobal həmrəyliyə verdiyi əhəmiyyətin təzahürüdür.

Bakıdakı Zirvə görüşündə 70-ə yaxın dövlətin dövlət və hökumət başçıları, 5 dövlətin - Bosniya və Herseqovina, Özbəkistan, Türkmənistan, Liviya və İraqın prezidentləri, üç dövlətin - Kuba, Tanzaniya və Qabonun vitse-prezidentləri, Keniya və Əlcəzairin Baş nazirləri, bir çox ölkənin digər yüksək səviyyəli nümayəndələri, eləcə də bir sıra beynəlxalq təşkilatın rəhbərləri - Beynəlxalq Miqrasiya Təşkilatından Baş direktor Antonio Vitorino, BMT-nin Cenevrə bölməsindən baş direktor Tatyana Valovaya, İqtisadi Əməkdaşlıq Təşkilatından Baş katib Xusrav Noziri, Dünya Turizm Təşkilatından Baş katib Zurab Pololikaşvili, bununla yanaşı çox sayda nazir, nazir müavini, səfir və başqaları iştirak etmişdilər.[1]

Azərbaycan Prezidenti İlham Əliyev tədbirin açılışında çıxış edərək görüş iştirakçılarına müraciət etmişdi. O, Qoşulmama Hərəkatı təşkilatının sədri kimi məqsədinin ali dəyərlər olan beynəlxalq hüquq və ədaləti qorumaq olduğunu qeyd etmiş, QH-nin qlobal miqyasda BMT-dən sonra II ən böyük beynəlxalq təşkilat olaraq effektiv səmərəli rola malik olmalı və formalaşmaqda olan yeni dünya düzənində aktiv şəkildə iştirak etməli olduğu-

[1] İlham Əliyev Bakıda Qoşulmama Hərəkatının COVID–19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə iştirak edib: [Elektron resurs]. – Mart 2, 2023 / URL: **https://president.az/az/ articles/view/59074**



nu vurğulamışdır. Dövlət başçısı bu mötəbər təşkilatın həyata keçirdiyi fəaliyyətə toxunaraq bütün bəşəriyyət üçün faciəli bir hadisə olan pandemiyanın başladıqdan dərhal sonra məhz Qoşulmama Hərəkatının COVID-19-a qarşı qlobal səylərin səfərbər olunması üçün təşəbbüslə çıxış etməsini və bu istiqamətdə fəaliyyətinin səmərəli olduğunu söyləmişdir.

İlham Əliyev digər bir vacib məqamı vurğulayaraq qeyd etmişdi ki, QH koronavirus pandemiyası ilə mübarizə dövründə bəzi zəngin dövlətlərin apardığı "peyvənd millətçiliyi"ni ciddi maneə olaraq qiymətləndirmişdi. Belə ki, təşkilat 2021-ci ildə iqtisadi vəziyyətindən asılı olmayaraq bütün ölkələrin COVID-19-a qarşı peyvəndlərdən vahid şəkildə və ədalətli olaraq istifadə etməsinin təmini məqsədilə BMT Baş Assambleyası və İnsan Hüquqları Şurasında iki qətnamənin qəbul olunmasında təşəbbüskar olmuşdur. AR prezidenti eyni zamanda pandemiya müddətində Azərbaycan humanizm prinsiplərinə sadiqliyini göstərərək əsasən Qoşulmama Hərəkatına üzvlərdən olan 80-dən artıq dövlətə koronavirusla əlaqədar humanitar və maliyyə yardım göstərdiyini bildirmişdir.[1]

Azərbaycan prezidenti öz çıxışında QH üzvlərinin 2020-ci və 2022-ci illərdə BMT-nin Təhlükəsizlik Şurasında ölkəmizin haqlı mövqeyinə dəstək verdikləri və xüsusən də AR-in əleyhinə olan qərəzli və birtərəfli bəyanatların qəbul edilməsinə imkan yaratmadıqları üçün bu təşkilata təşəkkürünü də bildirmişdi. Bundan başqa İlham Əliyev təəssüflə göstərmişdir ki, günümüzdə dünyada neokolonializm meylləri getdikcə artlr və bu meyllərin qarşısının alınması yolunda Qoşulmama Hərəkatının birləşməli olduğunu və bu istiqamətdə ciddi addımlar atmalı olduğunu xüsusi qeyd etmişdi.[2]

Bu gün əminiklə deyə bilərik ki, Qoşulmama Hərəkatı artıq BMT-yə alternativ olan bir gücə çevrilə bilmişdir və bu, məhz AR-in həmin təşkilatdakı fəaliyyəti ilə birbaşa bağlı olmuşdur. Ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi zamanı dölət başçısı İlham Əliyevin həyata keçirdiyi siyasət təşkilatın beynəlxalq birlik arasında öz mövqeyini möhkəmləndirməsinə xidmət

[1] İlham Əliyev Bakıda Qoşulmama Hərəkatının COVID–19–a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə iştirak edib: [Elektron resurs]. –Mart 2, 2023 / URL: **https://president. az/az/articles/view/59074**

[2] Qardaşxanova Ə., Qoşulmama Hərəkatının gələcək fəaliyyətinə layiqli töhfə: [Elektron resurs]. – Mart 4, 2023 / URL: **https://www.azerbaijan–news.az/az/posts/detail/qosulmama–herekatinin–gelecek–fealiyyetine–layiqli–tohfe–1677879942**

etmişdir. Bu səbəbdən Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə sahəsində Təmas Qrupunun Bakıda keçirilmiş Zirvə görüşü bu təşkilatın nüfuzunun və beynəlxalq münasibətlərdəki yeri və rolunun artmasında ciddi rol oynayacaq.

## § 3. Post-müharibə dövründə sülh danışıqları və Qarabağda quruculuq işləri

44 günlük müharibə nəticəsində Azərbaycan işğalda olan torpaqlarını azad edərək beynəlxalq hüquqda tanınmış sərhədlərini bərpa etdi. İkinci Qarabağ müharibəsinin nəticələri artıq Qafqaz regionunu formalaşdırmaqdadır. Azərbaycan özünün diqqətlə işləyib hazırladığı hərbi strategiyasını yüksək səviyyədə tərtib edilmiş diplomatik addımlarla birləşdirərək regionda çəkindirmə və tarazlıq sisteminin əsasını qoydu.

İkinci Qarabağ Müharibəsi çoxsaylı insan və digər itkilərə səbəb olsa da, beynəlxalq humanitar hüququn və beynəlxalq insan hüquqlarının ciddi şəkildə pozulması ilə müşahidə olunsa da bu müharibə Qafqazda geosiyasi vəziyyəti dəyişmiş və Şərqi Avropada uzun müddət həll olunmamış münaqişələrə xas olan qeyri-sabitlik üçün bir nümunə olmuşdur. Azərbaycan Respublikası nümayiş etdirmişdi ki, I Qarabağ müharibəsindəki məğlubiyyəti müvəqqəti atəşkəsin olduğu dövrdə güclü iqtisadiyyata malik dövlət yaratmaqla, ordusunu ən müasir silahlarla təchiz edərək, xarici siyasətdə həyata keçirdiyi uğurlu diplomatiya ilə sadiq müttəfiqlər əldə edərək qələbəyə çevirə bilər.

ATƏT-in Minsk qrupu çərçivəsində 30 ilə yaxın müddətdə davam edən danışıqların əldə edə bilmədiyinə Azərbaycan 44 günlük müharibədə nail oldu və BMT TŞ-nin münaqişə ilə bağlı qəbul etdiyi 4 qətnaməni özü təkbaşına həyata keçirmiş oldu. Müharibəni sonlandıran 10 noyabr 2020-ci tarixli üçtərəfli Bəyanatın müddəaları Qafqazda formalaşmaqda olan yeni reallıqlar üçün də zəmin yaratdı.

II Qarabağ müharibəsi nəticəsində Ermənistan 1990-cı illərin əvvəllərində işğal etdiyi bütün torpaqlar üzərində nəzarəti itirdi və Azərbaycan beynəlxalq hüquq normalarına uyğun olaraq tanınmış sərhədləri daxilində ərazi bütövlüyünü təmin etdi. İmzalanmış üçtərəfli Bəyanata əsasən ermənilərin yaşadığı keçmiş Dağlıq Qarabağ ərazisinə 1960 Rusiya sülhməramlısı yerləşdirilmiş, eləcə də Ermənistanla bu ərazilərimiz arasında humanitar əlaqəni təmin etmək üçün sülhməramlıların nəzarəti altında 5 km enində olan Laçın dəhlizinin təmin edilməsi də razılaşdırılmışdır.[1]



Bunun qarşılığında isə Azərbaycanı öz anklavı Naxçıvanla birləşdirən Zəngəzur dəhlizinin açılması da Bəyanatın bəndləri arasındadır. Zəngəzur dəhlizinə aid bəndin 10 noyabr Bəyannaməsinə salınması, AR Prezidentinin çıxışlarından bəlli olduğu kimi, şəxsən İlham Əliyev tərəfindən israrla üstündə durulmuş məsələ olmuşdur. Yalnız bu fakt İlham Əliyevin uzaqgörən və strateji qərarlar qəbul edə bilən bir dövlət başçısı, lider kimi xarakterizə etməyə kifayət edər. Lakin, onu da qeyd etmək lazımdır ki, müharibənin bitməsindən keçən dövr ərzində erməni tərəfinin nümayiş etdirdiyi qeyri-konstruktiv mövqe nəticəsində hələ də bu istiqamətdə yekun razılıq əldə edilməmişdir.

Ümumilikdə, həmin Bəyanatda aşağıdakılar nəzərdə tutulurdu:[2]

1. 10 Noyabr 2020-ci ildən başlayaraq Azərbaycan Respublikası və Ermənistan Respublikası Dağlıq Qarabağ münaqişəsi bölgəsindəki bütün hərbi əməliyyatları və hərbi fəaliyyətləri dayandıraraq olduqları mövqelərdə dayanırlar.

2. 20 noyabr 2020-ci il tarixinə qədər Ağdam rayonu Azərbaycan Respublikasının nəzarətinə qayıdacaqdır.

3. Rusiya Federasiyasının bir qrup yanğınsöndürən, tank, nəqliyyat vasitələri və xüsusi texnikası rabitə yolu və Laçın dəhlizi boyunca Dağlıq Qarabağda yerləşdiriləcəkdir.

4. Ermənistan silahlı qüvvələrinin geri çəkilməsinə paralel olaraq RF-in sülhməramlıları yerləşdirilir. Bu sülhməramlıların həmin ərazidə fəaliyyət göstərməsi müddəti 5 ildir və əgər tərəflər bu müddətin bitməsindən 6 ay əvvəl bu müddəanı ləğv etmək niyyətində olduğunu elan etməzsə fəaliyyət müddəti 5 il də uzadılmalıdır.

---

[1] Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı: [Elektron resurs]. – Noyabr 10, 2020 / URL: **https://president. az/az/articles/view/45923**

[2] Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı: [Elektron resurs]. – Noyabr 10, 2020 / URL: **https:// president. az/az/articles/view/45923**

5.Tərəflərin razılaşdığı müddəalara uyğun davranmasının effektivliyini artırmaq üçün atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz təşkil edilir.

6. Ermənistan Respublikası 15 noyabr 2020-ci ilə qədər Kəlbəcər, 1 dekabr 2020-ci ilə kimi Laçın rayonunu Azərbaycan Respublikasının nəzarəti altına qaytaracaqdır. 5 km enliyində olan Laçın Dəhlizi (Şuşa şəhərinə toxunmamaq şərtilə) vasitəsilə Dağlıq Qarabağ və Ermənistan arasında rabitə təmin ediləcək və bu dəhlizə Rusiya sülhməramlıları nəzarət edəcək. Tərəflərin razılığına əsasən yaxın üç il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqə yaradacaq Laçın dəhlizində yeni hərəkət maşrutunun tikintisi planı müəyyənləşdiriləcək və bundan sonra sülhməramlıların gələcəkdə yerdəyişməsi nəzərdə tutulur. Azərbaycan dövləti Laçın Dəhlizi boyunca hər iki yöndə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinin təhlükəsizliyinə zəmanət verir.

7. Daxili məcburi köçkünlər və qaçqınlar BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti ilə Dağlıq Qarabağ və ətraf rayonların ərazisinə qayıdacaqlar.

8. Hərbi əsirlərin, girovların və digər saxlanılanların, eləcə də cəsədlərin mübadiləsi aparılacaqdır.

9. Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa ediləcəkdir. Ermənistan Respublikası vətəndaşlar, nəqliyyat vasitələri və yüklərin hər iki yöndə maneə olmadan hərəkət etməsini təşkil etmək üçün Azərbaycan dövlətinin qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Bu nəqliyyat əlaqəsinə nəzarət Rusiya Federal Təhlükəsizlik Xidməti Sərhəd xidməti orqanları tərəfindən həyata keçirilir.

Tərəflərin arasındakı razılığa əsasən Naxçıvan MR ilə Azərbaycanın qərb bölgələrini birləşdirəcək yeni nəqliyyat kommunikasiyaları inşası təmin ediləcəkdir.

44 günlük müharibənin gedişində və ondan sonrakı mərhələdə Türkiyə-Rusiya tandemi Qafqazda regional qüvvələr balanasını dəyişdirərək digər beynəlxalq və regional aktorları ikinci plana keçirmiş oldu. Müharibə zamanı ilk gündən Azərbaycana dəstəyini açıq bəyan edən Türkiyə müharibədən sonra da regionda "3+3" formatında əməkdaşlıq mühitinin yaradılmasında həlledici rol oynamaqdadır. Azərbaycanın torpaqlarının azad edilməsindən



sonra Türkiyə Ermənistanla da münasibətlərini bərpa etmək üçün danışıqlara başlamış, bu istiqamətdə nəticələr əldə etməyə çalışır.

Bunun əksinə olaraq, 30 ilə yaxın müddətdə münaqişənin sülh yolu ilə həlli üçün çalışan aktorların müharibə gedişində və sonrakı dövrdə proseslərdən kənarda qaldığı açıq-aşkar görünməkdə idi. Atəşkəs danışıqlarında və üçtərəfli Bəyanatın imzalanmasında ATƏT-in Minsk Qrupunun və ya hər hansı Qərb aktorunun və ya beynəlxalq təşkilatın (BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının nəzarətçi rolunun qeyd edilməsi istisna olmaqla) iştirak etməməsi çoxtərəfli institutların münaqişələrin sülh yolu ilə həlli mexanizmindəki rolunu zəiflətmişdi.

10 noyabr üçtərəfli Bəyanatının maddələrinin həyata keçirilməsini təmin etmək üçün 11 yanvar 2021-ci ildə Moskvada Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçirildi. İclasdan sonra imzalanan Bəyanat aşağıdakıları əks etdirir:

- Rusiya Prezidenti Vladimir Putinin Azərbaycan Respublikası, Ermənistan Respublikası Baş nazirinin müavinləri və Rusiya Federasiyasının Hökumət sədr müavininin birlikdə həmsədrlik etdiy üçtərəfli işçi qrupunun yaradılması təklifi dəstəklənir.
- İşçi qrup ilk iclasını 30 yanvar 2021-ci il tarixinədək keçirməlidir. İclasın nəticələrinə əsasən Bəyanatın 9-cu bəndinin icrası üçün əsas iş istiqamətlərinin siyahısı hazırlanmalı, prioritet olaraq dəmir yolları və magistral yollar müəyyənləşdirilməlidir.

11 yanvarda Moskvada yaradılmış işçi qrupunun ilk iclası 30 yanvar 2021-ci ildə keçirilmiş, tərəflər bir sıra ekspert alt qrupları yaradılması barədə, dəmir yolu, avtomobil və kombinə edilmiş daşınmalarla bağlı, təhlükəsizlik, sərhəd, gömrük, sanitariya, baytarlıq, fitosanitar və digər nəzarət növləri daxil olmaqla, nəqliyyatın təmin edilməsi məsələləri üzrə razılığa gəldiklərini bildirmişlər. Bu işçi qruplar Ermənistanın pozuculuq fəaliyyətinə baxmayaraq bir neçə iclas keçirə bilmiş, əsasən regionda kommunikasiyaların açılması məsələlərini müzakirə etmişlər, lakin bu iclaslarda konkret bir qərar qəbul edilməmişdir.

26 noyabr 2021-ci ildə yenidən Rusiya Prezidentinin təşəbbüsü ilə Soçidə yeni üçtərəfli görüş baş tutmuşdur, tərəflər bir sıra məsələləri geniş

müzakirə etmişdir, ümumi bəyanatla çıxış etmişlər. Putin, Əliyev və Paşinyan Azərbaycan-Ermənistan sərhədində sabitliyin və təhlükəsizliyin səviyyəsini artırmaq üçün addımlar atmağa razılaşıblar. Görüşün əsas nəticəsi ölkələr arasında sərhədin demarkasiyası və delimitasiyası mexanizminin yaradılması ilə bağlı qərar olub. Rusiya Federasiyası tərəflərin müraciəti əsasında məsləhətçi yardım göstərməyə hazır olduğunu bildirib. Bundan əlavə, Rusiya dövlətinin başçısı Azərbaycan prezidenti və Ermənistanın baş naziri ilə ayrı-ayrılıqda görüşlər keçirib.

2022-ci ilin 31 oktyabrında Soçidə Azərbaycan, Ermənistan və Rusiya liderlərinin növbəti üçtərəfli görüşü keçirilmişdir. Soçi görüşündə qəbul olunan bəyanatda qeyd edilir ki, tərəflər 2020-ci ilin 9 noyabrında, 2021-ci ilin 11 yanvarı və 26 noyabrında qəbul olunmuş üçtərəfli bəyanatların yerinə yetirilməsini müzakirə ediblər. İki saatdan çox davam edən görüşdə liderlər bəzi müddəalara dəyişiklər etməklə birgə bəyanatla qəbul etmişlər. Görüşdən sonra keçirilmiş mətbuat konfransında çıxış edərkən Rusiya Prezidenti bildirmişdir ki, hər şeyi razılaşdırmaq mümkün olmamış, lakin görüşdə Rusiya Federasiyası, Ermənistan və Azərbaycan gələcəklə bağlı razılığa gəlmək bacarığını nümayiş etdirmişdir. Bundan başqa o, Rusiya Federasiyasının Ermənistan və Azərbaycan arasında yekun nizamlanmaya nail olunması üçün hər şeyi edəcəyini qeyd etmişdir.

Soçi görüşündə AR Prezidenti açıq-aydın mövqe nümayiş etdirmiş, Azərbaycanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini həll etdiyini və bunun üç sənəddə - 10 noyabr 2020-ci il, 11 yanvar və 26 noyabr 2021-ci il tarixli üçtərəfli bəyanatlarda öz təsbitini tapdığını bildirmişdi. Belə ki, həmin bəyanatlarda münaqişənin sona çatması ilə bağlı müddəalarla yanaşı, eyni zamanda postmünaqişə dövründə atılmalı addımlar da konkret müddəalarla təsbit edilmişdir. Bu səbəbdən 2022-ci ilin oktyabrındakı Soçi görüşündə yalnız postmünaqişə dövründə Ermənistan və Azərbaycan arasındakı əlaqələrin normallaşdırılması haqqında danışılmış və həmin danışıqlar qeyd olunmuş sənədlərdə göstərilən istiqamətdə və kontekstdə aparılmışdı.[1]

[1] Adıgözəlov K., Cənubi Qafqazda Azərbaycanın geosiyasi liderliyinin növbəti təsdiqi: [Elektron resurs]. – Noyabr 4, 2022 / URL: **https://525.az/news/205052–cenubi–qafqazda–azerbaycanin–geosiyasi–liderliyinin–novbeti–tesdiqi**



Nümunə olaraq, erməni silahlı dəstələrinin Azərbaycan ərazisini tərk etməməsinin səbəbləri, Ermənistanın hansı səbəbdən kommunikasiyaların, xüsusilə də Zəngəzur dəhlizinin açılmasını ləngitməsi, Ermənistan ərazisindən Azərbaycan ərazilərinə atəş açılması və s. əlaqədar müzakirələr aparıldığını göstərmək olar. Bu kimi müzakirələrdə Ermənistan baş naziri N.Paşinyan əsaslı cavablar verə bilməmiş və imzalanmalı olacaq birgə bəyanatın qəbul olunmamasına cəhd göstərib. Onun bu cəhdlərinin qarşısı uğurla alınmış və imzalanmış Bəyanatın mətnində Azərbaycan Prezidentinin toxunduğu bütün məsələlər yer almışdır.

Bəyanatda tərəflərin Azərbaycan-Ermənistan münasibətlərinin kompleks şəkildə normallaşdırılmasına, sülh, təhlükəsizlik və sabitliyin, Cənubi Qafqazın davamlı iqtisadi inkişafının təmini yolunda qeyd edilmiş hər bir razılaşmaya riayət edilməsinə sadiq olduqları bildirilmiş, humanitar məsələlər blokunun ən qısa zamanda həll edilməsinə əlavə səylər göstəriləcəyinə dair razılıq əldə edilmişdir.

Bəyanatda daha sonra Rusiya sülhməramlılarının yerləşdiyi ərazidə onların təhlükəsizliyin təmin olunmasına mühüm töhfəsini qeyd edilərək onların regionda vəziyyətin stabilləşdirilməsinə istiqamətlənmiş fəaliyyətinə ehtiyac olduğu vurğulanmış, güc tətbiq etmə və ya güc tətbiq etməklə qorxutmaqdan çəkinmək və bütün problemli məsələlərin BMT Nizamnaməsinə və 1991-ci il Alma-Ata Bəyannaməsinə müvafiq olaraq suverenliyin, ərazi bütövlüyünün və sərhədlərin toxunulmazlığının qarşılıqlı tanınmasına əsasən müzakirə və həll edilməsi barədə razılığa gəldikləri göstərilmişdir.[1]

Bəyanatın sonunda bütün deyilənlərin kontekstində daha bir vacib məqam vurğulanmışdır. Belə ki, orada regionda uzunmüddətli və davamlı sülhün əldə olunması üçün Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülh müqaviləsinin imzalanmasınına aktiv şəkildə hazırlaşmağın vacibliyi göstərilmiş, tərəflər mövcud təkliflərə əsasən məqbul həll yolları axtarılmasına davam etmək barədə razılaşmış, Rusiya Federasiyası isə öz üzərinə bu istiqamətdə hər vasitə ilə kömək göstərəcəyi barədə öhdəlik götürmüşdür.

[1] Adıgözəlov K., Cənubi Qafqazda Azərbaycanın geosiyasi liderliyinin növbəti təsdiqi: [Elektron resurs]. – Noyabr 4, 2022 / URL: **https://525.az/news/205052–cenubi–qafqazda–azerbaycanin–geosiyasi–liderliyinin–novbeti–tesdiqi**

Bu müddəanın mənasını Ermənistan hökumətinin əsas diqqətini Azərbaycanla sülh müqaviləsi imzalanması prosesinə istiqamətləndirmək kimi də qiymətləndirmək olar: yəni, Ermənistan tərəfi bu münaqişənin tam həll olunduğunu birmənalı olaraq qəbul edib, müxtəlif təxribatlara əl ataraq regiondakı sülh və sabitliyə daha artıq zərər vurmasın.

Əlbəttə ki, bütün bu görüşləri Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması, regionda sülh və təhlükəsizliyin yaradılması üçün müsbət addımlar kimi qiymətləndirmək olar. Lakin onu da qeyd etmək lazımdır ki, onların nəticələri tam mənası ilə səmərəli olmur, çünki Ermənistan tərəfi birmənalı mövqe nümayiş etdirmir və ya edə bilmir. Tərəflər arasında etibara əsaslanan münasibətlərin qurulması üçün ilk növbədə Ermənistan həm dövlət, həm cəmiyyət olaraq Azərbaycana qarşı ərazi iddialarından əl çəkməli, Azərbaycanın ərazi bütövlüyünü tanımalı, Dağlıq Qarabağda yaşayan ermənilər isə Azərbaycanın qanunlarına hörmət etməli və yenidən Azərbaycan vətəndaşları kimi yaşamağı öyrənməyə çalışmalıdır. Yalnız bundan sonra iki ölkə arasında sülh müqaviləsi imzalana və bütün istiqamətlər üzrə münasibətlərin normallaşdırılması prosesinə başlanıla bilər. Əks halda isə indiki vəziyyətin təkrarlanması, gərginliyin uzanması və sərhəddə zaman-zaman baş verən toqquşmaların artması kimi neqativ hallar iki ölkə arasında münasibətləri daha da kəskinləşdirə bilər.

Rusiyanın II Qarabağ müharibəsi zamanı mövqeyi və atəşkəs razılaşmasının əldə edilməsindəki rolu onu göstərmişdi ki, o, Cənubi Qafqazda təhlükəsizlik sahəsində əsas oyunçudur. Bu baxımdan Rusiya üçtərəfli Bəyanatın müddəaları əsasında Qarabağın ermənilər yaşayan hissəsinə öz sülhməramlılarını yerləşdirməklə bütün dünyaya regionun əsas aktoru olduğunu nümayiş etdirmişdi. Lakin Rusiyanın Ukraynada başlatdığı müharibədən sonra onun mövqeyi bütün dünyada olduğu kimi Qafqazda da zəifləməyə başlamışdır.

Qafqazda milli maraqlara sahib və Azərbaycanla ən yaxın müttəfiq və qardaş ölkə olan Türkiyə də II Qarabağ müharibəsindən sonra regionda və bütövlükdə dünyada öz mövqeyini möhkəmlətmiş oldu. Xəzər dənizinə birbaşa çıxışı hədəfləyən və Xəzər dənizindən enerji ehtiyatlarının Avropaya çatdırılması üçün mərkəz olmaq məqsədini qarşısına qoyan Türkiyə öz məqsədlərinə yaxınlaşmaqdadır. Türkiyənin Rusiyanın neft və qaz idxalından müstəqilliyinin getdikcə artması, eləcə də Azərbaycanla hərbi və iqtisadi əməkdaşlığının güclənməsi Ankaranın Moskva ilə danışıqlarda da mövqeyini yaxşılaşdırmışdır.



Cənubi Qafqazdan tranzit marşrutlarının keçməsində Azərbaycan və Ermənistandan başqa Rusiya, Türkiyə və İranın da ümumi maraqları vardır. Bu, Ermənistanla Türkiyə arasında yaxınlaşma və iki ölkə arasında sərhədlərin açılması üçün müəyyən imkanlar yaratmaqdadır. Bu kontekstdə Gürcüstan artıq iki ölkə arasında aparılan danışıqlarda vasitəçi rolunu oynayır. Bununla belə, Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması Ankara ilə İrəvan arasında münasibətlərin yaxşılaşması üçün ilkin şərt olaraq qalır. Ticarət və kommunikasiyanın genişləndirilməsi üçün böyük potensialın olmasına və müharibədən sonrakı dövrdə bu sahədə fəaliyyətin intensivləşməsinə baxmayaraq bir çox real manеələr də qalır.[1]

Müharibədən sonra Ankara və Moskva üç Cənubi Qafqaz dövləti, Türkiyə, İran və Rusiya arasında əməkdaşlığın 3+3 formatını təklif etmişdilər.[2] Bu formatın formalaşması təqdirdə regionda Aİ və ABŞ olmadan yeni geosiyasi reallıq möhkəmlənə bilər. Bu format, həmçinin yeni irimiqyaslı infrastruktur layihələri üzrə danışıqlar üçün platforma yarada bilər. Lakin Tbilisi hazırda belə bir təşəbbüsə qarşıdır və rus qoşunları Abxaziya və Cənubi Osetiyanı tərk etməyənə qədər Moskva ilə heç bir belə regional formatda iştirak etməyəcəyini qətiyyətlə bildirmişdir.[3] Bundan başqa Tiflis üçün Azərbaycan və Ermənistandan keçən yeni Şərq-Qərb tranzit marşrutları Gürcüstanın əsas tranzit ölkə kimi rolunu sarsıda bilər. Gürcüstana həmçinin Azərbaycan üzərindən Rusiya, Ermənistan və Türkiyəni birləşdirən mümkün yeni Cənub-Şimal tranzit marşrutları da öz təsirini göstərəcək. İstənilən halda

[1] Waal T. D., In the South Caucasus, Can New Trade Routes Help Overcome a History of Conflict? : [Electronic resource]. – November 8, 2021 / URL: **https://carnegieeurope.eu/2021/11/08/in-south-caucasus-can-new-trade-routes-help-overcome-history-of-conflict-pub-85729**

[2] Teslova E., Russia suggests 3+3 format with Turkey, Iran, Azerbaijan, Armenia, Georgia in Caucasus: [Electronic resource]. –October 7, 2021 / URL: **https://www.aa.com.tr/en/politics/russia-suggests-3-3-format-with-turkey-iran-azerbaijan-armenia-georgia-in-caucasus/2384679**

[3] Kaleki V., Iran and the 3+3 regional cooperation format in the South Caucasus: Strengths and weaknesses.Eurasia Daily Monitor, 18, 96: [Electronic resource]. – June 16, 2021 / URL: **https://jamestown.org/program/iran-and-the-33-regional-cooperation-format-in-the-south-caucasus-strengths-and-weaknesses/**

regiondakı 3+3 formatdakı əməkdaşlıqda açar ölkə rolunu oynayacaq ölkə kimi Azərbaycanı göstərmək heç də səhv olmaz. Çünki Azərbaycan yerləşdiyi geosiyasi mövqe baxımından Şimal və Cənubun, Şərq və Qərbin qovuşağında yerləşdiyindən indiki şəraitdə bu kommunikasiyaların açılması Azərbaycanın regiondakı liderlik mövqeyini daha da möhkəmlətməsinə səbəb olacaq əsas amillərdən olacaqdır.

44 günlük müharibə nəticəsində Azərbaycan ona bitişik yeddi rayonu uğurla azad edərək Ermənistan və İranla əvvəllər nəzarət olunmayan sərhədləri üzərində öz suverenliyini bərpa etdi. Müharibə zamanı və ondan sonrakı dövrdə regionun ən böyük dövlətlərindən biri olan İran bölgədə əcnəbi terrorçuların fəaliyyət göstərdiyi və Azərbaycan sərhədinə SEPAH-ın böyük kontingentini yerləşdirməsi barədə əsassız iddialar səsləndirməkdə idi.[1] Bu yanaşmanın səbəblərindən biri olaraq Azərbaycan ordusunun İranla sərhəd boyu işğal edilmiş ərazilərimizdə irəliləyərkən sərhədin o tayından İran azərbaycanlılarının sevinclə dəstək verməsi hallarının çoxalmasını göstərmək olar. Ümumiyyətlə, İranın Azərbaycana münasibətdə siyasətini müəyyənləşdirən amillərdən ən vacibi daima İranda yaşayan azərbaycanlılar amili olmuşdur. Bu baxımdan Ermənistanın Azərbaycan-İran sərhəddinin 130 km çoxunu işğal altında saxlaması İranın şimal-qərbində azərbaycanlılar yaşayan böyük icmalarını Azərbaycandan ayıran bufer zona yaratmışdı ki, bu bufer zona Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsilə ləğv edilmiş oldu.

Bundan başqa İranın yeni Naxçıvan dəmir yolu və kommunikasiya marşrutu ilə bağlı narahatlığı ondan ibarətdir ki, bu dəhliz Tehranın Azərbaycanın əsas ərazisindən Naxçıvana daşınan mallara tariflər qoyduğu üçün iqtisadi cəhətdən itirməsinə səbəb olacaq və Ankaraya Azərbaycan və Xəzər dənizi vasitəsilə Mərkəzi Asiya ölkələri ilə ticarətini gücləndirməyə imkan verəcək. Azərbaycan və Türkmənistan Qarabağ müharibəsindən sonra Xəzərdəki uzun müddətdir mübahisəli olan təbii qaz yatağının istismarı ilə bağlı razılığa gəlmiş, bu isə öz növbəsində potensial olaraq türkmən qazının

[1] Ahmadzada R., Shaping the Region: The New Geopolitical Realities in the South Caucasus Following the Karabakh War: [Electronic resource]. – March 16, 2021 / URL: https://thegeopolitics.com/: **https://thegeopolitics.com/shaping-the-region-the-new-geopolitical-realities-in-the-south-caucasus-following-the-karabakh-war/**



Azərbaycan üzərindən Avropaya nəqlinə gətirib çıxara bilər. Bütün bu amillər, əlbəttə ki, İranın regional siyasətinə öz təsirini göstərməkdə, Azərbaycan və İran arasında vaxtaşırı gərginliklər yaratmaqdadır.

Azərbaycan İran da daxil edilməklə bütün qonşu ölkələri ilə daima mehriban qonşuluq şəriatində əlaqələr qurmağa üstünlük vermişdir. Lakin bu münasibətlər birtəfəli qaydada qurulmur. Bu iki ölkə münasibətlərində son zamanlarda gərginliklərin yaranması, İranın Azərbaycanı müəyyən formada güc tətbiqi ilə hədələmə meyillərini nümayiş etdirməsi İranın 44 günlük müharibədən sonra AR-in yaranmasına səbəb olduğu regional reallıqları heç bir vasitə ilə qəbul etmək istəməməsi ilə əlaqədardır. Əslində İran bir müsəlman döləti olaraq İslam həmrəyliyindən çıxış edərək Azərbaycanın işğal edilmiş torpaqlarını geri qaytarmasını yalnız müsbət formada qarşılamalı idi. Lakin, çox təəssüf ki, bunun əksi baş verdi.

Belə ki, İran-Azərbaycan münasibətlərinin gərginlik xətti ilə davam etməsi 12 sentyabr 2021-ci il tarixində Azərbaycan tərəfindən Gorus-Qafan yolunda polis postunun qoyulması ilə İrana aid yük maşınlarının yoxlanmasına başlamasından sonra müşahidə olunmağa başladı. Bu hadisədən sonra İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi ilə AR Prezidentinin köməkçisi Hikmət Hacıyev görüşüb bu haqda danışdılar, amma bir-iki gün sonra həmin yoldan istifadə edərək Ermənistana gedən iki iranlı sürücü "Azərbaycanın ərazilərinə qanunsuz daxil olma" ittihamı ilə saxlanılmışdı.

AR Prezidenti İlham Əliyev xarici KİV-lərdən birinə verdiyi müsahibən zamanı bu məsələyə toxunaraq bildirmişdi ki, Azərbaycan torpaqları azad edildikdən sonra da İrana aid yük maşınlarının Qarabağa daxil olması haqqında informasiyalar əldə etmiş, bu davranışın dayandırılması üçün Azərbaycan tərəfi İranla *"dostca danışıb, buna son qoyulmalı olduğunu bildirmişdir"*. Dövlət başçısının sözlərinə görə, 2021-ci ilin iyulunda baş verən bu hadisədən sonra İran tərəfi öz yük maşınlarına Ermənistana aid qeydiyyat nişanları yapışdıraraq *"Azərbaycan tərəfini aldatmağa çalışıblar"*. Bundan başqa Prezident qeyd etmişdi ki, İrana edilmiş iki xəbərdarlıqdan sonra nəticəsi olmadığından Azərbaycan tərəfin öz ərazisindən keçən yola nəzarət etməyə başlamış və bununla da Qarabağa daxil olan yük maşınlarının qarşısı alınıb. Azərbaycan hökuməti yalnız yola nəzarəti bərpa etməyib,

eləcə də İrana aid yük maşınlarını müvafiq gömrük rüsumu ödəməyə cəlb edib.[1]

12 sentyabr 2021-ci ildə Azərbaycanda Türkiyə və Pakistanın da iştirak etdiyi birgə hərbi təlimlərin keçirilməsi də İranı narahat edən məqamlardan biri olmuşdur. İran İslam Respublikasının Xarici İşlər Nazirliyi keçirilən "Üç Qardaş 2021" təlimlərini şərh edərək iddia etmişdir ki, bu təlimlər "Xəzər dənizinin hüquqi statusu barədə" Konvensiyanı pozur. Bu iddianın əsassız olması ilə yanaşı o da qeyd edilməlidir ki, İran tərəfindən Konvensiya ratifikasiya edilmədiyi üçün həmin sənəd qüvvəyə də minməmişdir.

"Üç Qardaş 2021" təlimlərinə cavab kimi İran dövləti quru qoşunlarının komandanlığı 2021-ci ilin oktyabrın 1-də Azərbaycanla sərhəd ərazilərdə "Xeybər fatehləri" adlı hərbi təlimlərini keçirməyə başlamışdı. İran dövlətinin rəsmi nümayəndələri bu təlimləri regionda "sülh və sabitlik" naminə keçirdiklərini bildirsələr də, dövlətin hərbi təmsilçiləri isə hərbi taimlərin əsas məqsədinin "regiondakı sionist təhlükə"nin mövcudluğu ilə izah etmişdilər. İran Silahlı qüvvələrinin quru qoşunları komandanı ölkənin şimal-qərb sərhədində həssaslığının "yüksəldiyini" və İsrail dövlətini bu ərazilərdəki apardığı fəaliyyətin "tam nəzarət altında" olduğunu bildirmişdi.

İran 17 oktyabr 2022-ci il tarixində ikinci dəfə belə hərbi təlimlər keçirməyə başlamışdı. Belə ki, İran dövlətinin İslam İnqilabı Keşikçiləri Korpusu tərəfindən Azərbaycanla sərhəd ərazidə "Qüdrətli İran" adlı genişmiqyaslı hərbi təlimlər keçirmişdir. Eləcə də bu təlimlərdə İran-Azərbaycan dövlət sərhədinin böyük bir hissəsinin keçdiyi Araz çayının keçilməsi üçün məşqlər keçirilmişdi. Təlimlərin keçirildiyi yer rəsmi olaraq dəqiq göstərilməsə də, İran mediasının verdiyi məlumata əsasən onlar Ərdəbil əyaləti və Şərqi Azərbaycan əyalətləri arasında, yəni Azərbaycanın Füzuli rayonu ilə sərhəddə keçirilmişdi.

Bir çox Azərbaycanlı analitiklərin fikrinə görə, hər hansısa ölkənin qonşu ölkə ilə sərhəddə hərbi təlimlər keçirməsi ancaq "güc nümayişi" olaraq qiymətləndirilə bilər, belə hallar isə iki qonşu dövlətin ikitərəfli əlaqələrinə zərərdən başqa bir şey gətirə bilməz.

---

[1] İlham Əliyevin Türkiyənin Anadolu Agentliyinə müsahibəsi: [Elektron resurs]. – Sentyabr 28, 2021 / URL: **https://president.az/az/articles/view/53249**



Münasibətlərin bir qədər də gərginləşməsinə səbəb olan hadisələrdən biri də Azərbaycanın İrandakı səfirliyinə edilən silahlı hücum, terror aktı olmuşdur. Belə ki, 2023-cü ilin 27 yanvarında səfirliyə edilən hücumda bir nəfər həlak olmuş, iki nəfər isə yaralanmışdı. İran tərəfi açıqlamasında bu hadisənin şəxsi motivlər əsasında edildiyini bildirmişdir.

Lakin 6 fevral tarixində keçirilən mətbuat konfransı zamanı Azərbaycan Xarici İşlər Nazirliyinin sözcüsü Ayxan Hacızadə bildirmişdir ki, Azərbaycan səfriliyi qarşısında xidmət edən diplomatik polisin silahı olsa da, hadisəyə müdaxilə etməmişdir. Bununla bağlı rəsmi Bakı İran tərəfindən izahat tələb etsə də cavab ala bilməmişdir.

Sonradan Azərbaycan tərəfinin yaydığı video görüntülərdən də məlum olmuşdur ki, hücum zamanı İran polisinin hadisəyə müdaxilə etməməsi həqiqəti əks etdirir. Təkcə bu fakt da həmin terror aktını İran xüsusi xidmət orqanlarının əvvəlcədən planlaşdırıldığını ehtimal etməyə əsas verir.

İran-Azərbaycan münasibətlərdəki gərginliyə səbəb olan digər məsələ isə Azərbaycanın İsraildə səfirlik açması məsələsi oldu. Azərbaycan və İsrail dövlətləri arasında olan yaxın münasibətlərdən daima narahatlığını bildirmiş İran 44 günlük müharibənin gedişində və ondan sonrakı dövrdə İsrailin Azərbaycan Respublikasına verdiyi dəstəyi İrana qarşı bir təhdid, bir cəbhənin formalaşması olaraq görmüşdür. Bu qorxunun əsassız olduğunu Azərbaycanın apardığı xarici siyasətdə görmək olar. Belə ki, Azərbaycan heç bir zaman öz ərazisindən üçüncü dövlətə, xüsusilə də 30 milyona yaxın soydaşımızın yaşadığı qonşu dövlətə qarşı istifadə edilməsinə heç bir zaman icazə verməyəciyini dəfələrlə bildirmiş və bu prinsipə sadiqliyini daima nümayiş etdirmişdir.

Yaxın Şərqdə sülh və sabitliyin bərqərar olmasını və İsrail-Fələstin münaqişəsinin sülh yolu ilə həllini dəstəklədiyini hər bir zaman ifadə edən Azərbaycan dövləti İsrail üçün əhəmiyyətli tərəfdaş və İslam dünyasında ən böyük yəhudi icmalarından birinin vətənidir. İsraildə 30 ildən sonra səfirlik açılması qərarı da iki ölkə arasında münasibətlərin son illərdə daha da yaxınlaşdığının bir göstəricisidir. Beləliklə, Milli Məclis 2022-ci ilin sonunda Azərbaycan Respublikasının "İsraildə səfirliyinin təsis edilməsi haqqında" Qanun layihəsi qəbul etmiş, 26 noyabrda isə AR Prezidenti İlham Əliyev

"Azərbaycan Respublikasının İsrail Dövlətində Səfirliyinin təsis edilməsi haqqında" Qanunu təsdiqləmişdir.[1]

AR Prezidenti İlham Əliyev tərəfindən 11 yanvar 2023-cü ildə imzalanan Sərəncamla Muxtar Məmmədov Azərbaycanın İsraildəki fövqəladə və səlahiyyətli səfir təyin edilmişdir. Səfir etimadnaməsini İsrail Prezidenti İsxak Hersoqa 26 mart 2023-cü il tarixində təqdim etmiş, 29 martda isə İsrailin Təl-Əviv şəhərində Azərbaycan səfirliyinin açılış mərasimi baş tutmuşdur.[2]

Bu hadisədən sonra 5 aprel tarixində İran parlamentində 210 deputatın dəstəyi ilə Azərbaycanın İsraildə səfirliyinin açılmasını pisləyən Bəyanat qəbul etmişdir. Bəyanatda "Azərbaycan hökumətinin İslam dünyasının maraqlarına zidd olaraq İsraildə səfirlik açması, öz səfirini saxta rejimə təqdim edərək islam dünyasının maraqlarına zidd hərəkət etdiyi" iddia edilmişdir. Bundan başqa İran parlamenti həmin Bəyanatla ərəb və islam ölkələri hökumətlərini, İslam Əməkdaşlıq Təşkilatını Azərbaycanın bu addımını pisləməyə çağırmışdır.[3]

İran parlamentinin belə bir bəyanatla çıxış etməsi bu ölkənin hakimiyyətinin Azərbaycana münasibətdə qərəzli münasibətinin daha bir göstəricisi olmuşdur. Birincisi, Bəyanatda yalan məlumat verilərək Azərbaycan İsraildə səfirlik açan ilk müsəlman ölkəsi kimi təqdim edilir. Bu, əlbəttə ki, düzgün informasiya deyil. Çünki bu zamana qədər İsraildə Türkiyə, BƏƏ, Bəhreyn, Mərakeş, Misir kimi müsəlman ölkələrinin səfirlikləri fəaliyyət göstərməkdədir.

İkincisi, Bəyanatdan belə aydın olur ki, İsrail-Fələstin münaqişəsi, müsəlman fələstinlilərin münaqişə zamanı həlak olması Azərbaycanın İsraillə münasibət qurmaması üçün əsas olmalıdır. Lakin bu prinsipi İranın xarici siyasətinə tətbiq etsək, görərik ki, bu dövlət 30 ilə yaxın bir müddətdə əhalisinin böyük əksəriyyəti müsəlman olan Azərbaycanın ərazilərini işğal altında saxlayan, minlərlə əsgərlərimizi və mülki vətəndaşlarımızı öldürən, əsir götürdükləri uşaq, qadın, yaşlılara belə ağlasığmaz işgəncələr verən, işğal etdiyi rayonlarımızdakı dini abidələrimizi dağıdan, məscidlərimizdə donuz saxlayan Ermənistan dövləti ilə yaxın müttəfiqlik münasibətləri içərisindədir, bütün sahələrdə Ermənistanla fəal əməkdaşlıq etməkdədir.

2023-cü ildə İranın əmək və sosial rifah naziri Ermənistana səfəri zamanı İran tərəfi 44 günlük müharibədə əlil olmuş Ermənistan ordusu əsgərlərinə reabilitasiya xidmətləri göstərməyə hazır olduqlarını bildirmiş, bu məqsədlə azərbaycanlıları öldürən, yaralayan, nəticədə əlil olan bir qrup erməni əsgəri müalicə məqsədilə İrana göndərilmişdir. Ən ironik məqam isə ondan ibarətdir ki, bütün bu fəaliyyət İran büdcəsi ilə yanaşı Azərbaycan da daxil olmaqla bir çox ölkənin müsəlman vətəndaşlarının göndərdikləri milyonlarla dollar həcmində xüms və şəhriyyənin də daxil olduğu İranın Ali Dini Liderinin fondu vasitəsilə də maliyyələşdirilir. Yəni, qısaca desək, müsəlmanlar tərəfindən göndərilən maliyyə vəsaitləri ilə müsəlmanları öldürən erməni əsgərləri müalicə edilir.

Burada qeyd edilən və edilməyən digər çoxsaylı faktları təhlil etməklə çox asanlıqla belə bir qənaətə gəlmək olar ki, İran dövləti heç bir zaman öz siyasətinin əsasına müsəlmanların maraq və mənafeləri qoymur. Bu dövlət daima geosiyasi maraqlarını əsas tutaraq təsir dairəsində və marağında olan Qafqaz və Yaxın və Orta Şərq kimi regionlarda hegemonluq siyasətini yürütməkdə və bu yolda Ermənistan kimi terrorçu dövlətlə müttəfiqlik etməkdən tutmuş, terror fəaliyyətlərini birbaşa maliyyələşdirməyə kimi hər bir şey etməyə hazırdır.

Qafqaz regionunda maraqlara sahib olan ölkələrdən biri də əlbəttə ki, dünyanın fövqəldövləti olan ABŞ-dır. Vaşinqton Qafqazda regional siyasətini formalaşdırarkən II Qarabağ müharibəsindən sonra yaranan yeni geosiyasi reallıqları nəzərdən qaçıra bilməz. Regionda kommunikasiyaların açılması baxımından ABŞ-ın strateji maraqlarına Avropanın Rusiya təbii qazından asılılığını azaltmaq üçün Avropaya qaz tədarükünün şaxələndirilməsi də daxildir. Türkmənistan-Azərbaycan arasında razılığın əldə edilməsi uzun müddətdir elan edilən türkmən qazının Qərb bazarlarına ixrac edilməsinə ideyasına yaşıl işıq yandırmış olur. Bu qaz Azərbaycanın hazırda fəaliyyətdə olan TAP boru kəməri ilə Avropaya nəql edilə bilər ki, bu da ABŞ və

[1] Azərbaycan Respublikasının İsrail Dövlətində (Təl–Əviv şəhərində) Səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu: [Elektron resurs]. – Noyabr 26, 2022 / URL: **https://president.az/az/articles/view/57988**

[2] Bu gün İsraildə Azərbaycanın səfirliyi açılır: [Elektron resurs]. – Mart 29, 2023 / URL: **https://report.az/xarici–siyaset/bu–gun–israilde–azerbaycanin–sefirliyi–acilir/**

[3] Bayramova P., İran parlamenti Azərbaycanın İsraildə səfirlik açmasını pisləyib: [Elektron resurs]. –Aprel 5, 2023 / URL: **https://www.amerikaninsesi.org/a/7037027.html**

Aİ-nin enerji maraqlarına xidmət edir. Rusiyanın Ukraynada başlatdığı müharibə nəticəsində bu ölkəyə qarşı tətbiq edilən sanksiyalar səbəbindən Rusiyadan qaz idxalı da getdikcə daha məhdudlaşdırılmaqdadır. Bu fonda Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu getdikcə daha da aktuallaşmaqdadır.

10 noyabr üçtərəfli Bəyanatında kommunikasiya xətlərinin açılması dedikdə, söhbət 1990-cı illərin əvvəllərində Ermənistanın təcavüzkar siyasəti nəticəsində bağlanan, Ermənistanı, eləcə də Azərbaycanın Naxçıvan anklavının beynəlxalq yollardan kənarda qoyan bir sıra nəqliyyat marşrutlarından gedir. Əgər bu bağlanmış marşrutların hamısı razılaşmada göstərildiyi kimi yenidən açılarsa, regiona nəzərə çarpan təsiri göstərəcək yollardan biri Azərbaycan üzərindən Rusiyadan Ermənistana və İrana uzanan şimal-cənub marşrutu olacaq ki, bu marşrutun iqtisadi təsiri bütün region ölkələri üçün əhəmiyyətli dərəcədə ola bilər.

Şərqi Avropa və Qafqaz regionu üzrə ixtisaslaşmış Karnegi Avropa Fondunun böyük elmi işçisi Tomas de Vaalın fikrincə, qapalı dəmir yolu xətlərinin yenidən açılması həm də böyük həcmdə yüklərin daşınmasını Cənubi Qafqazın avtomobil yollarından dəmir yollarına ötürərək müsbət ekoloji fayda da vermiş olacaq. Ermənistan və Azərbaycanda dəmir yollarının nisbətən kiçik hissələrinin yenidən bərpa edilməsi Finlandiyadan başlayaraq Rusiyadan keçməklə Fars körfəzinə və oradan Hindistana uzanan 7,200 kilometrlik (4,400 mil) beynəlxalq Şimal-Cənub nəqliyyat dəhlizi çərçivəsində layihələndirilən dəmir yolu marşrutunu daha səmərəli edəcəyi proqnozlaşdırılır. Minimum sərhəd nəzarətinə malik yeni keyfiyyətli dəmir yolu şəbəkəsi, xüsusən də 1993-cü ildən bağlı olan Ermənistan-Türkiyə sərhədləri yenidən açılarsa, şərq-qərb ticarətini də gücləndirəcək.[1] Bu, Cənubi Qafqazdan keçməklə Çin, Mərkəzi Asiya, Türkiyə və Avropa İttifaqı arasında yük daşınması marşrutu olan Orta Dəhlizinin cəlbediciliyini artıracaq.

1990-cı illərdən etibarən regionda Gürcüstan üzərindən keçən Şərq-Qərb marşrutu formalaşmış və bu marşrut 2017-ci ildə Bakı-Tbilisi-Qars

[1] Waal T. D., In the South Caucasus, Can New Trade Routes Help Overcome a History of Conflict? : [Elektron resurs]. – November 8, 2021 / URL: **https://carnegieeurope.eu/2021/11/08/in-south-caucasus-can-new-trade-routes-help-overcome-history-of-conflict-pub-85729**



(BTQ) dəmir yolunun açılışı ilə daha cəlbedici olmuşdur. Bu baxımdan Orta Dəhliz hazırda Rusiyadan keçən Şimal Marşrutu və Süveyş Kanalı üzərindən Dəniz Yolu ilə müqayisədə çox kiçik nəqliyyat axınlarına sahibdir. Çinin "Bir Kəmər və Yol" təşəbbüsü Cənubi Qafqazdan keçən Çin-Mərkəzi Asiya-Qərbi Asiya iqtisadi dəhlizini özünə daxil edir, lakin Pekin hələ ki regionda heç bir böyük infrastruktur və ya nəqliyyat layihələrinə investisiya qoymamışdır. Bəzi mütəxəssislər Orta Dəhlizin şərq-qərb marşrutu kimi perspektivlərinə şübhə ilə yanaşır, onu Xəzər və Qara dənizlərin yaratdığı maneələrə və bəzi ölkələrdə olan mürəkəb gömrük rejimli çoxsaylı sərhəd keçidlərinə görə şimal və cənubdakı rəqibləri ilə müqayisədə zəif rəqib hesab edirlər.[1]

Bu fikirlərə qarşı əks tezis kimi onu qeyd etmək olar ki, son bir neçə ildə Türkiyə, Azərbaycan və mərkəzi Asiyanın türk dövlətləri arasında baş verən yaxınlaşmalar, siyasi inteqtrasiya bu ölkələrdə hakimiyyətdə olan qüvvələrin ölkələr arasında olan inteqrasiya proseslərini daha da dərinləşdirmək niyyətlərindən xəbər verir. Yəni siyasi inteqrasiyanın ardınca iqtisadi inteqrasiyanın da genişləndirilməsi mümkün ssenarilərdən birinə çevrilməkdədir. Bu baxımdan mövcud çətinliklər, problemlər aradan qaldırıla və Zəngəzur dəhlizi və ümumilikdə Cənubi Qafqaz da öz strateji əhəmiyyətini artıraraq Orta dəhlizin reallaşdırılması heç də qeyri-real səslənməməlidir. Əlbəttə ki, bu proseslərə ən böyük maneə törədəcək amil Ermənistanda revanşist qüvvələrin hakimiyyətə gələrək regiondakı sülh və təhlükəsizlik mühiti üçün yeni təhdidlər yaratması ola bilər. Bu isə birgə bəyanatda nəzərdə tutulan müddəaların həyata keçirilməsini mane ola bilər. Bunun olmaması üçün ilk növbədə iki ölkə arasında sülh müqaviləsi imzalanmalı və tərəflər bir-birinin ərazi bütövlüyünü tanıyıb, suverenliklərinə hörmət çərçivəsində qarşılıqlı əlaqələrə daxil olmalıdırlar. Əlbəttə ki, hər iki tərəfin öz öhdəsinə götürdüyü vəzifələri yerinə yetirməsi isə beynəlxalq müşahidəçilər və vasitəçi dövlətlər tərəfindən təmin edilməlidir.

[1] Waal T. D., In the South Caucasus, Can New Trade Routes Help Overcome a History of Conflict? : [Elektron resurs]. – November 8, 2021 / URL: **https://carnegieeurope.eu/2021/11/08/in-south-caucasus-can-new-trade-routes-help-overcome-history-of-conflict-pub-85729**

Yuxarı da qeyd edildiyi kimi, Qafqazda ən böyük maraqları olan dövlətlərdən biri və bəlkə də birinci olan Rusiyanın hər zaman regionda təsiri güclü olsa da II Qarabağ müharibəsindən sonrakı dövrdə Ermənistan - Azərbaycan arasında vasitəçilik rolunu öz üzərinə götürərək, Qarabağa sülhməramlılar yerləşdirməklə Minsk qrupunun digər həmsədrlərini faktiki olaraq buradan sıxışdırıb çıxarmışdı. Qafqaz regiounun tədqiqatçılarından biri olan Almaniya Xarici Əlaqələr Şurasının Beynəlxalq Nizam və Demokratiya Proqramının rəhbəri Stefan Meister hesab edir ki, *"Rusiyanın müharibə zamanı və post-müharibə dövründəki fəaliyyəti ATƏT-in Minsk Qrupunu münaqişənin tənzimlənməsi və vastiçəlik missiyasından uzaqlaşdırmış və bununla da ABŞ və Fransa vasitəsilə Aİ-nin regionda onsuz da nisbətən aşağı olan təsirini daha da azaltmışdır. Hətta əgər bundan sonra Minsk Qrupu yekun sülh müqaviləsi üzrə danışıqlar aparmaq üçün yeganə rəsmi beynəlxalq mandatı özündə saxlasa belə, həlledici danışıqlar Rusiya, Ermənistan, Azərbaycan və qismən də Türkiyə arasında gedəcək".*[1]

Bu fikirlər əsas etibarilə düzgün olsa da 2021-ci ilin sonlarından başlayaraq Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşması, Qafqaz regionunda kommunikasiyaların açılması və sülh müqaviləsinin imzalanması istiqamətində Qərbin və Avropa İttifaqının da fəaliyyətinin gücləndiyi müşahidə edilir. Rusiyanın Ukraynaya qarşı başlatdığı ədalətsiz müharibə bütün dünyada onun nüfuzunu olduqca zəiflətdiyindən bundan sonrakı müddətdə digər qlobal aktorlar tərəfindən də Qafqaz regionunda da bu dövlətin təsirinin azaldılmasına cəhd göstərilməsi gözləniləndir.

Avropa İttifaqı 2021-ci ilin sonlarından etibarən iki ölkəyə də vasitəçilik təklif edərək Azərbaycan və Ermənistan liderlərinin Brüsseldə görüşünü təşkil etmiş və bu görüşdə regionda kommunikasiyaların açılması istiqamətində əməli addımların atılması barədə razılığa gəlinmişdi. Belə ki, 2021-ci ilin dekabrın 14-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə birgə görüşündə keçirilmişdir.

[1] Meister S., Shifting Geopolitical Realities in the South Caucasus. SCEEUS Reports on Human Rights and Security in Eastern Europe No. 8: [Electronic resource]. - 2021 / URL: **https://www.ui.se/ forskning/centrum-for-osteuropastudier/sceeus-report/shifting-geopolitical-realities-in-the-south-caucasus/#_ftn29**



Görüşdə tərəflər iki ölkə arasında sərhədlərin delimitasiyası və demarkasiyası istiqamətdə danışıqları gücləndirəcəklərini bəyan etmiş, regionda bütün kommunikasiya və nəqliyyat marşrutlarının açılışı barədə geniş müzakirələr aparmışdır. Bu baxımdan Aİ Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmini üçün Azərbaycan və Ermənistan arasında yekun sülh müqaviləsi imzalanmasının vacibliyini də qeyd etmişlər.[1] Bundan başqa Ermənistan tərəfi öz ərazisindən dəmir yolu xəttinin çəkilməsi ilə bağlı üzərinə düşən öhdəliyi təsdiq etmiş və dəmir yolunun çəkilişinə tez bir zamanda başlayacaqlarını, avtomobil yolunun marşrutunun müəyyənləşdirilməsi ilə əlaqədar müzakirələrin davam etdiriləcəyini bildirmişdir.[2]

Avropa İttifaqının regionda kommunikasiyalalrın açılması, sülh və təhlükəsizliyin bərqərar olması istiqamətində əhəmiyyətli addımlarından biri də Ermənistana 2,6 mlrd, Azərbaycana isə 2 mlrd avro maliyyə yardımının verilməsi barədə qərarı olmuşdur. Ermənistana yardımın məbləği elan edildikdə Azərbaycana 150 mln avro ayrılacağı bildirilmişdi. Brüsseldə keçirilən görüşdən sonra bu məbləğin həcmi artırıldı.[3] Lakin yenə də münaqişədən ən çox zərər görmüş, işğal altında olan rayonları vəhşicəsinə dağıdılan, II Qarabağ müharibəsi zamanı sivil əhalinin yaşayış yerlərinə raketlər atılaraq dağıdılan Azərbaycana yenilən rəqəmlərlə belə təcavüzkar Ermənistandan daha az yardım ayrılması yanaşmasında müəyyən ədalətsizliklər müşahidə olunur. Lakin bütün bu mənfi amilllərə baxmayaraq bu istiqamətdə əməkdaşlığı Aİ və Azərbaycan arasındakı münasibətlərdə irəliyə atılmış addım kimi qiymətləndirmək olar.

Aİ-nın Azərbaycan və Ermənistan arasında vasitəçilik fəaliyyəti 2022-ci il ərzində də davam etdirilmiş, 4 fevral 2022-ci ildə Fransa Prezidentinin təşəbbüsü ilə baş tutmuş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Fransanın Avropa İttifaqına sədrliyi qismində Prezident Emmanuel

[1] Brüssel görüşü: Azərbaycanın haqlı mövqeyi beynəlxalq aləmdə dəstəklənir: [Elektron resurs]. - Dekabr 15, 2021 / URL: **https://report.az/xarici-siyaset/brussel-gorusu-azerbaycanin-hagli-movqeyi-beynelxalq-alemde-desteklenir/**

[2] Brüssel görüşü: Azərbaycanın haqlı mövqeyi beynəlxalq aləmdə dəstəklənir: [Elektron resurs]. - Dekabr 15, 2021 / URL: **https://report.az/xarici-siyaset/brussel-gorusu-azerbaycanin-haqli-movqeyi- beynelxalq-alemde-desteklenir/**

[3] Süleymanov E., Avropa İttifaqından Azərbaycana ayrılan 2 milyard avro hansı sahələrə xərclənəcək? : [Elektron resurs]. - Fevral 5, 2022 / URL: **https://www.bbc.com/azeri/magazine-60268353**

Makronun, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın iştirakı ilə videoformatda görüşdə də AR dövlət başçısı daima regionda sülhün və əməkdaşlığın, kommunikasiyaların açılmasının əhəmiyyətindən danışmışdır.[1]

Azərbaycan tərəfi 4 fevral görüşündən sonra öz xoş məramını nümayiş etdirmək və humanizm prinsiplərini əldə rəhbər tutaraq daha 8 erməni hərbçisini Ermənistana qaytarmağa razılıq vermiş, əvəzində Ermənistan tərəfi I Qarabağ müharibəsi zamanı itkin düşən azərbaycanlılar, onların dəfn edildiyi qəbiristanlıqlar barədə məlumat verəcəyini öhdəsinə götürmüşdür. Lakin daha sonra bir çox hallarda olduğu kimi, Ermənistan öz vədinin üstündə dayanmayıb belə bir razılıq olmadığını bəyan etmişdir.

30 mart 2022-ci il tarixində Brüsseldə Ermənistan və Azərbaycanın yüksək səviyyəli nümayəndələri Aİ-nin vasitəçiliyi ilə görüşmüş, görüşdə Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev, Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan və Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar iştirak etmişdilər.

Azərbaycan və Ermənistan nümayəndələri aparılan müzakirələr zamanı hər iki ölkənin liderlərinin 2021-ci ilin 14 dekabrında Brüsseldə keçirilən görüşündə əldə edilmiş anlaşmaların davamı kimi Azərbaycan və Ermənistan arasında siyasi və təhlükəsizlik vəziyyəti kimi məsələlərin müxtəlif aspektlərini nəzərdən keçirmişdilər. Orada, həmçinin ölkə rəhbərlərinin növbəti görüşü haqqında da razılığa gəlinmişdi.

6 aprel 2022-ci il tarixində isə yenidən AR Prezidenti İlham Əliyev, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyanın görüşü təşkil edilmişdir. Görüşdən sonra verilən açıqlamalara əsasən qeyd etmək ki, danışıqlar konstruktiv məcrada aparılmış, 2021-ci ilin dekabrında Brüsseldə keçirilmiş son görüşdən və 2022-ci ilin fevralında Fransa Prezidenti İ.Makronun iştirakı etdiyi videokonfransla təşkil edilmiş görüşdən sonrakı hadisələr və hər bir tərəfin üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi istiqamətindəki irəliləyişlər nəzərdən keçirilmiş, 10 noyabr üçtərəfli Bəyanatın bütün müddəalarının tam şəkildə yerinə yetirilməsinin zəruriliyi vurğulanmışdır.[1]

Öz növbəsində Prezident Ş.Mişel həll olunmamış bütün humanitar məsələlərin həllində Avropa İttifaqının tərəflərə dəstək olmağa hazırlığını bildirmiş, iki ölkə arasında etimadın formalaşmasında, humanitar məqsədlə minatəmizləmə fəaliyyətinə, eləcə də münaqişədən zərər çəkmiş əhaliyə maliyyə yardımının artırılmasında, Qarabağın bərpası və yenidənqurması işlərində yardım göstərəcəklərini qeyd etmişdir.[2] Görüşün vacib nəticələrindən biri kimi Ermənistan baş naziri Nikol Paşinyanın Azərbaycanın irəli sürdüyü, regionda təhlükəsizlik, stabillik və inkişafın bərqərar olmasında zəruri olan beş maddəlik təklifini qəbul etməsi olmuşdur.

Azərbaycan tərəfindən rəsmi İrəvana təqdim edilən təkliflər aşağıdakılardan ibarət olmuşdur:

- Dövlətlər tərəfindən bir-birinin suverenliyini, ərazi bütövlüyünü, beynəlxalq sərhədlərinin toxunulmazlığını və siyasi müstəqilliyini qarşılıqlı formada tanımaq;
- Dövlətlərin bir-birinə qarşı ərazi iddiaların olmamasını qarşılıqlı şəkildə təsdiq etməsi və gələcəkdə buna uyğun iddianın irəli sürülməyəcəyi haqqında hüquqi öhdəlik götürməsi;
- Dövlətlərarası əlaqələrdə bir-birinin təhlükəsizliyinə təhdid törədilməsindən, ərazi bütövlüyü və siyasi müstəqilliyinə qarşı güc və hədədən istifadə edilməsindən, eləcə də BMT Nizamnaməsi məqsədlərinə uyğun gəlməyən digər hallardan çəkinmək;
- İki dövlət arasında sərhədlərin delimitasiya və demarkasiyasının həyata keçirilməsi, diplomatik əlaqələrin qurulması;
- Nəqliyyat və kommunikasiya yollarının açılması, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq kəsb edən digər sahələr üzrə əməkdaşlıq qurulması.[3]

---

[1] İlham Əliyevin, Fransa Prezidentinin, Avropa İttifaqı Şurasının Prezidentinin və Ermənistanın baş nazirinin iştirakı ilə videoformatda görüş keçirilib: [Elektron resurs]. – Fevral 4, 2022 / URL: **https://president.az/az/articles/view/55368**



---

[1] Məmmədli S., 6 aprel Brüssel görüşü: İlham Əliyev regionu sülhə aparır: [Elektron resurs]. – Aprel 7, 2022 / URL: **https://lent.az/xeber/siyaset/6–aprel–brussel–gorusu–ilham–eliyev–regionu–sulhe–aparir–40536776**

[2] Yenə orada

[3] Azərbaycanın Ermənistana təklif etdiyi 5 baza prinsipləri açıqlandı: [Elektron resurs]. – Mart 14, 2022 / URL: **https://www.yeniazerbaycan.com/Arxiv_e67011_az.html**

Bu maddələrin nəzərdən keçirilməsi göstərir ki, əgər bu istiqamətdə Ermənistan həqiqətən səmərəli şəkildə fəaliyyət göstərməyə cəhd göstərərsə, Brüssel görüşündə AR Prezidenti İlham Əliyev tərəfindən irəli sürülən sülh modeli, təkcə Azərbaycanın deyil, bütün region dövlətlərinin inkişafı və təhlükəsizliyi üçün açar rolunu oynaya bilər.

Brüsseldə keçirilmiş növbəti üçtərəfli görüş 22 may 2022-ci il tarixində baş tutmuşdur. Təqdirəlayiq haldır ki, görüşün nəticələri ilə bağlı Ş.Mişelin mətbuata verdiyi bəyanat Azərbaycanın mövqeyi ilə üst-üstə düşmüşdür. Bu görüş 5 saata qədər davam etmiş, Azərbaycanın təkif etdiyi, BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və digər beynəlxalıq normalara uyğun olan 5 prinsip əsasında keçirilmişdir.[1]

Bu görüşün digər bir vacib məqamı ondan ibarətdir ki, danışıqlar Azərbaycan dövlətinin milli maraqlarına uyğun bir üslubda keçirilmişdir. Belə ki, görüşdə "Dağlıq Qarabağ" ifadəsi işlədilməməklə yanaşı, status məsələsinə toxunulmamış, yalnız Qarabağda yaşayan ermənilərin hüquqları haqqında söhbət aparılıb ki, bunu da Azərbaycan dövləti daima özü dilə gətirmiş və orada yaşayan əhalinin təhlükəsizliyinə təminat verdiyini, ölkəmizdə yaşayan digər azsaylı xalqlar kimi ermənilərin də hüquqlarının qorunduğunu hər zaman bəyan etmişdir.

Görüşdə Sərhəd Komissiyalarının Azərbaycan və Ermənistan sərhəddində birgə iclaslar keçirilməsi, delimitasiya və demarkasiyanın təşkil edilməsi ilə bağlı məsələlər, Zəngəzur dəhlizi və digər kommunikasiyaların açılması, dövlət sərhədləridə keçidin və tranzit daşımaların beynəlxalq normalara müvafiq şəkildə təşkili, iqtisadi inkişafın təmini üçün İqtisadi Məsləhət Qrupunun fəaliyyətini davam etdirməsi, eləcə də yekun sülh müqaviləsinin hazırlanması və imzalanması ilə əlaqədar məsələlər müzakirə edilmişdir.

Keçirilən hər bir görüşdən sonra konstruktiv açıqlamalar verilsə də bir sıra hallarda Ermənistan tərəfinin mövqeyi mübahisələrə səbəb olur. Belə ki, 22 may Brüssel görüşündən qayıtdıqdan sonra Prezident İlham Əliyev görüşdə tərəflərin Zəngəzur dəhlizinin açılmasına razı olduqlarını bildirsə

[1] Mehdiyev E., Brüssel görüşü: Azərbaycanın növbəti diplomatik uğuru: [Elektron resurs]. – May 23, 2022 / URL: **https://az.trend.az/azerbaijan/politics/3599150.html**



də, Ermənistan baş naziri Nikol Paşinyan bu informasiyanı təkzib etmiş və görüşdə yalnız regional kommunikasiyaların açılmasına razılıq əldə edildiyini bəyan etmişdir. Əgər Ermənistan tərəfi iki ölkə arasındakı münasibətlərin tez bir zamanda normallaşmasını, sülh müqaviləsinin imzalanmasını istəyirsə belə addımlardan çəkinməli, bu prosesin davamlılığına xələl gətirəcək açıqlamalar verməməlidir.

Brüsseldə Aİ Şurası Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə təşkil edilən Azərbaycan və Ermənistan liderlərinin dördüncü görüşü isə 31 avqust 2022-ci il tarixində keçirilmişdir. Bu görüşdən sonra verilmiş açıqlamalarda üçtərəfli danışıqlarda sülh sazişi, humanitar, sərhəd və kommunikasiyalara haqqında məsələlərin müzakirə edildiyi bildirilmişdir. Aİ Şurası Prezidenti Şarl Mişel mətbuat üçün açıqlamasında, son görüş zamanı əldə edilmiş razılaşmaların inkişaf etdirilməsi istiqamətində bir çox addımların atılmasının sevindirici hal olduğunu, görüşdə məsələlərin "bütün spektri"nin nəzərdən keçirildiyi qeyd etmişdir. Bundan başqa o, açıqlamasında bildirmişdir: *"Bu gün biz Azərbaycan və Ermənistan arasında dövlətlərarası əlaqələri tənzimləyəcək sülh müqaviləsinin təşviqi üçün əsaslı fəaliyyəti gücləndirmək haqqında razılığa gəldik və hər iki ölkənin XİN-nə bu sahədə mətnlərin layihələrinin hazırlanması üçün 1 ay müddətində görüşməyi tapşırdıq."*[1]

Bundan başqa görüşdən sorakı açıqlamalara əsasən, demək olar ki, tərəflər eyni zamanda humanitar məsələlər, o cümlədən minaların təmizlənməsi, itkin düşənlərin və saxlanılan şəxslərin taleyi ilə əlaqədar genişı müzakirələr aparmış, sərhədlərlə bağlı hər bir məsələ üzrə irəliləyişlər nəzərdən keçirilmiş və 2022-ci ilin noyabrında sərhəd komissiyalarının görüşünün keçirilməsinə dair razılıq əldə olunmuşdur. Bəyanatda, həmçinin hər iki ölkə əhalisini *"uzunmüddətli davamlı sülhə"* hazırlamağın vacib əhəmiyyəti vurğulanmaqdadır: *"Aİ uzunmüddətli davamlı sülhə doğru dəstəyini daha da gücləndirməyə hazırdır".* Görüşün nəticələrindən biri də tərəflərin açıqlamasına əsasən noyabrın sonuna qədər bu formatda yenidən görüş keçirilməsi barədə də razılığın əldə edilməsi olmuşdur.

[1] Suleymanov E., Brüsseldə üçtəfərli görüş: hansı məsələlər müzakirə olunub?: [Elektron resurs]. – Avqust 31, 2022 / URL: **https://www.bbc.com/azeri/region-62726693**

2022-ci ilin axırlarından etibarən ABŞ-ın Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə vasitəçilik fəaliyyətini intensivləşdirdiyi müşahidə olunur. Bu baxımdan 20 sentyabr 2022-ci ildə ABŞ dövlət katibi Entoni Blinkenin vasitəçiliyi ilə baş tutan görüş çox əhəmiyyətli olmuşdur. Belə ki, həmin tarixdə Nyu-Yorkda Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov, ABŞ dövlət katibi Entoni Blinken və Ermənistan XİN rəhbəri Ararat Mirzoyan arasında üçtərəfli görüş keçirilmişdir. Qeyd edilən üçtərəfli görüşdən sonra ABŞ dövlət katibi Entoni Blinken qeyd etmişdir ki, hər iki lider – AR Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan ilə telefonla danışmış və onlar sülh müqailəsi imzalamağa hazır olduqlarını bəyan etmişlər. Bundan başqa o bildirmişdir ki, Ermənistan və Azərbaycan arasındakı fikir müxtəlifliklərin hərbi yolla həlli mövcud deyil, amma bu müxtəlifliklәri diplomatik yolla tənzimləyən və davamlı sülhə gətirib çıxaran bir yol vardır.[1]

Azərbaycan və Ermənistan liderlərinin görüşləri içərisində 6 oktyabr 2022-ci il tazrixində Prezident İlham Əliyev, Aİ Şurasının Prezidenti Şarl Mişel, Fransa Prezidenti Emmanuel Makron və Ermənistanın baş naziri Nikol Paşinyanın Praqada keçirilmiş görüşü xüsusi əhəmiyyət daşıyır. Həmin görüş vacib sənədlərin imzalanması ilə tarixə düşmüşdür. Belə ki, Praqada qəbul edilmiş Bəyanatda Azərbaycan və Ermənistanın BMT nizamnaməsinə və bir-birinin ərazi bütövlüyü və suverenliyini tanıyan 1991-ci il Almatı Bəyannaməsinə sadiqliklərini təsdiq etdiklərini bildirmişdilər.[2]

Ümumiyyətlə, 6 oktyabr Praqa görüşünün yekununda qəbul edilmiş bəyanat Azərbaycan dövlətinin növbəti diplomatik qələbəsi sayılmalıdır. Azərbaycan daima çalışırdı ki, Ermənistan onun ərazi bütövlüyünü tanısın və ona qarşı hər hansı bir ərazi iddiası etməsin. Çünki bu amil iki ölkə arasında normal münasibətlərin qurulmasında ilkin şərti təşkil edir. Praqa Bəyannaməsi ilə Ermənistan AR-in ərazi bütövlüyünü tam tanımış. Prezident

[1]Nyu-Yorkda Blinken, Ceyhun Bayramov və Mirzoyan arasında üçtərəfli görüş keçirilib: [Elektron resurs]. – Sentyabr 20, 2022 / URL: **https://apa.az/az/xarici-siyaset/nyu-yorkda-blinken-ceyhun-bayramov-ve-mirzoyan-arasinda-ucterefli-gorus-kecirilib-video-yenilenib-722960**

[2] Süleymanov E., İlham Əliyev Ermənistanla sülh sazişi barədə: "İlin sonunadək razılaşmaya nail ola bilərik": [Elektron resurs]. – Oktyabr 7, 2022 / URL: **https://www.bbc.com/azeri/region-63149355**



İlham Əliyevin liderliyi ilə Azərbaycan 30 il ərzində istədiyi sənədin təsdiqinə nail olmuşdur. Burada ən vacib məsələdə, təbii ki, Qarabağın Azərbaycanın ayrılmaz hissəsi kimi tanınması olmuşdur.

Azərbaycan və Ermənistan liderlərinin sonuncu görüşü isə Münhen Təhlükəsizlik Konfransının gedişində baş tutmuşdur. 2023-cü ilin fevralın 18-də birinci növbədə AR Prezidenti İlham Əliyev ABŞ-ın Dövlət katibi Antoni Blinken və Ermənistanın baş naziri Nikol Paşinyan ilə birlikdə görüşmüşdür.[1] Bu görüşdən sonra panel müzakirələri keçirilmiş və burada da iki ölkə liderinin görüşünə imkan yaranmışdır.

2020-ci ilin fevralında – II Qarabağ müharibəsindən 7 ay əvvəl İlham Əliyevlə Nikol Paşinyanın ilk debatı da məhz Münhen Təhlükəsizlik Konfransının gedişində təşkil edilmişdi. Həmin debat beynəlxalq ictimaiyyət qarşısında Azərbaycan və Ermənistan liderlərinin ilk açıq müzakirəsi olmuş və Ermənistanın baş nazirinin məğlubiyyəti ilə başa çatmışdır. Erməni tərəfinin Qarabağın və münaqişənin tarixi ilə bağlı söylədiyi fikirlərin əksəriyyətinin yalan olduğu AR Prezidenti İlham Əliyev tərəfindən uğurla sübuta yetirilmişdir.

2023-cü ildəki Münhen Konfransından əvvəlki zaman da Ermənistan hakimiyyəti beynəlxalq ictimai fikri Azərbaycana qarşı çevirməyə çalışmış, Azərbaycanın sülh müqaviləsini manipulyasiya etməsi ilə əlaqədar bir sıra yalanlar ortaya atmışdı. Lakin debat zamanı İlham Əliyevin söylədiyi ciddi sübutlar N.Paşinyanı susdura bilmiş, bu dəfə də həqiqi faktlar qarşısında qalmasına səbəb olmuşdu. AR Prezidenti İlham Əliyev həm Azərbaycanın Xankəndini guya "blokada" vəziyyətinə salması, həm iki dövlət arasında sərhədlərin delimitasiyası və demarkasiyası ilə əlaqədar Azərbaycanın rəsmi mövqeyi, eləcə də Zəngəzur dəhlizi və Laçın dəhlizində nəzarət-keçid məntəqələri yaratmağın zəruriliyinə dair faktları beynəlxalq ictimaiyyətin diqqətinə çatdıraraq vəziyyəti ətraflı şərh etmişdi.

Münhen Konfransı gedişində keçirilmiş görüşlər haqqında ABŞ-ın Dövlət katibi Entoni Blinken açıqlama verərək bildirmişdir ki, Azərbaycan və Ermənistan aralarında davamlı sülhün əldə olunması üçün tarixi imkan-

[1] İlham Əliyevin ABŞ-ın Dövlət katibi və Ermənistanın baş naziri ilə birgə görüşü olub: [Elektron resurs]. – Fevral 18, 2023 / URL: **https://president.az/az/articles/view/58994**

lara malikdir: *"Tərəflər arasında gedən birbaşa danışıqlar və sülh prosesi Aİ-nin və ABŞ-ın diqqət mərkəzində olmuşdur. ABŞ həm dostlarımızla, həm belə üçtərəfli formatda, həm də digər beynəlxalq tərəfdaşlar çərçivəsində bu səylərin dəstəklənməsi naminə əlindən gələni etməyə hazırdır".*[1]

Belə bir görüşün ABŞ-ın dövlət katibi E.Blinkenin təşəbbüs irəli sürməsi ilə təşkili özündə müxtəlif aspektləri birləşdirir. Ümumiyyətlə, 2022-ci ilin sonları – 2023-cü ilin əvvəllərində Ağ Evin Cənubi Qafqazda fəallığı müşahidə olunmaqdadır. ABŞ hökumətinin Azərbaycan və Ermənistan tərəfləri arasında danışıqların daha da genişləndirilməsi üçün çox miqdarda vəsait və resurs xərcləməsinə baxmayaraq bu istiqamətdə fəaliyyətin səmərəliliyi hələ istənilən qədər deyil. ABŞ-ın bu proseslərdə son zamanlar fəallaşması belə onun Cənubi Qafqazda Rusiya qədər güclü mövqeyə sahib olmasına bəs etmir. Bu baxımdan Azərbaycan və Ermənistan tərəflərinin Münhen görüşündən sonrakı proseslərdə Vaşinqton bu proseslərə təsir etmək üçün daha çox rıçaqlar qazanmaq istəməsi gözlənilləndir.

Ümumilikdə ABŞ Cənubi Qafqazda Azərbaycan, Ermənistan və Gürcüstanı əhatə edən üçtərəfli inteqrasiyaya əsaslanan sülh modelinin yaranmasına çalışır. Blinkenin vasitəçiliyi ilə keçirilmiş görüşdən sonrakı panel müzakirələrinə Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin də qatılması bu baxımdan təqdirəlayiq və tarixi bir hadisə olmuşdur. Çünki bu müzakirələr Cənubi Qafqazın hər üç liderinin bu səviyyədə ilk belə görüşü olması ilə yaddaqalan oldu.

II Qarabağ müharibəsi nəticəsində Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi və münaqişənin başa çatmasından sonrakı dövrdə regionda rus sülhməramlıların müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərindən hələ də erməni silahlılarının tam çıxarılmaması, onların dövri olaraq təxribatlar törətməsi, atəşkəsi pozması, Ermənistan-Azərbaycan sərhədlərinin delimitasiya və demarkasiya olunmaması, Ermənistanda vaxtaşırı revanşist bəyanatların səslənməsi, Ermənistanla Zəngəzur dəhlizinin açılması istiqamətində hələ də tam razılığın əldə edilə bilinməməsi, İranın yeritdiyi və bir çox hallarda Ermənistan yönümlü siyasətin yaratdığı problemlər, Gürcüstan və Rusiya

[1] *İlham Əliyevin ABŞ-ın Dövlət katibi və Ermənistanın baş naziri ilə birgə görüşü olub:* [Elektron resurs]. – Fevral 18, 2023 / URL: **https://president.az/az/articles/view/58994**



arasında mövcud ziddiyyətlər və s. bu kimi problemlərin mövcudluğuna baxmayaraq birmənalı demək olar ki, 44 günlük müharibə Qafqaz regionunda geosiyasi vəziyyəti kökündən dəyişərək yaxın gələcəkdə təhlükəsizlik şəraitində əməkdaşlıq və tərəfdaşlıq mühitinin əsasını qoymuşdur. Bu baxımdan post-müharibə dövründə region ölkələri, xüsusilə də Azərbaycan və Ermənistan arasında danışıqların aparılmasını, son dövrlərdə bu danışıqların daha da intensivləşməsi, keçirilən görüşlərdə bəzi razılıqların əldə edilməsini müsbət qiymətləndirmək olar.

Ermənistan cəmiyyətində və hakimiyyətində hələ də Azərbaycana qarşı ərazi iddialarından əl çəkə bilməyən və revanşist düşüncəli insanların və siyasətçilərin mövcudluğu regionda sülh və əməkdaşlıq fəaliyyətinə mane olan ən böyük amil kimi göstərilməlidir. Bu kimi mənfi amillərin təsiri aradan qaldırılarsa, Azərbaycan və Ermənistan arasında yekun sülh sazişi imzalanarsa Qafqazda sabit sülh və təhlükəsizlik mühitinin formalaşması istiqamətində böyük bir addım atılmış olar.

Azərbaycan dövlətinin II Qarabağ müharibəsində qazandığı qələbənin siyasi baxımdan möhkəmləndirilməsi və erməni işğalından azad olunmuş torpaqlarımızda bərpa işlərinin həyata keçirilməsi də uğurla davam etdirilir. AR Prezidenti İlham Əliyevin çıxışları zamanı verdiyi bəyanatlardan məlum olur ki, Qarabağa böyük qayıdış keyfiyyət cəhətdən yeni bir yaşayışa qayıdış olmalıdır. Demək olar ki, 30 il bundan qabaq öz evlərini buraxıb getməyə məcbur edilmiş Azərbayan vətəndaşları layiqli həyat şəraiti ilə təmin edilmiş müasir kənd və şəhərlərə qayıdacaqlar. Bu məqsədlə müharibə bitdikdən dərhal sonra ilk addımlar atılmağa başlanıldı.

Yeni mərhələdə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün Azərbaycan dövlət başçısının 2 fevral 2021-ci il tarixində imzaladığı Sərəncamla "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı sənəd təsdiq olunmuşdur. Bu prioritetlər əsasında AR Prezidenti 22 iyul 2022-ci il tarixindəki Sərəncamı ilə "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" təsdiq edilmişdir. Həmin strategiyada əksini tapmış "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" adlı Milli Prioritetinin icra edilməsinin təmini üçün Prezident İlham Əliyev tərəfindən 16 noyabr 2022-ci ildə imzalanan Sərəncamla "Azərbaycan Respublikasının

işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiqlənmişdir.

Ermәni işğalından azad edilmiş Qarabağda əsaslı quruculuq işləri sürətli şəkildə irəliləməkdə və Erməni vandalizmi nəticəsində dağıdılmış tarixi abidələrimiz bərpa edilməkdədir. 30 ilə yaxın müddətdə tamamilə dağıdılmış şəhərlər yenidən qurulur, həmin rayon və şəhərlərdə tikilməsini gözləyən evlərin, binaların, xəstəxana və məktəblərin təməli qoyulur. Bütün bu işlər Qarabağa "Böyük qayıdış"ın ən böyük göstəriciləridir.

2022-ci ilin sonlarına qədər tikintisi başa çatmış Güləbird SES, 7 yarımtsansiya, Talış və Suqovuşana gedən yollar istifadəyə verilmiş, Zəfər yolu, Ağalıda "Ağıllı kənd", Füzuli Beynəlxalq Hava Limanı, Zəngilan Hava limanı kimi möhtəşəm və böyük layihələr tamamilə başa çatdırılmışdı.[1]

Ən müasir texnologiyaların tətbiqi ilə yenidən qurulmuş ilk belə yaşayış məntəqəsi Zəngilan rayonunun Ağalı kəndi oldu. Ağalı kəndinə "Ağıllı kənd" layihəsi çərçivəsində yeni həyat verildi. 2021-ci ilin aprelində bu layihənin təməli Prezident İlham Əliyev tərəfindən qoyulmuşdur. "Ağıllı kənd" layihəsinin həyata keçirilməsi üçün 110 hektardan çox ərazidə tikinti işləri aparılmış, innovativ tikinti materialları istifadə edilərək tam izolyasiya edilmiş 200 fərdi ekoloji ev, ikimərtəbəli 4 qeyri-yaşayış binası, 360 şagird yerlik məktəb və 60 yerlik uşaq bağçası tikilib hazırlanmışdır. Kənddə yaradılmış "Ağıllı məktəb"də distant təhsilin aparılması üçün də lazımi imkanlar yaradılmışdır.

Ağalı kəndində kənd təsərrüfatı sahəsində də böyük işlər görülmüşdür. "Ağıllı kənd təsərrüfatı"nda təsərrüfat idarə edilərkən müasir suvarma sistemlərindən istifadə ediləcək. "Ağıllı kənd" üçün əkin planı hazırlanmış, orada qeyd edilmiş torpaq sahələri əkinə yararlılıq baxımından qiymətləndirilmiş və əkin üçün hazırlıqlar görülmüşdür. Əkin planına uyğun olaraq 600 hektar ərazi içərisindən müəyyən edilən 412 hektar ərazi minalardan təmizlənmişdir. Layihə çərçivəsində qurulmuş ictimai fermada 600 baş xırdabuynuzlu və 250 baş iribuynuzlu mal-qaranın saxlanılması mümkündür.

[1] Musa G., Qarabağda quruculuq işləri: hansı layihələr başa çatıb, daha nələr planlaşdırılır?: [Elektron resurs]. – Oktyabr 21 2022 / URL: **https://www.bakupost.az/qarabagda-quruculuq-isleri-hansi-layihler-basa-catib-daha-neler-planlasdirilir-arasdirma**



27 may 2022-ci il tarixində dövlət başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Zəngilan rayonunun Ağalı kəndində "Ağıllı kənd" layihəsi üzrə birinci mərhələnin açılış mərasimində iştirak etmişdilər.[1] 19 iyulda əhalinin birinci qrupu Ağalı kəndinə köçürülməyə başlanılmışdır. Qayıdış prosesinin 4 mərhələdə həyata keçirilməsi nəzərdə tutulmuşdur.

"Böyük Qayıdış" layihəsi çərçivəsində bu günə kimi 2023-cü ilin aprel ayına qədər, ümumilikdə, Ağalı kəndinə 106 ailə, 514 nəfər köçürülmüşdür. Kəndə köçürülmüş keçmiş məcburi köçkünlərdən böyük hissəsi daha ağır şəraitdə yaşayanlardan idilər. Kənd sakinləri müvafiq dövlət qurumlarının köməyilə peşə ixtisası və bacarıqlarına müvafiq olaraq işlə təmin edilmişdir.

Müharibənin başa çatmasından keçən iki ildən artıq müddətdə Şuşa şəhərinin su və elektrik təchizatı ilə təmin edilməsi, M.P. Vaqifə məxsus məqbərə və büst, Üzeyir bəy Hacıbəylinin heykəli hazırlanmış, Bülbülün ev-muzeyi, Xarıbülbül və Qarabağ hotellərinin açılışı baş tutmuşddur. Bu hadisələr əlamətdar günlər kimi zəfər tariximizin səhifələrinə yazılmışdır.

Təməlləri 2021-ci ilin oktyabr ayında AR Prezidenti İlham Əliyev və birinci vitse-prezident xanım Mehriban xanım Əliyevanın şəxsən iştirakı ilə qoyulmuş olan Füzuli və Hadrut Rəqəmsal Yarımstansiya və İdarəetmə Mərkəzləri, eyni zamanda 10 may 2022-ci ildə istismara verilmiş olan Şuşa Rəqəmsal İdarəetmə Mərkəzi erməni işğalından azad olunmuş Qarabağda yenidənqurma proseslərinin daha da sürətlənməsinə səbəb olacaq. Hadrutda tikintisi davam etməkdə olan qovşaq yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzi də xüsusi əhəmiyyətə malik yarımstansiyalardandır. Çünki Hadrut, Şuşa və Şükürbəyli yarımstansiyalarının arasında yaradılmış olan qovşaq yarımstansiyası Hadrut qəsəbəsi ilə yanaşı, həmçinin Qubadlı, Zəngilan və Cəbrayıl rayonları ərazisində qurulacaq olan infrastrukturun elektrik enerjisini tələbatını ödəməsi nəzərdə tutulur.

2022-ci ilin oktyabrın 20-də AR Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın şəxsən açılışını etdikləri Zəngilan Bey-

[1] İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunda "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində iştirak ediblər: [Elektron resurs]. – May 27, 2022 / URL: **https://president.az/az/articles/view/56208**

nəlxlaq Hava Limanı da işğaldan azad edilmiş ərazilərimizdə tez bir zamanda həyata keçirilib başa çatdırılan çox böyük və əhəmiyyətli layihələrdən olmuşdur.[1]

Tikinti işlərinə 2021-ci ilin aprelində başlanılan Zəngilan beynəlxalq hava limanı 44 günlük müharibədə erməni işğalından azad olunmuş torpaqlarımızda inşa edilən II beynəlxalq hava limanı olmuşdur. O da qeyd edilməlidir ki, adı çəkilən hava limanı Zəngilan rayonunun beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevrilməsi üçün böyük imkanlar yaratmaqdadır.

Belə bir qısa zaman ərzində Qarabağda II beynəlxalq hava limanının tikilib fəaliyyətə başlaması həm Azərbaycan dövlətinin gücünü, həm Qarabağ və Şərqi Zəngəzur rayonlarının intensiv şəkildə bərpa edildiyini, həm də həmin ərazilərdə təhlükəsizlik tədbirlərinin artırılmasını göstərir. O da qeyd edilməlidir ki, mütəxəssislərin fikrincə, Zəngilan Hava Limanı 10 noyabr üçtərəfli Bəyanatla açılması nəzərdə tutulan Zəngəzur dəhlizinə inteqrasiya olunacaq və şimal-cənub, şərq-qərb nəqliyyat dəhlizlərinin tərkib hissəsinə çevriləcək. Bunun nəticəsində Zəngilan da aid olmaqla Qarabağ və Şərqi Zəngəzur rayonlarımızdan keçməklə daşınan beynəlxaq yüklərin həcmi artacaq və bu da təbii ki, ölkəmizin daha çox gəlir qazanmasına imkan yaradacaq. Eyni zamanda Şərqi Zəngəzurun turizm potensialı çox böyük olduğundan Zəngilan hava limanının istifadəyə verilməsi yerli və beynəlxalq uçuşların həyata keçirilməsində də çox əhəmiyyətli olacaq.

Ermənilərin ən çox dağıtdığı şəhərlərimizdən biri də Ağdam şəhəri olmuşdur. Belə ki, Ağdamda ermənilər həm infrastruktura, həm də təbiətə çox böyük zərər vurublar. 30 ilə yaxın müddəətdə şəhərin içərisində, eləcə də ətraf kəndlərdə olan çinar, palıd və qoz ağaclarını kəsərək məhv etmişdilər. İşğaldan azad ediləndən sonra Ağdamda 120-125 min əhalinin yaşaya biləcəyi müasir və ağıllı şəhərin tikintisi işləri sürətli şəkildə başlamış və uğurla davam etdirilir. Ağdamda İlham Əliyevin göstərişi ilə Qarabağ xanlığının əsasını qoyan Pənahəli xana məxsus sarayın yerləşdiyi İmarət kompleksinin, Xurşudbanu Natəvana aid qəbirüstü abidənin və Ağdam Cümə Məscidinin yenidən bərpa edilməsi işinə də başlanılmışdır.

---

[1] İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəngilan Beynəlxalq Hava Limanın açılış mərasimində iştirak ediblər: [Elektron resurs]. – Oktyabr 20, 2022 / URL: **https://president.az/az/articles/view/57638**



Dövlət başçısı İlham Əliyevin 13 fevralda Ağdam rayonuna səfəri çərçivəsində “Ağdam-1” və “Ağdam-2” yarımstansiyaları, eləcə də “Qarabağ Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzi”nin açılışı baş tutmuşdu.

AR Prezidenti İlham Əliyev 2022-ci ilin 14 martında 2022-ci ildə Xurşidbanu Natəvanın 190 illiyinin qeyd olunması haqqında Sərəncam imzalamış, bunu nəzərə alaraq Mədəniyyət Nazirliyi Xurşidbanu Natəvanın qəbirüstü abidəsinin bərpası istiqamətindəki işləri yubiley ilində yekunlaşdırmışdır. Heykəltaraş Kənan Əliyev tərəfindən şairəyə məxsus qəbirüstü abidə özünün əvvəlki görünüşünə əsasən 350 sm hündürlükdə və boz qranit materialdan hazırlanaraq əvvəlki yerində quraşdırılmışdır. AR Prezidenti İlham Əliyev və birinci vitse-prezident xanım Mehriban Əliyeva 4 oktyabr 2022-ci il tarixində Xurşidbanu Natəvanın abidəsinin açılışında iştirak etmişdilər.[1]

Bundan başqa 2022-ci ildə Ağdam rayonuna məxsus Xıdırlı və Kəngərli kəndləri, şəhərin daxili yol və kommunikasiya şəbəkəsi, Ağdamın məcburi köçkün əhalisi üçün tikiləcək 470 mənzili olacaq yaşayış məhəlləsi, şəhərin dəmir yolu və avtovağzal kompleksi, Sarıcalı kəndi, City Hotel Ağdam mehmanxanası və Ağdamın Eyvazxanbəyli kəndində Atçılıq Nəsilartırma Mərkəzinin yenidən qurulması üçün təməlləri qoyulmuşdur. Ağdam Sənaye Parkı və Ağdam şəhər 1 saylı məktəbin tikinti işləri isə yekunlaşmaq mərhələsindədir. Artıq 2024-cü ildə Ağdamda bir sıra tikintilərin bitirilməsi nəzərdə tutulmuşdur.

4 oktyabr 2022-ci il tarixində təməlini dövlət başçısı İlham Əliyevin qoyduğu Ağdamın mərkəzindən 3 km aralı yerləşən bərpa ediləcək Xıdırlı kəndinə 5990 nəfərin (1500 ailə) köçürülməsi nəzərdə tutulmuşdur. Layihələndirilən ümumi ərazinin sahəsi 418 hektar təşkil edir. Burada yaşayacaq vətəndaşların yaşayış vəziyyəti nəzərə alınaraq, məhəllələrin salınması üçün birinci mərhələdə 160 ha torpaq sahəsi ayrılmışdır. Kənddə ilkin olaraq 2951 nəfərin yaşayacağı 719 fərdi evin tikilməsi nəzərdə tutulmuşdur.

---

[1] İmarət kompleksində görüləcək işlərlə tanışlıq və Xurşidbanu Natəvanın qəbirüstü abidəsinin açılışı: [Elektron resurs]. – Oktyabr 5, 2022 / URL: **https://respublika-news.az/news/imaret-kompleksinde-gorulecek-islerle-tanisliq-ve-xursidbanu-natevanin-qebirustu-abidesinin-acilisi**

Azərbaycanın Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu 3 oktyabr 2020-ci il tarixində işğaldan azad etdiyi Tərtər rayonunun Talış kəndi Ağalı kəndindən sonra keçmiş məcburi köçkünlərin yaşamağa başladığı ikinci yaşayış məntəqəsi oldu. Belə ki, erməni işğalından azad olunduqdan sonra Azərbaycanın dövlət başçısı tərəfindən verilmiş tapşırıqlar əsasında Talış kəndində tikinti-bərpa işləri aparılmış, yeni evlər inşa olunmuş və zəruri infrastruktur yaradılmışdır.

AR Prezidenti 4 oktyabr 2021-ci il tarixində Talış kəndində yaradılmış olan Bayraq meydanında Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltmışdı. Daha sonra görülən işlər nəticəsində 10 ictimai iaşə və qeyri-yaşayış obyekti bərpa edilmiş və tam şəkildə yenidən qurulmuş, həmin obyektlərin ərazisində abadlıq işlərinin aparılması təmin edilmişdir.

Kənddə bərpa işləri tamamlandıqdan sonra 2023-cü ilin martın 16-da Talış kəndinə ilkin mərhələ üçün 20 keçmiş məcburi köçkün ailəsi köçürülmüş, 180-ə yaxın ailənin də tez bir zamanda köçürülməsi nəzərdə tutulur.[1] O da qeyd edilməlidir ki, kəndə köçürülənlər üçün bütün imkanlar yaradılmış, gözəl və rahat evlər, ictimai binalar, məktəb və uşaq bağçası tikilmiş, əhalinin məşğulluğu üçün şərait yaradılmışdır.

Hal-hazırda Qarabağ və Şərqi Zəngəzur rayonlarında bir çox layihələrin həyata keçirilməsi prosesi davam edir. Şuşada birinci məhəllənin, Laçın Beynəlxalq Hava Limanının, Cəbrayılda akademik Mehdi Mehdizadə adına tam orta məktəbin, mərkəzi xəstəxananın, ilk çoxmənzilli yaşayış məhəlləsinin, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının, memorial kompleksin, Füzulidə çoxmənzilli yaşayış məhəlləsinin, Rəqəmsal Yarımstansiyanın, Rəqəmsal Stansiya İdarəetmə Mərkəzinin, "Dost Aqropark"ının, Şuşada mərkəzi xəstəxananın, Radio-Televiziya Yayım Stansiyasının tikilməsi işləri yekunlaşdırılmaq üzrədir.

Burada qeyd edilən işlər və layihələr Qarabağda aparılan və aparılacaq quruculuq işlərinin yalnız kiçik bir hissəsidir və bu proses getdikcə daha da sürətli şəkildə aparılacaq, tez bir zamanda işğal altında olarkən tamamilə dağıdılan şəhər və kəndlərimiz yeni və müasir şəhər və kəndlərə çevriləcək

[1] Talış kəndinin sakinləri doğma torpaqlarına qayıdıblar: [Elektron resurs]. – Mart 16, 2023 / URL: https://azertag.az/xeber/Talis_kendinin_sakinleri_dogma_torpaqlarina_qayidiblar___YENILANIB_2_VIDEO-2534708



və yurd-yuvalarından məcburi şəkildə ayrı qalan azərbaycanlılar nəhayət ki, öz evlərinə geri qayıda biləcəklər.

2022-ci ilin sonu – 2023-cü ilin əvvəllərində Qarabağdakı siyasi proseslərə təsir göstərən ən böyük hadisə 2022-ci ilin sonunda Laçın dəhlizi ətrafında azərbaycanlı ekoloji fəallar tərəfindən başladılan aksiya oldu. Belə ki, 3 və 7 dekabr 2022-ci il tarixlərində Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinə məxsus mütəxəssislərdən ibarət bir heyət Rusiyanın sülhməramlı kontingenti komandanlığı ilə müzakirələr keçirmiş, daha sonra Azərbaycanın Rusiya sülhməramlılarının müvəqqəti olaraq yerləşdirildiyi ərazilərində faydalı qazıntı yataqlarımızın qeyri-qanuni istismar edilməsi, bunun nəticəsində yaranmış ekoloji və digər problemlərlə əlaqədar ilkin monitorinq həyata keçirməli idi. Amma buna baxmayaraq Rusiya sülhməramlıların bu monitorinqin keçirilməsinə şərait yaratmadılar.

Məhz bu hadisənin Azərbaycan ictimaiyyətində doğurduğu əks-sədadan sonra 12 dekabr 2022-ci il tarixində səhər saatlarında ekofəalları və bu sahədə fəaliyyət göstərən qeyri-hökumət təşkilatları üzvləri Şuşa ərazisində Xankəndi-Laçın yolunda Azərbaycanın Qarabağ iqtisadi rayonuna məxsus faydalı qazıntı yataqlarının qeyri-qanuni istismar edilməsi əleyhinə dinc etiraz aksiyasına başlamış və aksiya 2023-cü ilin aprelində - 4-cü aydır ki, davam etməkdədir.

İlk gündə olduğu kimi, indi də aksiya iştirakçılarının irəli sürdüyü tələblər dəyişməz qalır. Ekofəallar və gənc könüllülərin səsləndirdikləri şüarlar içərisində əsas yeri "Azərbaycan vahiddir, sərvətinə sahibdir!", "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Ekoloji cinayətə son!", "Stop ekoterror!", "Экоциду нет! Мониторингу да!", "Берегите природу!" kimi şüarlar tutur.

Vətəndaş cəmiyyəti nümayəndələrinin başlatdığı və davam etdirdiyi ekoloji aksiya erməni tərəfinin dezinformasiyalar yayması ilə bir sıra ölkələrdə və beynəlxalq təşkilatlarda rezonans doğurdu. Belə ki, BMT TŞ, AŞPA kimi nüfuzlu təşkilatlarda belə Laçın dəhlizi ətrafındakı vəziyyət ermənilərin şikayəti, təqdim etdikləri həqiqəti tam əks etdirməyən məlumatlar əsasında müzakirələr aparılmış, Azərbaycan hakimiyyətinin Laçın dəhlizini

bağladığı qeyd edilmiş və humanitar böhrana yol verməmək, Qarabağın rus sülhməramlılarının müvvəqqəti yerləşdiyi ərazidə yaşayan emənilərin blokadaya alınmaması üçün Azərbaycan tərəfinə Laçın dəhlizini açması tövsiyə edilmişdir.

Daha sonra bu iddialar BMT-nin Beynəlxalq Ədalət Məhkəməsinə də çıxarılmış, Məhkəmə Ermənistan və Azərbaycanın qarşılıqlı olaraq bir-birinə ünvanladığı iddialara dair qərar qəbul etmişdir. Haaqa Sülh Sarayında hakim Joan Donoghue elan etdiyi hökmə əsasən, "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvi edilməsi" barədə Beynəlxalq Konvensiyadan irəli gələn öhdəliklərə əsasən Azərbaycan işə dair yekun qərar qəbul edilənə qədər Laçın dəhlizi ilə hər iki yöndə insanlar, nəqliyyat vasitələri və yüklərin "maneəsiz hərəkətini"nin təmin edilməsi üçün əlində olan bütün tədbirləri həyata keçirməlidir.

Azərbaycan nümayəndələrinin daha əvvəl də məhkəməyə verdiyi açıqlamada qeyd edilir ki, Ermənistan tərəfinin tələb etdiyi tədbirlər "effektiv nəticə verməyəcək, çünki hal-hazırda nə Azərbaycan dövləti, nə də azərbaycanlı etirazçıların nəqliyyatın qarşısını kəsməsi kimi hallar yoxdur." Rəsmi Bakı eləcə də Laçın yolunda nəqliyyatın təhlükəsiz hərəkətinin təmin edildiyini bildirmişdi.

Beləliklə, Azərbaycan tərəfinin dəfələrlə bildirdiyi kimi Laçın dəhlizi ekoloji aksiya keçirən nümayişçilər tərəfindən bağlanılmamış, hər gün media nümayəndələrinin də müşahidə etdiyi kimi onlarla mülki avtomobil, təcili yardm maşınları, humanitar yardım aparan yük maşınları yolun hər iki istiqamətində hərəkət edir. İlham Əliyevin də öz çıxışlarında da bildirdiyi kimi, belə bir şəraitdə hansı blokadadan söhbət gedə bilər? Çox təəssüf ki, 30 ilə yaxın müddətdə Azərbaycanın 20% torpaqları işğal altında olduğu bir vaxtda, Naxçıvanın daima anklav vəziyyətində yaşadığı bir zamanda həmin beynəlxalq təşkilatların bu qədər narahatlığı ilə qarşılaşmamışdıq. Bu baxımdan Azərbaycan hər bir zaman beynəlxalq ictimaiyyətin ikili standartları ilə üz-üzə qalmış bir ölkə olmuşdur.

Lakin onu da qeyd etmək lazımdır ki, II Qarabağ müharibəsindən sonrakı dövrdə Azərbaycanın xarici siyasəti İlham Əliyevin hərtərəfli düşünülmüş və savadlı çıxışları vasitəsilə daha özündən əmin şəkildə aparılmaqdadır. Buna görə də nə Azərbaycan hakimiyyəti, nə də vətəndaş cəmiyyəti fəalları öz yolundan dönməyəcək, ekoloji aksiya öz məqsədlərinə çatmadan dayandırılmayacaq, Azərbaycan hakimiyyəti isə Ermənistan tərəfi ilə keçirilmiş üçtərəfli və ikitərəfli görüşlərdə qeyd etdiyi kimi, keçmiş Dağlıq Qarabağ ərazisinə hərbi yüklərin daşınaraq oradakı qanunsuz erməni birləşmələrin silahlandırılmasına qətiyyətlə yol verməyəcək.



10 noyabr Bəyanatının bəndlərindən birini təşkil etməsinə baxmayaraq 44 günlük müharibədən sonrakı iki il ərzində keçmiş Dağlıq Qarabağ ərazisindən erməni silahlı birləşmələri tam olaraq çıxarılmamış və Ermənistan Laçın dəhlizi vasitəsilə Qarabağdakı separatçılara aid hərbi və silahlı birləşmələri silahlandırmaq işini daam etdirmək istəyirdi. 2022-ci ilin son aylarından başlayaraq Azərbaycan tərəfi Xankəndi-Laçın yolu, daha sonra həmin yolda ekoloji aksiyanın keçirilməsi səbəbbindən Xankəndi-Xəlfəli-Turşsu torpaq yolu vasitəsilə hərbi təyinatlı vasitələr, eləcə də silah-sursat və hərbi texnikaların daşınması haqqında məlumat verir və bununla bağlı erməni tərəfinə və Rusiya sülhməramlılarına xəbərdarlıq edirdi. Lakin qarşı tərəf bu xəbərdarlıqlardan nəticə çıxarmayaraq bu fəaliyyətini davam etdirirdi. Nəticədə həmin ərazidə gərgin vəziyyət ortaya çıxdı.

Bununla əlaqədar olaraq 30 mart 2023-cü il taixində Azərbaycan Respublikası Ordusunun bölmələri ermənilərin potensial təxribatlar törətməsinin qarşısını almaq üçün Xankəndi-Xəlfəli-Turşsu istiqamətindəki ərazidə olan torpaq yolda uğurlu əməliyyat keçirərək bir sıra strateji və taktik əhəmiyyətli məntəqələri, eləcə də qeyd edilən yolu nəzarət altına almışlar. Müdafiə Nazirliyi mətbuat xidmətinin yaydığı informasiyaya əsasən, yeni Laçın yolu istifadəyə verildiyindən Laçın rayonuna aid Zabux və Cağazur kəndlərinin arasındakı bir neçə hakim yüksəklik, əsas və köməkçi yollar, eyni zamanda geniş sərhədboyu sahələr nəzarət altına alınmışdır.

Ermənistanın ərazisindən Qarabağa və Xankəndi istiqamətində hərəkət edən hər bir nəqliyyat vasitəsi Laçın yolundan keçməlidir. 10 noyabr 2020-ci il Üçtərəfli Bəyanatına uyğun olaraq Azərbaycan Laçın şəhərindən keçməyən yeni alternativ yolun çəkilməsini təmin etmiş, bu yeni yoldan Rusiya sülhməramlıları ilə yanaşı, eləcə də ermənilər istifadə edirdi. Bu yolun çəkilməsində məqsəd, əlbəttə ki, həmin yollardan ancaq mülki və humanitar təyinatlı yüklərin daşınması üçün istifadə edilməsi idi. Lakin erməni tərəfi bu məqsədlərdən kənara çıxaraq həmin yoldan hərbi təyinatlı məqsədlərlə

istifadə etməyə başlamışdı. Azərbaycan Ordusunun Yüksək peşəkarlıqla aparılmış əməliyyatından sonra qeyd edilən yola nəzarət imkanları da genişlənmiş oldu. Hal-hazırda Azərbaycan Ordusunun nəzarət altına aldığı yüksəkliklərin sayəsində Qarabağın ərazisində dislokasiya olunmuş erməni silahlı birləşmələrini təchiz edənləri yolu tamamilə bağlanmış və artıq həmin ərazilər Azərbaycan tərəfinin qəti nəzarəti altına daxil olmuşdur.

Beləliklə, II Qarabağ müharibəsi nəticəsində işğal edilmiş torpaqlarını azad edən, ərazi bütövlüyünü bərpa edən Azərbaycan siyasət, hərbi-təhlükəsizlik və informasiya istiqamətlərində yeni geosiyasi reallıqların yaranmasına səbəb oldu. Bu baxımdan YAP-ın VII qurultayındakı çıxış edərkən Prezident İlham Əliyevin ifadə etdiyi aşağıdakı fikirlər böyük əhəmiyyət kəsb edir. İlham Əliyev öz çıxışında qeyd etmişdir: *"Bu gün yeni bir vəziyyət yaranıb, bu vəziyyəti biz yaratmışıq. Biz reallıqlar yaradan ölkəyik və bundan əvvəlki dövrlərdə də bizim təşəbbüsümüzlə reallaşan bir çox layihələr bölgəyə yenilik gətirib, əməkdaşlığın yeni formatlarını şərtləndirib. Bu gün bu layihələr ətrafında birləşən və bu layihələri bizimlə bərabər icra edən ölkələrin sayı artmaqdadır və bu, istər-istəməz bu ölkələr arasında, hətta əvvəlki dövrlərdə bir-biri ilə o qədər isti münasibətləri olmayan ölkələr arasında da əməkdaşlığı labüd edir".*[1] AR Prezidenti və siyasi lideri İlham Əliyevin də qeyd etdiyi kimi, Azərbaycanın bütün istiqamətlərdə apardığı uğurlu siyasət nəticəsində nəinki yeni enerji və nəqliyyat dəhlizləri yaranmış, regionda və geniş mənada Avrasiya məkanında yeni əməkdaşlıq formatları yaranmış, nəticədə də Cənubi Qafqazın lideri olan Azərbaycanın nüfuzu bütün dünyada artmışdır.

[1] Yeni Azərbaycan Partiyasının VII qurultayı keçirilib: [Elektron resurs]. – Mart 5, 2021 / URL: **https://president.az/az/articles/view/50798**



# IV FƏSİL

## İLHAM ƏLİYEVİN XARİCİ SİYASƏT STRATEGİYASINDA REGİON ÖLKƏLƏRİ İLƏ ƏMƏKDAŞLIQ

### §1. Azərbaycan-Türkiyə müttəfiqliyinin möhkəmlənməsində İlham Əliyev amili

Azərbaycan-Türkiyə münasibətləri klassik dövlətlərarası münasibətlər konsepsiyasına əsaslanır və bir-birinə qardaşlıq telləri ilə bağlı bir xarakter daşıyır. Təsadüfi deyil ki, iki ölkə xalqı tarixin müxtəlif dövrlərində yaşadıqları çətinliklərə baxmayaraq, qardaşlıq bağlarını heç vaxt unutmamış, bütün çətinliklərdən alnıaçıq şəkildə çıxmışdır. Azərbaycan və Türkiyə Birinci Dünya Müharibəsində müxtəlif cəbhələrdə iştirak etsələr də azərbaycanlılar Anadoludakı qan qardaşlarını tək qoymamış, haqlı mübarizələrində öz tərəflərini tutmaq üçün Çar Rusiyasının sərt qadağalarından yayınaraq Çanaqqala döyüşünə qatılmış və şəhid olmuşlar. Sonralar Zaqafqaziya Demokratik Federativ Respublikasında təmsil olunan Azərbaycan hökumət qrupu 1918-ci ildə Osmanlı dövlətinə qarşı müharibədə iştiraka qarşı qətiyyətli mövqe tutdu və Osmanlı İmperiyasında yaşayan qardaşları ilə döyüşmədi. Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra Nuru Paşanın komandanlığı ilə Qafqaz İslam Ordusu öz tarixi missiyasını yerinə yetirərək Azərbaycanın bir çox rayonlarını, ən əsası isə 1918-ci ilin 15 sentyabrında Bakını erməni-bolşevik işğalından azad etdi. Bu dəfə Anadolu türkləri tərəddüd etmədən azərbaycanlı qardaşları üçün canlarını qurban edərək qardaşlıqlarını bir daha sübut etmişdilər.

Azərbaycan və Türkiyə münasibətləri möhkəm təməllərə sahib olaraq son dövrlərdə daha da sıxlaşmaqda və inkişaf etməkdədir. Bu münasibətlərin fəlsəfəsi iki tezisə əsaslanır: Mustafa Kamal Atatürkün söylədiyi "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və Ulu öndər Heydər Əliyevin söylədiyi "Bir millət, iki dövlət" fikirlərinə. Əsasında tarixi kökləri və qardaşlıq münasibətləri olan və daima bir-biri ilə həmrəy olan, həmrəy fəaliyyət göstərən Azərbaycan və Türkiyə əlaqələri müasir dövrdə də siyasi, iqtisadi-ticari, humanitar, hərbi və s. kimi bütün sektor-

larda müvəffəqiyytlə inkişaf etməkdədir. Azərbaycan Respublikasının sadiq strateji müttəfiqi olaraq Türkiyə ilə əlaqələrinin möhkəmləndirilib daha da yaxınlaşması Azərbaycanın xarici siyasətində çox mühüm yer tutur. Azərbaycan və Türkiyə arasındakı münasibətlərin dinamikası nəzərdən keçirildikdə aydın şəkildə görmək olar ki, bu münasibətlər AR Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın hakimiyyəti dövründə daha da yaxınlaşmış, Şuşa Bəyannaməsinin imzalanması ilə rəsmi olaraq müttəfiqlik səviyyəsinə çatdırılmışdır.

Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ilk dövlət 9 noyabr 1991-ci ildə Türkiyə olmuş, iki ölkə arasında diplomatik münasibətlər isə 1992-ci ilin 14 yanvarında qurulmuşdur. 1992-ci ilin avqust ayında AR-in Türkiyədə səfirliyi açılmış, Azərbaycanın Baş konsulluqları isə 1993-cü ilin yanvarında İstanbul şəhərində, 2004-cü ilin 12 aprelində isə Qars şəhərində təsis edilmişdir. Türkiyə Cumhuriyyətinin Bakıda Səfirliyi, eyni zamanda Naxçıvan və Gəncə şəhərlərində Baş Konsulluqları açılmışdır. Azərbaycan və Türkiyə bugünədək bütün ictimai fəaiyyət sahələri ilə əlaqədar olan 200-dən çox sənəd imzalamış və bu münasibətlərin hüquq-müqavilə bazası daim genişlənməkdə davam edir.

Azərbaycan və Türkiyə arasında münasibətlərin inkişaf etməsində AR Prezidenti İlham Əliyevin 13-15 aprel 2004-cü il tarixində Türkiyəyə etdiyi ilk rəsmi səfərinin də əhəmiyyətli yeri var. Həmin səfər gedişində Azərbaycanla Türkiyə arasında birgə bəyanat, mədəniyyət və mülki aviasiya sahələrində əməkdaşlıq haqqında protokollar və d. sənədlər imzalanmışdı. Səfər zamanı Türkiyə Böyük Millət Məclisində çıxış edən İlham Əliyev söyləmişdi: *"Türkiyəni özümə vətən hesab edirəm. Amma Prezident kimi bu, mənim ilk səfərimdir. Bu gün tam qətiyyətlə deyə bilərəm ki, bu səfər iki ölkə arasında olan münasibətlərin inkişafında mühüm rol oynayacaqdır".*[1] İlham Əliyev özünün prezident kimi Türkiyəyə ilk səfəri zamanı söylədiyi bu sözlərlə qardaş dövlətlə bağlı siyasi kursunun xarakterini əvvəlcədən müəyyən etmiş və özünün 20 illik hakimiyyəti dövründə bu prinsipi daima əsas tutduğunu göstərməkdədir.

---

[1] Azərbaycan-Türkiyə diplomatik münasibətləri – 30: [Elektron resurs] / URL: **https://files.preslib.az/ projects/azerturk/a1.pdf**



2010-cu il sentyabrın 15-də İstanbul şəhərində imzalanmış Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması haqqında Birgə Bəyannamə vasitəsilə təsbit edilmiş Şuranın dövri olaraq keçirilməkdə olan iclasları iki ölkənin bütün sahələrdəki münasibətlərinin daha da dərinləşməsi və genişlənməsinə öz töhvəsini vermişdir. Həmin Şura 2011-ci il oktyabrın 25-də İzmirdə özünün ilk iclasını keçirmiş, 2012-ci il sentyabrın 11-12-də Qəbələdə 2-ci, 2013-cü il noyabrın 12-13-də Ankarada 3-cü, 2015-ci il yanvarın 14-15-də Ankarada 4-cü, 2016-cı ilin martın 15-də Ankarada 5-ci, 2017-ci il oktyabrın 31-də Bakıda 6-cı, 2018-ci il aprelin 25-də Ankarada 7-ci və 2020-ci il fevralın 25-də Bakıda 8-ci iclaslarını keçirmişdir. Bütün iclasların nəticəsində Azərbaycan və Türkiyənin bütün sahələrdə münasibətləri müntəzəm olaraq nəzərdən keçirilərək, bir çox sahələr üzrə əməkdaşlıq haqqında olduqca əhəmiyyətli sənədlər imzalanmışdır.

Azərbaycan və Türkiyənin rəhbərlik etdiyi müxtəlif platformalar regionumuzda və onun hüdudlarından kənarda sülh, təhlükəsizlik və sabitliyə öz töhfəsini verir. İkitərəfli münasibətlərin daim inkişaf etdiyi bir vaxtda Azərbaycan və Türkiyə ortaq mövqedən çıxış edir, beynəlxalq platformalarda müzakirə olunan mühüm məsələlərin həllində bir-birini dəstəkləyir və tamamlayır. Azərbaycan Türkiyənin olmadığı, Türkiyə də Azərbaycanın olmadığı platformalarda lazımi dəstəyi təmin edir, lazım gəldikdə bir-birinin adından da çıxış edə bilirlər.

Azərbaycan-Türkiyə əməkdaşlığının regional və qlobal sülh və təhlükəsizliyə verdiyi töhfəni də vurğulamaq lazımdır. Azərbaycan lap əvvəldən Əfqanıstanda BMT-nin mandatı altında həyata keçirilən müxtəlif missiyalara öz töhfəsini vermiş və bunu Türkiyə ilə birgə həyata keçirmişdir. Əfqanıstanın ən strateji nöqtələrindən biri və ölkəyə ilk giriş qapısı olan Kabil Beynəlxalq Hava Limanı Azərbaycan əsgərləri, o cümlədən həkim və mühəndislər tərəfindən mühafizə altına alınmış, yaralılara uzun illər tibbi xidmət göstərilmişdir. Əsgərlərimiz Türkiyə Silahlı Qüvvələrinin nümayəndələri ilə birlikdə 2021-ci ilin avqust ayının sonuna qədər minlərlə əcnəbi və yerli əhalinin Əfqanıstandan təhlükəsiz şəkildə təxliyəsinə dəstək verib və ölkəni tərk edən son qüvvələr sırasında olublar.

Bu gün istismarda olan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin və Cənub Qaz Dəhlizinin mühüm komponentləri olan TANAP və TAP layihələri Xə-

zərin karbohidrogen ehtiyatlarının Avropaya və digər regionlara nəqlinə imkan yaradıb. Bu o deməkdir ki, sürətlə inkişaf edən və enerjidən asılı olan bir çox ölkələr müxtəlif və etibarlı mənbələrdən etibarlı şəkildə fasiləsiz neft və qaz əldə edə bilərlər. Azərbaycan və Türkiyə arasındakı əməkdaşlıq təkcə qlobal əhəmiyyətli karbohidrogen layihələri ilə nəticələnməmişdir. Eyni zamanda, Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu layihəsi Avropa ilə Asiyanı birləşdirən tarixi İpək Yolunun bir hissəsi olaraq inşa edilib ki, Çindən çıxan yüklər çox qısa müddətdə və iqtisadi cəhətdən sərfəli qiymətə Avropaya və geriyə daşınsın.

Azərbaycanın müasir dəmir yolu şəbəkəsinin yenidən qurulması, Ələt Beynəlxalq Ticarət Limanının tikintisi, Qazaxıstanda analoji limanın tikintisi və Çin sərhədinə qədər uzanan 1200 kilometr uzunluğunda yenidən qurulan Qazaxıstan daxili dəmir yolu Avrasiya regionunda dəniz nəqliyyatına çox əlverişli alternativ yaratmışdır. Bu layihə həm də Türkiyə ilə Orta Asiyada türk dövlətlərini birləşdirən mühüm nəqliyyat şəbəkəsi rolunu oynayır. Zəngəzur dəhlizinin açılması, Qars-İğdır-Naxçıvan dəmir yolunun tikintisi, İğdır-Naxçıvan-Zəngilan avtomobil yolunun tikintisi Avrasiyanın ən mühüm nəqliyyat və logistika layihələrindən birinin mühüm elementlərini təşkil edəcək. Zəngəzur dəhlizindən təkcə Azərbaycan deyil, bütün region ölkələri, eləcə də Ermənistan faydalanacaq, Ermənistan müxtəlif aspektlərdən dünya bazarına çıxış əldə edəcək və bizim digər layihələri həyata keçirdiyimiz ölkələr kimi böyük investisiyalar və gəlirlər əldə edəcək. Bu, mövcud layihələrə rəqib deyil, tamamlayıcı funksiyaya malik olacaq, həm də türk dünyasını birləşdirəcək başqa bir alternativ olacaq. Qeyd etmək lazımdır ki, bu cür layihələr təkcə son istifadəçi dövlətlərə fayda vermir. Tranzit ölkələr də bu layihələrdən böyük qazanc əldə edirlər. Bundan əlavə, Xəzər dənizinin əks sahilində yerləşən Orta Asiyada türk dövlətləri Azərbaycanın neft-qaz və dəmir yolu infrastrukturundan bəhrələnmək imkanı əldə edəcəklər. Bu infrastrukturlar vasitəsilə onlar istədikləri zaman öz karbohidrogen ehtiyatlarını və digər məhsullarını dünya bazarına çıxara bilərlər. İki qardaş ölkənin rəhbərliyi ilə həyata keçirilən bu cür layihələr sülh, sabitlik, inkişaf və tərəqqi istəyən ölkələr üçün açıq və cəlbedicidir.

Azərbaycan və Türkiyə arasındakı münasibətlər 2020-ci ildə daha da intensivləşərək keyfiyyətcə yeni səviyyəyə yüksəlmişdir. Yalnız 2020-ci



ilin yanvarından sentyabrına qədər Azərbaycan Türkiyədən 123 mln dollar həcmində silah almışdır, bu rəqəm 2019-cu ilin eyni dövrü ilə müqayisədə 6 dəfə çox idi. 2021-ci il də ölkələrimiz arasında ticarət dövriyyəsi 4,66 mlrd dollar, o cümlədən, Azərbaycanın Türkiyəyə ixracı 2,885 mlrd dollar (ümumi ixracın 12.69 %-i), Azərbaycanın Türkiyədən idxalı 1,884 mlrd dollar (ümumi idxalın 15.75 %-i) təşkil etmişdir.[1] 2022-ci ildə isə Azərbaycan və Türkiyə arasında xarici ticarət dövriyyəsinin həcmi 5,8 mlrd dollara çatıb. Bu da 2021-ci illə müqayisədə 25% artım deməkdir.[2]

İki ölkə arasındakı münasibətlərdə əhəmiyyətli sənədlərdən biri də 2020-ci ilin 10 dekabrında imzalanmış "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında Anlaşma Memorandumu"dur. Bu Memorandumda iki ölkənin müvafiq institutları arasında informasiya, ictimai diplomatiya və kommunikasiya sahələrində əməkdaşlığın daha da genişləndirilməsi planlaşdırılır və bu istiqamətdə iki ölkənin XİN-ləri arasında davamlı olaraq informasiya üzrə sıx məsləhətləşmələr və mübadilələr həyata keçirilir.

Son illərdə Azərbaycan-Türkiyə əlaqələrinin ən intensiv sahələrdən biri də hərbi əməkdaşlıq olmuşdur. İddia etmək olar ki, Azərbaycan-Türkiyə hərbi müttəfiqliyi Qafqazda sülhün və təhlükəsizliyin təmin edilməsi üçün zəmin yaradan amillərdən birinə çevrilmişdir. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasından sonra Silahlı Qüvvələrin inkişaf etdirilməsində qardaş ölkə Türkiyənin imkan və təcrübələrindən istifadə proritet məsələlərdən birinə çevrilmişdir. Bu istiqamətdə başlıca məsələləri müdafiə sənayesində əməkdaşlıq və birgə layihələr; kadr hazırlığı; birlikdə keçirilən hərbi təlimlər və s. təşkil edir.

Müstəqilliyimizi bərpa etdikdən sonra Türkiyə Azərbaycan Silahlı Qüvvələrinin inkişafına böyük dəstək vermiş, bir çox əsgər və zabitlərimiz Türkiyədə təhsil almış, təlim keçmişdir. Bu baxımdan Azərbaycanın müasir orduya sahib olmasında Türkiyənin mühüm rolu olduğunu söyləmək olar.

[1] Qasımlı T., Müasir dövrdə Azərbaycan-Türkiyə münasibətləri: [Elektron resurs]. – İyun 7, 2022 / URL: **https://ikisahil.az/post/318432-muasir-dovrde-azerbaycan-turkiye-munasibetleri**

[2] Azərbaycanla Türkiyə arasında xarici ticarət dövriyyəsinin həcmi 5,8 mlrd. dollara çatıb: [Elektron resurs] / URL: **https://apa.az/az/infrastruktur/azerbaycanla-turkiye-arasinda-xarici-ticaret-dovriyyesinin-hecmi-58-mlrd-dollara-catib-751089**

Bu əməkdaşlıq sayəsində Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələri modelinə keçməsi qarşıya qoyulan məqsədlərdəndir. Bu məqsədlə Azərbaycan Ordusu ilə Türkiyə Silahlı Qüvvələri arasında əməkdaşlıq və birgə təlimlər günü-gündən artır. Bütün bunlar Ordumuzun daha da müasirləşməsinə və güclənməsinə imkan verəcək. Bu gün Azərbaycan-Türkiyə münasibətləri təkcə bu iki ölkə üçün deyil, daha geniş coğrafiyada türk dünyasının və bütün dünyanın birliyinə nümunədir. Dünya Azərbaycan və Türkiyə ilə əməkdaşlığın nəticələrini bilmək istəyirsə, münasibətlərimizin tarixi dinamikasına, nəticələrinə nəzər sala bilər. Bu kontekstdə əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan və Türkiyənin mühüm birgə layihə və təşəbbüsləri təkcə bu iki ölkə üçün deyil, həm də coğrafiyamızdan çox-çox kənarda sülhün, əmin-amanlığın, təhlükəsizliyin, iqtisadi imkanların və davamlı inkişafın əsasını təşkil edir.

İki qardaş müttəfiq ölkələrin hərbi sahədə əlaqələrinin inkişaf etməsində vacib rol oynayan amillərdən biri Azərbaycan-Türkiyə birgə hərbi təlimlərinin təşkil edilməsi olmuşdur. Bunlara nümunə kimi "EFES", "Anadolu Ankası", "Qış Təlimi", "Anadolu Ulduzu", "Erciyes-2019", "Anadolu Qartalı", "Mustafa Kamal Atatürk", "Sarsılmaz Qardaşlıq", "TurAz Qartalı-2019", "TurAz Qartalı-2020" və "Heydər Əliyev-2020", Konyada keçirilən "Anadolu Qartalı – 2021" beynəlxalq taktiki-uçuş təlimlərini qeyd etmək olar.

Eyni zamanda Bakı şəhərində "ADEX-2014, "ADEX-2016", "ADEX-2018", İstanbul şəhərində isə "IDEF-2017", "IDEF-2019" və "IDEF - 2021" adlı müdafiə sənayesinə dair beynəlxalq sərgilərin təşkil edilməsi Azərbaycan-Türkiyə hərbi-texniki əməkdaşlığının inkişafına təkan vermişdir. Bu nöqteyi-nəzərdən 2020-ci ilin iyul ayından start götürən genişmiqyaslı "TurAz Qartalı-2020" birgə taktiki-uçuş təlimlərinin məqsədi yalnız Azərbaycan Ordusunun güclənməsi deyil, eləcə də regionda sülh və təhlükəsizliyin təmininə istiqamətlənmişdi.

Azərbaycan və Türkiyə arasındakı hərbi əməkdaşlıqda vacib tərkib hissələrindən biri müdafiə sənayesi üzrə əməkdaşlığın daha da sıxlaşmasıdır. Qeyd edilmiş bütün təlimlər yüksək peşəkarlıq səviyyəsində başa çatdırılmış və bu təlimlərin, eləcə də ümumən, iki ölkə arasında hərbi əməkdaşlığın real nəticələri özünü 44 günlük Vətən müharibəsində göstərdi. Müdafiə sənayesi üzrə əməkdaşlıqdan danışarkən, əlbəttə ki, İkinci Qarabağ müharibəsində geniş şəkildə istifadə edilən olan Türkiyə istehsalı pilotsuz uçuş aparatları, bayraktarların adı ilk növbədə çəkilməlidir. Belə ki, Azərbaycan həmin pilotsuz uçuş aparatlarından istifadə edərək bütün dünyaya müasir döyüş əməliyyatları haqqında "dərs" keçmiş, eyni zamanda öz resurslarına qənaət etmiş oldu.



2020-ci ilin 27 sentyabrında başlayan və 44 gün ərzində davam edən II Qarabağ müharibəsi zamanında Türkiyə və Azərbaycan dövlətləri arasında olan qarşılıqlı bağlılıq növbəti dəfə sınaqdan keçmişdi. II Qarabağ müharibəsi zamanı Türkiyənin Azərbaycana beynəlxalq platformalarda verdiyi siyasi və mənəvi dəstək daha da güclənmiş, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan başçılığı ilə bütün türk xalqı, eləcə də Türkiyə hökuməti müharibənin əvvəllərindən axırına qədər Azərbaycanın yanında olduqlarını aydın şəkildə nümayiş etdirmişdilər. Azərbaycanın müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük müharibədə şəksiz qələbə qazanması AR üçün tarixi əhəmiyyətə malik olaraq 30 illik mənəvi-psixoloji çətinliklərə də son qoymuş, başda Türkiyə Cumhuriyyəti və Türk dünyası da daxil olmaqla geniş coğrafi məkanda yeni münasibətlər, effektiv əməkdaşlıq perspektivləri, son nəticədə isə yeni regional təhlükəsiz mühitinin yaranmasına səbəb olmuşdur.

Azərbaycan xalqı 44 günlük müharibənin gedişində və ondan sonrakı dövrdə Ermənistanın 30 il müddətində davam edən təcavüzünə son qoyulmasında, Ermənistanın işğal etdiyi torpaqlarımızın azad olunmasında, dövlətimizin ərazi bütövlüyünün bərpasında Türkiyə Respublikasının mənəvi-siyasi və diplomatik dəstəyini daima yüksək qiymətləndirmişdir. AR Prezidenti İlham Əliyev 2020-ci ilin 9 oktyabrında "CNN International" televiziya kanalına verdiyi müsahibədə Bu mövzuda söyləmişdi: "Türkiyə bizə dəstək göstərir, lakin bu, siyasi dəstəkdir, bu, diplomatik dəstəkdir. Bu dəstək olmasaydı, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır" ifadəsi ilə bu çox açıq mövqe olmasaydı, çox güman ki, bu gün Ermənistan öz məqsədinə nail olmuş olardı."[1]

[1] İlham Əliyevin "CNN International" televiziya kanalının "Connect the World" verilişində müsahibəsi yayımlanıb: [Elektron resurs]. – Oktyabr 9, 2020 / URL: **https://president.az/az/articles/view/42434**

Yuxarıda da qeyd edildiyi kimi Türkiyə - Azərbaycan münasibətləri 28 il işğal altında olan, 2020-ci ilin 8 noyabrında qəhrəman Azərbaycan Ordusunun işğaldan azad etdiyi mədəniyyət paytaxtımız Şuşada 2021-ci il iyunun 15-də imzalanmış Bəyannamə ilə müttəfiqlik səviyyəsinə qaldırılmışdır.[1]

Şuşa Bəyannaməsində "Üçüncü dövlət və ya dövlətlər tərəfindən onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, toxunulmazlığına və ya beynəlxalq səviyyədə tanınmış sərhədlərinin təhlükəsizliyinə qarşı təhdid və ya hücum olarsa, Tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhlükəni və ya təcavüzü aradan qaldırmaq üçün BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə uyğun olaraq təşəbbüs göstərəcək və BMT Nizamnaməsinə uyğun olaraq bir-birinə lazımi yardım göstərəcəklər" ifadəsi öz əksini tapmışdır. Göründüyü kimi, Azərbaycan-Türkiyə münasibətlərinin 30-cu ildönümündə imzalanmış bu Bəyannamə sayəsində bir-birinə qardaşlıq telləri bağlanan Azərbaycan və Türkiyə artıq müttəfiq dövlətlərə çevrilmişdir.

Bu kontekstdə Azərbaycan ilə Türkiyə arasında siyasi, iqtisadi, hərbi, mədəni və bütün digər sahələrdə əlaqələrin yeni reallıqlara uyğunlaşdırılması üçün səylər göstərilməyə başlanılmışdır. Azərbaycan və Türkiyə prezidentləri iki ölkə arasında 15 milyard dollarlıq ticarət hədəfi qoymuşlar. Bunun üçün bizim potensialımız var və bu məqsədə nail ola bilərik. İki ölkə arasında ticarət dövriyyəsi ildən-ilə artır. Azərbaycan Türkiyə iqtisadiyyatına 19 milyard dollardan çox sərmayə qoyub. Türkiyənin Azərbaycan iqtisadiyyatına sərmayəsi 13 milyard dollardır.[2] Bu cür investisiyalar hər iki dövlətin güclənməsinə və onların xarici təsirlərdən müstəqilliyinə töhfə verir. Bundan əlavə qarşılıqlı investisiyaların daha da artırılması və şaxələndirilməsi vacibdir. Qarşılıqlı investisiyalar bir-birinin ehtiyaclarını ödəməli və tamamlamalıdır. Bu səbəbdən Azərbaycanda istehsal olunan məhsullar Türkiyənin sənaye və digər ehtiyaclarını, Türkiyədə istehsal olunan məhsullar isə Azərbaycanın sənaye və digər ehtiyaclarını ödəməlidir. Bu yolla investisiyalar birgə istehsalı artırmaqla yanaşı, iki ölkə arasında ticarətə də təsir göstərəcək.

---

[1] Memmedov R., Azerbaycan Cumhuriyeti Ankara Büyükelçisi Azerbaycan-Türkiye ilişkilerinin bölgesel ve küresel sonuçları // – Bakı: Miras, 2021. № 20, – s.12 – 17, s.13

[2] Memmedov R., Azerbaycan Cumhuriyeti Ankara Büyükelçisi Azerbaycan-Türkiye ilişkilerinin bölgesel ve küresel sonuçları // – Bakı: Miras, 2021. № 20, – s.12-17, s.16



2021-ci ilin iyul ayında Türkiyədə baş vermiş meşə yanğınlarının söndürülməsində və gələcək fəsadların qarşısının alınmasında Azərbaycanın qardaşlıq yardımı göstərməsi Azərbaycan-Türkiyə münasibətlərində mənəvi birliyi zənginləşdirən hadisələrdən biri olmuşdu.

Məlum olduğu kimi 6 fevral 2023-cü il tarixində Türkiyədə böyük dağıntılara və insan itkilərinə səbəb olan güclü zəlzələ baş vermişdi. Azərbaycan dəfələrlə hər hansısa bədbəxt hadisə və ya fəlakət zamanı Türkiyənin yanında dayanmış, əlindən gələn bütün yardımları Türkiyə tərəfi istəmədən öncə etmişdir. 6 fevral 2023-cü il tarixində episentri Kahramanmaraşın Pazarcık rayonunda olan 7,7 maqnitudalı və 9 saatdan sonra isə episentri eyni şəhərin Elbistan rayonu olan 7,6 maqnitudalı iki zəlzələ baş verdiyində də ilk yardım edən yenə Azərbaycan dövləti oldu. Onu da qeyd etmək lazımdır ki, təbii fəlakət həm Türkiyədə, həm də Suriyada böyük dağıntılara səbəb olmuş və zəlzələ zamanı on minlərlə insan həlak olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə martın 16-da Ankarada Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşündəki çıxışı zamanı Prezident İlham Əliyev Azərbaycanın zəlzələ zamanı Türkiyəyə göstərdiyi yardımlar haqqında da danışmışdır: "Azərbaycan xalqı və hökuməti zəlzələnin baş verdiyi zamandan qardaş Türkiyəyə humanitar yardımlar göstərmək üçün səfərbər olmuşdur. Azərbaycandan aralarında xilasedicilər, tibb personalı və könüllülər olan 940 nəfər zəlzələ bölgəsinə göndərilmişdir. Azərbaycan qardaş ölkəyə göndərilmiş xilasedicilərin sayına görə dünya ölkələri arasında birinci olub. Xilasedicilərimizin və həkimlərimizin fəaliyyəti nəticəsində dağıntılar altından 53 nəfər sağ çıxarılıb. Eləcə də 780 nəfərin cəsədi dağıntılar altında aşkar edilib. Tibb personalımız ümumilikdə 3 mindən çox şəxsə tibbi xidmət göstərmişdir. Bu günə kimi 45 milyon ABŞ dollarından artıq vəsait AFAD və digər humanitar qurumların bank hesabına köçürülmüşdür. Bununla yanaşı, qardaş Türkiyəyə 5320 ton humanitar yardım çatdırılmışdır."[1]

---

[1] Ankarada Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşü keçirilib: [Elektron resurs]. – Mart 16, 2023 / URL: **https://azertag.az/xeber/ Ankarada_Turk_Dovletleri_ Teskilatinin_Dovlet_Baschilarinin_Fovqelade_Zirve_gorusu_kechirilib__Azerbaycan_Prezi denti_Ilham_Aliyev_Zirve_gorusunde_istirak_edib__YENILANIB_3_VIDEO-2534942**

Onu da qeyd etmək lazımdır ki, Türkiyədə baş verən bu faciəli hadisədən hər bir azərbaycanlı sarsılmış, sıravi vətəndaşdan başlayaraq ali vəzifəli şəxslərə kimi hər bir kəs zəlzələdə zərər çəkmiş insanlara əlindən gələn bütün yardımları göstərməyə çalışmışdır. Belə ki, 6 fevral-15 mart tarixlərində Azərbaycanın tərəfindən Türkiyəyə edilən maliyyə və humanitar yardımın məbləği 76 mln manat təşkil etmişdir.[1]

Bundan başqa zəlzələdən zərər çəkmişlərə dəstək üçün Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığı ilə Heydər Əliyev Fondu da Türkiyəyə humanitar yardım göndərmişdir. Faciə qurbanları üçün müxtəlif dərmanlar, sarğı materialları, oksigen maskaları, filtrli sistemlər, ilkin yardım boyunluqları, onurğa taxtaları, xərək və s. daxil edilməklə tibbi avadanlıq və ləvazimatlar, həmçinin isti geyimlər çatdıracaq xüsusi təyyarə 9 fevral 2023-cü il tarixində Türkiyəyə eniş etmişdir. Türkiyəyə ezam edilmiş Fondun əməkdaşları zəlzələ baş verən rayonlarda faciədən zərər çəkmiş insanlara humanitar yardımları çatdırmışdır.[2] Heydər Əliyev Fondunun zəlzələ bölgəsinə etdiyi yardımın ümumi məbləği isə 9,5 mln manat olmuşdur.

Azərbaycan tərəfindən edilən bu yardımlar, əlbəttə ki, bütün azərbaycanlıların qardaş türk xalqına bəslədiyi sevginin bir göstəricisidir. II Qarabağ müharibəsində Azərbaycanın çətin günündə Türkiyə dövləti və xalqının Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstək kimi Türkiyənin də ağır və faciəli günlərində Azərbaycan xalqının qardaş ölkəyə əlindən gələn qədər maddi və humanitar yardım göstərməsi hər iki ölkənin bir-birinə nə qədər yaxın olduğunun, həm azərbaycanlıların, həm də türklərin özlərini həqiqətən bir millətin nümayəndələri kimi hiss etmələrinin göstəricisidir. Bu baxımdan Türkiyə və Azərbaycan arasındakı dostluğun və qardaşlığın dünya tarixində analoqu olmadığını söyləmək olar.

Bu zaman Türkiyəyə yardım göstərən bir çox dövlət kimi Ermənistan da humanitar yardım göndərmək istəyini bildirmiş, bu səbəbdən 35 ildən

---

[1] Türk dünyası birliyinə Azərbaycanın töhfəsi: [Elektron resurs]. – Mart 17, 2023 / URL: https://www.azerbaijan-news.az/az/posts/detail/turk-dunyasi-birliyine-azerbaycanin-tohfesi-1679004579

[2] Heydər Əliyev Fondunun yardımı Türkiyəyə çatdı: [Elektron resurs]. – Fevral 9, 2023 / URL: https://modern.az/olke/394642/heyder-eliyev-fondunun-humanitar-yardim-teyyaresi-turkiyeye-catdi/



sonra Türkiyə-Ermənistan sərhədi açılmış, Ermənistanın göndərdiyi humanitar yüklə dolu 5 TIR 35 ildir ki, açılmayan Alican sərhəd qapısından keçərək Türkiyəyə daxil olmuşdur.

Bir sıra tədqiqatçılar Ermənistanın bu humanitar jestinin siyasi danışıqlara da təsir edəcəyini və Türkiyə-Ermənistan sərhədlərinin həmişəlik açılacağını düşünürlər. Əslində burada ən byük problem Ermənistan dövlətinin konstruktiv siyasət nümayiş etdirə bilib-bilməməsindədir. Çünki bu sərhədlərin açılmasından ən böyük faydanı bu illər ərzində demək olar ki, blokadada olan Ermənistan götürəcək. 10 noyabr üçtərəfli Bəyanatın bütün bəndləri icra olunduqdan, Azərbaycan və Ermənistan arasında yekun sülh müqaviləsi imzalandıqdan sonra regiondakı bütün kommunikasiyaların açılması yalnız və yalnız Cənubi Qafqaz regionunda davamlı sülh və sabitliyi təmin edəcək və regionun hər bir dövlətinin hərtərəfli inkişafına şərait yaradacaq.

Azərbaycan və Türkiyənin əməkdaşlıq etdiyi ən mühüm beynəlxalq təşkilatlardan biri Türk Dövlətləri Birliyidir ki, bu təşkilat daxilində Azərbaycan İlham Əliyevin liderliyi ilə çox fəal şəkildə iştirak etməkdədir. Belə ki, bu təşkilatın yaranması və bugünki səviyyədə fəaliyyət göstərməsində ən fəal iştirak edən dövlətlər də məhz Türkiyə və Azərbaycandır.

2009-cu ildə Naxçıvanda keçirilmiş Türk dövlətləri liderlərinin Zirvə görüşündə Türkdilli xalqlar arasındakı tarixi əlaqələrə, ortaq dil, mədəniyyət və ənənələrə əsaslanaraq, hərtərəfli əməkdaşlığın dərinləşməsinə səy göstərərək, siyasi çoxqütblülük, iqtisadi və informasiya qloballaşma proseslərinin inkişafı şəraitində regionda sülhün, sabitliyin və təhlükəsizliyin təmininə birlikdə töhfə verilməsini arzu edərək, ümumi təşkilat içərisində qarşılıqlı əlaqənin dövlətlər və xalqları arasında xoş qonşuluq, vahidləşmə və əməkdaşlıq istiqamətində geniş potensialdan istifadəyə əlverişli mühit yaratdığını hesab edərək, "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişi" imzalanıb və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması barədə razılığa gəlinmişdir. 12 noyabr 2021-ci ildə təşkilatın İstanbulda keçirilən 8-ci Zirvə görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adı dəyişdirilərək Türk Dövlətləri Təşkilatına çevrilmişdir və bununla da TDT səmərəli fəaliyyət göstərən bir

beynəlxalq təşkilata çevrilmişdir.[1] Bu hadisəni yalnız ad dəyişikliyi kimi yox, eyni zamanda yeni baxışın və yeni inkişaf vektorunun göstəricisi olaraq qiymətləndirmək lazımdır.

TDT yarandığı vaxt dörd üzv ölkəsi var idi - Azərbaycan, Türkiyə, Qırğızıstan və Qazaxıstan. 2023-cü il üçün isə təşkilatın artıq beş üzvü və iki müşahidəçi üzvü var. 2019-cu ildə Özbəkistan TDT-nin 5-ci üzvü oldu. Yəni altı türk dövlətindən artıq beşi bu təşkilatın üzvüdür, təşkilatda müşahidəçi statusuna malik dövlətlər isə Türkmənistan və Macarıstandır. Macarıstan da bu təşkilata qoşulmaq istəyini bildirməsi, eləcə də bir sıra digər ölkənin burada müşahidəçi statusuna sahib olmaq istəməsi Türk Dövlətləri Təşkilatının perspektivini və çəkisini göstərən amillərdəndir.

Türk Dövlətləri Təşkilatı əsası qoyulduqdan sonrakı dövrdə Almatı, Bişkek, Qəbələ, Bodrum, Astana, Çolpan-Ata, Bakı, İstanbul, Səmərqənd şəhərlərində özünün doqquz Zirvə görüşünü keçirmişdir.

Azərbaycan türk dünyası birliyinin və qeyd edilmiş təşkilatın güclənməsi istiqamətində mühüm işlər görmüşdür. Təkcə TDT-nin Naxçıvan Sazişi ilə təsis edilməsi də Azərbaycanın bu istiqamətdəki uğurlu fəaliyyətinin bariz göstəricisidir. TDT-nin təsisçi dövlətlərindən biri olaraq Azərbaycan onun dövlət başçısı İlham Əliyevin timsalında hər zaman təşkilat çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsi üçün vacib təşəbbüslərlə çıxış etmişdir. Məsələn, AR Prezidenti İlham Əliyev 2014-cü ildə TDT-nin Bodrumda keçirilmiş IV Zirvə Görüşündə Türk İnvestisiya Fondunun təsis edilməsi təşəbbüsünü irəli sürmüşdü.

AR-in Türk Dövlətləri Təşkilatına sədr etməsi pandemiya ilinə düşsə də, dövlətimiz dünyadakı vəziyyətə müvafiq reaksiya verməklə uğurlu bir sədrlik dövrünü yaşamışdır. Belə ki, Azərbaycan 2020-ci ildə TDT-nin dövlət və hökumət başçılarının Zirvə görüşünü onlayn formatda təşkil edə bilmişdi. Həmin tədbir pandemiya zamanında dövlət və hökumət başçıları miqyasında təşkil edilən birinci onlayn tədbir olmuşdu.

Ümumiyyətlə, Azərbaycan Respublikasının II Qarabağ müharibəsində tarixi Zəfər qazanması onun türk dünyasında da nüfuzunun güclənməsinə

[1] Azərbaycan türk dövlətləri arasında münasibətlərin inkişafında mühüm rol oynayır: [Elektron resurs]. – Noyabr 11, 2022 / URL: **https://azertag.az/xeber/ Azerbaycan turk dovletleri arasinda munasibetlerin inkisafinda muhum rol oynayir–2370239**



səbəb olmuşdu. Çünki bu zəfər eyni zamanda bütün türk dünyasının zəfəri hesab edilməlidir. 44 günlük müharibə zamanı hər bir türk dövlətində xalqın, sadə insanların Azərbaycana olan simpatiyası xüsusilə sosial şəbəkələrdə paylaşılan məlumatlardan aydın şəkildə müşahidə etmək olurdu. 2021-ci ildə İstanbulda keçirilmiş Zirvə görüşündə AR-in öz ərazilərini işğaldan azad etməsini və ərazi bütövlüyünü bərpa etməsini təmin edərək türk birliyinə əhəmiyyətli töhfə verən və regionda dayanıqlı sülh və sabitliyin bərqərar edilməsinə yol açan tarixi Qələbə münasibətilə AR Prezidenti İlham Əliyev "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilmişdir.[1]

Bundan başqa TÜRKSOY-un Şuşanı 2023-cü ildə türk dünyasının mədəniyyət paytaxtı elan etməsi ilə bağlı qərarı da Azərbaycan üçün olduqca əhəmiyyətli olmuşdur.

Bütün dünyada son zamanlarda baş verməkdə olan geosiyasi proseslərə cavab olaraq türk dövlətləri də öz əməkdaşlıq sahələrinin genişləndirilməsi yönündə səylərini artırmaqdadır. TDT-də Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsindən sonra əməkdaşlığın mahiyyətcə yeni mərhələsinə keçid başlamışdır. Bu yeni mərhələ Mərkəzi Asiya dövlətləri ilə əməkdaşlığın formatında dəyişiklik yaratmaqdadır.

2021-ci ilin oktyabrın 26-da Türkiyə Prezidenti Recep Tayyip Erdoğanın Azərbaycana olan növbəti rəsmi səfəri bu baxımdan çox əhəmiyyətli bir hadisə ilə yadda qalmışdır. Belə ki, həmin gündə Azərbaycan və Türkiyə dövlət başçılarının iştirakı ilə Zəngəzur dəhlizinin Azərbaycan hissəsinin, yəni Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlləri qoyulmuşdur. Həm geosiyasi, həm də iqtisadi baxımdan çox vacib əhəmiyyət daşıyan Zəngəzur dəhlizi Naxçıvan vasitəsilə avtomobil yolları və dəmiryol ilə Azərbaycanı Türkiyəyə bağlayacaq. Bu yol vasitəsilə Türkiyənin türk dünyasının qalan hissəsi ilə süni formada qoparılmış tarixi bağlarının bərpa olunması nəzərdə tutulur. Türkiyə Prezidentinin bu açılışdakı çıxışında söylədiyi fikirlər bunu təsdiq edir: *"Biz bölgədə davamlı sülhün və hərtərəfli normallaşmanın tərəfdarıyıq. Bu coğrafi məkandan keçəcək quru və dəmir yolu xətləri yalnız Azərbaycan və Türkiyə üçün yox, eləcə də bütün bölgə öl-*

[1] Azərbaycan türk dövlətləri arasında münasibətlərin inkişafında mühüm rol oynayır: [Elektron resurs]. – Noyabr 11, 2022 / URL: **https://azertag.az/xeber/Azerbaycan turk dovletleri arasinda munasibetlerin inkisafinda muhum rol oynayir–2370239**

*kələri üçün iqtisadi və ticari fürsətlər meydana gətirəcək. Gün gələcək, Zəngəzurdan çıxıb İstanbula kimi gedə biləcəyik, İğdıra, Qarsa gedə biləcəyik. Regionun logistik, tranzit mərkəz kimi mövqeyi möhkəmlənəcək. İran, Gürcüstan və Ermənistan da daxil olmaqla, Azərbaycanın bütün qonşuları bundan istifad ə edə biləcəklər. Bu layihələr ayırıcı deyil, birləşdiricidir".*[1]

2022-ci ilin noyabr ayında Səmərqənd şəhərində keçirilmiş Türk Dövlətləri Təşkilatının 9-cu Zirvə görüşündə çıxış edərkən AR Prezidenti İlham Əliyev bildirmişdi ki, Azərbaycan dövləti daima türk dünyasının möhkəm birliyinə öz töhfəsini vermiş, bundan sonrakı dövrdə də türk dünyası birliyinin məqsəd və amallarına sadiq qalacaq. Onun bildirdiyi kimi, Azərbaycan öz xarici siyasətinin başlıca prioritetlərindən biri kimi həmişə Türk Dövlətləri Təşkilatına üzv dövlətlərlə əlaqələrin bütün sahələr üzrə möhkəmləndirilməsi çıxış etmişdir.

Türk dövlətləri birliyinin, əməkdaşlığının bugünkü formasını almasında Azərbaycanın yeri özünəməxsus və aparıcıdır. Məhz İlham şəxsi təşəbbüsləri sayəsində türk birliyi günümüzdə öz əməkdaşlığının zirvəsinə qalxa bilmişdir. Bu gün deyə bilərik ki, türk dövlətləri dünyadakı bütün qlobal siyasi proseslərdə birgə iştirak edir, eyni zamanda baş vermiş böhranlara qarşı birlikdə mübarizə apara bilirlər. Belə əməkdaşlığın ən parlaq nümunələrindən biri kimi 16 mart 2023-cü il tarixində Ankarada AR Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatı dövlət başçılarının fövqəladə Zirvə görüşünün baş tutmasını göstərə bilərik. Bu zirvə görüşünün əvvəlcə Şuşada keçirilməsi planlaşdırılsa da Türkiyədə 6 fevralda baş verən zəlzələ ilə bağlı Türkiyəyə dəstək olmaq üçün İlham Əliyev görüşün Ankarada keçirilməsi haqqında təklif vermişdir. Təşkilatın digər üzv dövlətlərinin nümayəndələri də təkliflə razılaşmış və görüş Ankarada baş tutmuşdur.

Zirvə görüşü "Fəlakət - Fövqəladə halların idarə olunması və humanitar yardım" mövzusuna həsr olunmuş və bu görüşdə Türkiyənin cənub və cənub-şərq regionlarında baş verən zəlzələlərdən sonra yaranmış fövqəladə vəziyyətlə əlaqədar problemlərin ən yüksək səviyyədə müzakirələrinin aparıldığı bir platforma olmuşdur. Dövlət başçıları fəlakətlərlə mübarizədə TDT daxilində çox istiqamətli sıx əməkdaşlıq və koordinasiya mexanizmləri formalaşdırılmasına diqqəti yönəldərək, regionda müasir çağırışlar haqqında məsləhətləşmələr aparmışlar.

[1] Azərbaycan türk dövlətləri arasında münasibətlərin inkişafında mühüm rol oynayır: [Elektron resurs]. – Noyabr 11, 2022 / URL: **https://azertag.az/xeber/Azerbaycan_turk_dovletleri_arasinda_munasibetlerin_inkisafinda_muhum_rol_oynayir-2370239**



Bütün qeyd edilənlər bir daha sübut edir ki, Azərbaycan-Türkiyə münasibətləri dünyada özünəməxsus və analoqu olmayan xarakterə malikdir. Bu əlaqələr həmişə yüksələn xətt üzrə inkişaf etməkdədir Bu inkişaf təkcə siyasi arenada deyil, dövlətlərarası münasibətlərin bütün sahələrində davam etməkdədir. Hər iki ölkənin xalqı həmişə bu qardaşlıq əlaqələrinin möhkəmlənməsinə çalışıb və prosesə mühüm töhfələr verib. Ona görə də Azərbaycan-Türkiyə münasibətlərində həm siyasi birlik, həm də xalq birliyi mövcuddur və bu iki tərkib hissəsi bir-birini tamamlayır.

## §2.Azərbaycan-Rusiya strateji əməkdaşlığının formalaşmasında İlham Əliyevin siyasəti

Müasir dövrdə ikitərəfli qonşuluq münasibətlərindən başlayan Azərbaycan-Rusiya münasibətləri strateji tərəfdaşlıq səviyyəsinədək qalxmışdır. Sözügedən mərhələ Heydər Əliyevin xarici siyasət kursunun və dövlətlərimiz arasında ekvivalent hüquqlu və qarşılıqlı faydalı əməkdaşlığın gücləndirilməsinə yönəldilmiş fəaliyyət prinsiplərinin davamçısı olan Prezident İlham Əliyevin adı ilə əlaqədardır. Hazırda iki ölkə arasında hüquqi bazada təxminən 200 dövlətlərarası, hökumət və beynəlxalq müqavilələr mövcuddur. Son illərdə iki ölkə arasında siyasi əməkdaşlıq xeyli artmışdır. Hər iki dövlət rəhbərinin qarşılıqlı əməkdaşlıq səfərləri və onların arasında olan dostluq münasibətləri Rusiya–Azərbaycan qarşılıqlı münasibətlərinin daha da güclənməsinə güclü stimul olmuşdur. İlk öncə, Prezident İlham Əliyevin və Rusiya Federasiyasının lideri Vladimir Putinin cəhdləri sayəsində qarşılıqlı etimada dayanan bərabərhüquqlu münasibətlər sistemi təşəkkül tapmış, dövlətlərarası işgüzar əlaqələr daha geniş sferaları əhatələmişdir.

Bütün sahələrdəki kimi, Heydər Əliyevin əsasını qoyduğu əhəmiyyətli xarici siyasət kursu Rusiya dövləti ilə əlaqələrdə də onun siyasi varisi Prezident İlham Əliyev tərəfindən keyfiyyətcə münbitləşdirilərək davam etdirilmiş və daha da tərəqqi etdirilmişdir. Son illərdə Rusiyada İlham Əliyevə

bəslənilən rəğbət özünü açıq-aydın büruzə verir. Rusiya Federasiyası xarici işlər nazirinin birinci müavini Andrey Denisov, Rusiyada prezident seçkilərindən sonra qarşılıqlı münasibətlərin necə inkişaf edəcəyi barədə suala bu cür cavab vermişdi ki, "*...təməli Rusiya Prezidenti tərəfindən qoyulmuş Azərbaycanla əməkdaşlıq siyasi xəttinin davam etdiriləcəyinə şübhə yoxdur, xüsusən ona görə ki, Azərbaycanın dövlət başçısı İlham Əliyev və Rusiya prezidentliyinə namizəd Dmitri Medvedyev eyni nəslə aid insanlardır. Onlar yeni dalğaya aid siyasətçilərdir və biz əsla şübhə etmirik ki, ümumi dil tapacaq və ölkələrimiz arasındakı əlaqələr əvvəlki müsbət məcrada tərəqqi edəcəkdir*".[1]

Azərbaycanın xarici siyasəti kontekstində mədəni dialoqun ən vacib vasitələrindən biri olan "yumşaq güc" - humanitar siyasət, bərabərhüquqlu əməkdaşlıq və beynəlxalq hüquqa əsasən qarşılıqlı hörmət və etimada əsaslanır. Bu baxımdan ölkəmizin şimal qonşusu Rusiya Federasiyası ilə əlaqələri də gücləndirilir. Bu siyasət Azərbaycanın etibarlı tərəfdaş kimi müsbət imicinin formalaşmasına, tarixini və mədəniyyətini, elm, səhiyyə, incəsənət, turizm və başqa müxtəlif sektorlara fayda gətirən əlaqələri genişləndirməyi hədəfləyir.

2005-ci il Rusiyada "Azərbaycan ili" kimi qeyd olunmuşdur. Rusiyada "Azərbaycan ili"nin açılış mərasimi Moskvadakı Dövlət Kreml Sarayında Azərbaycan Respublikası və Rusiya Federasiyası prezidentlərinin nümayəndələri - İlham Əliyev və Vladimir Putinlə birlikdə keçirildi. 2006-cı il Azərbaycanda "Rusiya ili" kimi qeyd olunmuşdu. Bu tədbirlərdə hər iki ölkənin mədəniyyət və incəsənət xadimləri konsertlər, qastrol teatr truppaları, müxtəlif sərgilər, film həftələri və s. keçirilmişdir. Bu, ölkələrimiz arasında mədəni əlaqələrin daha da inkişaf etdirilməsi ilə yanaşı, ikitərəfli tərəfdaşlığın dərinləşdirilməsi və qarşılıqlı etimadın artırılması üçün əlverişli şərait yaratmışdır. 2005-ci ildə Moskvada keçirilən tədbirin açılış mərasimində çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev söyləmişdi: "*Şübhə etmirəm ki, bu il Rusiya xalqı bu gün Azərbaycandakı həyat haqqında daha çox məlumat əldə edəcəklər, bu şəkildə əlaqələrimiz inkişaf edəcək, mən buna inanıram. Bu il ölkələrimiz və xalqlarımız daha da yaxınlaşacaq və iki ölkə arasındakı əlaqə daha da möhkəm olacaqdır. Ölkələrimiz arasında aktiv siyasi dialoq mövcuddur. Regional işlər, regional inkişaf, təhlükəsizlik rəsmiləşdirilməsi ilə məşğuluq, iqtisadi əlaqələr fəal şəkildə inkişaf edir. "Azərbaycan ili"nin Rusiyada uğurlu olmasını istəyirəm. Düşünürəm ki, belə də olacaq, bir-birinizi daha yaxşı tanıyacaq, daha yaxşı başa düşəcək və bir çox problemi həll edəcəyik*".[1]

2006-cı ildə Azərbaycanda "Rusiya ili" çərçivəsində tədbirlər baş tutdu. Həmin il Azərbaycan xalqı Rusiyanın müxtəlif sahələrdə qazandığı uğurları öyrənmək, mübadilə etmək və sıx əlaqələr qurmaq üçün bir çox imkana sahib oldu. Bakıda və bölgələrdə Rusiya Federasiyasının ictimai həyatının, iqtisadiyyatının, sənayesinin və mədəniyyətinin müasir imicini əks etdirən tədbirlər təşkil edildi.

İkitərəfli siyasi, iqtisadi və humanitar əlaqələrin inkişafı üçün əlverişli şəraitin yaradılması, hər iki ölkənin milli maraqlarına və ümumi mənafelərinə xidmət edən ölkəmizin Prezidentinin və Rusiya Federasiyası Prezidentinin təşəbbüsü intensiv şəkildə həyata keçirilmişdir. Son illərdəki qlobal tendensiyalar və müxtəlif sahələrdə ikitərəfli münasibətlərin daha da genişləndirilməsinin zəruriliyi səbəbindən Moskva Azərbaycanın ərazi bütövlüyünün qorunması, neft və qaz hasilatı, nəqliyyat sahəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə sadiqliyini bildirmişdir. Azərbaycan və Rusiya arasında səmimi və konstruktiv əməkdaşlıq səylərinin, ölkələrimiz arasında qarşılıqlı inamın və müxtəlif sahələrdə fəaliyyətin əhəmiyyətinin məntiqi nəticəsi kimi 2008-ci ilin iyul ayında Bakıda Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında "Dostluq və strateji tərəfdaşlıq" Bəyannaməsi qəbul edilib.

Bəyanatda bildirilir ki, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında strateji, bərabər, qarşılıqlı faydalı və konstruktiv ikitərəfli münasibətlər hərtərəfli inkişaf etdirilməli və hərbi-texniki əməkdaşlıq da daxil olmaqla müxtəlif sahələrdə əlaqələr gücləndirilməlidir. "*Azərbaycan*

[1] Andrey Denisov: "İlham Əliyev görkəmli dövlət xadimidir və Rusiyada ona böyük rəğbət bəsləyirlər": [Elektron resurs]. – Fevral 21, 2008 / URL: https://azertag.az/xeber/ANDREY_DENISOV_ILHAM_ALIYEV_GORKAMLI_DOVLAT_XADIMIDIR_VA_RUSIYADA_ONA_BOYUK_RAGBAT_BASLAYIRLAR-401331

[1] Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyada Azərbaycan ilinin təntənəli açılış mərasimində nitqi: [Elektron resurs]. – Fevral 16, 2005 / URL: http://archive.president.az/articles.php?item_id=20070816102956528&sec_id=11

*və Rusiya Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn tanınmış norma və prinsipləri, xüsusən suverenlik, ərazi bütövlüyü və sərhəd qorunması prinsipləri, habelə BMT Təhlükəsizlik Şurasının qərarları əsasında həll olunmasının vacibliyini vurğulayırlar*".[1] Eyni zamanda, Azərbaycan və Rusiya arasında əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyi vurğulandı və Komissiyanın dövlət sərhədlərinin təyini ilə bağlı işi tanındı.

Bəyanatda Azərbaycanın qonşu ölkələrlə siyasi, iqtisadi və humanitar əlaqələr, birgə layihələrin həyata keçirilməsi, təhdidlərin aradan qaldırılması və s. üçün bərabər və qarşılıqlı faydalı əməkdaşlığın təmin edilməsinə sadiq olduğu təsdiqlənmişdir. Bu arada Bakı, rəsmi olaraq regional və təhlükəsizlik əməkdaşlığı ilə iki ölkənin milli maraqlarına uyğun olaraq uzlaşma üçün bir model yaratmağı bacardı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sözləri ilə desək: "*Azərbaycan və Rusiyanı qonşuları ilə yaxşı münasibətlər bağlayır. Sevindirici haldır ki, bu yaxşı münasibət hər cəhətdən böyüyür. Ortaq əməkdaşlığımız sayəsində xalqımızın inkişafı üçün bu sahədə sülh, sabitlik və həmrəylik səyləri böyüməyə davam edəcəkdir*".[2]

22 yanvar 2010-cu ildə Bakıda keçirilən Birinci Azərbaycan-Rusiya Humanitar Əməkdaşlıq Forumunda hər iki ölkənin daha geniş ikitərəfli münasibətləri əhatə etmək üçün böyük potensiala sahib olduğu və bir sıra bölgələrin iştirakı qeyd olundu. Bu münasibətlərdə Prezident İlham Əliyev tədbirin Rusiya-Azərbaycan münasibətləri üçün əhəmiyyətindən bəhs etdi: "*Rusiya və Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən bu ənənəvi forum humanitar, mədəniyyətlərarası və dinlərarası əməkdaşlıq, dialoq, əməkdaşlığımızın əsasını müzakirə edən çox vacib bir forum oldu və o, humanitar əlaqələrin gücləndirilməsi siyasətimizə sadiqdir*".[3]

Bu hadisə əməkdaşlığın mümkünlüyünü açıq şəkildə göstərən Azərbaycan-Rusiya humanitar əlaqələri strukturunda yeni bir addım idi. Humanitar

[1] Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016). Məqalələr toplusu / tərt. ed. F.Məmmədov. – Bakı: "Poliart" MMC, – 2017. – 904 s., s.185

[2] Rusiya Federasiyasının Prezidenti Zati-aliləri cənab Vladimir Putinə: [Elektron resurs]. – İyun 11, 2015 / URL: https://president.az/articles/15548

[3] Prezident İlham Əliyev Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan-Rusiya Forumunun iştirakçılarını qəbul etmişdir: [Elektron resurs]. – Yanvar 23, 2010 / URL: https://azertag.az/xeber/PREZIDENT_ILHAM_ALIYEV_HUMANITAR_AMAKDASLIQ_UZRA_BIRINCI_AZARBAYCAN_RUSIYA_FORUMUNUN_ISTIRAKCHILARINI_QABUL_ETMISDIR–466476



Əməkdaşlıq üzrə ilk Azərbaycan-Rusiya Forumu beynəlxalq əməkdaşlıq, sülh və dostluq prinsiplərinə töhfə verdi.

Heydər Əliyev Fondu Azərbaycan həqiqətlərinin rus xalqına yayılmasına və ölkədəki dağınıq Azərbaycan xalqının yerli icmaya toplanmasına mühüm töhfə verdi. Heydər Əliyev Fondunun vitse-prezidenti, nümayəndəliyin rəhbəri Leyla Əliyevanın rəhbərliyi altında Rusiyadakı Azərbaycan Gənclər Birliyinə (AMOR), iki ölkə arasında mədəniyyətin inkişafına və müxtəlif xeyriyyə fəaliyyətlərinin həyata keçirilməsinə, orada ənənəvi dialoqun gücləndirilməsinə öz töhfələrini verdi. Leyla Əliyeva və rəhbərlik etdiyi təşkilat Rusiya Federasiyasında Azərbaycanda milli-mənəvi dəyərlərin, mədəniyyətin, incəsənətin və ədəbiyyatın təbliğində böyük uğurlar əldə etmişdir. Bu uğurlar Rusiya hökuməti tərəfindən də dəyərləndirildi və 2015-ci ildə Leyla Əliyeva Rusiya Prezidenti Vladimir Putinin əmri ilə Puşkin medalına layiq görüldü. Leyla Əliyeva bu mükafatı ölkələrimiz arasında münasibətlərin və dostluqların möhkəmləndirilməsindəki fəaliyyətinə görə aldı. Bundan əlavə Leyla Əliyeva Həştərxanda Şahzadə Vladimirə abidə tikdirdiyinə və yaxınlıqdakı ərazidə yeni bağ saldığına görə III dərəcəli "Knyaginya Olga" ordeni ilə təltif olundu. Bu vaxt, Heydər Əliyev Fondunun dəstəyi ilə Həştərxanda Rusiya-Azərbaycan dostluq körpüsünün inşasına, Heydər Əliyev Parkında Arzu uşaq düşərgəsinin tikintisinə və digər sosial sahələrdə xidmətinə görə "Həştərxan vilayəti qarşısında xidmətlərinə görə" ordeni aldı.[1]

Azərbaycanın Rusiya ilə münasibətlərində bu iki ölkənin regionda maraqları olan dövlətlərdən biri olan İran İslam Respublikası ilə üçtərəfli əlaqələrinin də nəzərdən keçirmək lazımdır. Ümumilikdə, Azərbaycan-Rusiya-İran üçtərəfli münasibətləri Şimal-Cənub Nəqliyyat Dəhlizinin tətbiqi yolu ilə regional əməkdaşlığı genişləndirməyi, eyni zamanda ümumi strateji hədəflərə çatmaq üçün iqtisadi, mədəni və enerji əməkdaşlığını sürətləndirməyi hədəfləyir. Maraqlar yeni bir "geosiyasi şəbəkə"nin yaranması üçün əlverişli bir mühit yaradır. Rusiya-Azərbaycan formatında namizəd göstərilən dövlət başçılarının müntəzəm iclaslarında əldə olunan nəticələr bu çərçivənin davamlı inkişafının vacibliyini açıq şəkildə göstərir.

[1] Humanizm elçisi – Putin Leyla Əliyevanı niyə mükafatlandırdı: [Elektron resurs]. – Oktyabr 22, 2015 / URL: https://www.aznews.az/news/cemiyyet/92667.html

Prezident İlham Əliyev İran, Rusiya və Azərbaycanın təkcə regional səviyyədə deyil, beynəlxalq təşkilatlar çərçivəsində də səmərəli və uğurlu əməkdaşlıq etdiklərini dəfələrlə vurğuladı. Sərbəst xarici siyasət tərəfdarı olan Azərbaycan Respublikası, digər iki ölkəyə qarşı beynəlxalq sanksiyaların tətbiq olunmasına qarşı çıxır və mövqeyini bildirdi: *"Ölkəmiz müstəqil siyasət yürüdür. Bu siyasət beynəlxalq hüquq standartlarına, ədalətə və milli maraqlara əsaslanır. İranla Rusiya arasındakı sıx əlaqə ölkəmizin milli maraqlarına uyğundur. İran və Rusiya Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini başa düşürlər. İki ölkə dəfələrlə Ermənistan-Azərbaycan münaqişəsinin həll olunmasını vurğulamışlar".*[1]

8 Avqust 2016-cı il tarixində Azərbaycan, İran və Rusiya Prezidentləri İlham Əliyev, Həsən Ruhani və Vladimir Putinin Bakıdakı Heydər Əliyev Mərkəzində keçirdiyi konfransda – bir çox sahələri əhatə edən vacib məsələləri müzakirə edərək iqtisadiyyat, energetika, nəqliyyat, mədəniyyət, təhsil, turizm kimi əhəmiyyətli sahələrdə əməkdaşlığın yeni səviyyəyə qaldırılmasının əhəmiyyəti haqqında ümumi razılığa gəlmişdilər. İlham Əliyev üçtərəfli əməkdaşlıq formasının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə müsbət təsir göstərə biləcəyinə əminliyini bildirmişdi: *"Münaqişənin hal-hazırda olduğu vəziyyət qəbuledilməzdir. Bu münaqişə beynəlxalq hüquqa uyğun olaraq və Azərbaycanda regional sabitlik kontekstində həll olunmalıdır. Münaqişənin həlli üçün ilk növbədə Azərbaycanın işğal edilmiş əraziləri azad edilməlidir."*[2]

İki ölkə arasındakı münasibətlərinin dinamikasını müəyyən etmək üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Prezidentləri arasında baş tutmuş qarşılıqlı səfərləri nəzərdən keçirməyi və bu səfərlərinin əhəmiyyətini təhlil etməyi məqsədəuyğun hesab etmək olar.

2005-ci ilin əvvəlində ikitərəfli münasibətlər prezidentlər səviyyəsində başladı. Belə ki, fevralın 15-də Prezident İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri oldu. Rusiya Federasiyasında "Azərbaycan ili"nin açılışı ilə əlaqədar Moskva şəhərinə səfər edən prezident İlham Əliyev Kreml-

[1] Əliyev İ.H., İnkişaf – məqsədimizdir: [113 cilddə] / İ.H. Əliyev. – Bakı: Azərnəşr, – c.24. – 2015. –408 s., s.195
[2] Əliyev İ.H., İnkişaf – məqsədimizdir: [113 cilddə] / İ.H. Əliyev. – Bakı: Azərnəşr, – c.24. – 2015. –408 s., s.96



də rusiyalı həmkarı Vladimir Putin ilə görüşmüş və Prezident Vladimir Putin ölkələrimiz arasında əməkdaşlığın inkişafını yüksək qiymətləndirmişdi.[1]

Prezident İlham Əliyev həmin görüşdə Azərbaycandakı sosial-iqtisadi vəziyyətdən, son bir ildə bu istiqamətdə əldə olunmuş uğurlardan danışmışdı. Görüşdə ikitərəfli əlaqələrin aktual məsələləri ətrafında geniş fikir mübadiləsi aparılmış, bildirilmişdi ki, Rusiyada "Azərbaycan ili" çərçivəsində RF-in federal və regional hakimiyyət orqanlarının, elm, təhsil, mədəniyyət təşkilatlarının və digər strukturlarının azərbaycanlı həmkarları ilə fəal əməkdaşlığı qarşılıqlı əlaqələrin daha da güclənməsinə kömək edəcəkdir. Prezidentlər bir sıra beynəlxalq və regional məsələlər haqqında ətraflı fikir mübadiləsi apararaq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması ilə bağlı danışıqlar prosesi, mövcud vəziyyət və problemin həlli barədə də geniş müzakirələr keçirmişlər.[2]

Qarşılıqlı səfərlərin davamı olaraq Azərbaycanda "Rusiya ili" ilə bağlı təntənəli açılış mərasimi keçirilmişdi. Mərasimdə iştirakçı olmaq üçün Rusiya Federasiyasının Prezidenti Vladimir Putin 2006-cı il fevral ayının 21-də Bakıya əməkdaşlıq səfərinə gəlmiş, tədbirin açılışına qədər prezidentlərin təkbətək görüşü baş tutmuşdu. Dövlət rəhbərləri Rusiyada "Azərbaycan ili"nin müvəffəqiyyətlə keçdiyini, çoxsaylı tədbir və hadisələrlə əlamətdar olmasını bildirmiş və Azərbaycan dövlətində "Rusiya ili"nin də eyni bir müvəffəqiyyətlə yekunlaşacağına əmin olduqlarını qeyd etdilər. Eyni zamanda vurğulanmışdı ki, bu cür tədbirlərin aparılması, siyasi, iqtisadi və humanitar sferalarda münasibətlərin tərəqqisinə təkan olaraq dövlətlərimizi, millətlərimizi daha da yaxın edəcəkdir.

2006-cı il fevralın 22-də Moskvada, Rusiya hökumətinin qəbullar evində MDB üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi zirvə toplantısı keçirilmişdi. Zirvə toplantısının iştirakçıları MDB-nin üzvü olan dövlətlərin iqtisadi və siyasi əməkdaşlığının aktual məsələlərini, sosial və humanitar sahələrdə müştərək layihələrin həyata keçirilməsində onların qarşılıqlı əlaqələrini, MDB-nin gələcək inkişaf konsepsiyasının həyata keçirilməsinə dair tədbirləri, eləcə də Birliyin fəaliyyətinin səmərəsini artırmağın və onun

[1] Əliyev İ.H., İnkişaf – məqsədimizdir: [113 cilddə] / İ.H. Əliyev. – Bakı: Azərnəşr, – c.8. – 2011. – 408 s., s.51
[2] Yenə orada, s.56

strukturlarının işini optimallaşdırmağın konkret yollarını nəzərdən keçirmişlər. Toplantıda qeyd edilmişdi ki, Rusiyanın hakim siyasi elitası Azərbaycanda həyata keçirilən siyasi kursu birmənalı şəkildə dəstəkləyir və onun davamlı olmasını istəyir. 2006-cı il fevralın 22-də Prezident sarayında geniş tərkibdə görüşdən sonra Azərbaycan-Rusiya sənədlərinin imzalanması mərasimi keçirilmiş, dövlət başçıları İlham Əliyev və Vladimir Putin birgə bəyanat verdikdən sonra mətbuat konfransı keçirərək, jurnalistlərin çoxsaylı suallarına cavab vermişdilər.[1]

2006-cı ilin noyabr ayında İlham Əliyev Moskvaya növbəti rəsmi səfəri zamanı Rusiya Federasiyasının Prezidenti V.Putin ilə görüşmüş, səfər çərçivəsində bir sıra dövlət əhəmiyyətli görüşlər həyata keçirilmiş, ikitərəfli münasibətləri genişləndirmək qərara alınmışdır.

Qarşılıqlı səfərlər 2007-ci ildə də davam etdirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünya şöhrətli musiqiçi və dirijor maestro Mstislav Rostropoviçin 80 illiyi ilə bağlı yubiley mərasimində iştirak etmək üçün 2007-ci ilin martında Moskvaya səfər etmişdi.[2] Səfər çərçivəsində İlham Əliyev Moskvada Dövlət Kreml sarayında Rusiya Federasiyasının Prezidenti V.Putin ilə görüş keçirmiş, dövlət başçıları Azərbaycan və Rusiya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, mədəni və s. sahələrdə uğurla inkişafından söhbət açmış, iki ölkə arasında etibarlı tərəfdaşlıq prinsiplərinə əsaslanan əməkdaşlığın genişlənməsindən məmnunluqlarını bildirmişlər.

2007-ci il mart ayının 28-də Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Sergey Mironovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Azərbaycan Prezidenti görüşdə bildirmişdir ki, *"istər dövlət orqanları, hökumət qurumları, istərsə də parlamentlərarası əlaqələr ikitərəfli münasibətlərin inkişafında mühüm rol oynayır"*.[3] Prezident Milli Məclisdə keçirdiyi görüşlər barədə məlumat verərək qeyd etmişdir ki, səfəri zamanı parlamentlərarası əlaqələrin daha da in-

---

[1] Məmmədov N.İ., Xarici siyasət: reallıqlar və gələcəyə baxış / N.İ. Məmmədov. – Bakı: Qanun, – 2013. – 264 s., s.193

[2] Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016). Məqalələr toplusu / tərt. ed. F.Məmmədov. – Bakı: "Poliart" MMC, – 2017. – 904 s., s.168

[3] Əliyev İ.H., İnkişaf – məqsədimizdir: [113 cilddə] / İ.H. Əliyev. – Bakı: Azərnəşr, – c.24. – 2015. –408 s., s.82



kişaf etdirilməsi istiqamətində atılacaq konkret addımlarla bağlı səmərəli müzakirələr aparılmışdır.

Prezidentlər arasında növbəti görüş 2007-ci il iyun ayının 30-da Rostov şəhərində keçirilmişdir. Rostov ippodromunda cıdır bitdikdən sonra AR-in dövlət başçısı İlham Əliyevin və RF-nin Prezidenti Vladimir Putinin görüşü keçirilmiş, görüşdə qarşılıqlı maraq doğuran məsələlər, o cümlədən ikitərəfli münasibətlər, bütün region üçün çox həssas olan bəzi beynəlxalq problemlər müzakirə edilmişdir.

2008-ci ildə Rusiya ilə Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasının 16-cı ildönümü tamam oldu. Ötən illərin təhlili göstərir ki, Rusiya və Azərbaycan xeyirxah qonşuluq münasibətlərini qoruyub saxlamaq istəyi nümayiş etdirmişlər, həm də demək lazımdır ki, bunu müasir beynəlxalq siyasətin mürəkkəb şəraitində etmişlər. Əminliklə təsdiq etmək olar ki, iki ölkə arasında münasibətlər keyfiyyətcə yeni səviyyəyə qalxmış və səmərəli, praqmatik məcrada inkişaf etməyə başlamışdır. Bu, hər şeydən əvvəl onu göstərir ki, Rusiya və Azərbaycan əsaslı şəkildə və dönmədən konstruktiv dialoq üzərində köklənmişlər.[1]

6 iyun 2008-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev Sankt-Peterburqa səfər etmiş və MDB liderlərinin qeyri-rəsmi görüşündə iştirak etmişdir. Orada İlham Əliyev və Dmitri Medvedyev görüşmüş və görüş zamanı Prezident İlham Əliyev bəyan etmişdir: *"Ölkələrimiz arasında münasibətlər tərəfdaşlıq münasibətləri kimi səciyyələnir, dinamik və müsbət şəkildə inkişaf edir. Bizim əlaqələrimizin formatı çox geniş, gündəlikdəki məsələlər əhatəlidir. Çox şadam ki, biz yüksək sürətlə irəliyə doğru gedirik, regionda fəal qarşılıqlı əlaqə saxlayırıq, ikitərəfli münasibətlərimizdə böyük tərəqqi müşahidə olunur. Bu, bizi çox sevindirir"*.[2]

2008-ci ilin iyul ayında qarşılıqlı münasibətlər prezidentlər səviyyəsində inkişaf etdirilmişdir. İyulun 3-də Rusiya Federasiyasının Prezidenti D.Medvedyevin Azərbaycana rəsmi səfəri başlamış, prezidentlər təkbətək görüş çərçivəsində ikitərəfli münasibətləri müzakirə etmişdirlər. Səfər çər-

---

[1] Маммедзаде У.К., Роль Ильхама Алиева в развитии Азербайджано–Российских отношений // –Тбилиси: Intercultural communications, – 2015. №25, – с.131-137, s.136

[2] Əliyev İ.H., İnkişaf – məqsədimizdir: [113 cilddə] / İ.H. Əliyev. – Bakı: Azərnəşr, – c.31. – 2016. – 391 s., s.13

çivəsində Rusiya ilə Azərbaycan arasında "Dostluq və strateji əməkdaşlıq haqqında" bəyannamə imzalanmış, elə həmin gün Azərbaycan və Rusiya prezidentləri mətbuat üçün bəyanatlarla çıxış etmişdilər. İlham Əliyev öz bəyanatında Rusiya ilə Azərbaycan arasında siyasi və iqtisadi sahədə əməkdaşlığa toxunaraq, bildirmişdi ki, *"biz bir-birimizi dost ölkələr, bir-birini strateji tərəfdaş adlandıran ölkələr hesab edirik. Bu, sadəcə, rəsmiyyət deyil, bizim münasibətlərimizin mahiyyətini əks etdirir"*. Bundan başqa İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədri kimi Rusiyanın fəaliyyətindən razı qaldığını da bildirmiş və münaqişənin tənzimlənməsində fəal iştirakın öz səmərəsini verəcəyini bəyan etmişdi.

Rusiya Prezidenti D.Medvedyev isə öz bəyanatında Dağlıq Qarabağ münaqişəsinin nizamlanması problemindən yan keçmədiyini, mürəkkəb prosesin irəliləməsinə kömək edəcəyini vurğulamışdı. Prezident qeyd etmişdi ki, Rusiya bu məsələnin qarşılıqlı məqbul həllinin tapılmasına bundan sonra da kömək edəcəkdir.[1]

Dövlət başçısının Rusiyaya rəsmi səfərləri 2 dövlət arasında istənilən sahədə münasibətlərin yüksək səviyyədə olduğunun göstəricisidir. Hər iki ölkənin dövlət və hökumət başçılarının, parlament rəhbərlərinin qarşılıqlı səfərləri əməkdaşlığın daha da genişləndirilməsinə böyük töhfələr vermişdir. Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedyevin ölkə başçısı seçilməsindən sonra ilk rəsmi səfərlərindən birinin məhz Azərbaycana olması deyilənlərə əyani misaldır. Rusiya Prezidentinin bu səfərini iki ölkə arasında yüksələn xətt üzrə inkişaf edən strateji tərəfdaşlıq nümunəsi kimi də xarakterizə etmək olar. Tərəflər regional təhlükəsizlik, informasiya sahəsində əməkdaşlıq, qarşılıqlı sərbəst ticarətin genişləndirilməsi məsələləri ətrafında geniş fikir mübadiləsi aparmış və mühüm razılaşma əldə etmişdilər. Rusiya Prezidenti Dmitri Medvedyev Azərbaycana ilk rəsmi səfəri zamanı iki ölkə arasında siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın səviyyəsindən razılığını ifadə etmiş və bu istiqamətdə işlərin davam etdirilməsinin zəruriliyini bildirmişdi. Azərbaycanın dövlət başçısının Rusiyaya işgüzar səfəri də əlamətdar olmuş, Rusiya Prezidentinin dəvəti ilə reallaşan səfərdə tərəflər iqtisadi, sosial, humanitar sahədə əməkdaşlıq, eyni zamanda regional

[1] Əliyev İ.H., İnkişaf – məqsədimizdir: [113 cilddə] / İ.H. Əliyev. – Bakı: Azərnəşr, – c.31. – 2016. – 391 s., s.13



təhlükəsizlik məsələlərini müzakirə etmişdilər. Rusiyanın dövlət başçısı Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Rusiyanın dəyişməz mövqedə qaldığını bir daha diqqətə çatdırmışdı.[1]

2009-cu il iyulun ortalarında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasına işgüzar səfər etmiş, iyulun 17-də «Prezident Otel»də Rusiya Federasiyasının Prezidenti D.Medvedyev ilə İ.Əliyev arasında görüş keçirildi. Daha sonra görüş İlham Əliyev, D.Medvedyev və S.Sarkisyan arasında üçtərəfli qaydada davam etdirilmişdi. Görüşdə hər üç dövlətin xarici işlər nazirləri və Minsk qrupu həmsədrləri iştirak etmişdilər. Əsas müzakirə obyekti isə təbii ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində müzakirələr olmuşdu.[2]

Prezident İlham Əliyevin Rusiya Federasiyasına növbəti işgüzar səfəri həmin il noyabr ayının 24-də gerçəkləşmiş, İlham Əliyev Rusiya Federasiyasının Prezidenti D.Medvedyev ilə görüşmüşdü. Görüşdə Rusiya ilə Azərbaycan arasında dostluq münasibətləri və siyasi tərəfdaşlıq məsələləri müzakirə olunmuşdu.

Son illər yeni inkişaf yolu qət etmiş Azərbaycan-Rusiya münasibətlərində tərəflərdən hansınınsa digərindən asılılığı yoxdur. Əslində, Azərbaycanın maraqlarına cavab verən əsas amil də elə budur. Məsələn, Ermənistan Rusiyanın regiondakı forpostu və faktiki jandarmı olduğunu özü də gizlətmir. Ermənistan Rusiyanın sözün əsl mənasında vassalıdır; müstəqil xarici siyasəti yoxdur, ölkə ərazisində iri rus hərbi bazası yerləşir və s. Azərbaycanın isə Rusiyadan heç bir asılılığı yoxdur, həm iqtisadi, həm də siyasi. Tərəflər arasındakı mal mübadiləsi 2 milyard dollarlıq həddə çatmışdır. Bu, Ermənistanın büdcəsi qədər deməkdir.

Beləliklə, 2009-cu il bir çox mühüm uğurlarla yanaşı, Azərbaycanın regionun enerji təhlükəsizliyində rolunun artması ilə də müşayiət olundu, bu, geosiyasi məkanda əməkdaşlıq münasibətlərini daha da genişləndirdi. Azərbaycandan yaxın qonşu ölkələrə mavi yanacaq nəqli ilə bağlı mühüm razılaşmalar əldə edildi. Məhz həmin razılaşmalara əsasən Azərbaycan 2010-cu ildən etibarən Rusiyaya təbii qaz ixrac edir.

[1] Həsənov Ə.M., Azərbaycanın geosiyasəti / Ə.M.Həsənov. – Bakı: "Zərdabi LTD" MMC, – 2015. – 1055 s., s.570
[2] Yenə orada, s.572

Azərbaycan Respublikasının Prezidentinin Rusiyaya səfərlərinin böyük bir hissəsində eyni zamanda Azərbaycan, Rusiya və Ermənistan liderlərinin də görüşü keçirilmiş, 44 günlük müharibədən əvvəl Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində danışıqlar aparılmışdır. Lakin, məlum olduğu kimi, bu danışıqlar heç bir nəticə verməmişdir. II Qarabağ müharibəsindən sonra isə Rusiyanın vasitəçiliyi Azərbaycan və Ermənistan arasında yekun sülh müqaviləsinin imzalanması və regionda bütün nəqliyyat-kommunikasiya əlaqələrinin açılması istiqamətində danışıqlar aparılmaqdadır.

Ümumiyyətlə, 2008-ci ildən 2023-cü ilə qədər Azərbaycan, Rusiya, və Ermənistan liderlərinin münaqişənin həll edilməsi ilə əlaqədar 16 üçtərəfli görüşü keçirilmişdir. Onlardan 14-ü Rusiyada, biri Moldovada, digər biri isə (2020-ci ildə) onlayn formatda təşkil edilmişdir.

25 yanvar 2010-cu il tarixində Soçi şəhərində keçirilmiş danışıqlarda Rusiya, Azərbaycan və Ermənistan prezidentləri iştirak etmiş, görüşün nəticəsində tərəflər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində mübahisəli prinsiplərin yazılı şəkildə rəsmiləşdirilməsi haqqında razılığa gəlmişdilər.

17 iyun 2010-cu ildə Sankt-Peterburqda keçirilmiş Beynəlxalq İqtisadi Forum çərçivəsində Rusiya, Azərbaycan və Ermənistan liderlərinin növbəti üçtərəfli görüşü olmuş, 27 oktyabr 2010-cu il tarixində Dmitri Medvedyev, İlham Əliyev və Serj Sarkisyan yenidən Həştərxan şəhərində görüşmüşdülər. Aparılmış danışıqların sonunda Minsk Qrupu həmsədrlərinin köməyilə hərbi əsirlərin mübadiləsi və həlak olanların meyitlərinin geri qaytarılmasını nəzərdə tutan etimad tədbirləri haqqında xüsusi bəyannamə qəbul edilmişdi.

2011-ci ildə üçtərəfli görüşlər davam etmiş, 5 mart 2011-ci il tarixində Soçi şəhərində danışıqların yekununa dair üç ölkə başçısının Qarabağ münaqişəsinin nizamlanması haqqında birgə bəyanatı qəbul edilmişdi. 24 iyun 2011-ci ildə üçtərəfli görüş Kazanda baş tutmuş, görüşdə Azərbaycan, Rusiya və Ermənistan Dağlıq Qarabağ nizamlanması Əsas Prinsiplərinə dair layihənin razılaşdırılması işlərinin gedişini nəzərdən keçirmişdilər. Tərəflər aparılmış danışıqların nəticəsində birgə bəyanat qəbul edərək, "mövqelərin yaxınlaşdırılması üçün ortaq nöqtələrin axtarışını davam etdirmək" barədə razılaşıblar.



Növbəti görüş 23 yanvar 2012-ci il tarixində Soçi şəhərində keçirilmişdir. İlham Əliyev, Dmitri Medvedyev və Serj Sarkisyan Qarabağ münaqişəsinin həllində mümkün yolları müzakirə etmiş, görüşün yekunların dair birgə bəyanatı imzalamışdılar.

10 avqust 2014-cü ildə Soçi şəhərində iki illik fasilədən sonra İlham Əliyev və Serj Sarkisyan arasında görüş keçirilmiş, danışıqlarda Rusiya prezidenti Vladimir Putin də iştirak etmişdir. Görüşün yekununda tərəflər Qarabağ münaqişəsinin yaxın bir zamanda "güzəştli və sülh yolu ilə" həll edilməsinə ümid etdiklərini bildirmişdilər.

20 iyun 2016-cı ildə Sankt-Peterburqda Azərbaycan, Rusiya və Ermənistan prezidentləri arasında mətbuata qapalı formada danışıqlar aparılmış, Aprel döyüşlərindən sonrakı vəziyyət müzakirə edilmişdir. Üçtərəfli görüşdən öncə Rusiya dövlətinin başçısı ilə Vladimir Putin ilə İlham Əliyevin ikitərəfli təmasları olmuşdur.

Üçtərəfli görüşlər sonrakı bir neçə ildə baş tutmamışdır. Bu zaman kəsimində Azərbaycan və Ermənistan prezidentlərinin çox zaman müxtəlif sammitlər və beynəlxalq forumların gedişində ikitərəfli formatda görüşləri təşkil edilmişdir.

44 günlük müharibədən sonra 10 noyabr 2020-ci il tarixində prezidentlər İlham Əliyev və Vladimir Putin Bakı vaxtı ilə saat 01:00-dan başlayaraq Qarabağda hərbi əməliyyatların dayandırılması barədə videokonfrans vasitəsilə birgə bəyanat imzalamışdılar. Üçtərəfli Bəyanatı imzalamasına baxmayaraq Ermənistan prezidenti Nikol Paşinyan görüşdə iştirak etməkdən son anda imtina etmişdir.

II Qarabağ müharibəsindən sonra Azərbaycan və Ermənistan arasındakı münasibətlərin normallaşdırılması üçün vasitəçilik rolunu ilk növbədə Rusiya öz üzərinə götürdüyündən növbəti görüşlərin də əksəriyyəti Rusiyada baş tutmuşdur. Belə ki, 11 yanvar 2021-ci il tarixində müharibədən sonra ilk dəfə Kremldə Rusiya prezidentinin təşəbbüsü ilə üç ölkə başçısının arasında görüş baş tutmuşdu. Tərəflər Qarabağda atəşkəs haqqında üçtərəfli Bəyanatın icra edilməsi ilə əlaqədar irəliləyişi nəzərdən keçirmiş və regionda mövcud olan əsas problemlərin həll edilməsi üçün nə addımlar atacaqlarını müzakirə etmişdilər. Dörd saata yaxın müddətdə davam edən görüşdə yekun olaraq Qarabağda yeni infrastruktur layihələrinin həyata keçirilməsi

haqqında birgə bəyanat imzalanmış, Bəyanatın icra edilməsi baş nazirlərin müavinləri səviyyəsində yaradılmış üçtərəfli işçi qrupuna tapşırılmışdır.

Rusiya prezidentinin təşəbbüsü ilə Soçidə 26 noyabr 2021-ci ildə V.Putin, İ.Əliyev və N.Paşinyanın üçtərəfli görüşü keçirilmişdir. Həmin görüş Qarabağda hərbi əməliyyatların dayandırılması haqqında üçtərəfli bəyanatın imzalanmasının ildönümünə təsadüf etmiş, görüş zamanı danışıqlar üç saata yaxın müddətdə davam etmiş, görüşün yekununda birgə bəyanat qəbul edilmişdir. Bu Bəyanata əsasən liderlər Azərbaycan-Ermənistan sərhədində təhlükəsizlik və sabitliyin səviyyəsini yüksəltmək məqsədilə addımlar atmağa razılaşmışdılar. Görüşün əsas nəticəsi kimi Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiya və demarkasiyası mexanizmlərinin yaradılması haqqında qərarı göstərmək olar. Rusiya Federasiyası bu istiqamətdə tərəflərin müraciət etməsinə əsasən konsultativ yardım etməyə hazır olduğunu bildirmişdir. Bundan başqa Rusiya Federasiyasının Prezidenti AR Prezidenti və Ermənistanın baş naziri ilə təkbətək görüşlər keçirmişdir.

Rusiyanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderlərinin sonuncu görüşü 31 oktyabr 2022-ci ildə növbəti dəfə Soçidə təşkil edilmiş, onlar 2 saatdan çox müddətdə keçirilən görüşün sonunda birgə bəyanatı imzalamışlar. Həmin görüşdə qəbul olunmuş bəyanatda tərəflərin 9 noyabr 2020-ci il, 11 yanvar və 26 noyabr 2021-ci il tarixlərində qəbul olunmuş üçtərəfli bəyanatların həyata keçirilməsi məsələlərini müzakirə etdikləri, tərəflərin Azərbaycan və Ermənistan arasındakı münasibətlərin bütün istiqamətlərdə normallaşdırılması, Cənubi Qafqazda sülh və sabitliyin, davamlı iqtisadi inkişaf və təhlükəsizliyin təmin olunması maraqları naminə qeyd olunmuş sazişlərə ciddi əməl etməyə sadiq olduqlarını təsdiq etdikləri bildirilir.[1] Görüş bitdikdən sonra keçirilən mətbuat konfransı zamanı Vladimir Putin qeyd etmişdir ki, Rusiya dövləti Azərbaycan və Ermənistan arasındakı münasibətlərin yekun nizamlanmasına nail olmaq üçün hər şeyi etməyə hazırdır.

Keçirilmiş bu üçtərəfli görüşlər ətraflı şəkildə III fəslin üçüncü yarımfəsilində təhlil edildiyindən burada o qədər də geniş yer verilməmişdir.

---

[1] Adıgözəlov K., Cənubi Qafqazda Azərbaycanın geosiyasi liderliyinin növbəti təsdiqi: [Elektron resurs]. – Noyabr 4, 2022 / URL: https://525.az/news/205052-cenubi-qafqazda-azerbaycanin-geosiyasi-liderliyinin-novbeti-tesdiqi



Beləliklə, göründüyü kimi, həyata keçirilən qarşılıqlı səfərlər hər iki ölkə üçün əməkdaşlığın inkişafında böyük rol oynamışdı. İlham Əliyevin Rusiya ilə münasibətlərin inkişafında xidmətləri danılmazdır. Belə ki, xarici siyasətdə varislik ənənələrinin qorunub saxlanılması Azərbaycanın son illərdəki uğurlarını şərtləndirən amillər içərisində xüsusi qeyd edilə bilər. Ulu Öndər Heydər Əliyev azad Azərbaycanın milli mənafelərinə əsaslanan tarazlaşdırılmış xarici siyasət doktrinasının müəllifi olmaqla bərabər, bu siyasəti keyfiyyət olaraq yeni dövrdə inamla sürdürəcək praqmatik düşüncəli lider yetişdirmişdir. 2003-cü ilin oktyabr ayından ölkə rəhbəri İlham Əliyev xarici siyasət kursunu yeni dövrün tələblərinə uyğun davam etdirmiş, Azərbaycanın beynəlxalq arenada nüfuzunun daha da yüksəlməsinə nail olmuşdur.

İlham Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycanın beynəlxalq və regional problemlərin həllində rolu artır. Daxili islahatlar və səmərəli xarici siyasət nəticəsində Azərbaycan Qafqazda lider dövlətə çevrilmişdir. Dünya siyasətində xüsusi yeri və çəkisi olan Rusiya ilə çoxşaxəli əlaqələrin genişləndirilməsini vacib sayan İlham Əliyev bu yöndə bütün zəruri tədbirləri həyata keçirmişdir. "*Bir ölkə ilə yaxşı münasibətlərdə olmaq o demək deyil ki, digərləri ilə pis münasibətdə olmaq lazımdır*" - deyən Azərbaycan Prezidenti Qərbə inteqrasiyanı qətiyyən Rusiya ilə münasibətlərə xələl gətirəcək amil kimi nəzərdən keçirmir və bu yanaşmanı kökündən yanlış sayır. [1]

Rusiya Federasiyası kimi nəhəng iqtisadi imkanlara və geosiyasi mövqelərə malik bir müttəfiqlə qarşılıqlı faydalı əməkdaşlığın genişlənməsi və inkişafı rəsmi Bakının xarici siyasətində mühüm yer tutur. SSRİ-nin dağılmasından sonra bu münasibətlər kəsildi və hər iki ölkənin iqtisadiyyatı ciddi şəkildə zərər gördü. Keçmiş münasibətlərin bərpası və qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsi yeni dövrün zəruri şərtidir.

Hazırda dövlətlərimiz arasında iqtisadi əməkdaşlıq münasibətləri "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında iqtisadi əməkdaşlığın əsas prinsipləri və istiqamətləri haqqında Saziş"lə (2002-ci il) tənzimlənir və "Azərbaycan Respublikası ilə Rusiya Fe-

---

[1] Elmanoğlu S.E., Götürdüyü öhdəliklərə daim sadiq tərəfdaş // Azərbaycan. – 2009, 5 iyul. – s.1, s.3

derasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Komissiya", "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında 2020-ci illədək iqtisadi əməkdaşlıq haqqında Proqram", "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq və kənd təsərrüfatı məhsullarının təchizatı üzrə İşçi Qrup", "Azərbaycan Respublikası Energetika Nazirliyi və Rusiya Federasiyası Energetika Nazirliyi arasında İşçi Qrup" formatlarında davam etdirilir. İqtisadi sahədə Azərbaycan və Rusiya arasında 45-dən çox sənəd imzalanmışdır. İqtisadi sahədə əməkdaşlıq üzrə əsas mexanizm olan "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Komissiya" ilə yanaşı, ölkəmizlə Rusiyanın 4 subyekti arasında iqtisadi və humanitar sahədə əməkdaşlıq üzrə hökumətlərarası komissiyalar fəaliyyət göstərir.

2017-ci ilin sonunda Rusiya ilə Azərbaycan arasındakı ticarət həcmi 35% artaraq 2,5 milyard dollara çatdı. Son illərdə Rusiyanın Azərbaycana birbaşa sərmayəsi 1,5 milyard dollar olub. Azərbaycan bazarında təxminən 700 ortaq müəssisə fəaliyyət göstərir ki, bunların da üçdə biri 100% Rusiya kapitalındandır. Son illərdə KOBİ-lər də daxil olmaqla iş təşkilatları arasında əlaqələr genişlənmişdir. Yalnız keçən il Rusiya-Azərbaycan Ticarət Palatası 450 milyon dollar dəyərində 42 birgə layihəyə dəstək verdi.[1]

Beynəlxalq münasibətlər sistemində və iqtisadi, siyasi və hərbi qabiliyyətlərində əsas rol oynayan Rusiya ilə qarşılıqlı faydalı əlaqələrin gücləndirilməsi və Sovetlər Birliyi dövründə mövcud olan müxtəlif münasibətlərin təşviqi siyasi coğrafi reallıqlara söykənir hər zaman Bakının mühüm xarici siyasəti hesab olunur.

Rusiya və Azərbaycan yaxın iqtisadi və siyasi müttəfiqlərdir. Azərbaycan Respublikası ilə bağlı məsələlər Rusiyanın əsas strateji sənədlərində də öz əksini tapmışdır. Məsələn, Prezident Vladimir Putin tərəfindən 30 Noyabr 2016-cı il tarixində təsdiqlənən Rusiya Federasiyası Xarici Siyasət Konsepsiyasının 58-ci maddəsində deyilir: *"Rusiya başqa dövlətlər – ATƏT-in Minsk Qrupunun həmsədr ölkələri ilə qarşılıqlı əməkdaşlığa əsasən, həm də Rusiya Federasiyasının Prezidenti, Amerika Birləşmiş Ştatlarının Prezidenti və Fransa Respublikasının Prezidentinin 2009-2013-cü illər dövründə müştərək bəyanatlarında təyin edilmiş prinsiplər üzrə postsovet məkanında olan münaqişələrin siyasi-diplomatik üsulla tənzimlənməsində... Dağlıq Qarabağ (Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ) konfliktinin həllində aktiv şəkildə iştirak edir".*[1] Azərbaycan Respublikası Rusiyanın strateji dərəcədə önəmli sənədinə əlavə edilmiş bu müddəanı yüksək dərəcədə qiymətləndirmişdir.

[1] Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016). Məqalələr toplusu /tərt. ed. F.Məmmədov. – Bakı: "Poliart" MMC, – 2017. – 904 s., s.347



Azərbaycanın güclü hərbi qabiliyyəti, habelə 2016-cı ilin aprel ayında həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar sayəsində bölgədəki vəziyyət qətiyyətli mövqe və münaqişənin həllinə yeni yanaşmaların vacibliyini vurğuladı. Xatırladaq ki, 17 may 2016-cı il tarixində Vyanadakı görüşdən, həmçinin 20 iyun 2016-cı il tarixində Sankt-Peterburqda Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin üçtərəfli görüşündən sonra rəsmi Moskvanın məsələnin həllinə diqqəti əhəmiyyətli dərəcədə artdı. İclasdan sonra Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Rusiyanın əhəmiyyətli rolunu şərh edən Prezident İlham Əliyev dedi: *"Rusiya və ATƏT-in Minsk qrupunun digər həmsədrləri bəyan etdikləri kimi, status-kvo qəbuledilməzdir. Bu ifadəni tam dəstəkləyirik. Lakin status-kvonu dəyişdirmək üçün 20 ildən çoxdur ki, Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsinə başlamaq lazımdır ".*[2]

Həmin vaxt prezident Putinin danışıqlar prosesində şəxsən iştirak etməyə başlaması münaqişədə status-kvo vəziyyətinin qorunmasının, "nə sülh, nə də müharibə" prinsipinin işləməsinin Cənubi Qafqazdakı Rusiya geosiyasi maraqlarına uyğun gəlmədiyini sübüt edirdi. Bu baxımdan 1 iyul 2016-cı il tarixində Rusiya Prezidenti Vladimir Putinin Fransa Prezidenti Francois Hollande ilə, ertəsi gün ABŞ Dövlət Katibi Con Kerrinin Rusiya Xarici İşlər naziri Sergey Lavrovla, 6 iyulda ABŞ Prezidenti Barak Obama ilə Vladimir Putinin görüşlərinin keçirilməsi yaddaqalan hadisələr idi. Bu

[1] Концепция внешней политики Российской Федерации (утверждена Президентом Российской Федерации В.В.Путиным 30 ноября 2016 г.): [Электронный ресурс]. – Dekabr 1, 2016. URL: **https://www.mid.ru/foreign_policy/official_documents/-/asset_publisher/CptICkB6BZ29/con tent/** id/2542248#:~:text=

[2] Мехтиев Р.А., Нагорный Карабах: книга, прочитанная по источникам / Р.А.Мехтиев. – М.: Аквариус, – 2014. – 278 с., с.214

görüşlərdə tərəflər həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yollarına dair müzakirə aparmışdılar. V.Putin həmin dövrdə verdiyi müsahibələrdən birində demişdi: *"Qonşu olduğumuz regionda barışıq və asayişi bərpa etmək, insanların öldürülməməsi, sərhədləri açmaq və iqtisadi əlaqələri bərpa etməkdə həqiqətən maraqlıyıq. Bunun üçün hər şeyi edirik "*.[1]

V.Putin onu da nəzərə çatdırmışdı ki, 1994-cü ilin may ayında atəşkəs barədə saziş məhz Rusiya dövlətinin bilavasitə dəstəyi ilə imzalanmış və bu saziş 26 il müddətində qoşunların təmas xəttində atəşkəsin davam etdirilməsinin hüquqi əsasını qoymaqdadır. Rusiya öncələrdə olduğu kimi indi də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ konfliktinin ədalətli həllini tərəflərin danışıq masasında oturmasında, kənar təzyiq və müdaxilələrsiz öz aralarında razılığa gəlmələrində və hər biri üçün məqbul sayılan həll üsullarını tapmasında görmüşdü. 2016-cı ilin aprelin əvvəllərində cəbhə xəttində döyüş əməliyyatlarının saxlanılmasında da məhz rəsmi Moskva həlledici rol oynamışdır.

II Qarabağ müharibəsi başlanan dövrdən etibarən Rusiya baş verənlərə nisbətən obyektiv mövqeyi ilə seçilmiş, Ermənistan tərəfindən Rusiyanı müharibəyə cəlb etmək üçün edilən təxribatçı çağırışlara məhəl qoymayaraq, döyüş əməliyyatlarının Ermənistan deyil, Azərbaycan ərazisində getdiyini bildirmişdir. Müharibə gedişində tərəflər arasında atəşkəs razılaşması imzalanmasına vasitəçilik etmiş, lakin razılaşma imzalandıqdan bir neçə saat sonra Ermənistan tərəfindən pozulmuşdur.

10 noyabr üçtərəfli bəyanat da məhz Rusiyanın vasitəçiliyi ilə hazırlanmış və imzalanmış, bununla da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə son qoymuşdur. Post-müharibə dövründə də Rusiya Azərbaycan və Ermənistan münasibətlərinin normallaşdırılması və regionda bütün kommunikasiyaların açılması istiqamətində iki ölkə arasında vasitəçilik fəaliyyətini davam etdirərək Rusiya, Azərbaycan və Ermənistan liderlərinin

[1] Rusiya ilə Azərbaycanın münasibətləri strateji tərəfdaşlıq xarakteri daşıyır. Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putinin Azərbaycan Dövlət İnformasiya Agentliyinə (AZƏRTAC–a) müsahibəsi: [Elektron resurs]. – Avqust 5, 2016 / URL: **http://azertag.az/xeber/Rusiya_ile_Azerbaycanin_munasibetleri** strateji_terefdasliq_ xarakteri_ dasiyir_VIDEO–979985



üçtərəfli görüşlərini təşkil etmişdir. Təəssüf ki, bu görüşlərdə tərəflər dialoq aparmalarına baxmayaraq hələ ki, konkret razılaşmalar əldə edilməmişdir.

Bundan başqa vacib bir məqam kimi onu da qeyd etmək lazımdır ki, Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi 2021-ci ilin yanvar ayının sonundan bəri Ağdamda fəaliyyət göstərməyə başlamışdır. Lakin bu mərkəzin fəaliyyətinə cəmiyyətin münasibəti birmənalı deyil. Çünki sərhəddə və ya Rusiya sülhməramlıların yerləşdiyi Azərbaycan ərazilərində hər hansı toqquşma zamanı mərkəz nadir hallarda hansısa açıqlama verir və ya tədbir gördüyünü söyləyir. Bu səbəbdən Azərbaycan cəmiyyətində həmin mərkəzə qarşı inam əskikliyini müşahidə etmək olar.

Baş verən hadisələri müşahidə etməklə söyləmək olar ki, Rusiya müharibə və ondan sonrakı dövrdə münaqişənin tənzimlənməsi və Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması istiqamətində təşəbbüsü ələ almış və bu prosesdən faktiki olaraq Qərb ölkələrini sıxışdırıb çıxarmışdı. Buna başlıca səbəbi kimi Rusiyanın Qafqaz regionunda maraqlarının daha çoxsaylı, strateji və həyati əhəmiyyətli olmasını göstərmək olar. Lakin 2022-ci ildən başlayaraq Aİ, xüsusilə də Fransa da bu prosesdə iştirak etməyə çalışır, iki ölkə arasında münasibətlərin, ümumiyyətlə regionda əməkdaşlığın normal şəkildə həyata keçirilməsi üçün cəhdlər göstərməyə başlamış, Azərbaycan və Ermənistan arasında vasitəçilik rolunu oynamağa çalışmışlar. Fransanın II Qarabağ müharibəsi zamanı və ondan sonrakı keçən dövrdə əsasən Ermənistanın mövqeyindən çıxış etməsi, bir sıra hallarda Azərbaycana qarşı qərəzli mövqe nümayiş etdirməsi, bəzi fransız siyasətçilərin Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərinə qeyri-qanuni səfərlər etməsinə baxmayaraq son bir neçə ayda bu ölkə daha neytral mövqe tutmağa çalışır və bu istiqamətdə öz fəaliyyətini artırmışdır. Bu nisbi mövqe dəyişikliyinin bir neçə səbəbi ola bilər. Bunlardan biri Fransada prezident seçkilərinin yaxınlaşması və E.Makronun öz siyasi imicini aktuallaşdırmağa cəhd göstərməsi ola bilər. Digər səbəb kimi isə Rusiya-Ukrayna gərginliyinin artması və Qərb dövlətlərinin Rusiyaya qarşı bir cəbhədə birləşməsini göstərə bilərik. Bu baxımdan Fransa Ermənistan-Azərbaycan arasında vasitəçilik rolunu daha çox mənimsəyən Rusiyanın Qafqazda mövqeyini zəiflətməyə çalışdığını ehtimal etmək olar.

Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında həll ediləcək ən vacib problemlərdən biri də Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi məsələsi olmuşdur. 8 Avqust 2016-cı il tarixində Bakıdakı Heydər Əliyev Mərkəzində Rusiya, İran və Azərbaycan Prezidentlərinin – Vladimir Putin, Həsən Ruhani və İlham Əliyevin üçtərəfli zirvə toplantısında müxtəlif sahələrə aid əsas məsələlər müzakirə edildi və mədəniyyət, enerji, nəqliyyat, turizm və təhsil kimi sahələrdə tərəfdaşlığın yeni səviyyəyə keçirilməsinin vacibliyi barədə ümumi razılaşma əldə olunmuş və qarşılıqlı əlaqələri inkişaf etdirmək hədəflənmişdi. Görüşdə hər üç dövlətin – Azərbaycan, Rusiya və İranın maraqlarına uyğun olan vacib məsələ - Xəzər dənizinin statusu ətrafındakı məsələlər də müzakirə edilmiş və əldə edilən ümumi qənaət dövlət başçıları tərəfindən qəbul edilmiş bəyannaməyə daxil olunmuşdur. Bəyannamədə Xəzər dənizinin statusu barədə Azərbaycan, Rusiya və İran prezidentləri birmənalı mövqe bildirməklə bu məsələnin həll edilməsində maraqlı və səmimi olduqlarını, regional təhlükəsizliyin təmin edilməsində birgə çalışmaların mühümlüyünü qeyd etmişlər.[1]

Qazaxıstanın Aktau şəhərində 12 avqust 2018-ci il tarixində Xəzəryanı dövlətlərin əməkdaşlıq və inkişaf perspektivlərini təyin edən tarixi hadisə baş tutmuşdu. Xəzəryanı dövlətlərin dövlət rəhbərlərinin V Zirvə toplantısında Xəzərin özünəməxsus "Konstitusiyası" olan Xəzər dənizinin hüquqi statusu barədə Konvensiya 22 il davam edən sistemli danışıqlardan sonra imzalanmışdı. Bu Konvensiya Azərbaycan Prezidenti İlham Əliyev, İran Prezidenti Həsən Ruhani, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Rusiya Prezidenti Vladimir Putin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov tərəfindən imzalanmışdır.[2]

Bu konvensiyanın hazırlanması zamanı bir çox prinsipial və qeyri-adi qərarlar həm əsaslandırılmalı və həm də qəbul edilməli idi. İlk olaraq Xəzərin coğrafi cəhətdən qiymətləndirilməsi qeyri-müəyyən səciyyə daşıyırdı. Etiraf edilməli idi ki, Xəzər nə dənizdir, nə də adi göldür. Yəni, onun bölün-

[1] Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991–2016) / məqalələr toplusu /tərt. ed. F.Məmmədov. – Bakı: "Poliart" MMC, – 2017. – 904 s., s.624

[2] Xəzərin hüquqi statusu haqqında Konvensiya Azərbaycan diplomatiyasının böyük nailiyyətidir: [Elektron resurs]. – Avqust 14, 2018 / URL: **https://azertag.az/xeber/Xezerin_huquqi_statusu_haqqinda_Konvensiya_**Azerbaycan_diplomatiyasinin_boyuk_nailiyyetidir--1186789



məsinin əsaslandırması üçün digər meyarlar işlənməlidir. Xəzər akvatoriyasında neft-qaz resurslarının qeyri-bərabər paylanması mövzunu daha da çətinləşdirirdi. Qəbul olunmuş Konvensiyaya əsasən Xəzərin tam su səthi tərəflərin toplam istifadəsində qalmaqdadır, dibi isə yanaşı dövlətlərin razılığına əsasən, beynəlxalq hüquq üzrə onlar arasında bölünməkdədir.

Azərbaycan-Rusiya münasibətləri üçün son dövrdə ən əhəmiyyətli hadisələrdən biri 22 fevral 2022-ci ildə Azərbaycan və Rusiya prezidentləri "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə"nin imzalanması olmuşdur. Belə ki, 21 fevral tarixində Rusiya Federasiyasına rəsmi səfəri başlayan Prezident İlham Əliyev fevralın 22-də Rusiya Prezidenti V.Putin ilə təkbətək görüş keçirmiş, daha sonra isə onlar qeyd edilmiş Bəyannaməni imzalamışlar.

Bəyannamə 43 maddədən ibarət olmuşdur. Orada Rusiya və Azərbaycanın öz münasibətlərində müttəfiqlik qarşılıqlı fəaliyyətinə əsaslandığı, aktual beynəlxalq məsələlərə dair eyni və ya yaxın mövqe nümayiş etdirməklə yanaşı, ikitərəfli səviyyə daxil olmaqla konstruktiv əməkdaşlığı dərinləşdirdikləri, eyni zamanda qarşılıqlı maraq doğuran məsələlərdə beynəlxalq təşkilat və forumlar daxilində də qarşılıqlı fəaliyyət göstərdikləri bildirilmişdir.[1]

Bundan başqa Azərbaycan və Rusiya tərəflərdən birinin fikrinə görə sülhə təhlükəli ola biləcək, sülhü pozacaq, eləcə də tərəflərdən birinin milli təhlükəsizlik maraqlarına təsir edə biləcək situasiya meydana çıxdığı, həmçinin də buna bənzər vəziyyətin baş verməsi təhdidi olduğu zaman həmin vəziyyətlərin tənzimlənməsi üçün təxirəsalınmaz məsləhətləşmələrin keçirilməsinə hazırlıqlarını ifadə etmişdilər.

Hər iki ölkə öz ərazisində beynəlxalq təşkilatların və ya şəxslərin digər tərəfin dövlət müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə qarşı ola biləcək fəaliyyətinə qətiyyətli şəkildə icazə vermədiklərini bildirmiş, tərəflərin öz milli maraqlarına uyğun olan və III ölkələrə qarşı istiqamətlənməyən ikitərəfli hərbi-siyasi əməkdaşlığı inkişaf etdirdiklərini, qarşılıqlı hərbi əməkdaşlığı dərinləşdirəcəklərini qetd etmişlər.

[1] Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə: [Elektron resurs]. – Fevral 22, 2022 / URL: **https://president.az/az/articles/view/55498**

Tərəflər eyni zamanda sülh və sabitliyin qorunub-saxlanılması, təhlükəsizliyin təmini üçün BMT Nizamnaməsi, çoxsaylı beynəlxalq müqavilələrə əsasən, eləcə də tərəflərdən ikisinin də beynəlxalq-hüquqi öhdəlikləri nəzərə alınmaqla bir-birinə hərbi yardım göstərməsi imkanını nəzərlərindən keçirmələri mümkündür.

Bəyannamədə həmçinin ölkələrin beynəlxalq terrorçuluq, separatçılıq və ekstremizm təhdidləri, silah, narkotik vasitələr və onların prekursorlarının qanunsuz dövriyyəsi, transmilli mütəşəkkil cinayətkarlıq, insan alveri və İKT sahəsində cinayətkarlıq, eyni zamanda bu kimi digər yeni təhlükəsizlik çağırışları ilə mübarizə aparılması və onların neytrallaşdırılmasına istiqamətlənən səylərini birləşdirdikləri qeyd edilmiş, bildirilmişdir ki, Azərbaycan və Rusiya qarşı tərəfin mənafelərinə birbaşa və ya dolayı yolla zərər vura biləcək hər hansı iqtisadi fəaliyyətin yerinə yetirilməsindən çəkinəcəklər.

Beləliklə, Türkiyə ilə Şuşa Bəyannaməsini imzalayaraq münasibətlərini rəsmən müttəfiqlik səviyyəsinə gətirən Azərbaycan eyni zamanda Rusiya ilə müttəfiqlik haqqında müqavilə imzalamışdır. Bu da Azərbaycanın dövlət başçısının ölkənin yerləşdiyi coğrafi mövqeyə, regiondakı geosiyasi şəraitə uyğun olaraq atdığı uzaqgörən addımlardan biri kimi qiymətləndirilməlidir. Bu müqaviləni imzalamaqla İlham Əliyev Azərbaycanın xarici siyasətində Ulu öndərin əsasını qoyduğu "balanslaşdırılmış strategiya"nı bir qədər də yeniləyərək, Moskvaya mövcud mürəkkəb beynəlxalq situasiyada anti-Rusiya cəbhəsində yer almayacağının zəmanətini vermiş olmuşdu.

Bundan başqa NATO-nun üzvü olan Türkiyənin Rusiya ilə əlaqələrində körpü rolunu oynayan Azərbaycanın geosiyasi qarşıdurmada iki regional gücü birləşdirə biləcək faktor olaraq bununla da Bakı və Ankaranın müttəfiqliyinin Rusiyanın əksinə olmadığını sübut edir, Cənubi Qafqazda rus-türk planı olan müqavilələrin yerinə yetirilməsini sürətləndirə bilər və 3+3 formatı çərçivəsində əməkdaşlıq modelinin formalaşdırılması ilə ən əsası Azərbaycanın Ermənistanla sülh sazişinin imzalanması perspektivləri güclənə bilər.

Beləliklə, qeyd edilənləri nəzərə alaraq söyləmək olar ki, hal-hazırda:

- Rusiya və Azərbaycanın arasındakı ikitərəfli əlaqələr dövlətlərin hüquq bərabərliyi, bir-birinin suveren hüquqlarına rəğbət və qarşılıqlı səmərəli işgüzar münasibətlər prinsiplərinə əsaslanmaqdadır;



- Rusiya–Azərbaycan müttəfiqliyi üçüncü ölkəyə və ya dövlətlərə qarşı istiqamətləndirilməmişdir;
- hər iki ölkə bir-birinin daxili və xarici siyasətinə, milli maraqlarının təmin edilməsinə müdaxilə ilə yanaşmır, bölgə və qlobal təhlükəsizlik, iqtisadi və humanitar işgüzarlıq məsələlərində ortaq maraqları müdafiə edir;
- Azərbaycan dövləti praqmatik xarici siyasəti ilə ilk olaraq Türkiyə, İran, Gürcüstan və Rusiya kimi bölgə dövlətləri, həm də ABŞ və Avropa dövlətləri ilə bərabərhüquqlu və sabit əlaqələr qurulmasına tərəfdardır;
- Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ konfliktinin sonlanması, bu ərazilərə rus sülhməramlılarının daxil edilməsi və fəaliyyəti, tam şəkildə Rusiya-Azərbaycan əlaqələrinin də daha yuxarı səviyyəyə çatmasına səbəb olacaq;
- Azərbaycan dəfələrlə sübuta yetirmişdir ki, onun apardığı xarici siyasət, qlobal və bölgə iqtisadiyyatı layihələrində, həmçinin Xəzərin karbohidrogen resurslarının hasilatı və nəqli sferasında fəaliyyəti Rusiyanın iqtisadi maraqlarına qarşı istiqamətlənməmişdir;
- cari iqtisadi çətinliklər ərzində oxşar məsələlərlə üzləşən Rusiya və Azərbaycan iqtisadiyyatın diversifikasiyası xəttini prioritet kimi götürmüş və qeyri-neft sektorunu tərəqqi etdirməklə iqtisadiyyatın neftdən asılılığının minimuma düşməsinə çalışırlar. Bu yönümdə hər iki ölkənin birgə işgüzarlıq perspektivləri var;
- dünya üzrə milli, dini və irqi ayrı-seçkiliyin, bu yönümdə qarşıdurmaların, ksenofobiyanın, ekstremizmin geniş vüsət tapdığı bir mühitdə multikulturalizm və tolerantlıq, mədəniyyətlərarası dialoq hər iki dövlətdə ölkə siyasəti dərəcəsində dəstəklənməkdədir; Azərbaycan və Rusiya arası xalq diplomatiyası ölkələrarası əlaqələrin daha da gücləndirilməsinə, mədəniyyətlərin qarşılıqlı tərzdə təbliğinə xidmət etməkdədir.[1]

Bütün bunlar bir daha sübut edir ki, Prezident İlham Əliyevin apardığı uğurlu xarici siyasət strategiyası sayəsində Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında olan tarixi ənənələrə dayanan münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə qalxması hər iki ölkənin milli maraqlarına,

[1] Məmmədzadə Ü.K., İlham Əliyev və Azərbaycanda multikulturalizmin inkişafı // Doktorantların və gənc tədqiqatçıların XX Respublika elmi konfransının materialları: II cild, – Bakı: – 2016, – s.566-568., s.568

suveren hüquqlarına cavab verən və 30 illik yol keçərək gerçəkləşən zərurətdir. Hər iki ölkə bu münasibətlərin genişləndirilməsi və bərkidilməsi üzrə geniş siyasi imkana, iqtisadi potensial və siyasi iradəyə sahibdir. Bu bərabərhüquqlu münasibətlər isə bu ölkələrin bir-birinin suverenlik hüquqlarına, milli mənafelərə cavab olan azad siyasətlərinə qarşılıqlı hörmət prinsiplərinə əsaslanmaqdadır. Azərbaycan dövləti və Rusiya Federasiyası arasında strateji əməkdaşlıq, müttəfiqlik əlaqələrinin daha geniş sferaları əhatə etməsi, siyasi, iqtisadi və humanitar sferalarda əməkdaşlığın sabit inkişafı, problemli məsələlərin qarşılıqlı fəaliyyətlə aradan götürülməsi, bölgədə sülh və təhlükəsizliyin təmin edilməsində daha aktiv iştirakı üzrə birgə cəhdlər bundan sonra da davam etdiriləcəkdir.

## §3. Azərbaycan-Gürcüstan münasibətlərinin inkişafında İlham Əliyevin rolu

Müasir Gürcüstan və paytaxtı Tbilisinin Azərbaycan Respublikası və xalqı ilə dərin tarixi əlaqələri var. XIX əsrdə Azərbaycan dövlətinin Rusiya imperiyası tərəfindən zəbt edilməsindən sonra Tbilisi bütün Cənubi Qafqaz millətləri, həmçinin azərbaycanlılar üçün uzun zaman imperiyanın inzibati mərkəzi olmaqla bərabər, siyasi, mədəni və intellektual mərkəz rolunu da ifa etmişdir. XIX əsrin sonu – XX əsrin əvvəlində həmin şəhərin öndəgedən ədəbi, ictimai-siyasi və intellektual mühit dünyası Azərbaycan millətinin nüfuzlu ziyalılarının dünyagörüşünün, həm də azadlıq ideyalarının təşəkkül tapmasına böyük təsiri olmuşdur.

Azərbaycanın görkəmli ictimai və siyasi xadimləri və insanları -A.Topçubaşov, N.Nərimanov, Niyazi, R.Behbudov və başqaları Tbilisidə anadan olmuşlar, A.A. Bakıxanov, M.F.Axundov və digərləri orada yaşayıb və işləyiblər. Qori Müəllimlər Seminariyasında Azərbaycanın müxtəlif bölgələrindən gənclər təhsil alıb. İslam Şərqində ilk demokratik dövlət olan Azərbaycan Demokratik Respublikasının müstəqilliyi 1918-ci ildə həmin şəhərdə elan edildi.

Bundan əlavə indiki Gürcüstan Respublikasının ərazisində, tarixi Borçalı adlı hissədə, paytaxt Tbilisidə, həm də başqa bölgələrdə əsrlər boyunca soydaşlarımız yaşayıb və Azərbaycan türkləri həmin torpaqların qədim avtoxton sakinləri olub. Bu amil iki ölkənin münasibətlərindəki ən vacib və həssas məqamlardan biridir və iki ölkəni vahid coğrafi məkanda birləşdirən tarixi münasibətlərdən biri kimi qəbul edilə bilər. Gürcüstanla qarşılıqlı əlaqələr Azərbaycanın xarici siyasəti və bölgədəki layihələr üçün xüsusi strateji əhəmiyyətə malikdir. Azərbaycan dünya okeanına birbaşa çıxışı olmayan qapalı bir coğrafi ərazidədir və müxtəlif regional və beynəlxalq güclərin maraqlarını birləşdirir. 1990-cı illərin əvvəllərində müstəqil olan iki ölkə, demək olar ki, eyni daxili və xarici siyasət problemləri ilə qarşılaşdı. Daxili qeyri-sabitlik, vətəndaş müharibəsi, iqtisadi yavaşlama, dövlət qurumları üçün potensialın itməsi və təcavüzkar ayrı-seçkilik hər iki ölkənin mövcudluğunu və gələcəyini şübhə altına alan məsələlərdən yalnız bir neçəsidir. Bölgədə cərəyan edən coğrafi mövqe və proseslər, hansı gücün siyasi hakimiyyətdə olmasından asılı olmayaraq, iki ölkənin müstəqilliyinin ilk ilindən müttəfiq olmalarını tələb edən amillərdir.



Bakı ilə Tbilisi arasında olan daimi regional təhlükəsizlik və geostrateji dostluq əlaqəsi 1993-cü ildən etibarən başlamışdır. İlk növbədə SSRİ dağılandan sonra hər iki ölkə təcavüzkar etnik separatizm və ərazi tamlığının pozulması riski, vətəndaş qarşıdurması, iqtisadi böhran, suveren dövlət hüquqlarına ətrafdan müdaxilələr və s. kimi bənzər problemlərlə qarşılaşdı. Daha sonra hər iki dövlətin problemlərinin həll edilməsi, mütəxəssislərin qeyd etdiyinə görə, onların regional və beynəlxalq əməkdaşlığını, milli səylərinin birləşdirilməsini istəyirdi.[1] Əlavə olaraq ölkəmizlə Gürcüstanın xarici siyasət prioritetləri, məqsədləri və vəzifələri də demək olar eynidir. Bunlar, uyğun olaraq:

- dünya birliyinin diqqətinin separatizm probleminə çəkilməsinə və ölkələrin sərhəd toxunulmazlığı prinsipinin bərpa edilməsi məqsədinə çatmaq;
- ayrı-ayrı güc mərkəzlərinin geosiyasi maraqlarının birləşdiyi Cənubi Qafqazda dəyişməzlik, sülh və əməkdaşlıq ortamı qurmaq, istənilən maraqlı tərəf üçün cəlbedici ünsürə çevrilmək, güc mərkəzlərinin geosiyasi ziddiyyətlərindən faydalanaraq öz dövlətinin milli təhlükəsizliyini gücləndirmək;

[1] Вардомский Л.Б., Страны Южного Кавказа: Особенности развития и регионального взаимодействия / Л.Б.Вардомский, А.Г.Пылин, Т.В.Соколова. – М.: Институт экономики РАН, -2014. – 72 с., с.37

- ərazilərindəki etnik münaqişələri dinc üsulla yoluna qoymaq və ərazi tamlığını bərpa etmək;

- Rusiyadan geosiyasi və geoiqtisadi asılılığı nisbətən zəiflətmək üçün Qərbin siyasi və iqtisadi dəstəyindən yararlanmaq;

- neft və qaz yataqları ilə münbit olan Orta Asiya, Xəzər və Avropa arasında tranzit ölkəyə dönmək, enerji və nəqliyyat proyektlərində birlikdə iştirak edərək Qərbə çıxış üçün müxtəlif yollar tapmaq və s.dən təşkil edilmişdir.

Ancaq məqsədlər eyni olsa da bir sıra sektorlarda bu dövlətlərin həyata keçirdiyi geosiyasi xətt, dövlətlərdəki geoiqtisadi mühit, ictimai-siyasi və sosial durum, təhlükəsizlik taktikası və s. fərqlidir. Ölkəmizdən fərqli olaraq, Gürcüstan təbii enerji resurslarına sahib deyildir və bütün geosiyasi miqyaslarına görə Rusiyadan daha çox asılıdır. Nəticədə, bu, Gürcüstan üçün ölkəmizin rolunu və strateji əhəmiyyətini ciddi olaraq artırır. Ona görə ki, yaranmış durumda onun əsas ümidi dövlətin coğrafi durumu və tranzit imkanlarından maksimum şəkildə faydalanmaqdır.

2011-ci ilin 23 dekabrında Gürcüstan özünün yeni Milli təhlükəsizlik Konsepsiyasını qəbul etmişdir. Ölkənin milli maraqları, xarici siyasətin prioritetləri göstərilən bu sənəddə Gürcüstanın xarici siyasi tərəfdaşlarının təsnifatı bu cür verilmişdir:[1]

- Strateji tərəfdaş: ABŞ, Ukrayna və Azərbaycan
- Aparıcı regional tərəfdaş: Türkiyə
- Sıx tərəfdaşlıq: Ermənistan

Konsepsiyadan da məlumdur ki, ölkəmiz Gürcüstanın 3 mühüm strateji tərəfdaşından biri sayılır. Lakin onların apardığı regional siyasətdə bəzi prinsipial fərqlər də nəzərə çarpır. Misal üçün, Azərbaycan bölgədə marağı olan bütün iri və xırda dövlətlərlə tarazlı şəkildə əlaqə quracaqdır. Gürcüstan bölgədəki mühüm güc mərkəzlərindən biri hesab edilən Rusiya ilə əlaqələrdə ciddi gərginlik yaşayır ki, bu gerçəklik də regionun ümumi təhlükəsizliyi üçün ciddi problemlər ortaya çıxarır. Gürcüstan qeyd edilən Konsepsiyada Rusiyanı özünün dövlətçiliyi və milli təhlükəsizliyi üçün başlıca təhdid, destabilləşdirici qüvvə kimi qiymətləndirir.

[1] Новая Концепция национальной безопасности Грузии: [Электронный ресурс]. – Декабр 23, 2011 / URL: https://civil.ge/ru/archives/178711



Ümummilli öndər Heydər Əliyev dövlət idarəçiliyinə qayıtdıqdan sonra Gürcüstanın Azərbaycan dövlətinin xarici siyasətində və strateji layihələrində yeri yenidən nəzərdən keçirilmiş, ötən əsrin 90-cı illərindən etibarən qonşu dövlətin qarşısında dayanan problemlərin və maneələrin aradan götürülməsi və onun tam azad dövlət olması üçün dövlətimiz yetərli qədər böyük dəstək vermişdir. Gürcüstanın sabiq prezidentləri Eduard Şevardnadze və Mixail Saakaşvili dəfələrlə fərqli tədbirlərdə bu məqamı qeyd etmişlər. Bu cəhətdən E.Şevardnadzenin aşağıdakı ifadələrini xatırlamaq olar: *"İnsanlar daha sonra Heydər Əliyev fenomeninin Qafqazın azadlığında nə qədər böyük rola malik olduğunu dərk edəcəklər"*. Azərbaycana rəsmi səfəri zamanı Saakaşvili öz çıxışlarının birindı söyləmişdi: *"Gürcüstanın çoxsaylı müttəfiqi olsa da onlardan heç biri Azərbaycan kimi bu dövlətə onun çətin dövründə dəstək verməmişdir. Həmin zaman əgər Azərbaycan dövlətinin tam azad siyasət yeritməsi ilə bərabər, Gürcüstan dövləti qismən də olsa azad davrana bilməsəydi, indi Cənubi Qafqazda geosiyasi vəziyyət və təhlükəsizlik həddindən çox acınacaqlı vəziyyətdə olardı. Ciddi geosiyasi, hərbi və təhlükəsizlik riskləri ilə üz-üzə dayanmış bir bölgədə dağıdıcı güclər milyonlarla insanları məhvə götürərdi".*[1]

Heydər Əliyevin Azərbaycanda yenidən hakimiyyətə gəlməsindən sonra Azərbaycan-Gürcüstan ikitərəfli münasibətlərində yeni mərhələnin təməli qoyuldu və bu münasibətlər onun siyasi varisi İlham Əliyev tərəfindən davam etdirildi. Gürcüstan 1990-cı illərin əvvəllərində çətin iqtisadi və siyasi vəziyyətdə olan Azərbaycan üçün Heydər Əliyevin xarici siyasətində və qlobal enerji strategiyasında mühüm strateji istiqamət idi və Heydər Əliyevin rəhbərlik etdiyi xarici siyasət uğurlu inteqrasiya prosesinin əsasını qoydu. Məhz Heydər Əliyevin başçılığı ilə yürüdülən xarici siyasət strategiyası regionda praqmatik və ikitərəfli maraqlara cavab verən gələcək regional iqtisadi, siyasi və təhlükəsizlik sisteminin əsasını qoymaqla region xalqlarının rifahına cavab verəcək inteqrasiya proseslərinin təməlini qoydu.

18 sentyabr 2002-ci ildə Bakıda ulu öndər Heydər Əliyevin, Türkiyə Prezidenti və Gürcüstan Prezidentinin əməkdaşlığı ilə BTC əsas ixrac neft

[1] Əhmədov E.İ., Ermənistanın Azərbaycana təcavüzü: Beynəlxalq təşkilatların və böyük dövlətlərin siyasəti / E.İ. Əhmədov. – Bakı: Elmin İnkişafı Fondu, – 2015. – 368 s., s.114

kəmərinin təməli atıldı. Nəhəng siyasi risklərə və təzyiqlərə baxmayaraq Azərbaycanın əsas ixrac boru kəməri kimi Gürcüstan ərazisindən keçən Bakı-Tbilisi-Ceyhan marşrutunun seçilməsi, bölgənin müstəqillik qazandığı gündən bəri tarixin ən mühüm tarixi hadisəsidir və iki ölkənin siyasi müstəqilliyini reallaşdırması və müstəqilliyin yeni mərhələsinə qədəm qoyması idi.

Mixail Saakaşvili 2004-cü ildə Gürcüstanda hakimiyyətə gəldikdən sonra iki ölkə arasındakı münasibətlər yüksək səviyyədə inkişaf etdi. Dövlət və dövlət məmurları arasında əməkdaşlıq həm yerli, həm də beynəlxalq mövzular yenidən gündəmə gəlməyə başladı. Saakaşvili Azərbaycana ilk səfərini 4-5 may 2004-cü il tarixlərində etmişdir. Dövlət və hökumət rəsmiləri bir sıra sahələri əhatə edən sənəd imzaladılar. 2004-cü il 25 mart tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Ticarət Əməkdaşlıq Kabineti yaradıldı. Azərbaycan Prezidenti 2004-cü ilin iyun ayında Gürcüstana səfər etdi. Bir sıra sahələri əhatə edən bir sənəd imzalandı və İlham Əliyev ölkədə yaşayan həmyerlilərimizlə görüşdü və onlarla söhbət etdi.

Bakı-Tbilisi-Ceyhan layihəsinin həyata keçirilməsindən sonra Azərbaycan Gürcüstanın digər enerji və nəqliyyat infrastruktur layihələrinin icrası üçün fəaliyyətini genişləndirməyə başladı. Bu layihələr iki ölkə arasında iqtisadi və siyasi əlaqələri daha da gücləndirərək bölgənin gələcək inkişafı üçün yeni imkanlar açdı. Bu layihələrə Azərbaycanın hazırkı prezidenti İlham Əliyev rəhbərlik edir. Buna görə də 25 may 2005-ci ildə Azərbaycan bölgəsinə və 12 oktyabr 2005-ci ildə Gürcüstan bölgəsinə yanacaq tədarükü üçün bir mərasim keçirildi.

Azərbaycan *neftinin* Gürcüstan ərazisindən dünya bazarlarına çıxarılması layihələrinin həyata keçirilməsindən sonra qazın müəyyən bir marşrutla nəqli məsələsi gündəmdə idi. 17 avqust 1999-cu ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Şahdəniz yatağından dünya bazarlarına təbii qaz ixracının təşkili ilə bağlı məsələlərin həlli üçün işçi qrupunun yaradılması haqqında" fərman imzalamışdı. Şahdəniz qaz yatağı müqaviləsi isə 1996-cı ildə imzalanmışdır. Bu sərəncamın məqsədi Xəzərdəki Azərbaycan sektorundakı Şahdəniz yatağında böyük qaz və kondensasiya ehtiyatları aşkar edildikdən sonra təbii qazı yataqdan dünya bazarlarına ix-



rac etmək potensialını araşdırmaqdır. Nəticədə, Gürcüstanın Azərbaycan qazının ölkənin iqtisadi və siyasi maraqları nəzərə alınmaqla Bakı-Tbilisi-Ərzurum qaz kəməri ilə dünya bazarlarına çıxarılması faydalı hesab edilmişdi.[1]

2006-cı ilin sonunda ümumi uzunluğu 691 km olan və Azərbaycanda 443 km, Gürcüstan üzərindən 248 km olan Cənubi Qafqaz Qaz Boru Kəməri (CQBK) istifadəyə verildi. 2007-ci ilin iyulundan bu boru kəməri Xəzərin Azərbaycan sektorundakı Şahdəniz qaz yatağından çıxarılan qazı Gürcüstan və Türkiyəyə tədarük edir.[2] Şahdəniz bölgəsindən çıxan qaz Azərbaycan, Gürcüstan və Türkiyədəki qaz təchizatı komplekslərinə əhəmiyyətli qatqı təmin etmişdir. Ölkədəki enerjinin şaxələndirilməsində və müstəqilliyində mühüm rol oynayan tranzit tarifi əvəzinə Gürcüstanın boru kəməri ilə nəql olunan ilk qaz həcminin 5% -ni alacağı razılaşdırıldı. Hal-hazırda Şərqi Avropada gələcək enerji təhlükəsizliyi üçün Azərbaycan tərəfindən Gürcüstan vasitəsilə həyata keçirilən digər mühüm layihə, Xəzər dənizi sektorunun Şahdəniz-2 sahəsindən Azərbaycana Türkiyəyə və oradan Avropaya qaz nəql edəcək Cənub Qaz Dəhlizi olan TANAP-dır. Gürcüstan dövləti ilə əlaqələrin uğurla davam etdirilməsinin əsası, əlbəttə ki, Prezident İlham Əliyevin dünyada və bölgədə həyata keçirdiyi müstəqil xarici siyasətidir. Ağıllı və praqmatik qərarları nəticəsində Azərbaycan və Gürcüstan bölgədəki strateji tərəfdaş kimi münasibətlərini davam etdirirlər.

Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli formatı 12 iyul 2006-cı il tarixində İstanbulda keçirilmiş bir görüşdə qurulmuşdur. 7 fevral 2007-ci ildə Azərbaycan və Gürcüstan prezidentləri, habelə Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Gürcüstan Parlamentində Regional Əməkdaşlıq üzrə Üçtərəfli Sammitin sənədlərini imzaladılar.[3] 25 May 2005-ci ildə Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri üç ölkəni birləşdirən dəmir yolunun inşasına dair Azərbaycan-Gürcüstan-Türkiyə Üçlü Bəyannaməsini imzaladılar. 2007-ci ilin fevralında iki prezident BTQ dəmir yolunun inşası üçün

---

[1] Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016) / məqalələr toplusu /tərt. ed. F.Məmmədov. – Bakı: "Poliart" MMC, – 2017. – 904 s., s.185

[2] Yenə orada, s.36

[3] Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016) / məqalələr toplusu /tərt. ed. F.Məmmədov. – Bakı: "Poliart" MMC, – 2017. – 904 s., s.128

Azərbaycan və Gürcüstan arasında Şərq-Qərb nəqliyyat dəhlizinin inkişafı haqqında tarixi və strateji bir layihəyə dair yekun sənədi imzaladılar.

Digər layihələr kimi bəzi xarici qüvvələr də BTQ dəmir yolu layihəsinə mane olmağa çalışdı. Buna görə də Qərbdəki nüfuzlu erməni lobbisi, BTQ Dəmiryolu vasitəsilə Ermənistanın inkişaf perspektivlərini və imkanlarını itirməməsi üçün bütün mənbələrini istifadə edir, Ermənistanı bu bölgədəki strateji layihələrdən kənarlaşdırır və Qərbin maliyyə mənbələrinin dəmir yolu tikintisinə vəsait ayırmasına mane olurdu. Bütün bu maneələrin və problemlərin qarşısı Prezident İlham Əliyevin xarakteri, nüfuzu və düşünülmüş uzaqgörən siyasətilə alınırdı.

Məhz İlham Əliyevin rəhbərliyi altında Azərbaycan tərəfi Gürcüstandan dəmir yolu xəttinin çəkilməsi üçün həmin ölkəyə 775 milyon dollar güzəştli kredit verdi.[1] Layihə çərçivəsində 105 km məsafədə yeni bir dəmir yolu çəkilmişdir. Eyni zamanda, Gürcüstanda 183 kilometrlik bir dəmir yolu xətti yenidən quruldu və mövcud Gürcüstan dəmir yolundan sonra qatarların Avropa dəmir yolları ilə hərəkət etməsinə imkan vermək üçün keçiddən bir keçid məntəqəsi tikildi. BTQ Dəmir Yollarının strateji əhəmiyyəti, Çinin Böyük İpək Yolu strategiyasına uyğun olaraq Avrasiya qitəsində nəqliyyat infrastruktur layihələrini inkişaf etdirməsi və gələcəkdə ABŞ qoşunlarının Əfqanıstandan çıxarılması və Qərblilərin Orta Asiyaya çəkilməsi kontekstində nəzərə alınmalıdır. Dəmir yolu tikintisinin və istismarının ölkəmiz üçün özünəməxsusluğu Türkiyənin Qars şəhərindən Naxçıvan Muxtar Respublikasına dəmir yolu çəkilməsinin planlaşdırılmasıdır. Bütün maneələri və çətinlikləri aşaraq dəmir yolunun tikinti işləri uğurla başa çatdırıldı və 30 oktyabr 2017-ci il tarixində BTQ Dəmir Yolu açıldı və zolağı istifadəyə verildi.

Azərbaycan Prezidentinin səyləri nəticəsində 2008-ci il mayın 26-da SOCAR Gürcüstanın 22 rayonunda əvəzsiz olaraq qazpaylayıcı şəbəkədə distribütorluq hüququ aldı və Dövlət Neft Şirkəti növbəti 3 il ərzində bu ölkənin qazpaylama sisteminə 40 milyon ABŞ dolları həcmində investisiya

[1] Məmmədzadə Ü.K., Qafqazın ən böyük etnik konflikti olan Dağlıq Qarabağ münaqişəsinin həllində İlham Əliyevin rolu // "Qafqazda dövlətlərarası münasibətlər: 100 il əvvəl və müasir dövr" mövzusunda beynəlxalq elmi konfrans: I hissə, – Bakı: – 23-24 may, – 2018, – s.550-559., s.145



yatırdı. Həmin il 18 Noyabrda Gürcüstan və Azərbaycan hökumətləri arasında imzalanan sənədlə SOCAR Gürcüstanda təbii qaz ehtiyatlarının bölgüsü hüququnu əldə etdi. SOCAR-a görə, SOCAR Energy Georgia, 2009-2015-ci illər arasında Gürcüstanın təbii qaz satışını 7 qat artıraraq ölkədə 5,360 kilometr yeni təbii qaz paylama boru kəməri çəkmiş və hazırda Tbilisi istisna olmaqla bu ölkənin regional təbii qazpaylama şəbəkəsinin 95% - nə nəzarət edir.[1]

Prezidentin göstərişi ilə SOCAR Gürcüstanda Kulevi terminalını satın almış, 16 May 2008-ci il tarixində rəsmi olaraq açılan terminal, ilkin tutumu 10 milyon ton, daha sonra 20 milyon ton olan tankerlərə neft və neft məhsullarının qəbulu, saxlanması və yüklənməsi üçün nəzərdə tutulmuşdur. 2009-cu ilə qədər Kulevi terminalı 40.000 ton neft tankerini saxlaya bilirdi, lakin o vaxtdan bu günə qədər bu rəqəm 115.000 tona qədər artdı. Terminal dizel yanacağı və mazut qəbul etmə və saxlama qabiliyyətinə malikdir. Müasir avadanlıqlarla təchiz olunmuş qonşu ölkə indi əhəmiyyətli infrastruktura sahib olan bir neft terminalıdır. 30 sentyabr 2016-cı il tarixdə isə 1200-cü neft tankeri terminaldan yola düşmüşdü. Qeyd etmək lazımdır ki, Qazaxıstandakı Tengiz yatağında hasil olunan neftin bir hissəsi bu terminal vasitəsilə digər bazarlara tədarük ediləcəkdir.

SOCAR tərəfindən 28 aprel 2008-ci ildə qurulan SOCAR Energy Georgia Gürcüstanda birinci yanacaqdoldurma məntəqəsini açmışdır. SOCAR Georgia Petroleum və SOCAR Georgia Gas Gürcüstanda neft və təbii qaz paylama bazarının ayrılmaz hissəsi olmuşdur. Bu bazarda möhkəm yerləşmiş, törəmə şirkətləri vasitəsilə Gürcüstan iqtisadiyyatının tərəqqisinə dəyərli töhfə verir və ölkənin qaz təminatında xüsusi rol oynayır.

Prezident İlham Əliyevin iki ölkə arasındakı münasibətlərə dair izlədiyi siyasi xətt nəticəsində Azərbaycan etibarlı bir müttəfiq olduğunu və Gürcüstanın ən çətin günlərinin ən etibarlı müttəfiqi olduğunu sübut etdi. Məsələn, 2006-cı il yanvar ayında Rusiyadan Gürcüstana gedən bir qaz kəmərinin iki hissəsində terror hadisələri baş verdi. Nəticədə Gürcüstan ciddi bir enerji böhranı ilə üzləşdi. Gürcüstan hökumətinin Rusiyanın terror fəaliyyə-

[1] Гордиенко А., Баку-Тбилиси-Эрзерум выводит Грузию из под пресса России: [Электронный ресурс]. – 2001/ URL: http://archives.echo.az/?p=4140

tini Tbilisini tabe etmək vasitəsi kimi qiymətləndirməsi vəziyyəti daha da pisləşdirdi və iki ölkə arasında siyasi gərginliyə səbəb oldu.[1] 2008-ci ildə Gürcüstanla Rusiya arasında əlaqələrin gərginləşdiyi səbəbindən yenidən enerji böhranı yaşanmışdı. Hər iki situasiyada İlham Əliyevin xüsusi göstərişi əsasında Azərbaycan müdaxilə edərək enerji yardımı göstərmiş, Gürcüstanı böhrandan qurtara bilmişdi.

Son dövrdə Azərbaycan və Gürcüstan da daha geniş regional siyasi əməkdaşlıq təşəbbüslərinə başladılar. GUAM təşkilatı daxilindəki əməkdaşlıq Gürcüstanla qarşılıqlı əlaqələrin istiqamətlərindən biridir və bölgədə dostluq və sabit münasibətlərin inkişafına kömək edir. 1997-ci ildə Strasburqda Azərbaycan, Gürcüstan, Ukrayna və Moldovada demokratiya və iqtisadi inkişaf üçün bir təşkilat olan GUAM quruldu. Təşkilat 7 iyun 2001-ci il tarixində Yalta zirvəsində nizamnamə qəbul etdi. Əlaqələri genişləndirməklə yanaşı, təşkilat nümayəndələri də ən vacib məsələlərə dair fikirlərini bildirdilər. GUAM-ın üzv dövlətlərinin ərazi bütövlüyü və suverenliyinin pozulması onların regional və beynəlxalq təşkilatlardakı birgə fəaliyyətlərini müəyyənləşdirir. Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi baxımından bu əməkdaşlıq da çox vacibdir. Bu səbəbdən GUAM təşkilatının üzv dövlətləri Birləşmiş Millətlər Təşkilatı və Birləşmiş Millətlər Təşkilatı sisteminin ortaq mövqeyinə əsaslanaraq işlərin birgə aparılması barədə razılığa gəlmiş və Birləşmiş Millətlər Təşkilatının daimi nümayəndəliklərinin beynəlxalq təşkilatlar qarşısında GUAM fəaliyyət planını qəbul etdilər. Bu istiqamətdə aparılan işlərin nəticəsi kimi "GUAM ərazisində uzanmış münaqişələr və onların beynəlxalq sülhə, təhlükəsizliyə və inkişafa təsiri" adlanan 42 bənd BMT-nin 61-ci sessiyasının gündəliyinə daxil edilmişdi. 5 dekabr 2007-ci ildə eyni adlı qətnamə layihəsi Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasında baxılması üçün rəsmi olaraq bu bənd altında ortaya qoyuldu.

2012-ci il oktyabr ayında Gürcüstanda keçirilmiş parlament seçkiləri nəticəsində müxalif "Gürcü arzusu" koalisiyası hakimiyyətə gəlmişdi. Həmin seçkilərdən əvvəlki təbliğat mərhələsində bəzi şəxslər seçkiqabağı

[1] Гордиенко А., Баку-Тбилиси-Эрзерум выводит Грузию из под пресса России: [Электронный ресурс]. – 2001 / URL: http://archives.echo.az/?p=4140



kampaniyalarında qeyri-real sözlər verərək Azərbaycanla bərabər aparılan layihələrdə Gürcüstana çatan payın ədalətsizliyi haqqında təcrübəsizlikdən yaranan nitqlər söyləyərək, bu layihələri hakimiyyətə keçdikdən sonra yenidən nəzərdən keçirəcəklərini bildirmişdilər. Lakin sonrakı hadisələr gürcü xalqının bu qüvvələrin fikirlərinə önəm vermədiyini göstərdi.

Müstəqillikdən sonrakı illərdə bəzi xarici güclər Gürcüstan-Azərbaycan-Türkiyə münasibətlərinin inkişafı və möhkəmləndirilməsindən narahat idilər. İki ölkə arasındakı münasibətləri müxtəlif yollarla pozmağa çalışaraq Bakı və Ankaranın Gürcüstanın müstəqilliyi və milli sədaqəti ilə bağlı əsassız planlarını cəmiyyətə yaydığını və bununla da millətçilik yaratdığını iddia etdilər. Bu güclər bir tərəfdən Gürcüstan, Azərbaycan və Türkiyənin iqtisadi gərginliyini bir tərəf olaraq şərh edir, ictimaiyyəti yalnış yönləndirməyə çalışaraq Azərbaycan və Türkiyə iqtisadiyyatından olduqca artıq asılılığın milli təhlükəsizliyə hədə olduğunu düşünürlər. Bu güclər Azərbaycan və Gürcüstan əlaqələrinin yüksək səviyyədə olmasına qısqanclıq edərək, yuxarıda qeyd edilən iddiaların təbliği ilə yanaşı, Gürcüstanı xarici iqtisadi münasibətlərində daha ehtiyatlı davranmağa, dövlətin milli maraqlarına üstünlük verməyə, Azərbaycan və Türkiyə ilə iqtisadi münasibətlərini "balanslaşdırmağa" və bu "asılılığı azaltmağa" dəvət edirdilər. Təbii olaraq, bütün bu təbliğatlar sırasında Azərbaycan–Gürcüstan əlaqələrinin inkişaf dərəcəsindən və bu dövlət üzərindən Bakının Şərqi Avropada olan qlobal layihələrindən narahatçılıq keçirən və buna qısqanclıq edən, həm Gürcüstan, həm də dünyada yetərli qədər güclü mövqeyə malik olan erməni lobbisi vacib rol oynayırdı.

Yuxarıda qeyd edilənlərə baxmayaraq 2012-ci ildə hakimiyyətə gələn "Gürcü arzusu" koalisiyası dövlətin strateji maraqları üzrə mühüm vəzifəni üzərinə aldıqdan sonra iki dövlət arasında 20 il müddətində qurulan strateji əlaqələrə alternativlər axtarışına elə də çox zaman sərf etmədən Azərbaycan və Gürcüstan arasında qurulan əlaqələrin tarixi zərurətdən irəli gələn ən praqmatik və düzgün kurs olmasını anlayaraq bunu ən müxtəlif səviyyələrdə bildirmişdilər. Beləcə, bəzi güclərin fərziyə və cəhdlərinə rəğmən nəticədə keçən 20 il müddətində praqmatik və ikitərəfli maraqlara cavab olan əlaqələrə hər hansı formada alternativin olmaması hər kəsə ayan oldu. Belə bir qərarın verilməsində həlledici amil kimi Azərbaycanın və onun Prezi-

denti İlham Əliyevin dünyada və eləcə də regionda artan nüfuzunu və Azərbaycanın regionda lider dövlətə çevrilməsini göstərmək olar. İlham Əliyevin qonşu dövlətlərlə münasibətdə dəqiqliklə düşünülmüş və uğurla həyata keçirilən xarici siyasəti nəticəsində bu münasibətlərə mane olmaq istəyən qüvvələrin fəaliyyətinin qarşısı müvəffəqiyyətlə alınmış oldu.

2012-ci il seçkilərindən sonra, dekabr ayında Gürcüstan dövlətinin yeni Baş naziri B. İvanişvili Azərbaycan dövlətinə ilk səfərlərindən birini etdi. Bundan sonra keçən 4 il müddətində hər dəfə Gürcüstan dövlətində məsul vəzifələrdə dəyişikliklər olanda dövlət rəsmilərinin ilk səfərlərindən biri Azərbaycana olurdu. 2015-ci ilin noyabrında Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana mühüm tarixi səfəri baş verdi.[1] Bu səfər zamanı Azərbaycan Respublikasının Prezidenti Gürcüstanın siyasi səhnəsinin fərqli nümayəndələri ilə görüşdü və qarşılıqlı faydalı strateji layihələri müzakirə etdi. Səfər zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyevin əsasını qoyduğunu ənənəyə uyğun olaraq Gürcüstanın azərbaycanlılar yaşayan bölgələrini də ziyarət etdi və yerli sakinlərlə görüşdü. Bu görüşlər zamanı Azərbaycan Respublikasının Prezidenti qonşu ölkədə yaşayan soydaşların problemlərini soruşdu və bunların həlli üçün lazımi tədbirlərin görüləcəyini bildirdi və Gürcüstan azərbaycanlılarını Azərbaycanın diqqət və qayğısı ilə əhatə edəcəyinə söz verdi.

Heydər Əliyev tərəfindən Gürcüstanın azərbaycanlı vətəndaşları ilə bağlı əsası qoyulmuş siyasətin mühüm istiqaməti soydaşlarımızın bu ölkənin dövlət strukturlarında və qanunverici orqanında layiqli təmsil olunması, habelə bu ölkənin ictimai-siyasi həyatında nüfuzunun, təsirinin və imkanlarının artmasına nail olmaq idi. Ümummilli lider Gürcüstana səfərləri çərçivəsində və bu ölkədən olan azərbaycanlı ictimaiyyət nümayəndələri ilə görüşlərində soydaşlarımızın Gürcüstan cəmiyyətinə inteqrasiyasının zəruriliyini dəfələrlə vurğulamış, onları ölkənin yerli və tarixi əhalisi kimi dövlət quruculuğu işində yaxından iştirak etməyə çağırmışdır. Bu siyasət Prezident İlham Əliyev tərəfindən də davam etdirilmiş, İlham Əliyev azərbaycanlıların Gürcüstanın bərabərhüquqlu vətəndaşı olması və gələcəkdə dövlət qurumlarında dəyərli təmsilçiliyi olması üçün vacib addımlar atmışdır.

[1] Маммедзаде У.К., Роль Ильхама Алиева в развитии Азербайджано-Грузинские отношение // -Москва: Единый всероссийский научный вестник, - 2016. Часть 1, №2, - с 4-6., с.5



Bu mühüm fəaliyyətlər sırasında ilk növbədə Gürcüstandakı gənc azərbaycanlıların təhsilinə göstərilən xüsusi qayğını və diqqəti söyləmək vacibdir. Bu baxımdan SOCAR Gürcüstanda fəaliyyətə gündən bəri hər il yüzlərlə azərbaycanlı gənci təhsil fondları ilə dəstəkləmiş və gələcəkdə yeni nəsil liderlərin yetişməsinin əsasını qoymuşdur. Gürcüstan azərbaycanlılarının ictimai-siyasi həyatda, habelə qanunvericilik və digər dövlət qurumlarında müvafiq və dəyərli təmsilçilərinin fəal iştirakı ölkənin ictimai-siyasi prosesinin təbii qanunu və zəruriliyidir. Gürcüstan azərbaycanlılarının ölkə cəmiyyəti ilə sıx inteqrasiyası və dövlət qurumlarında layiqli təmsil olunması ölkənin statusunu möhkəmləndirməsi və nümunəvi demokratik dəyərlərə sadiq qalan bir ölkə kimi inkişaf etməsi üçün vacib məqamlardandır.

Sevindirici haldır ki, Prezidentimizin səyləri boşa getməyib və keçən zaman ərzində bu istiqamətdə müəyyən irəliləyişlər əldə edilmişdir. 2016-cı ilin oktyabr ayında keçirilən parlament seçkilərində Gürcüstan azərbaycanlıları həm iqtidar, həm də müxalifət partiyalarının nümayəndələri kimi namizədliklərini irəli sürərək, ölkənin ictimai-siyasi həyatında daha yaxından iştirak etməyə başladılar. Bu seçkilər nəticəsində hakim partiyadan 3 namizəd, müxalifətdən isə bir namizəd Gürcüstan qanunverici orqanına deputat seçilmişdir. Demək olar ki, bu tendensiyanın gələcəkdə daha da inkişaf etməsi Azərbaycan üçün də arzuolunan bır haldır.

Azərbaycan və Gürcüstan arasındakı iqtisadi münasibətlər də Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edir. 2016-cı ildə ikitərəfli ticarətin həcmi 2000-ci il ilə müqayisədə on qat artdı və Azərbaycan Gürcüstanın ilk üç ticarət tərəfdaşından biri olmuşdu. Bundan başqa Gürcüstan iqtisadiyyatının əsas hərəkətverici qüvvələrindən biri də Azərbaycan tərəfindən qoyulan investisiyalardır. Belə ki, 2003-cü ildə Gürcüstana yatırılan Azərbaycan investisiyası 29 milyon ABŞ dollarından 2015-ci ildə 549 milyon ABŞ dollarına çataraq, bu ölkəyə yatırılan birbaşa xarici investisiyada birinci yeri tutmuşdur. 2015-ci ildə Azərbaycan dövlət neft şirkətinin törəmə şirkəti olan SOCAR Energy Georgia, Gürcüstanda "ən böyük vergi ödəyicisi", "ən böyük işəgötürən", "yüksək keyfiyyət standartları" və "effektiv idarəetmə" kimi nominasiyalarda biznes reytinqlərinin qalibi olmuşdu.[1]

[1] Free Trade Agreement between Georgia and Azerbaijan: [Electronic resource]. - Mart 8, 1996 / URL: http://www.wipo.int/edocs/trtdocs/en/az-ge/trt_az_ge.pdf

12 mart 2018-ci il tarixində Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili, Azərbaycana rəsmi səfəri zamanı sələfinin də qeyd etdiyi kimi, Azərbaycanın Gürcüstanın strateji tərəfdaşı, müttəfiqi, birinci investisiya tərəfdaşı olduğunu bildirmiş, Azərbaycan qazının "Cənub Qaz Dəhlizi" layihəsində seqmentlərdən olan Trans-Anadolu və Trans-Adriatik kəmərləri vasitəsilə Avropaya nəql ediləcəyini söyləyərək bu layihələrin iqtisadi və geosiyasi baxımdan əhəmiyyətini vurğulamışdır. Bundan başqa baş nazir regional formatlarda Gürcüstan və Azərbaycan əməkdaşlığının vacibliyini göstərərək Gürcüstanın hər zaman Azərbaycanın mövqeyini dəstəklədiyini, bunun iki ölkənin strateji əlaqələrinin göstəricisi olduğunu bildirmişdir.[1]

Cənubi Qafqaz regionunda davamlı sülh və sabitliyin bərqərar olmasında mühüm amillərdən biri də Gürcüstan-Türkiyə münasibətləridir. Belə ki, Azərbaycan-Gürcüstan-Türkiyə arasındakı müttəfiqlik münasibətləri iqtisadi əsaslara malik olmaqla yanaşı, regionda sabitliyin təmini baxımından siyasi əhəmiyyətə də malikdir. 44 günlük müharibədən və Azərbaycanın işğal edilmiş torpaqlarını geri qaytarmasından sonra Türkiyə və Ermənistan arasında münasibətlərin bərpasına dair danışıqlar aparılsa da onunla müqayisədə Gürcüstan Türkiyə münasibətləri daha yaxındır. Gürcüstan, yuxarıda da deyildiyi kimi, Türkiyəni özünün regional trəfdaşı olaraq yüksək qiymətləndirir. Bu münasibətlərin böyük bir hissəsi, əlbəttə ki, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars, TAP, TANAP kimi enerji layihələri ilə bağlıdır. Bu istiqamətdə üç ölkə arasında münasibətlərin sıxlaşması regionda Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli əməkdaşlıq mexanizmini yaratmışdır. Bu əməkdaşlıq Cənubi Qafqaz regionunun təhlükəsizlik zonası olması üçün böyük əhəmiyyət kəsb edir. Bu kontekstdə bölgədəki oxşar təhlükəsizlik problemlərinə və təhdidlərə qarşı ortaq maraqlar əsasında ortaq həll yolları hazırlanmağa çalışılır. Bölgədəki hər bir ölkə digərini strateji tərəfdaş hesab edir və öz təhlükəsizlik və müdafiə doktrinalarında bunu nəzərə alır.

Region dövlətlərinin imzaladığı sənədlərdə təhlükəsizlik baxımından üç sahədə əməkdaşlıq nəzərdə tutulub. Bunlar: region dövlətlərinin suverenliyinin və müstəqilliyinin qorunub saxlanması; separatizmə və ərazi bütövlüyünə təhdidlərə qarşı mübarizədə əməkdaşlıq və qeyri-ənənəvi təhlükəsizlik təhdidlərinə qarşı əməkdaşlıqdır. Bundan başqa əməkdaşlığın üçtərəfli səviyyəyə yüksəldilməsi məqsədilə o cümlədən müxtəlif hərbi təlimləri də nəzərdə tutan müxtəlif müqavilələr həyata keçirilir. Bu kontekstdə Azərbaycan, Türkiyə və Gürcüstanın 2014-cü il avqustun 19-da Naxçıvanda imzaladığı və birgə hərbi təlimlərin keçirilməsini nəzərdə tutan sazişlə üçtərəfli səviyyədə təhlükəsizlik sahəsində əməkdaşlıq qurulmuşdur. Müqavilə ilə hər üç ölkənin silahlı qüvvələrinin döyüş qabiliyyətinin yüksəldilməsi nəzərdə tutulmuşdu.

2016-cı ilin mayında Azərbaycan, Gürcüstan və Türkiyənin iştirakı ilə keçirilən üçtərəfli görüşdə üç ölkənin hərbi bacarıqlarının və hazırlığının artırılması məqsədilə birgə təlimin keçirilməsinin məqsədəuyğun olacağı qərara alınıb, bundan əlavə kibertəhlükəsizlik, neft və təbii qaz kəmərlərinin mühafizəsi üzrə əməkdaşlığın aparılmalı olduğu vurğulanıb. Bu çərçivədə Gürcüstanda keçirilən Türkiyə, Azərbaycan və Gürcüstan əsgərlərinin iştirak etdiyi "Eternity-2017" birgə hərbi təlimi uğurla həyata keçirilib. 2018-ci ilin aprel ayında Türkiyə, Azərbaycan və Gürcüstan arasında imzalanan əməkdaşlıq memorandumu ilə üç ölkə arasında hərbi əməkdaşlığın əhəmiyyəti son illərdə daha da artmışdır.

Daha sonra Giresunda Türkiyə, Azərbaycan və Gürcüstan milli müdafiə nazirlərinin iştirakı ilə 6-cı Müdafiə Zirvəsi keçirilib. Gürcüstanda NATO-nun dəstəyi ilə 4-cü dəfə keçirilən "Noble Partner 2018" çoxmillətli hərbi təlimi paytaxt Tbilisiyə yaxın Vaziani hərbi bazasında keçirilib. Sözügedən təlimdə Türkiyə, Gürcüstan, ABŞ, İngiltərə, Almaniya, Estoniya, Fransa, Litva, Polşa, Norveç, Ukrayna, Azərbaycan və Ermənistan iştirak edib. Danışıqlarla müdafiə nazirləri ilə ildə iki dəfə görüşmək, birgə konfrans və dəyirmi masalar təşkil etmək, üçtərəfli hərbi təlim və əməkdaşlıq mexanizmlərinin yaradılması qarşıya məqsəd qoyulmuşdu. Bu kontekstdə müxtəlif Qərb təşkilatları və aktorları, ilk növbədə NATO və digər müvafiq təhlükəsizlik təşkilatları ilə daha sıx əməkdaşlıq etmək qərara alınıb.

Türkiyə Gürcüstan və Azərbaycanın NATO ilə əməkdaşlığın inkişafında da həlledici mövqedədir. NATO ilə əlaqələr 1994-cü ildə Azərbaycan və Gürcüstan arasında imzalanmış Sülh naminə tərəfdaşlıq əməkdaşlığı çərçivəsində başlayıb. Azərbaycan və Gürcüstan hərbi birləşmələrinin Kosovo

[1] İsazadə F., Əliyev: "Bakı və Tbilisi arasında münasibətlər qlobal müstəviyə qalxacaq". [Elektron resurs]. – Mart 12, 2018 / URL: http://interfax.az/view/728056/az

və Əfqanıstanda türk komandanlığı altında xidmət etməsi bu əlaqələri daha da gücləndirib. Türkiyə hər iki ölkədə hərbi məktəblər yaradaraq bu ölkələrin hərbi hissələrinə təlim keçib. Hərbi sənaye sahəsində də üçtərəfli əməkdaşlıq inkişaf etdirilir. Regiondakı üçtərəfli əməkdaşlığa digər regional ölkələrin də daxil edilməsi və Cənubi Qafqazın sülh zonasına çevrilməsi üçün səylər göstərilir. Türkiyə və Azərbaycan aralarında inkişaf etdirdikləri əməkdaşlığın İran və Rusiya əleyhinə olmadığını hər fürsətdə dilə gətirsə də, Gürcüstan sözügedən əməkdaşlığın Ermənistana qarşı qurulmadığını və region dövlətləri ilə yaxşı münasibətlərin inkişaf etdirilməsi məqsədi daşıdığını bildirir. Məhz bu baxımdan bu üç ölkənin – Türkiyə, Azərbaycan və Gürcüstan münasibətlərinin nümunəsini 44 günlük müharibədən sonra Cənubi Qafqaz regionunda həyata keçirilməsi təklif edilən "3+3" əməkdaşlıq formatının əsasına qoymağı məqsədəuyğun hesab etmək olar.

Beləliklə, ümummilli lider Heydər Əliyevin və onun layiqli davamçısı İlham Əliyevin apardığı uzunmüddətli dövrə hesablanmış siyasət nəticəsində Azərbaycan və Gürcüstan 30 il ərzində iqtisadi və siyasi cəhətdən müstəqil və real münasibətləri inkişaf etdirərək iqtisadi inkişafa, siyasi müstəqilliyə və qarşılıqlı əməkdaşlığa imza atdılar. İki ölkə arasındakı əlaqəni müdafiə etmək beynəlxalq münasibətlər nəzəriyyəsində coğrafi reallıqların millətlərin xarici siyasətinə təsir etdiyini və onları ağlabatan, praktik və qarşılıqlı faydalı əlaqələr qurmağa təşviq edən ən yaxşı nümunədir. Bu nümunə xarici siyasətini alternativ olaraq köhnəlmiş millətçi və irqçi fikirlər üzərində quran başqa bir Cənubi Qafqaz ölkəsi olan Ermənistanla müqayisədə özünü sübut edir. Ümummilli lider Heydər Əliyev bu kimi məqamları hakimiyyətə qayıtdığı ilk zamanlardan etibarən aydın şəkildə görərək Cənubi Qafqaz xalqlarının rifahının ancaq vahid inteqrasiya olunmuş siyasi və iqtisadi məkanda mümkün olması haqqında çağırışlar və mesajlar vermişdir. Amma təəssüf ki, XX əsrin 90-cı illərindən günümüzə qədər həmin reallıqları regionun ancaq iki ölkəsi öz xarici siyasətlərinə tətbiq edə bilmişdir.

Azərbaycan Respublikasının öz enerji, iqtisadi inkişaf və təhlükəsizlik layihələrini Gürcüstan vasitəsilə reallaşdırdığı kimi öz növbəsində Gürcüstanın da iqtisadi perspektivləri neft-qaz və digər məhsulların Azərbaycandan və Orta Asiyadan Avropa ölkələrinə nəqlindən, eləcə də bu ölkənin Avropada tranzit dəhliz kimi rol oynaması ilə əlaqəlidir. Gürcüstan hazırda



beynəlxalq əlaqələrini genişləndirmək və şaxələndirmək istiqamətində müəyyən irəliləyiş əldə etsə də, coğrafi yerləşmə baxımından bu ölkənin iqtisadi inkişafı və siyasi müstəqilliyinin hər zaman müsbət mənada Azərbaycandan asılı olacağını söyləməyə imkan verir.

Son 30 ildə iki ölkə arasındakı münasibətlər o dərəcədə yaxınlaşmışdır ki, xarici qüvvələr və ya səriştəsiz yerli siyasətçilər tərəfindən ortaya atılan alternativlər axtarışı ilə sarsıla bilməz. İlham Əliyevin rəhbərliyi altında ötən müddət ərzində Azərbaycan öz etibarlı qonşuluq prinsiplərini xarici siyasətində tətbiq edərək Gürcüstanın enerji böhranı yaşadığı çətin anlarda qonşusuna yardım edərkən heç bir zaman qarşılıqlı asılılıq faktorunu Gürcüstan dövlətinə və gürcü xalqının iradəsinə qarşı təzyiq olaraq istifadə etməmiş, Azərbaycan dövlətinin və etibarlı strateji tərəfdaş və mehriban qonşuluq prinsipinə həmişə sadiq olduğunu sübut etmişdir. Bundan başqa İlham Əliyev separatçılıq və işğalçılıqdan zərər görmüş bir dövlətin başçısı olaraq həmişə həm ikitərəfli görüşlərdə, həm də çoxsaylı beynəlxalq tədbirlər zamanı Gürcüstanın ərazi bütövlüyünü dəstəkləyənlər arasında olmuşdur. Bütün qeyd edilənlər Azərbaycan və Gürcüstan dövlətləri arasında hər iki xalqın strateji mənafelərinə müvafiq olan və möhkəm əsaslarla qurulan digər ölkələr üçün nümunə təşkil edəcək münasibətlər olaraq hələ uzun müddət regionun rifahı və inkişafında başlıca hərəkətverici qüvvə kimi çıxış edəcəyini söyləməyə əsas verir.

# NƏTİCƏ

Ölkəmiz 30 ildir ki, qarşılaşdığı mürəkkəb situasiyaların öhdəsindən gələrək müstəqilliyini və suverenliyini möhkəmlətmək yolu ilə irəliləyir. Ulu öndər Heydər Əliyevin tətbiq etdiyi balanslaşdırılmış siyasət günümüzdə Azərbaycanın regional liderliyinin əsasında dayanan ən vacib amillərdəndir. Heydər Əliyevin strateji düşüncə tərzi və siyasi peşəkarlığı ölkəmiz üçün vacib olan vəzifənin öhdəsindən gəlmiş, ötən dövr ərzində Azərbaycan region, eyni zamanda qeyri-region ölkələri ilə əlaqələrini konstruktiv müstəvidə qurmuş və inkişaf etdirmişdir. Ulu öndərin təməlini qoyduğu və onun varisi İlham Əliyevin keyfiyyətcə zənginləşdirərək davam etdirdiyi daxili və xarici siyasət kursu hesabına Azərbaycan regionda və bütövlükdə dünyada böyük nüfuza malik və intensiv şəkildə tərəqqi edən ölkələrdən birinə çevrilmişdir.

Ölkə rəhbəri İlham Əliyev tərəfindən yürüdülən hərtərəfli düşünülmüş siyasət nəticəsində ölkəmizdə bütün sahələrdə davamlı inkişafı və insanların həyat səviyyəsinin yaxşılaşdırılmasını ehtiva edən tərəqqinin Azərbaycan modeli yaradılmışdır. İlham Əliyevin 20 illik fəaliyyətinin fərqləndirici xüsusiyyətlərindən biri odur ki, Azərbaycan Prezidenti praqmatik siyasi lider kimi gerçəkliyi operativ və obyektiv formada dəyərləndirməyi, milli maraqlar naminə prinsipial addımlar atmağı, istənilən ekstremal mühitdə ən optimal, düzgün qərar qəbul etməyi, eyni zamanda ölkənin taleyüklü problemlərinə anlayışla yanaşmağı bacarır.

Müstəqilliyinin ilk illərində Dünya xəritəsində adı bilinməyən, Ermənistan dövləti və erməni lobbisinin təsiri ilə təhdidlərə və ədalətsizliklərə uğrayan, informasiya blokadası şəraitində haqlı yerini dünyaya göstərə bilməyən ölkəmiz bu gün tamam fərqli statusda tanınır. İlham Əliyevin idarəçiliyi və həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan bu gün vacib regional oyunçulardan hesab edilir, regiondakı əhəmiyyətli heç bir layihə Azərbaycansız reallaşa bilməz. Nüfuzu beynəlxalq miqyasda ilbəil möhkəmlənən Azərbaycan dünya ölkələri içərisində öz layiqli yerini tutmuşdur.

Həm daxili, həm də beynəlxalq müstəvidə enerji təhlükəsizliyi məsələsi Prezident İlham Əliyevin xarici siyasət strategiyasının vacib istiqamətini əhatə edir. Avropanın digər sahələrinə olduğu kimi, enerji infrastrukturuna



da mütəmadi olaraq inteqrasiya edən Azərbaycan Respublikası artıq beynəlxalq enerji təhlükəsizliyinin təmin edilməsində böyük təcrübəyə sahibdir. Ölkəmizin beynəlxalq enerji təhlükəsizliyinin mühüm həlqəsinə çevrilməsini göstərən əsas məqamlardan biri də bu sektorda beynəlxalq tədbirlərin əksəriyyətinin ölkəmizdə keçirilməsindən ibarətdir. Bu kimi məsələləri analiz etməklə, Azərbaycan Respublikasının beynəlxalq və regional enerji təhlükəsizliyi sistemində ciddi subyekt kimi tanındığını və qəbul olunduğunu əsaslandıra bilərik.

Azərbaycan regiondakı lider mövqeyini yalnız iqtisadi sahədə deyil, idman, mədəniyyət, turizm kimi sahələrdə də təsdiq etməkdədir. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətdə əhəmiyyətli məqamlardan biri odur ki, məhz onun yeritdiyi siyasət nəticəsində idman, mədəniyyət, turizm sahələrində həyata keçirilən tədbirlər vasitəsilə Azərbaycan dünyada daha yaxşı tanınmağa başlamış və yalnız neft ölkəsi kimi deyil, eyni zamanda idman və mədəniyyət ölkəsi kimi çox böyük nüfuz qazanmışdır. Son illərdə Azərbaycanın Avroviziya, Avropa oyunları, İslam həmrəylik oyunları, Şahmat üzrə dünya çempionatı, başqa neçə-neçə idman sahələri üzrə dünya səviyyəli tədbirlərə ev sahibliyi etməsində, digər beynəlxalq tədbirlərin yüksək səviyyədə təşkilində və tətbiqində AR Prezidentinin xüsusi diqqəti və zəhməti qeyd olunmalıdır.

Ümummilli lider Heydər Əliyevin və onun layiqli davamçısı İlham Əliyevin apardığı uzunmüddətli siyasət nəticəsində Azərbaycan və Gürcüstan 30 il ərzində iqtisadi və siyasi cəhətdən müstəqil və real münasibətləri inkişaf etdirərək iqtisadi inkişafa, siyasi müstəqilliyə və qarşılıqlı əməkdaşlığa imza atdılar. İki ölkə arasındakı əlaqəni müdafiə etmək beynəlxalq münasibətlər nəzəriyyəsində coğrafi reallıqların millətlərin xarici siyasətinə təsir etdiyini və onları ağlabatan, praktik və qarşılıqlı faydalı əlaqələr qurmağa təşviq edən ən yaxşı nümunədir. İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Gürcüstanın çətin dövrlərində onun enerji təhlükəsizliyinə mehriban qonşuluq və etibarlı strateji tərəfdaşlıq prinsipinə əsaslanaraq dəstək verdi, lakin heç vaxt qarşılıqlı asılılıqdan bir vasitə kimi istifadə etmədi. Bundan əlavə təcavüzkar separatizmə və təcavüzə məruz qalan bir ölkənin başçısı olaraq İlham Əliyev ikitərəfli görüşlərdə və müxtəlif beynəlxalq tədbirlərdə Gürcüstanın ərazi bütövlüyünü həmişə dəstəkləmişdir. Bütün bunlar onu göstərir ki, Azərbaycan və Gürcüstan möhkəm təməl üzərində və hər iki

xalqın strateji maraqlarına xidmət edəcək nümunəvi münasibətlər olaraq uzun illər bölgənin inkişafı və çiçəklənməsi üçün əsas hərəkətverici qüvvə olacaqdır.

Regionun vacib ölkələrindən biri də Rusiyadır. Bu baxımdan Rusiya ilə münasibətlərin xarakteri də Azərbaycanın regionda liderlik mövqeyini möhkəmlətməsinə öz təsirini göstərməkdədir. II Qarabağ müharibəsi başlanandan Rusiya baş verənlərə nisbətən obyektiv mövqeyi ilə seçilmiş, Ermənistan tərəfindən Rusiyanı müharibəyə cəlb etmək üçün edilən təxribatçı çağırışlara məhəl qoymayaraq, döyüş əməliyyatlarının Ermənistan deyil, Azərbaycan ərazisində getdiyini bildirmişdir. Müharibə gedişində tərəflər arasında atəşkəs razılaşması imzalanmasına vasitəçilik etmiş, lakin razılaşma imzalandıqdan bir neçə saat sonra Ermənistan tərəfindən pozulmuşdur. Müharibəni dayandıran 10 noyabr Azərbaycan, Ermənistan və Rusiya liderlərinin üçtərəfli bəyanatı da məhz Rusiyanın vasitəçiliyi ilə hazırlanmış, imzalanmış və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə son qoymuşdur. Bu onu bildirir ki, Prezident İlham Əliyevin yürütdüyü uğurlu xarici siyasət strategiyası nəticəsində Azərbaycan dövləti və Rusiya Federasiyası arası tarixi ənənələrə bağlı əlaqələrin strateji tərəfdaşlıq hüduduna qalxması hər iki ölkənin milli maraqları, suverenlik hüquqlarına cavab olan və 30 illik yol keçməklə gerçəkləşən mühümlükdür. Hər iki ölkə bu münasibətlərin genişləndirilməsi və bərkidilməsi məqsədilə geniş siyasi imkana, iqtisadi potensial və ən sonda, siyasi iradəyə qadirdir.

II Qarabağ müharibəsi zamanı İlham Əliyev özünü güclü siyasətçi, dövlət başçısı və Ali Baş Komandan kimi bir daha sübut etdi. Prezident İlham Əliyev Azərbaycan ordusunu öz başçılığı ilə qələbələrə apararkən, bir neçə xarici KİV təmsilçisinə müsahibələr verərək siyasi müvəffəqiyyət də qazandı. 30 ilə yaxın davam edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək mümkün olmasa da Azərbaycan hərbi yolla Ermənitan dövlətini sülhə məcbur etdi və bu münaqişə başa çatdı. Bundan sonrakı dövrdə isə Ermənistanın öz boynuna götürdüyü öhdəlikləri yerinə yetirməsi şərti ilə İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Cənubi Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlığın daimi olması üçün əlindən gələni edəcək və bununla da regiondakı lider mövqeyini daha möhkəmləndirəcəkdir.



